Rüfət Hüseynzadə, Muxtar Muradov

ÖVLADINIZI YANLIŞ TƏRBİYƏ EDİRSİNİZ!

Bakı - 2026

RÜFƏT LƏTİF OĞLU HÜSEYNZADƏ
Pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim

MUXTAR ETİBAR OĞLU MURADOV
Filoloq, müəllim, şəxsi inkişaf mütəxəssisi

ÖVLADINIZI YANLIŞ TƏRBİYƏ EDİRSİNİZ! YAXUD, UŞAQLARIN MƏNTİQSİZ TƏRBİYƏSİNƏ DAİR TƏLİMAT

Kristian Qothilf Salzmanın hekayələri əsasında mülahizələr

Redaktor: **Fəridə Tofiq qızı Xudiyeva**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
ADPU-nun Ümumi Pedaqogika kafedrasının müdiri

Rəyçilər: **Aytəkin Telman qızı Məmmədova**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent.
SDU-nun Pedaqogika və psixologiya kafedrasının müdiri.
İranə Məhəmməd qızı Məmmədli
Psixologiya üzrə fəlsəfə dokroru, dosent, ADU-nun Psixologiya və pedaqogika kafedrasının müdiri.

Bu kitab övlad tərbiyəsində yol verilən yanlış tərbiyə üsullarının zərərli nəticələrini hekayələrlə göstərir, daha sonra isə düzgün tərbiyə metodlarını elmi əsaslarla izah edir. Kitabda XVIII əsrin görkəmli alman pedaqoqu K.Q.Salzmanın övlad tərbiyəsinə dair yazdığı məşhur "Övladınızı yanlış tərbiyə edirsiniz" əsərinin Azərbaycan dilinə ilk tərcüməsi və təcrübəli professor və gənc pedaqoqun mövzu ilə bağlı şərh, təhlil və şəxsi müşahidələri yer almışdır. Kitab valideynlər, müəllimlər, pedaqoqlar, psixologiya, pedaqogika və təhsil sahəsində çalışan mütəxəssislər və övlad tərbiyəsi ilə maraqlanan, məşğul olan bütün oxucular üçün nəzərdə tutulmuşdur.

Bakı, "Füyuzat", 2026, 268 s.
ISBN: 978-9952-614-73-2

© R.L.Hüseynzadə, M.E.Muradov

MÜNDƏRİCAT

Ön söz 5
Salzmanın ön sözü 8

I bölmə. Uşaqların nifrətini qazanmağın yolları 21
II bölmə. Uşaqların yanında etibarınızı itirməyin yolları 40
III bölmə. Uşaqların gözündən düşməyin yolları 43
IV bölmə. Uşaqlarda bacı-qardaşlarına qarşı nifrət və paxıllıq yaratmağın yolları 53
V bölmə. Uşaqlarda insan sevgisini məhv etməyin yolları 62
VI bölmə. Uşaqlara qəddarlığı öyrətməyin yolları 69
VII bölmə. Uşaqları qisasçı etməyin yolları 74
VIII bölmə. Uşaqlara paxıllığı öyrətməyin yolları 78
IX bölmə. Uşaqlara başqalarının bədbəxtliyinə sevinməyi öyrətməyin yolları 83
X bölmə. Uşaqlarda bəzi heyvanlara qarşı qorxu yaratmağın yolları 86
XI bölmə. Uşaqlarda başqa din mənsublarına qarşı nifrət yaratmağın yolları 90
XII bölmə. Uşaqları təbiətin gözəlliklərinə qarşı laqeyd etməyin yolları 97
XIII bölmə. Uşaqların zehnini yaşlarına uyğun olmayan biliklərlə doldurmağın yolları 101
XIV bölmə. Uşaqlara xəyalət görməyi öyrətməyin yolları 106
XV bölmə. Uşaqlarda ildırım və göy gurultusuna qarşı qorxu yaratmağın yolları 113
XVI bölmə. Uşaqlarda ölüm qorxusu yaratmağın yolları 117
XVII bölmə. Uşaqlarda dinə qarşı sevgi və ya nifrət yaratmağın yolları 122
XVIII bölmə. Uşaqları inadkar etməyin yolları 130
XIX bölmə. Uşaqlara yalan danışmağı öyrətməyin yolları 136

XX bölmə. Uşaqları erkən yaşlarından böhtana alışdırmağın yolları 151
XXI bölmə. Uşaqları daim narazı və həyatdan şikayətcil etməyin yolları 156
XXII bölmə. Uşaqlarda küsmək vərdişi yaratmağın yolları ... 161
XXIII bölmə. Uşaqları tərs, höcət etməyin yolları 164
XXIV bölmə. Uşaqları həyata yararsız və bir ömür məyus etməyin yolları 169
XXV bölmə. Uşaqları tamahkar etməyin yolları..... 176
XXVI bölmə. Uşaqları acgöz etməyin yolları..... 184
XXVII bölmə. Uşaqları yaxşılıq etməkdən soyutmağın yolları 187
XXVIII bölmə. Uşaqları sadəlövh və kobud etməyin yolları 191
XXIX bölmə. Uşaqları bacarıqsız etməyin yolları..... 196
XXX bölmə. Uşaqlara səliqəsizliyi öyrətməyin yolları 202
XXXI bölmə. Uşaqları lovğa və özünübəyənmiş etməyin yolları 206
XXXII bölmə. Uşaqları tənbəlliyə alışdırmağın yolları..... 214
XXXIII bölmə. Uşaqları xəsisliyə alışdırmağın yolları..... 219
XXXIV bölmə. Uşaqları yaxşı nəsihətlərə qarşı laqeydləşdirməyin yolları..... 226
XXXV bölmə. Uşaqlara müxtəlif mənfi xüsusiyyətlər qazandırmağın daha bir neçə əsas yolu..... 230
XXXVI bölmə. Uşaqları sağlamlıqdan və həyatdan məhrum etməyin ümumi yolları..... 241
XXXVII bölmə. Uşaqları şikəst etməyin ən yaxşı yollarından biri..... 260

İstifadə olunmuş ədəbiyyat..... 265

ÖN SÖZ

Bu kitab alman pedaqoqu K.Q.Salzmanın övlad tərbiyəsinə dair yazdığı kiçik hekayələrdən ibarət olan "Övladınızı yanlış tərbiyə edirsiniz" kitabının alman dilindən ana dilimizə ilk tərcüməsi və bu əsərə etdiyimiz əlavələrdən: şərhlər, təhlillər və mövzu ilə bağlı şəxsi mülahizə və müşahidələrimizdən, düzgün tərbiyə yollarının göstərilməsindən ibarətdir. Məqsədimiz müəllifin əsas ideyalarını müasir oxucu üçün daha anlaşıqlı etmək, klassik pedaqoji fikirlə bugünkü tərbiyə anlayışı arasında əlaqə qurmaq, oxucunu mövzu üzərində daha dərindən düşünməyə sövq etmək və tərbiyə işində yanlışlıqların səbəb və nəticələrini göstərməkdir. Ümid edirik ki, belə yanaşma əsərin həm elmi-nəzəri, həm də praktik dəyərini artırır və onun müasir oxucu üçün daha faydalı olmasını təmin edir.

Kristian Qothilf Salzman (1744-1811) alman pedaqoqu, protestant din xadimi və fəal maarifçi olmuşdur. O, Almaniyada maarifçilik dövrünün ən fəal və nüfuzlu pedaqoqlarından və uşaq psixologiyasının ilk tədqiqatçılarından biri hesab olunur. Salzman 1 iyun 1744-cü ildə Almaniyanın Sömmerda şəhərində anadan olmuşdur. İlahiyyat təhsili almış, bir müddət keşiş kimi fəaliyyət göstərmiş, sonra isə pedaqogika elminə yönələrək uşaqların düzgün tərbiyə edilməsini həyatının əsas məqsədinə çevirmişdir. Həmçinin 1784-cü ildə Almani-

yanın Şnepfental şəhərində Avropanın ən qabaqcıl təhsil müəssisələrindən biri hesab olunan, yeni tipli internat məktəbi də yaratmışdır.

Bu məktəbdə uşaqlar döyülmür, onlara cəza verilmir. Onlar idmanla, incəsənətlə məşğul olur, təbiət qoynunda dərs keçir, xarici dillər öyrənirdilər. Onlara bağçılıq, təsərüfat işləri öyrədilir, əl əməyinə böyük diqqət və əhəmiyyət verilirdi. Bu humanist məktəbin fəaliyyəti sonradan mütərəqqi Avropa pedaqogikasına qüvvətli təsir göstərmişdir.

Salzman belə hesab edirdi ki, uşaqlar pis doğulmurlar, onları pis edən mühit və çox vaxt valideynlərin yanlış tərbiyəsi, yanlış davranışlarıdır. Ona görə də Salzman düşünürdü ki, uşaq döyülməməli; qorxu ilə deyil, sevgi ilə tərbiyə olunmalı; tez-tez təbiətlə ünsiyyətdə olmalı valideynləri və müəllimləri uşağa müsbət nümunə olmalıdır. Bu fikirlər XVIII əsr pedaqoji nəzəriyyəsi üçün olduqca yenilikçi və aktual idi.

Yanlış tərbiyə kitabçası XVIII əsr Alman pedaqogikasının ən məşhur və bir qədər də satirik əsərlərindən biri hesab edilir. İlk dəfə 1870-ci ildə "Anweisung zu einer, zwar nicht vernünftigen, aber doch modischen Erziehung der Kinder" (Məntiqli olmasa da, dövrün dəbinə uyğun uşaq tərbiyəsi haqqında göstəriş) adı ilə çap edilmişdir. Bu ad özü də satiradır. Müəllif demək istəyirdi ki, cəmiyyət uşaqları məntiqlə yox, "dəbə uyğun" tərbiyə edir. 1780 və 1788-ci ildə iki və üçüncü nəşrin çapından sonra 1792-ci ildə çıxmış üçüncü nəşrin üz qabığında bir yaşlı xərçəng və iki balaca xərçəng təsvir edildiyi üçün kitab xalq arasında "Krebsbüchlein" (Xərçəng kitabçası) adı ilə məşhurlaşmışdı. Xərçəng geriyə hərəkət edən

heyvan olduğu üçün uşağı geriyə aparan səhv tərbiyəni simvolizə edirdi. Kitab daha sonra 1819 və 1829-cu illərdə beş və altıncı dəfə də nəşr olunmuş və bir çox dünya dillərinə tərcümə edilmişdir.

Kitabı fərqləndirən əsas cəhətlərdən biri onun üslubudur. Müəllif "Uşağı yalançı etməyin yolları", "Uşağı paxıl etməyin yolları" **,** "Uşağı acgöz etməyin yolları" kimi başlıqlar verir, sonra valideynlərin səhv davranışlarını göstərir. Yəni Salzman pis nümunə üzərində yaxşı tərbiyəni öyrədir. Bu üslub XVIII əsrdə çox fərqli, diqqətçəkici və yeni idi.

Bu kitab, iki yüz ildən artıqdır ki, böyük tirajlarla nəşr edilir. Almaniyada klassik pedaqogikanın əsas əsərlərindən sayılır və bu gün də pedaqogika tarixi dərslərində öyrənilən əsas mənbələrdən biridir. Bütün bunlara rəğmən, hələ də dilimizə tərcümə edilməməsi bizi bu kitabı qələmə almağa və buna şərhlər yazmağa sövq etdi.

Kitab ilk növbədə valideynlər, müəllimlər, pedaqoqlar, psixologiya və təhsil sahəsində çalışan mütəxəssislər, eləcə də övlad tərbiyəsi mövzusuna maraq göstərən bütün oxucular üçün nəzərdə tutulmuşdur.

Ümid edirik ki, bu kitab oxucular üçün yanlış və düzgün tərbiyə haqqında düşünməyə, mövcud yanaşmaları yenidən nəzərdən keçirməyə və sağlam nəsil yetişdirilməsi istiqamətində faydalı nəticələr əldə etməyə imkan verən dəyərli bir mənbə olacaqdır.

SALZMANIN ÖN SÖZÜ

Yadımdadır ki, bir vaxtlar belə bir hadisə oxumuşdum. Deyilənə görə, ticarət məqsədilə Benqal şəhərlərinin birində məskunlaşmış bir qrup avropalı xristian bayram günü böyük şənlik təşkil etmişdi. Onlar şeypur və nağaraların sədaları altında yeyib-içir, zarafat edir, gülür və rəqs edirdilər. Şəhərin yerli, qarabuğdayı sakinləri isə həmin vaxt bahalıq və aclıqdan əziyyət çəkirdilər. Onlar küçələrdə taqətdən düşmüş halda dəstə-dəstə dolaşırdılar; bəziləri şənlik keçirilən evin astanasında yıxılır, son nəfəsini verir və oradaca ölürdü. Lakin şənlik iştirakçılarından heç biri bu acınacaqlı mənzərəyə qarşı qəlbində ən kiçik bir mərhəmət hissi belə duymurdu.

Bu hadisə münasibətilə ortaya belə bir sual atılmışdı: "Nə üçün avropalı, Şərqi Hindistanın isti torpağına ayaq basan kimi təbiətini bu qədər dəyişir? Nə üçün o, vətənindən özü ilə gətirdiyi həssaslığı və yaxınlarının əzabına şərik olmaq duyğusunu qəddarcasına laqeydliklə dəyişir?"

Bunun səbəbini tapmaq elə də çətin deyil. Burada nə iqlimin, nə də coğrafi mövqeyin günahı var. Əsl səbəb qərəzli düşüncədir (ön mühakimədir). İnsanların başına gələn xeyli bəlaların əsas günahkarı olan bu qərəz həmin hissizliyin də səbəbidir.

Bir millətdə hökm sürən belə bir qərəz nəticəsində insanların müəyyən bir təbəqəsi əsarətə məhkum edilər və onlardan insanlığın təbii hüquqları alınarsa, çox keçmədən həmin cəmiyyətin hər bir üzvünün qəlbi elə sərtləşər ki, o insanların iniltilərindən, göz yaşlarından və canvermə əzablarından, heç başı kəsilən bir

öküzün çırpınışlarına baxanda təsirləndiyi qədər də, təsirlənməz.

Bizim yalnız sərvətlərindən faydalanmaq məqsədilə getdiyimiz ölkələrdə də vəziyyət belədir. İnsan ləyaqətini alçaldan bir qərəzin təsiri ilə həmin ölkələrin sakinləri insan hüquqlarından məhrum edilmiş, avropalılara isə onlarla istədikləri kimi davranmaq, hətta onları əzib-incitmək hüququ verilmişdir. Avropalı, gəmidən düşüb həmin torpağa ayaq basan kimi bu qərəzi mənimsəyir və çox keçmədən qəlbində yaratdığı təsiri hiss etməyə başlayır.

Müxtəlif əsrlərdən və dünyanın müxtəlif bölgələrindən belə hissizliyin çoxlu nümunələrini gətirmək mənim üçün çətin olmazdı. Ancaq buna nə ehtiyac var? Axı bu cür nümunələri elə öz ətrafımızda da görə bilərik.

Biz mülayim iqlimdə yaşayırıq. Son illərdə bir çoxumuz o qədər həssas olmuşuq ki, ömrünü qısaltmağa məcbur olduğumuz birənin halına da acıyırıq. Buna baxmayaraq, bizim cəmiyyətimizdə də mövcud olan qərəz (ön mühakimə) müəyyən insan təbəqəsini tam itaətə məhkum etmiş, onların üzərində hökmranlıq edənlərə isə istədikləri kimi davranmaq üçün qeyri-məhdud səlahiyyət vermişdir. Necə ki ilk xristianlar Roma imperiyasında baş verən hər bədbəxtliyin günahını çəkməyə məcbur edilirdilər, bu insanlar da ağalarının evində yaranan hər bir narazılığın əzabına qatlanmalı olurlar; onların özlərini müdafiə etmək hüquqları belə yoxdur.

Onlar tez-tez başqalarının yanında alçaldılırlar, buna etiraz etməyə isə icazələri yoxdur. Heç bir günahları olmadığı halda çubuqla döyülürlər. Bəzən isə yavaş-yavaş işgəncələrə məruz

qalaraq ölümə sürüklənirlər. Ən dəhşətlisi isə budur ki, onların həssas qəlbli sayılan həmvətənlərinin əksəriyyəti bu fəryadları eşidir, onların əzab çəkdiyinə şahid olur, amma burada haqsızlığa dair bir şey görmürlər. Bu zülmün altında iztirab çəkən insanlar – uşaqlardır, onlara zülm edənlərsə – valideynlər.

Uşaqların əksər ailələrdə məruz qaldığı davranışlar o qədər acınacaqlıdır ki, buna ürək ağrısı çəkmədən baxmaq qeyri-mümkündür. Bununla belə, dövrümüzün insanları bu mənzərələrə o qədər alışıblar ki, məsum bir uşağın qamçılandığını görür, onun fəryadını eşidirlər və ya valideynlərinin qərəzinin qurbanına çevrilmiş bir uşağın faciəsinə şahid olurlar, fəqət yenə də bunun haqsızlıq olduğunu düşünmürlər.

Həyatının ilkin illərində bir çox uşaq bədən və əzalarının sağlamlığını məhz valideynlərinin günahı ucbatından itirir. Bəzən valideynlər əxlaqsız həyat tərzləri nəticəsində qanlarına keçmiş xəstəlikləri övladlarına ötürür, bəzən də cəhalətləri, yanlış inancları və səhlənkarlıqları səbəbindən uşaqların sağlamlığını məhv edirlər.

Buna görə də mən heç bir mübaliğəyə yol vermədən deyə bilərəm ki, ən qəddar quldur məskənlərində belə, orta ölçülü bir şəhərdə valideynləri üzündən əlil olmuş insanlar qədər şikəst kölə yoxdur.

Uşaqların sağlamlığı üçün əksər ailələrdə tətbiq olunan üsullar o qədər yanlış və zərərlidir ki, əminliklə deyə bilərəm, il ərzində torpağa tapşırılan uşaqların böyük əksəriyyətini öldürən səbəb xəstəlik deyil, valideynlərin yanlış düşüncələri, yanlış tərbiyələri və qərəzli davranışlarıdır.

Bu kiçik, müdafiəsiz, məsum və köməksiz insanların, demək olar ki, hər gün məruz qaldığı cəzaların çoxu ədalətsizdir. Düzdür, qəzəblənərək övladını al-qana boyayacaq qədər vəhşiləşmiş valideynlərin sayı azdır, ancaq uşaqların böyük əksəriyyəti aldıqları cəzalara, əslində, heç də layiq deyillər. Deməli, onlar haqsızlığa məruz qalırlar. İnsanın layiq olmadığı halda aldığı hər bir çubuq zərbəsi açıq-aşkar ədalətsizlikdir.

Baxın, bir ana rəfiqələri ilə oturub övladlarından şikayət edir. Onların inadkarlığını, tərsliyini, pisliyini, tənbəlliyini və səliqəsizliyini ən qara boyalarla təsvir edir. Başqa bir yerdə isə bir ata səkkiz yaşlı oğlunun qarşısında dayanıb uzun-uzadı nəsihətlər verir; bu nəsihət başdan-ayağa acı ittihamlar və ağır təhqirlərdən ibarətdir. Başqa bir ata isə uşaqlarını gördüyü müxtəlif tərbiyəsizliklərə görə qamçılayır.

Ey valideynlər! Əgər övladlarınızda gördüyünüz qüsurları və pis vərdişləri onlara öyrədən elə siz özünüzsünüzsə, buna görə onları bu cür qəzəblə cəzalandırmaq haqsızlıq deyilmi? Əvvəlcə uşaqlarınıza müəyyən nöqsanları özünüz aşılayır, sonra isə həmin nöqsanları yaxşı mənimsədiklərinə görə onları cəzalandırırsınızsa, bu, qəddarlıq deyilmi? Və bu, həqiqətən də, belədir. Uşaqlardakı qüsurların, pis xüsusiyyətlərin və əxlaqi nöqsanların əsas səbəbi əksər hallarda atada, anada və ya hər ikisində olur. Bu fikir sərt səslənsə də, həqiqətdir.

İnsan həmişə özünə bənzər övlad dünyaya gətirir. Uşağın beyni, qanı, sümükləri və əti valideynlərindən yaranır. Buna görə də valideynlər bədən və ya ruh baxımından, yaxud hər iki cəhətdən qüsurludurlarsa, bu qüsurların müəyyən təsirlərinin övladlarına keçməsi qaçılmazdır.

Bəzi pis xüsusiyyətlərə güclü meyil, cilovlanmayan kin və pislik, inadkarlıq, tərslik, nizamsız şəhvət, həddindən artıq ehtiras, daim narazılıq, hətta bəzən ağılsızlıq – uşaqlarda hələ beşikdən görünən bu xüsusiyyətlərin çoxu ata və ya anadan keçən açıq-aşkar miraslardır.

Bundan əlavə, yaxşı tərbiyənin hökm sürmədiyi ailələri müşahidə edən hər kəs görüb ki, uşaqların qüsurları yaş artdıqca çoxalır və dərinləşir. İki yaşlı balaca Karl necə də məsum təbəssüm edir, amma on yaşlı Leopoldun baxışlarında necə də kin və qəzəb görünür! Bu müşahidə o qədər ümumi qəbul olunmuş həqiqətdir ki, bir çox ailələrdə uşağın ağlının inkişaf etməyə başladığı, yəni əslində daha da yaxşılaşmalı olduğu dövrü "sərsərilik illəri" adlandırırlar (bu ifadəyə görə məni bağışlayın). Deməli, doğulduqdan sonra uşağın qüsurlarını artıran başqa səbəblər də olmalıdır. Bu səbəblər isə yenə də, əksər hallarda, valideynlərin özlərində axtarılmalıdır.

Birincisi: valideynlərin nümunəsi. Hələ düşünmək qabiliyyəti tam formalaşmamış uşaq gördüyünü və eşitdiyini təqlid etməkdən başqa cür davranmağa qadir deyil. Əgər ondan bunun əksini tələb etsək, bu mənə elə gülünc görünər ki, sanki ömründə heç vaxt xarici dil danışmamış bir alman öz yanında böyüyən oğlundan almanca deyil, fransızca danışmasını tələb edir. Sonra da bunu bacarmadığına görə onu danlayıb belə deyir: "Sən nə bacarıqsız uşaqsan! Bax gör, başqa uşaqlar fransızca necə gözəl danışırlar. Səndən isə bir şey olmayacaq!"

İndi isə bir çox valideynin uşaqlarına göstərdiyi nümunəyə baxın. Onlar özləri dava-dalaş salır, amma uşaqlarından mehriban olmağı tələb edirlər. Özləri tez-tez sərxoş halda evə gəlir,

amma uşaqlarına ağıllı olmağı öyrədirlər. Özlərinin gənclik günahları haqqında danışırlar, amma, uşaqlar həmin səhvləri etdikdə onları döyürlər. Özləri işdən şikayət edir, tənbəlləri xoşbəxt hesab edirlər, amma uşaqları işləmək istəməyəndə narazılıq edirlər. Özləri hər şeydə həddi aşır, amma uşaqları pis hərəkətlərə görə cəzalandırırlar. Belə nümunə göstərən valideynlər etiraf etməlidirlər ki, uşaqların pis xüsusiyyətlərinin ən əsas "təlimçiləri" elə valideynlər özləridir.

İkincisi: nəzarətin olmaması. Valideynlər tez-tez deyirlər: "Biz uşaqlarımıza ən yaxşı tərbiyəni veririk, amma bunun heç bir nəticəsini görmürük". Ancaq bu "ən yaxşı tərbiyə"yə diqqət etdikdə məlum olur ki, onların nəzərdə tutduğu şey uşağa gündə cəmi bir-iki saat özlərinin və ya başqasının dərs keçməsidir. Qalan vaxtlarda isə uşaqları tamamilə öz ixtiyarlarına buraxırlar. Onların kobud və tərbiyəsiz uşaqlarla ünsiyyətinə laqeyd yanaşır, onları xidmətçilərin ixtiyarına verirlər. Özləri ya işlərinə həddindən artıq qərq olurlar, ya da qonaqlıqlara, əyləncələrə o qədər vaxt ayırırlar ki, uşaqlar yeniyetmə və gənclik illərinin böyük hissəsini xoş olmayan insanların arasında heç bir nəzarət olmadan keçirirlər.

Belə olduqda qız uşağı xidmətçi qadın kimi kobud və həyasız olarsa, oğlan küçə uşaqlarının bayağı düşüncə tərzini mənimsəyərsə, bunun günahkarı kimdir? Əlbəttə, uşaq deyil. Günahkar o kəsdir ki, uşağı belə bir mühitin ixtiyarına buraxmışdır.

Üçüncüsü: Tərbiyə işində edilən yanlışlıqlar.

Tərbiyədə buraxılan yanlışlıqlar o qədər çoxdur ki, onların yarımçıq siyahısını belə vermək istəsək, ayrıca qalın bir kitab

yazmaq lazım gələr. Məsələn, bundan daha adi nə ola bilər? Valideyn yaxşı əhvalda olduğu zaman uşağın bir çox pis davranışını görməzliyə vurur. Amma, süd daşıb ocağa tökülləndə, narahatlıq doğuran bir məktub gələndə və ya uşağın heç bir günahı olmadığı halda başqa xoşagəlməz bir hadisə baş verəndə kiçik bir səhvə görə onu sərt şəkildə cəzalandırır. Uşaq stəkanı sındıranda onu döyür, amma əsl pis davranışlarını cəzasız buraxır. Uşaq etdiyi kiçik səhvi etiraf edəndə onu cəzalandırır, lakin yalan danışanda buna heç əhəmiyyət vermir. Uşaq nəzakətlə bir şey xahiş edəndə istəyini yerinə yetirmir, amma ayağını yerə vurub qışqıranda onu ən şirin sözlərlə sakitləşdirməyə çalışır. Altı yaşlı bir qızdan iyirmi dörd yaşlı anası və ya otuz yaşlı atası qədər təmkinli, ehtiyatlı və müdrik davranmasını gözləyir. Belə tərbiyə vermək odun üstünə yağ tökərək alovu söndürməyə cəhd etmək və ya xərçəngi suda boğmağa çalışmaq qədər mənasızdır.

Belə isə mən haqlı deyiləmmi ki, deyim: uşaq cəmiyyəti – yanlış düşüncələrin qurbanı olaraq itaət altına salınan, rəhbərləri, yəni valideynləri tərəfindən amansızcasına rəftar görən bir təbəqədir. Üstəlik, onların bu acı taleyi, demək olar ki, heç kimi onlara onlara haqq verməyə səbəb olacaq dərəcədə təsirləndirmir. Bunun cəmiyyət üçün doğurduğu ağır nəticələri hesablamaq mümkün deyil. Sadəcə bu, kifayət qədər faciəlidir ki, minlərlə günahsız uşaq əzab çəkir, həyatının ən gözəl illərini sevincsiz keçirir. Dövlətin ən faydalı üzvlərinə çevrilə biləcək neçəneçə insan valideynlərinin cəhaləti ucbatından fiziki və mənəvi cəhətdən zəifləyir, şikəst olur, güc tələb edən işlərə yararsız hala düşür, hətta bəzən tamamilə məhv olur.

Əgər, ağıllı insanların əsrlər boyu söylədiyi kimi, insana həqiqi xoşbəxtliyi yalnız fəzilət qazandırırsa, əgər dünyanın bütün sərvəti belə fəzilətin verdiyi daxili rahatlığı bəxş edə bilmirsə, onda gələcək nəsillərin böyük hissəsinin bu nemətdən məhrum edilməsini, əvəzində pislik və əxlaqsızlıq yoluna yönəldilməsini görən hər bir insansevərin ürəyi qan ağlamazmı?

Gənc insan hələ valideynindən daha müdrik və daha uzaqgörən bir dost tanımır. O, valideyn sözünü göydən nazil olmuş həqiqət kimi qəbul edir, özünü tam etibarla onların rəhbərliyinə təslim edir. Lakin əgər həmin rəhbərlər onu ən təhlükəli yollara aparan xəyanətkarlara çevrilərsə, o ya heç vaxt həmin yollardan dönə bilmir, ya da yalnız gecikmiş halda, zəifləmiş bədən, yaralı vicdan və göz yaşları içində doğru yolu tapa bilir.

Lakin məsələ bununla bitmir. Bu vəziyyətdən yalnız uşaqlar zərər çəkmir. Valideynlər də eyni dərəcədə itkilər verirlər. Yaxşı övladlarında özünü yenidən görmək hissi o qədər gözəldir ki, bunu hətta heyvanlar da hiss edirlər. Cücələrini ilk dəfə bayıra çıxaran toyuq sanki bayram edir. Quzusu ilə birlikdə otlağa çıxan qoyun sevincindən atılıb-düşür. Ətrafındakı gözəllikləri daha dərindən dərk edə bilən insan üçünsə bu sevinc daha da böyükdür.

Düşünün, uşaqlar bizim bir parçamızdır. Yaxşı övladlarımız var olduqca biz heç vaxt qocalmırıq, çünki öz gücümüz azalanda onların gücü artır və bizə dayaq olurlar. Biz bu dünyadan köçsək belə, adımız, simamız və düşüncələrimiz onlar vasitəsilə yaşayır. Qırx və ya əlli illik zəhmətimizin bəhrəsi yad adamların əlinə deyil, əziz varislərimizin əlinə keçir. Bunlar insan təfəkkürünün düşünə biləcəyi ən şirin fikirlərdəndir.

Yaxşı övladlar insanın həqiqi sərvətidir. Övladları ilə düzgün davranmağı bacaran insan əslində onun sözünü sevə-sevə yerinə yetirəcək köməkçilər yetişdirir. Belə bir insan övladı olmayan adamdan qat-qat artıq iş görə, daha çox uğur qazana və daha çox sərvət əldə edə bilər. Qədim insanlar bunu yaxşı anlayırdılar. Onların həyatı bizimkindən daha sadə olsa da, həm də daha təmiz idi. Buna görə də var-dövlətlərini övladlarının sayı ilə ölçürdülər. Onlar belə deyirdilər: "Gənc oğullar güclü adamın əlindəki oxlar kimidir. Ox qabını onlarla oxla dolduran insan necə də xoşbəxtdir! O, şəhər qapısında düşmənləri ilə qarşılaşanda rüsvay olmaz". Həmçinin deyirdilər: "Çoxlu qız övladı zənginlik gətirər". Yaxşı uşaqlarla dolu bir ev valideynlərə hər an ən xoş mənzərələri bəxş edir.

Heç bir teatr səhnəsi insan ruhuna balaca uşaqların məşğuliyyətləri və oyunları qədər saf, sağlam və ruhu gücləndirən sevinc bəxş edə bilməz. Heç bir gələcək arzusu insanı, ilk addımlarını atmağa çalışan körpənin yırğalanaraq yeriməsi qədər sevindirə bilməz. Heç bir musiqi konserti ata və ananın qulağına övladının ilk kəkələdiyi sözləri qədər şirin gəlməz. Beş məşhur musiqiçinin ifa etdiyi solo belə, yaxşı bir övladın etdiyi kiçik bir xeyirxah hərəkət qədər valideynin qəlbini riqqətə gətirə bilməz. Parisin ən dəbdəbəli geyimi belə, balaca Lottçenin öz əlləri ilə əyirib toxuduğu parçanı anasına hədiyyə etməsi kimi və ya balaca Vilhelmin çəkdiyi sadə bir şəkil qədər cazibədar ola bilməz.

Lakin bu xoşbəxtlik – həm şirin, həm də heç bir böyük xərc tələb etməyən, hətta kasıb bir fəhlənin də dada biləcəyi, həyatın saysız-hesabsız çətinlikləri arasında insana təsəlli verən bu xoşbəxtlik valideynlərin əksəriyyəti üçün artıq yox olmuşdur. Bu, həqiqətən də, əvəzolunmaz bir itkidir.

Valideynlərin nə qədəri övladlarının əsl dəyərini bilir? Neçəsi onları özünün ən böyük sərvəti hesab edir? Birinci və ikinci övlad dünyaya gələndə sevinirlər. Üçüncü övlad doğulanda isə artıq üzlərində narazılıq görünməyə başlayır. Üç uşağı olan bir kəndli çox vaxt yeni bir at əldə etməsinə həyat yoldaşının yeni övlad dünyaya gətirməsindən daha çox sevinir. Görün insan nə qədər dəyişib! Övladın gətirdiyi ən saf sevincləri hiss edən valideynlər nə qədər də azdır! Əksəriyyəti uşaqlarından uzaqlaşa bildikləri zaman sevinirlər. Onlar üçün ən xoş saatlar övladlarından uzaqda keçirdikləri anlardır.

Evdən kənarda əylənmək üçün son qəpiklərini xərcləyir, bəzən paltarlarını, ev əşyalarını, hətta torpaqlarını belə girov qoyurlar. Uşaqlarının yanında keçirdikləri günləri isə hədərə getmiş zaman hesab edir, sonra da həyatlarından zövq ala bilmədiklərini deyib şikayətlənirlər. Bu insanlar necə də yazıq və acınacaqlı haldadırlar! Onlar yanlarında coşqu ilə qaynayan, şırıltısı ilə onları içməyə çağıran təmiz bir bulağın kənarında oturub susuzluqdan şikayət edən adamlara bənzəyirlər.

Valideynlərin əksəriyyətində gördüyümüz bu narazılıq və kədərli həyatın, demək olar ki, hamısı onların uşaqları ilə yanlış rəftar etməsindən qaynaqlanır. Onlar uşaqlarına itaətsizlik, tərslik, inadkarlıq, tənbəllik, nizamsızlıq və lovğalıq öyrədirlər. Belə qüsurlara sahib uşaqlar, əlbəttə ki, sərvət deyil. Belə bir ailənin atası əslində varlı deyil, əksinə, yazıq və bədbəxt bir insandır. Onun hər bir övladı sanki kiçik bir hökmdardır. Hər gün yemək, geyim, xidmət və müxtəlif rahatlıqlar tələb edir, amma ailənin ümumi rifahı üçün ən kiçik bir zəhmət çəkmirlər.

Beləliklə, yazıq ata övladlarının bitib-tükənməyən tələblərini ödəmək üçün gücündən artıq işləməyə məcbur qalır. Valideyn

kimi əlində qalan yeganə "hakimiyyət" isə bəzən uzun-uzadı danlamaq və uşaqlarını döyməklə içindəki qəzəbi boşaltmaq "hüququdur".

Övladlarını zəif və xəstə edən, onlara saysız-hesabsız xoşagəlməz xüsusiyyətlər aşılayan valideynlər üçün sonradan onların yanında olmaq, əlbəttə ki, dözülməz olur. Bütün gününü bir otaqda keçirməyə məcbur olan valideynin halını təsəvvür edin: bir uşaq ağlayır, digərinin qəmgin siması insanın mərhəmət hissinə toxunur, üçüncüsü dava salır, dördüncüsü dayanmadan səsküy edir. Belə bir mühitdə yaşayan valideynin təmiz hava ala biləcəyi başqa bir yer arzulaması, bir badə pivə və ya şərab yanında, yaxud şən bir məclisdə oturaraq uşaqlarını və öz dərdlərini bir müddət unutmaq istəməsi heç də təəccüblü deyil.

Bütün bunlar məni bu kiçik kitabı yazmağa sövq etdi. Bu kitab, valideynlərinin cəhaləti və ehtiyatsızlığı ucbatından həyatlarının sevincini, sağlamlığını, fəzilətini, hətta bəzən həyatını belə itirən zavallı, müdafiəsiz uşaqların müdafiəsi üçün yazılmış bir ittiham və müraciətdir.

Burada söylədiklərimi çoxsaylı nümunələrlə əsaslandırmışam. Güman etmirəm ki, bu nümunələrdən hər hansı birini oxuyan adam təsvir edilən hadisələrin eyni ilə yaşandığı bir ailəni xatırlamasın. Əgər doğrudan da belədirsə, hər yerdə uşaqları burada təsvir olunduğu kimi ağılsızcasına tərbiyə edən valideynlər varsa, deməli, uşaqların pis xüsusiyyətlərinin, xəstəliklərinin və hətta ölümünün əsas səbəbkarı elə valideynlərin özləridir.

Əlbəttə, nadan və düşüncəsiz insanlar bu kitabı oxumaqla dəyişməyəcəklər. Onlar kitabı qəzəblə bir kənara atacaq, müəllifi qınayacaq və uşaqları əvvəlki kimi yanlış tərbiyə etməyə davam edəcəklər. Amma mən bu kitabı onlar üçün yazmamışam. Mən

onu hələ də düşünmək qabiliyyətini itirməmiş, özlərinə qarşı az da olsa sevgi hissi qalmış valideynlər üçün yazmışam. Onlar belə düşünəcəklər: "Necə ola bilər ki, öz uşağımı özüm xəstə edim, özüm onun məni narahat edən pis xüsusiyyətlərinin səbəbkarı olum?" Bu fikir onları sarsıdacaq və məsələ üzərində daha dərindən düşünəcək, çox keçmədən mənim həqiqəti söylədiyimə inanacaqlar.

Əgər bu kitab sayəsində cəmi on ailə etdikləri ağılsızlıqlardan utansa, burada tənqid etdiyim səhvləri tərk etsə, uşaqlarını həddindən artıq nazlamaqdan, süni və sağlamlığa zərərli qidalardan, şarlatan həkimlərin əlindən və gənc insanın sağlamlığına və həyatına zərər verən hər şeydən qoruya bilsə... Əgər onlar həmişə elə danışsalar və elə davransalar ki, övladlarının da məhz belə danışmasını və davranmasını istərlər... Əgər uşaqlarını tərbiyə edərkən daha çox sevgi və sağlam düşüncə ilə hərəkət etsələr... Əgər bunun nəticəsində cəmi on evdə ailə səadəti – yer üzündəki bütün sevinclərin ən şirini və ən faydalısı yenidən bərpa olunsa… Onda mən bu bir neçə səhifə ilə nə qədər böyük bir xeyir iş görmüş olaram! Və onları yazmış olmaqla necə də qürur duyaram! Əlbəttə, oxucularım bu kitabı oxumaqla uşaqlarını necə tərbiyə etməli olduqlarını tam öyrənə bilməyəcəklər. Ancaq əgər onlar bu nümunələrin onlara öyrətmək istədiyi əsas həqiqəti – uşaqlardakı qüsurların kökünün çox vaxt onların özlərində olduğunu qəbul etsələr, onda daha ətraflı izahı mənim digər əsərimdə tapa bilərlər: "Konrad Kifer, yaxud uşaqların ağıllı tərbiyəsinə dair göstərişlər".

Bu kitabı zarafatcıl və yumorlu bir üslubda yazmışam. Bu, əsla ona görə deyil ki, burada danışdığım səhvləri əhəmiyyətsiz və ya gülməli hesab edirəm. Əksinə, ön sözdə dediklərimdən də

aydın olur ki, mən bu yanlışlıqları insansevərlərin göz yaşına layiq olan çox ağır bəlalar hesab edirəm. Əsəri yumorlu üslubda yazmağımın səbəbi başqa idi: mən daha çox oxucu cəlb etmək və onlara yumor dili ilə, lakin son dərəcədə faydalı və həyati əhəmiyyət daşıyan həqiqətləri çatdırmaq istəyirdim. Həm də istəyirdim ki, ciddi və ağır üslubda yazılmış əsərləri oxumağa səbri çatmayan insanlar da bu kiçik kitabı həvəslə oxusunlar.Burada xalq dilinə məxsus, kobud görünə biləcək bəzi ifadələrin işlədilməsinə görə, ümid edirəm ki, oxucular məni bağışlayarlar. Çünki bir şeyi olduğu kimi təsvir etmək istəyən adam onu necə görürsə, elə də göstərməlidir. Əgər bir rəssam dilənçini çəkərkən onun əyninə səliqəli və təmiz paltarlar geyindirsəydi, bu, sənəti anlayan bir insanın gözünü cırıq paltar görməkdən daha çox narahat edərdi. İnsanın o zaman şikayət etməyə haqqı var ki, təbiətin təsviri həddindən artıq açıq təqdim olunsun və bu, ədəb və həyanı zədələsin. Mənə isə belə bir irad tutmaq olmaz.Bundan başqa, az da olsa düşünmə qabiliyyətinə malik bütün valideynlərdən bir xahişim var: bu kiçik kitabı diqqətlə qoruyub saxlasınlar və heç bir halda uşaqların əlinə keçməsinə imkan verməsinlər. Çünki əgər uşaqlar valideynlərinin burada təsvir olunan səhvlərini və ağılsızlıqlarını öyrənsələr, onlara olan hörmətlərini itirərlər. Ən sadəlövh ata belə, müəyyən müddət övladlarının gözündə öz nüfuzunu qoruya bilir. Amma, uşaqların yanında onun sadəlövhlüyü və yanlış davranışları üzə çıxan kimi həmin nüfuz yox olur.

I BÖLMƏ
UŞAQLARIN NİFRƏTİNİ QAZANMAĞIN YOLLARI

I. Sadəcə, onlara haqsızlıq edin, nifrət öz-özünə yaranacaq

1-ci hekayə

Balaca Lotte atasının çiçək bağçasına getmişdi. Burada hər tərəf bənövşələrlə dolu idi. "Aaa! – deyə Lotte sevinc içində qışqırdı. – Burada necə də gözəl güllər var! Mən ətəyimə bunlardan yığıb anam üçün gözəl bir gül dəstəsi bağlayacağam". O, cəld aşağı əyilib böyük həvəslə ətəyini bənövşələrlə doldurdu. Sonra alma ağacının altında oturub gül dəstəsini hazırladı. "Hazırdır! – dedi. – İndi bunu tez anamın yanına aparım. Anam çox sevinəcək və məni öpəcək!"

Hədiyyəni daha da gözəlləşdirmək üçün sakitcə mətbəxə girdi, çini bir boşqab götürüb gül dəstəsini onun içinə qoydu. Atlana-atlana pilləkəni qalxaraq anasının yanına qaçırdı ki, birdən ayağı büdrədi və yıxıldı. Çini boşqab parça-parça oldu, güllər isə ətrafa səpələndi.

Lottenin anası otaqda idi, səsi eşidib bayıra çıxdı. Elə ki qırılmış boşqabı gördü, dərhal iri bir çubuq gətirdi. Heç uşağa boşqabı niyə götürdüyünü deməyə belə macal vermədi, hirsli halda onun üstünə cumdu. Lotte boşqabın sınmasından və anasının əlindəki çubuqdan elə qorxmuşdu ki, az qala canı bədənindən çıxacaqdı. Yalnız bu sözləri deyə bildi: "Anacan…

Ana…" Lakin bunun heç bir faydası olmadı. "Balaca vəhşi! – deyə anası qışqırdı. – Belə gözəl boşqabı da sındırarlar?!" Anası onu möhkəmcə döydü.

Lotteyə qarşı edilmiş bu açıq-aşkar haqsızlıq onun qəlbindədərin inciklik və qəzəb yaratdı. O bu hadisəni uzun müddət unuda bilmədi və bir daha heç vaxt anasına gül hədiyyə etmək ağlına gəlmədi.

2-ci hekayə

Milad bayramında balaca Luiza xaç anasından kiçik qabqacaq dəsti hədiyyə almışdı. Xaç anası ona bundan gözəl hədiyyə verə bilməzdi. Luiza elə həmin gün bütün qabları səliqə ilə düzüb yerləşdirmişdi. Yanına başqa uşaqlar gələndə onlara balaca ziyafət verər; həmişə süfrəyə həmin dəstdəki balaca boşqablar, nimçələr və şamdanlardan düzərdi. Qonaqlar gedəndən sonra isə bütün qabları yuyar, yenidən əvvəlki yerlərinə qoyardı. Xaç anası bunu böyük məmnuniyyətlə izləyərdi. Çünki belə davranışların uşağı kiçik yaşlarından səliqə və nizam-intizama alışdırdığını düşünürdü.

Lakin bu sevinc uzun sürmədi. Bir gün Luizanın balaca qardaşı Vilhelm həmin qablara əl uzatdı. Atası dərhal ona balaca bir qab verdi. Sonra yenə əl uzatdı və bu dəfə balaca boşqab aldı. Uşaq hər ikisini əyib yararsız hala saldı. Luiza geri qayıdanda qablarını əyri-üyrü halda gördü və gözləri yaşardı. Amma bunları ona atasının verdiyini eşitdiyi üçün dərdini içinə saldı.

Ertəsi gün eyni hadisə yenə təkrarlandı: iki şamdan da əyilib yararsız hala düşdü. Luiza dözə bilməyib ağlaya-ağlaya

atasının yanına qaçdı: "Atacan, xəbərin var ki, Vilhelm mənim gözəl əşyalarımı xarab edir?" Atası cavab verdi: "Axmaq qız! Bunun sənə nə dəxli var? Sənin əşyalarınla nə istəsəm, edə bilərəm". Luiza susdu.

Qabların alınmasından dörd həftə keçməmişdi ki, Luizanın bütün sevinci puç oldu. O, üzgünlüyünü gizlədirdi, amma həmin gün atasına qarşı elə bir şəkildə incidi ki, uzun müddət ona əvvəlki sevgi dolu baxışlarla baxa bilmədi.

3-cü hekayə

Qəribə bir ata tanıyırdım. O, uşaqlarını sakit və təmkinlə danlamağı, yaxud cəzalandırmağı bacarmırdı. Uşaqlar bəzən hay-küy salır, dalaşır, hətta bir-birlərini vururdular; amma bu, atanı elə də narahat etmirdi. Lakin işi istədiyi kimi getməyəndə, yaxud arvadı və ya başqa birisi onu incidəndə qəzəbindən yerə-göyə sığmırdı.

Subay vaxtlarında hirsləndiyi zaman çay fincanlarını sındırar, yaxud itini möhkəm döyərdi. Evlənib uşaqları olandan sonra isə acığını, adətən, övladlarından çıxmağa başladı. Ən kiçik bir səbəbə görə uşaqlarla o qədər vəhşicəsinə rəftar edirdi ki, bəzən onların ağız-burunları qana bulaşırdı. Belə bir zalımı uşaqları necə sevə bilərdilər?

4-cü hekayə

"Mən bu Kristianeyə necə çarə tapım, bilmirəm! Yer üzündə ondan daha inadkar, daha tərs bir qız tapılmaz! Nəyi qadağan edirəmsə, dərhal əksini edir. Nə əmr verirəmsə, mənə elə baxır ki, sanki məni öldürmək istəyir. Kaş onu heç gözüm

görməyəydi!" Bir ana bunları qardaşına deyirdi. Qardaşı isə əvvəllər Kristianeni çox məsum və mehriban bir uşaq kimi görmüşdü. Buna görə bacısının bu ağır ittihamlarına çox təəccübləndi. O, bacısına səbirli olmağı tövsiyə etdi və söz verdi ki, yaxın vaxtlarda qızın bu hala düşməsinin səbəbini araşdıracaq.

Fürsət də çox keçmədən yarandı. Kristianenin anası – xanım Zelbstin evində rəfiqələri üçün qonaqlıq təşkil etmişdi. Qardaşı da dəvət olunanlar arasında idi.

Qəhvə veriləndə uşaqları otağa çağırdılar. Onlar üç bacı idilər. İkisinin gözəlliyi xüsusi seçilirdi. Görkəmlərində elə bir cazibə var idi ki, onları görən hər kəs istər-istəməz bəyənirdi. Onlar cəsarətli, hazırcavab idilər və dedikləri hər söz qonaqları güldürürdü, hərçənd ki bu sözlərin çoxu elə də mənalı olmurdu.

Kristiane də çirkin deyildi. Amma gözəl bacılarının yanında onun gözəlliyi kölgədə qalırdı. O da ağıllı və maraqlı fikirlər söyləyə bilirdi, amma çox utancaq olduğundan, xüsusilə də böyük məclislərdə az danışardı. Digər iki qız çox zövqlə geyindirilmişdi. Sanki anaları bahalı paltarlarla onların gözəlliyini daha da artırmağa çalışmışdı. Kristiane isə çox səliqəsiz geyinmişdi. Baxanda hiss olunurdu ki, onun bütün paltarları anasının köhnə-köşkül geyimlərindən tikilib.

"Ah, necə də şirin uşaqlardır!" – deyə qonaqlar qızlar otağa girən kimi səsləndilər. Sonra hamı Kristianenin bacılarını birbir öpdü. Kristianeyə isə cəmi bir-iki ötəri öpüş verdilər və dərhal onu unudub yenidən bacıları ilə məşğul oldular. Onları qucaqlarına alır, geyimlərini, lentlərini, saçlarını tərifləyir,

onlarla söhbət edir, zarafatlaşırdılar. Yazıq Kristiane isə sanki otaqda yox idi.

Ana da bir neçə dəqiqə bu mənzərəni böyük məmnuniyyətlə seyr etdi. Sonra özü də iki qızının tərifləri̇nə qoşuldu: "Bunlar necə şən uşaqlardır, təsəvvür edə bilməzsiniz! Bilirsinizmi, Lotte dünən nə etdi? Az qala gülməkdən öləcəkdim! Luiza da yaman dəcəl baladır!" Ana təxminən yarım saat bu cür danışdı. Bu müddətdə isə heç kimin ağlına Kristiane gəlmədi. O, otağın bir küncündə dayanmışdı; elə bil heç bu evin sakini deyildi. Başını aşağı salıb dırnaqlarını çeynəyirdi. Önlüyünün lentini gah açır, gah bağlamağa başladı. Nəhayət, daha dözə bilmədi. Siması dəyişdi, qəfil ayağa durub qaçmağa başladı və qapını bərk çırparaq otaqdan çıxdı.

"Gördünmü, qardaş? – ana dedi. – Necə də dözülməz uşaqdır!" Lakin qardaşı artıq özünü saxlaya bilmirdi, əlləri və ayaqları əsirdi. O, digər otağa keçib özünü kresloya atdı. "Sənə nə olub?" – ana onu bu halda görüb soruşdu. Qardaşı dedi:

– Məni rahat burax, ay qəddar ana!

– Mən? Qəddar?

– Bəli, sən!

– Mən kimə qarşı qəddaram?

– Öz uşaqlarına, xüsusilə də yazıq Kristianeyə!

– Mən başa düşmürəm, nə danışırsan. Fikrini açıq de! Məgər onu qapını çırpdığına görə döymədiyim üçünmü qəddaram?

Qardaşı cavab verdi: "Ah, ağıllı olmağa çalışan bir qadın necə belə düşüncəsiz danışa bilər?! Kristiane bacılarından gözəl deyil. Burada onun heç bir günahı yoxdur. Sən isə təbiətin

ona vermədiyini heç olmasa geyimi ilə bir qədər kompensasiya etmək əvəzinə, öz köhnə paltarlarını ona geyindirirsən. Digər qızlarını isə yüz cür bəzək-düzəklə elə bəzəyirsən ki, hamının gözü yalnız onlarda qalsın, Kristianeni isə heç kim görməsin. Onlar nə danışsalar, nə etsələr – mənasız olsa belə – hamı heyran olur, gülür. Sən qonaqları Kristianenin yaxşı xüsusiyyətlərinə yönəltmək əvəzinə, özün də onlara qoşulub elə Kristianenin bacılarını tərifləyirsən. Məgər Kristiane daşdır? Məgər onun qəlbi incimir? Onu kinli edən elə özünsən. Onu bacılarına qarşı paxıl edən də sənsən. Bacı, qısa-konkret, mən Kristianeni özümlə aparacağam".

O, doğrudan da, belə etdi, evinə qayıdarkən Kristianeni özü ilə apardı. Cəmi bir neçə həftə sonra qız onun himayəsində çox mehriban, tərbiyəli və hamının sevdiyi bir uşağa çevrildi.

II. Uşaqların nifrətini başqa yolla da qazanmaq olar: valideynlərdən biri uşaqları digər valideynə qarşı soyutsun

1-ci hekayə

Bir ana uşaqlarını qorxutmaq üçün həmişə üç şeydən istifadə edirdi: Allah, ata və xortdan. Uşaqlar bir az səs-küy salanda bu şeylərdən biri ilə onlara hədə-qorxu gəlirdi. Bəzən deyərdi: "Sakit olun! Yoxsa Allah sizi cəzalandıracaq, sizi cəhənnəmə atacaq!" Bəzən: "Sakit olun! İndi xortdan gələcək!" deyər, bəzən də: "İndi atanız gəlib sizi elə döyər ki, ağlınız başınıza gələr!" deyərdi.

Bunun nəticəsi nə oldu? Uşaqlarda Allaha, atalarına və həmin qorxulu obraza mənfi münasibət, qorxu və ikrah hissi yarandı.

2-ci hekayə

Balaca Marqaret inadkarlığına görə atası tərəfindən cəzalandırılanda qaçıb anasının yanına gedər və atasından şikayət edərdi. Anası da atanı zalım kimi qələmə verər, belə deyərdi: "Nə insafsız atadır! Uşağı da belə döyərlər?!" Sonra cibindən bir qəpik uşağa uzadardı: "Al, Marqaret, get özünə bir bulka al". Bu halda Marqaretin "insafsız ata"ya qarşı nifrət etməsi təəccüblüdürmü?

III. Uşaqların sevgisini itirməyin başqa bir yolu: onların sevincinə şərik olmayın, nəvaziş göstərməyin; bu zaman onlar sizi mütləq sevməyəcəklər

1-ci hekayə

Bir ər-arvad var idi. Başları işə və müxtəlif planlara o qədər qarışmışdı ki, uşaqları ilə danışmağa sərf etdikləri hər dəqiqəni hədərə getmiş vaxt hesab edirdilər. Ata daim hesab-kitab aparır, ana isə var-dövlətlərini artırmaq haqqında planlar qurardu. Buna görə uşaqların onları işlərindən yayındırmasından olduqca narahat olurdular.

Bir gün balaca Niklas əlində bir əlifba kitabı atasının yanına qaçdı. Sevinclə dedi: "Ata! Bax gör bu şəkil necə gözəldir! Burada alma var!" Atası cavab verdi: "Məni rahat burax!" Niklas anasına tərəf qaçdı. Anası da o an fikir vermədi. Onda

Niklas kitabını götürüb qulluqçu qız Marinin yanına getdi. Mari isə onunla tam başqa cür davrandı. O da uşaq kimi sevinirdi. Şəkillərə birlikdə baxırdılar; qurdu göstərirdi, dovşanı göstərirdi, nağıl danışırdı: "Bax, canavar quzunu yeyir. Bax, qızardılmış dovşan əti necə dadlı olur..."

Beləcə Mari Niklas üçün "sevimli Mari" oldu. Uşaq bütün sirlərini ona danışır, sevincini onunla bölüşürdü. Ata-ana evdən çıxıb üç ay geri dönməsəydilər də, Niklas üçün böyük fərq olmazdı. Amma Mari bir gün evdə olmayanda bütün evi ağlamaq səsi götürərdi.

2-ci hekayə

Kiçik Lüdviq bir tanışından bir neçə levkoy (bəzək gülü) şitili almış və onları gül dibçəklərinə əkmişdi. Bütün qəlbi bu güllərə bağlanmışdı. Hər səhər oyanan kimi ilk işi bağçaya gedib güllərinə baxmaq olurdu. Axşamlar isə heç vaxt onları sulamadan yatmağa getməzdi.

Bir gün səhər bağa gəldi. Ah, nə böyük sevinc! Levkoylardan biri çiçək açmışdı; üstəlik, bu, çoxləçəkli bir levkoy idi. Sevincindən bir neçə dəfə əl çaldıqdan, atılıb-düşdükdən sonra atasının yanına qaçdı.

– Ata! Ata! Tez mənimlə bağa gəl!

– Orada nə edəcəyəm?

– Sənə çox gözəl bir şey göstərmək istəyirəm.

– Nəyi?

– Gəl də! Gəl! Çox gözəl bir şeydir!

– Sən lap dəli olmusan!

– Yox, doğrudan! Bir levkoy! Həm də ləçəkləri çox!

– Sənin o axmaq levkoyunla nə işim var?!

Kiçik oğlanın ürəyi sevinclə elə dolmuşdu ki, bu sevinci hökmən kimləsə bölüşməli idi. Buna görə də balaca Kilianın yanına qaçdı və ona o gözəl çiçəyi göstərdi. Kilian onun sevincinə şərik oldu. Beləcə, Lüdviqin əslində atasına vermək istədiyi sevgi və etibar hissi yavaş-yavaş Kiliana keçdi. Halbuki atası onu qəbul etmək istəsəydi, bu sevgi və etibar ona qismət olardı.

IV. Uşaqlarınızı oynayıb-əylənməkdən məhrum edin, onda onlar sizə nifrət edəcəklər

Bir kişi əlli yaşını keçdikdən sonra ata olmaq sevincini yaşamışdı. Yaşının təsiri ilə o, çox ağır təbiətli və ciddi bir insan idi. İndi isə istəyirdi ki, oğlu Qustav da eynilə onun kimi olsun. Amma Qustav elə deyildi. Ayaqları üstündə möhkəm dayanmağa başlayan kimi Qustav öz gücünü və oynayıb-əylənmək həvəsini hiss etdi; o qaçır, hoppanır, oynayır, özünə oyun yoldaşları axtarırdı ki, onlarla birlikdə şənlənsin. Bu isə atasını çox narahat edirdi.

Ata bəzən açıq havaya çıxanda Qustavı da özü ilə aparırdı. Lakin Qustav kəpənəklərin dalınca qaçanda və ya çəmənlikdə çiçək axtarmaq üçün oyana-buyana atılanda əsəbiləşən atası ona qışqırırdı: “Qustav! Qustav! Harada veyillənirsən? Tez bura gəl! Ayıbdır! Ay küçə avarası! Mənə bax, necə davranıram, sən də özünü mənim kimi apara bilməzsən?”

Qustavın əmisi oğlundan hədiyyə aldığı “kegel” oyununun taxta dirəklərini (indiki boulinqin qədim alman variantı) atası

yandırdı. Bir dəfə isə Qustavın evə gətirdiyi topu kəsib yararsız hala saldı və dedi: "Oyunla vaxtını hədər keçirəcəyinə, yaxşısı budur ki, Katexizmdən[1] bir bölmə əzbərləyəsən.

Qustav evdə atasının yanında olanda saatlarla bir yerdə oturmağa məcbur edilir, hətta olduğu yerdən tərpənməsinə belə icazə verilmirdi. Bu cür rəftar nəticəsində həmin adam oğlunun gözündə o qədər nifrət qazandı ki, Qustav ən kobud adamların yanında olmağı belə atasının yanında olmaqdan üstün tuturdu. Atası öldükdə onun gözündən bir damcı da kədər yaşı axmadı. "Yaxşı oldu. – deyə düşündü, – "Nəhayət, bu cansıxıcı nəzarətdən canım qurtardı. Nəhayət indi istədiyim kimi yaşaya bilərəm".

V. Uşaqlarınızı ələ salmaqla da onların nifrətini qazana bilərsiniz

1-ci hekayə

Usta Yakob lağ-lağısız danışa bilmirdi, buna vərdiş etmişdi. Bu vərdiş o qədər güclü idi ki, hətta öz uşaqları ilə danışarkən də onu tərk edə bilmirdi. O, heç vaxt uşaqlarının səhvlərini sakit və mehriban şəkildə başa salmağı bacarmırdı. Nə demək istəyirdisə, hamısını təhqiramiz, tikanlı sözlərlə və alçaldıcı tərzdə deyirdi. Məsələn, uşaqlardan biri axşam stulda yuxuya gedərdisə, mürəkkəb və ya kömürlə uşağın üzünə saqqal çəkər, sonra isə onu ev qulluqçularının gülüş hədəfinə çevirərdi.

[1] Katexizm – xristianlıqda dinin əsas inanclarını və qaydalarını sual-cavab şəklində öyrədən dərs kitabıdır.

Bir dəfə qızı Marta yemək zamanı şorbanı önlüyünün üstünə tökmüşdü. Atası dərhal qulluqçuya üz tutaraq dedi: "Sabah dülgərdən bir donuz yem qabı sifariş ver. Bundan sonra Marta yeməyini onda yesin". Sonra əlavə etdi: "Hə, qaba iki balaca təkər də düzəltdirərik. Qonşunun donuzu ala-bula balalar doğub. Onlardan ikisini də Martaya yoldaş alarıq. Özü də ən ala-bulalarından!"

Bir dəfə isə balaca Marta oynayarkən üzünü, əllərini və paltarlarını çirkləndirmişdi və çox səliqəsiz görünürdü. Atası onu görən kimi ucadan dedi: "Ay aman! Bu nə qəşəng xanımdır belə! Elə bil Drekthoynzenə (bu, küçə uşaqlarının lağ etmək üçün adından istifadə etdikləri ağılsız bir adam idi) yaraşacaq gəlin budur! Elə deyilmi, Marta? Sən onun üçün necə də gözəl nişanlı olardın!"

Bu cür məsxərələr həmişə qulluqçu qız və oğlanın yanında edilirdi. Onlar da, adətən, bərkdən gülür, sonra isə həmin sözlərlə uşaqları ələ salırdılar.

Belə bir atanı uşaqlar necə sevə bilərdilər?

2-ci hekayə

Luisə, cəmi bir neçə gün idi ki, anasından tikiş öyrənmişdi. İndi isə anasının yanında bacarığını göstərməli, bir dəsmalın kənarını tikməli idi. "Elə gözəl tikəcəyəm ki, anam məni tərifləyəcək. Atam isə... kim bilir, bəlkə, o da çox bəyənəcək!" – deyə düşünürdü. Kaş görəydiniz, o mehriban qız dəsmalı necə həvəslə tikirdi! O qədər canla-başla işləyirdi ki, səhər yeməyində ona verilmiş "bretzel"i (çörəyi) yeməyi belə unutmuşdu.

Luisə yalnız çalışqan deyildi, həm də işini mükəmməl görmək istəyirdi. Buna görə də hər iyirmi-otuz tikiş vurduqdan sonra anasının yanına qaçıb soruşurdu: "Ana, belə düzgündürmü?" Cavabı alıb yenidən böyük həvəslə işinə davam edirdi.

Lakin hər şey çox yaxşı gedərkən birdən yazıq qız iynə ilə barmağını deşdi. Gözlənilməz və indiyədək hiss etmədiyi bu ağrı onu elə qorxutdu ki, özünü tamam itirdi. Acı içində barmağını anasına uzatdı və yazıq bir sifət aldı, onu bu halda görən adam daşürəkli də olsa, yumşalardı. Amma ana acı çəkən uşağına yazığı gəlmək əvəzinə, gülməyə başladı. Digər uşaqlar da onunla birlikdə güldülər. Bunu görən Luisə qəzəblə dəsmalı və iynəni yerə atdı, ucadan ağlamağa başladı, mətbəxə qaçıb üzünü qulluqçu qadının önlüyündə gizlətdi və ürəyi boşalana qədər ağladı.

Nəhayət ki, orada heç olmasa nəvaziş və təsəlli gördü. Qulluqçu Katerina onun yaralı barmağını parça ilə sarıdı və tezliklə sağalacağını dedi.

Anasının bu yersiz istehzası Luisəni elə küsdürdü ki, o gündən ürəyində anasına qarşı inciklik hiss etməyə başladı. Sonralar hər dəfə yıxılıb özünü harasa vuranda və ya əlini kəsəndə anası yenə ona gülürdü. Beləcə, Luisənin anasına qarşı giley-güzarı getdikcə böyüdü və axırda dərin soyuqluq və nifrətə çevrildi. Anası isə bunun səbəbini heç cür anlaya bilmirdi.

VI. Uşaqlarınıza tez-tez şübhə ilə yanaşın, çox keçmədən onların nifrətini qazanacaqsınız

1-ci hekayə

"Bu gün tacirdən gətirdiyin pulun iki qroşu[2] çatışmır! Tez ol, düzünü denən, onları hara xərcləmisən? Yoxsa yaxşı olmayacaq! Stolumun üstündə duran alma hara yoxa çıxıb? Sən bu rəzil oğurluq vərdişindən nə vaxt əl çəkəcəksən?" Cənab Kunq nəyinisə itirəndə həmin vaxt oğlu Adolf gözünə dəysəydi, onu danlayar və üstünə müxtəlif şübhələr yağdırıb incidərdi.

Doğrudur, Adolf, bəlkə də, diqqətsizliyindən o iki qroşu itirmişdi və ya tacirin pulu az qaytardığını hiss etməmişdi. Bir vaxtlar şirniyyata meyilli uşaq olduğu da doğru idi. Lakin heç kim onu kiminsə malını oğurlamaqda ittiham edə bilməzdi. Üstəlik, o bu pis vərdişdən çoxdan əl çəkmişdi.

Belə olan halda, atasının ona qarşı göstərdiyi bu əsassız inamsızlıq oğlanı dərindən incitməzdimi? Və daim səndən şübhələnən bir atanı sən ürəkdən necə sevə bilərdin?..

2-ci hekayə

Başqa bir oğlan var idi. Hərçənd ki bir qədər dəcəl və düşüncəsiz idi, ancaq anasını qəsdən incitmək istəsə belə, heç vaxt bacarmazdı. Buna baxmayaraq, anası hər dəfə oğlunun

[2] Qroş (alm. Groschen) – Avropada, xüsusilə Almaniya, Avstriya və bəzi digər ölkələrdə uzun müddət istifadə olunmuş kiçik pul vahididir. (M.M)

hansısa hərəkətindən narazı qalanda deyirdi: "Sən bunu qəsdən etdin ki, məni incidəsən! Sən məni qəbirə qoyana qədər rahat dayanmayacaqsan!"

Əslində oğlan anasını səmimi-qəlbdən sevirdi. Ancaq anasının bu cür əsassız və təkrar-təkrar səsləndirdiyi ittihamlar onun qəlbini hər dəfə yaralayırdı. Beləcə, anasına olan sevgisi getdikcə azaldı; əvvəl laqeydliyə, hətta sonra nifrətə çevrildi.

Kim uşaqlarının nifrətini qazanmaq istəyirsə, qoy bu ana kimi onlara qarşı tez-tez əsassız şübhə göstərsin.

"UŞAQLARIN NİFRƏTİNİ QAZANMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

K.Q.Salzmana görə, valideynlərin bu davranışları uşaqlarda onlara qarşı nifrət yaradır: 1) uşaqlara haqsızlıq etmək; 2) valideynlərdən birinin digəri haqqında mənfi təəssürat yaratması; 3) uşağın sevincini görməzdən gəlmək; 4) oyun-əyləncədən məhrum etmək; 5) ələ salmaq; 6) uşağa şübhə ilə yanaşmaq.

Müəllifin bu başlıqlar altında verdiyi hekayələrin əsas ortaq cəhəti budur ki, hər hekayədə valideynlər övladlarının davranışına baxır, amma bu davranışın arxasında gizlənən niyyəti görmürlər. Onların əsas xətası uşaqların hərəkətlərinin nəticəsinə fokuslanmaq, amma onların hisslərinə biganə qalmaqdır. Məsələn, anasına çiçək buketi hazırlayan Lottenin hərəkəti xoşagəlməz sonluqla nəticələnsə də, axı onun niyyəti gözəl idi: anasına hədiyyə verib onu sevindirmək. Ona görə

də uşaqların zahiri davranışlarından daha çox, onların daxili aləmini anlamağa çalışmaq lazımdır.

"Anam çox sevinəcək və məni öpəcək" gözləntisində olan uşağın boşqabı sındırdığı üçün anası tərəfindən şiddətə məruz qalması, təbii ki, onun qəlbində yaralar açacaq və müəllifin də dediyi kimi, bir də heç vaxt anasına hədiyyə vermək ağlına gəlməyəcək. Çünki böyüklər hər nə qədər bunun əksini düşünsə də, uşaqlar hadisələri tez unutmurlar, daha dəqiq desək, hadisələrin onlarda yaratdığı emosiyalar uzun müddət yadlarından çıxmır.

Valideynlər uşaqları çox bəsit və sadəlövh varlıqlar hesab edirlər, lakin onların mürəkkəb daxili aləmi var. Məsələn, Luizanın atası onun qablara bağlılığını adi uşaqlıq həvəsi hesab edirdi, halbuki o qablar Luizanın gözündə sadəcə oyuncaq deyildi, onlar xaç anasının ona olan sevgisinin simvolu idi. Buna görə də o əşya Luiza üçün xüsusi əhəmiyyət kəsb edirdi. Beləliklə, valideyn uşağın əşyasına hörmət etdikdə, bir növ, onun şəxsiyyətinə hörmət etmiş olur.

Hekayələrdən birində acığını uşağından çıxan ata obrazı görürük. Belə hallarda uşaq cəzanın səbəbini anlaya bilmir və valideynlərinin yanında təhlükəsizlik hissini itirir. Bu səbəbdən valideyn heç vaxt öz emosiyalarını uşağın üstünə tökməməlidir. Bəzən də belə olur ki, zahirən valideyn övladını cəzalandırmır, ona heç bir fiziki şiddət göstərmir, fəqət fiziki zorakılıqdan daha ağır olan psixoloji cəza verir. Necə ki anası Kristianeni döymür, təhqir etmir, ona qışqırmırdı, amma onu digər bacılarından seçir, ona diqqət etmir, tərifləmir, digər

uşaqlarına göstərdiyi qayğını ona göstərmirdi. Qeyd etdiyimiz kimi, bu hallar fiziki şiddətdən daha pis nəticələr doğurur.

Valideynlərin uşaqları idarə etmək üçün istifadə etdikləri üsullardan biri də onları qorxutmaqdır. Uşaqları müxtəlif vasitələrlə qorxudaraq onlarda itaətkarlıq yaratmaq istəyirlər. Bizim cəmiyyətdə bu qorxu vasitələri əsasən polis, həkim, hekayədə də qeyd olunduğu kimi, xortdan kimi mücərrəd varlıqlar, eləcə də cin, ruh, Allah, ata və sairədir. Lakin bilmək lazımdır ki, qorxu sadəcə qısamüddətli itaət yarada bilər. Övladların valideyn sözünə baxması üçün ən yaxşı metod onlara şəxsiyyət vermək, valideynlərinə olan hörmət və sevgidən qaynaqlanan itaət yaratmaqdır.

Bir hekayədə görürük ki, ana uşağının yanında atanı "zalım" adlandırır. Bu da, təbii ki, uşağın yanında atanın hörmətini sarsıdır. Ümumiyyətlə, valideyn övladına həm sevgi göstərməli, səmimi olmalı, qayğıkeş münasibət sərgiləməli, həm də öz böyüklüyünü, dəyərini qorumalı, övladının mənəvi rəhbəri olmalıdır. Məlumdur ki, səmimilik, xoş rəftar və sevgi valideyni övladının gözündə adiləşdirə və nəticədə, ata-ananın üstünlüyü aradan gedə bilir. Bəs bu məqamda nə etməli? Təbii ki, övlada məhəbbət göstərməyi dayandırmaq olmaz. Burada valideynlər bir-birinə yardım etməlidir: ata ananı, ana da atanı uşaqların gözündə ucaltmalıdır. Məsələn, ata övladlarına analarına kömək etməyi tapşırmalı, ana da uşaqlara atalarına hörmət göstərməyi aşılamalıdır. Uşaqlar ata-analarının bir-birinə verdiyi dəyəri gördükdə onlara olan sevgi, hörmət və itaətləri daha da artacaq.

Övladlarının xoşbəxt anlarına şərik olmayan, onlara biganə yanaşan və görməzdən gələn valideynlər əmin olsunlar ki, bir müddət sonra övladları valideynlərindən ala bilmədiyi sevgini bir yerdən almaq üçün başqalarına yönələcək. Bu gün bir çox övlad-valideyn problemlərinin əsas səbəbi buradan qaynaqlanır. Ailədə ata-anasından sevgi, qayğı, hörmət, diqqət görə bilməyən uşaq kənar obyektlərə yönəlir. Çünki yuxarıda sadalananlar təbii ehtiyaclardır və uşaq onları əvvəl-axır kimlərinsə vasitəsilə təmin etməlidir. Necə ki hekayədəki Niklas ata-anasından ala bilmədiyi diqqəti qulluqçu Maridən almağa başladı.

Biz hekayələrdə valideynlərin uşaqlara qarşı verdiyi reaksiyaları əksər hallarda mənfi tonda görürük. Nəzərə almaq lazımdır ki, uşağın emosional inkişafı üçün valideyn tərəfindən aldığı reaksiyalar çox mühümdür. 1960–70-ci illərdə amerikalı psixoloq Edvard Tronikin apardığı məşhur "Hərəkətsiz üz" eksperimenti[3] bunu bir daha sübut etdi. Eksperiment zamanı ana əvvəlcə körpəsinə baxıb gülümsəyir, danışır və oynayırdı. Körpə də buna sevinclə cavab verirdi. Sonra anadan xahiş olunurdu ki, birdən-birə üz ifadəsini tam dəyişsin: nə gülümsəsin, nə danışsın, nə də reaksiya versin. Nəticə çox maraqlı idi. Körpə əvvəlcə müxtəlif üsullarla ananın diqqətini cəlb etməyə çalışırdı: gülümsəyir, əl-qol hərəkətləri edir, səslər çıxarırdı. Heç bir cavab ala bilmədikdə isə narahat olmağa

[3] Tronick, E. Z., Als, H., Adamson, L., Wise, S., & Brazelton, T. B. (1978). *The infant's response to entrapment between contradictory messages in face-to-face interaction*. *Journal of the American Academy of Child Psychiatry, 17*(1), 1–13.

və ağlamağa başladı. Bunlar göstərir ki, ata-ananın bircə baxışı, mimikası, jesti belə uşağın daxili aləmində nə qədər böyük təsirə malikdir.

Bəzi valideynlər sanki övladlarını vaxtından əvvəl böyütmək istəyirlər, buna görə də onların oynamağına, əylənməyinə, uşaqlıq çağlarını dolu-dolu yaşamağına imkan vermirlər. Hekayədəki Qustavın oynamaq yerinə kitab oxumağa məcbur edilməsi kimi hallar bu gün də aktualdır. Belə məcburiyyətlər uşaqların valideynlərinə nifrət etməsinə gətirib çıxarır, çünki bu zaman onlar ata-analarını onları xoşbəxt edən fəaliyyətlərin qarşısını alan manea kimi görməyə başlayırlar. Hər yaş dövrünün öz xüsusiyyətləri olduğu kimi, uşaqlıq illərinin xüsusiyyəti də oynamaqdır. Oyun uşaqların təbii ehtiyacıdır.

Usta Yakob kimi, övladlarını ələ salan, onları alçaldan valideynlər, bəlkə də, bəzən bunu heç bilə-istəyə etmirlər. Amma nəticə eynidir: uşaq özünü dəyərsiz hiss edir. Ona görə də valideynlər uşaqlarla davranışda xüsusi diqqət etməli, nə dediklərinə və etdiklərinə baxmaq əvəzinə, söz və rəftarlarının övladlarında hansı duyğulara yol açа biləcəyinə fikir verməlidirlər.

Uşaqlara göstərilən inamsızlıq və şəkk-şübhə də valideyn sevgisinin qatilidir. Uşağın cidd-cəhdləri qarşısında ona inanılmırsa, bir müddətdən sonra o da valideynə qarşı səmimi olmağı mənasız görməyə başlayır. Tikişlə məşğul olarkən iynəni əlinə batıran Luisənin anası tərfindən istehzalı gülüşlərə məruz qalması bunun bariz nümunəsidir. Müəllif yazır ki, bu hadisədən sonra o, anasına qarşı dərin soyuqluq və nifrət hiss etməyə başladı.

Müəllifin bu bölmədə irəli sürdüyü fikirlərin böyük əksəriyyəti bu gün də aktuallığını qoruyur. Dövr dəyişsə də, uşaq psixologiyası, sosial münasibətlər və insan xisləti dəyişməyib. K.Q.Salzmanın hekayələri göstərir ki, uşaq tərbiyəsində ən böyük təhlükə fiziki cəza və ya sərt davranışdan daha çox, diqqətsizlik, məsxərə, inamsızlıq kimi gündəlik davranışda yol verilən yanlışlardır və valideynlər pis niyyətlə olmasa da, düşünmədən etdikləri davranışlarla övladlarını özlərindən uzaqlaşdırırlar.

II BÖLMƏ
UŞAQLARIN YANINDA ETİBARINIZI İTİRMƏYİN YOLLARI

Uşaqlara tez-tez yalan danışın və onları aldadın, onda sizə inanmayacaqlar

Aprelin biri günü Sabinanın anası qulluqçu oğlanla əlbir olub balaca Sabinaya "Aprel zarafatı" etmək qərarına gəldi. Plan dərhal həyata keçirildi. Sabinaya iri bir qab verib dedilər ki, aptekdən "İrrviş yağı" (əslində mövcud olmayan, zarafat üçün uydurulmuş bir şey) almağa getsin. **"**Baş üstə, anacan, – deyə təmiz ürəkli uşaq cavab verdi, – qoy əvvəlcə plaşımı geyinim". Sonra sevincək qaça-qaça yola düşdü. Anasına kömək edəcəyi üçün çox xoşbəxt idi. Lakin aptekə çatanda hamı ona gülməyə başladı.Uşaq hönkürə-hönkürə geri qayıtdı və anasından soruşmaq istədi ki, görəsən, tapşırığını düzgün başa düşüb, ya yox. Elə bu anda ana da, qulluqçu da bərkdən gülməyə başladılar və dedilər: **"**Məgər bilmirsən ki, bu gün aprelin biridir?" Sabina hirslə üzünü çevirdi və nifrət dolu gözləri ilə anasına baxdı. Sanki "Sən doğrudanmı hələ də sənə "ana" deməyimə layiqsən?" söyləmək istəyirdi. O gündən sonra anası ona nəsə tapşıranda və ya nədənsə çəkindirməyə çalışanda Sabina öz-özünə fikirləşirdi: "Hm... Kim bilir, görəsən bu dəfə həqiqətənmi düz danışır?"

"UŞAQLARINIZIN YANINDA ETİBARINIZI İTİRMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Valideynlə övlad arasındakı münasibətin təməllərindən biri etibardır. Uşaq valideyninin dediyi sözlərin doğruluğuna inanmalıdır. Əgər valideyn bu etibarı zarafat üçün olsa belə sarsıdarsa, sonradan uşağın ona inam göstərməsi çətinləşər.

Sabinanın hekayəsində onu incidən səbəb, əslində, gülüşlərə məruz qalmaqdan, aldadılmaqdan daha çox, bütün bunların anası tərəfindən planlanmasıdır. Çünki uşaq psixologiyasında valideyn ən təhlükəsiz sığınacaqdır. O təhlükəsizlik sığınacağından alınan zərbə uşağı xəyal qırıqlığına uğradır. Təbii ki, uşaqlarla zarafat etmək olar. Lakin onları zarafatın qurbanına çevirmək qətiyyən yolverilməzdir. Həm də elə bir zarafat ki, uzun illər uşağın qəlbində sağalmaz yaralar buraxacaqdır.

Məşhur yalançı çobanın hekayətini, yəqin ki, eşitmisiniz. Düzəngahda tənhalıqdan sıxılan çoban əylənmək üçün yalandan hay-küy salıb camaatı səsləyir ki, sürüyə qurd daraşıb, köməyə gəlin. Kənd camaatı qaçıb gəlir, amma baxırlar ki, qurd-filan yoxdur, çoban zarafat edirmiş. Bu hadisə bir neçə dəfə təkrarlanır və nəticədə, kənd camaatı çobanın yalançı olduğu qənaətinə gəlirlər. Növbəti dəfə qoyun-quzuya həqiqətən qurd hücum çəkəndə isə heç kim çobanın hay-harayına gəlmir. Uşaqlarına yalan danışıb onların yanında etibarını itirən valideynlərin də misalı bunun kimidir. Bir və ya bir neçə dəfə danışılan yalandan sonra uşaq valideynin növbəti sözlərinə şübhə ilə yanaşmağa başlayır. Bu isə kritik vəziyyətlərə

də təsir edə bilər. Valideyn həqiqətən ciddi xəbərdarlıq etdikdə də uşaq bunu növbəti yalan və ya qeyri-ciddi söz hesab edə bilər. Yəni valideyn "Yalançının evi yandı, heç kim ona inanmadı" məsəlindəki yalançı halına düşə bilər.

Uşaqların valideynlərinə olan sevgisi və etibarı təbii şəkildə yaranır, lakin onları qoruyub saxlamaq valideynlərin davranışından asılıdır. Yaradanın təmənnasız bəxş etdiyi möhkəm valideyn-övlad bağlarını qoruyub saxlamaq ata-anaların öz ixtiyarındadır.

III BÖLMƏ
UŞAQLARIN GÖZÜNDƏN DÜŞMƏYİN YOLLARI

I. Uşaqlarınızı öz qüsurlarınızla tanış edin, onda onların sizə hörməti aradan gedəcək və sizə yuxarıdan aşağı baxacaqlar

1-ci hekayə

Hans və Qreta bir-birlərini çox sevirdilər. Lakin hər ikisi o qədər əsəbi insanlar idi ki, başqa ailələrdə heç kimin əhəmiyyət vermədiyi ən kiçik bir hadisə belə onları özlərindən çıxarır, belə anlarda onlar bütün təmkinlərini itirirdilər. Çox vaxt səhərlər bir-birlərini məhəbbətlə qucaqlayır, sevgilərini ifadə edirdilər. Amma elə həmin saatda da üzləri tutulur, qaşları çatılır, dişləri qıcanır, ağızları açılır və bir-birlərinə qarşı kobud, təhqiramiz sözlər yağdırmağa başlayırdılar.

Məsələn, bir dəfə Hans həyat yoldaşını şəfqətlə qucaqlayıb dedi: "Sevimli Qretam!" Qreta cavab verdi: "Mənim əziz Hansım!" Hans dedi: "Sənə nə qədər çox bağlandığımı bir bilsəydin!" Qreta cavab verdi: "Sən mənim üçün dünyada hər şeydən qiymətlisən!" Hans birdən söhbətin məcrasını dəyişdi: "Amma Kristofun pencəyindəki cırığı hələ də tikməmisən". Qreta dərhal acıqlandı: "Bilirdim ki, belə olacaq! Yataqdan duran kimi yenə deyinməyə başladın!" Hans: "Sən nə danışırsan?! Söz deyə bilmərəm? Mən bu evin sahibi deyiləm?" Qreta istehza ilə cavab verdi: "Sahibi? Heç sənin kimisi də

özünü ev sahibi adlandırar? Kaş heç bu sözü dilinə gətirməyəydin!" Hans: "Ay qız, boş-boş danışma! Allaha şükür elə ki, mənim kimi bir ər tapmısan" – söylədi. Qreta da: "Ay sağ ol! Sənin kimi bir avaranı hər yerdə tapmaq olar", – söylədi. Hans: "Sən danışmağa utanmırsan da? Heç nə etmirsən! Uşaqların dilənçi kimi gəzir! Paltarlarınız isə elə gündədir ki, adam utanır ki, birdən kimsə görər", – deyə cavab verdi. Qreta: "Ayıb olsun! Sən əvvəl özünə bax!" dedi.

Uşaqlar bu dava-dalaşları adətən böyük maraqla dinləyirdilər. Valideynlər bunu hiss etdikdə isə bir-birlərinin qüsurlarını daha da amansız şəkildə üzə vururdular. Çünki hər biri uşaqları inandırmaq istəyirdi ki, haqlı olan odur, qarşı tərəf isə haqsızdır. Amma uşaqlar ürəklərində hər ikisini günahkar sayır, hər ikisini hörmətə layiq olmayan insanlar hesab edirdilər.

Axırda iş o yerə çatdı ki, artıq onlar valideynlərinin tapşırıqlarına heç bir əhəmiyyət verməməyə başladılar. Valideynlər isə bunun səbəbini heç cür başa düşə bilmirdilər.

2-ci hekayə

Bir adamın pis bir vərdişi var idi: dostları ilə məclisdə biriki qədəh şərab içən kimi ağlına gələni danışmağa başlayırdı. Bəzən o qədər özünü itirirdi ki, gəncliyində etdiyi bütün axmaqlıqları dilə gətirirdi. Uşaq vaxtı anasının alma anbarına necə gizlicə girdiyini, məktəb yoldaşları ilə hansı dəcəllikləri etdiyini, səfərləri zamanı hansı məkanlarda nə cür əxlaqsızlıqlara yol verdiyini xatırlayanda gülməkdən özünü saxlaya bilmirdi.

Bu adamın uşaqları belə hekayələrdən o qədər zövq alırdılar ki, bəzən bıçaq və çəngəli yerə qoyur, yemək-içməyi unudurdular ki, atalarının dediyi sözlərdən heç birini ötürməsinlər. Ataları bunu hiss edəndə söhbəti kəsər və deyirdi: "Gənclik belədir də. Gəncliyin öz çılğınlıqları olur". Uşaqlar isə özözlərinə belə düşünürdülər: "Biz də gəncik. Deməli, bizim də belə hərəkətlər etməyimiz təbiidir".

Beləcə, onlar atalarının vaxtilə etdiyi bütün yaramazlıqları təkrar etməyə başladılar, hətta ondan da artıq. Ataları bu əməllərinə görə onları danlayanda sözlərinin heç bir təsiri olmurdu. Çünki uşaqlar ürəklərində belə deyirdilər: "Axı sən özün də vaxtilə bizdən fərqli olmamısan".

II. Uşaqlara davamlı əmrlər verin, amma onların yerinə yetirilib-yetirilmədiyini yoxlamayın; daim hədələyin, lakin hədələrinizi heç vaxt həyata keçirməyin. Belə etsəniz, tezliklə uşaqların məsxərə hədəfinə çevriləcəksiniz

1-ci hekayə

Əgər Kunigundenin uşaqlarına verdiyi göstərişlərə baxıb hökm çıxarsaydılar, elə zənn edərdilər ki, onun ailəsi nizamintizamın nümunəsidir. "Sən, Kristiane! Yataq otağına sən cavabdehsən. Hər səhər oranı səliqəyə salacaq, paltarlarını bu şkafdan asacaq və camaşırları bu sandığa yığacaqsan. Bunlara mütləq əməl et!.. Sən də, Vilhelm! Qabların yuyulmasına, bıçaqların təmizlənməsinə nəzarət edəcəksən. Hər gün saat onda və dörddə gəlib məndən soruşacaqsan ki, səni harasa göndərməyim lazımdırmı. Unutma!" O, hər gün belə danışır, yeni

qaydalar qoyurdu. Amma köhnə qaydaların yerinə yetirilib-yetirilmədiyini heç vaxt soruşmurdu.

Kristiane yataq otağını yığışdırmır, paltarlarını və camaşırları çıxardığı yerdəcə atıb gedirdi. Vilhelm isə nə qabları yuyur, nə də bıçaqları təmizləyirdi; həmişə saat on və dörddə isə, demək olar ki, oyun meydançasında olurdu.

Axırda iş o yerə çatdı ki, ana yeni qaydalar qoymaq istəyəndə uşaqlar üzlərini çevirib gülürdülər.

2-ci hekayə

– Bir daha qapını belə çırp, gör başına nə oyun açıram!

– Bir də əllərini yumadan süfrəyə otursan, sənə yalnız quru çörək veriləcək!

– Bu dəfə səni bağışlayıram. Amma bunu bir də etsən, elə möhkəm dayaq yeyəcəksən ki, hələ ömründə belə cəza almamısan!

– Mənə elə baxma! Elə bilirsən zarafat edirəm? Xeyr! Buna əsla cürət etmə! Görəcəksən ki, mənimlə zarafat etmək olmaz!

Bu həmin atanın hər gün uşaqları ilə danışdığı üslubdur. Onun söhbətlərinin hamısı hədələrdən ibarət idi. Lakin bu hədələrin heç biri heç vaxt yerinə yetirilmirdi. Çox keçmədən uşaqlar bunu başa düşdülər. Onlar qapıları çırpır, əllərini yumadan süfrəyə oturur, hər cür dəcəllik edirdilər və onlara hədə-qorxu gələn atalarından əsla çəkinmirdilər. Bu isə yazıq adamı elə hirsləndirirdi ki, bütün bədəni əsir, yumruğunu masaya vururdu; evdə stəkanlar cingildəyirdi. And içirdi ki, bir

gün uşaqlarına elə bir dərs verəcək ki, ömürləri boyu unutmayacaqlar. Uşaqlar isə ürəklərində belə düşünürdülər: "Hə, hə, bu o qədər də asan deyil..."

3-cü hekayə

"Artıq Milad yaxınlaşır! Sizdən kim yaxşı uşaq olubsa, gözəl hədiyyələr alacaq. Amma kim pis hərəkətlər edibsə, ona yalnız sərt bir çubuq qismət olacaq, başqa heç nə!", – Xanım Lore Adventin ilk bazar günündən etibarən hər gün uşaqlarına bunu təkrar-təkrar deyirdi. Onsuz da itaətkar və yaxşı xasiyyətli oğlan olan Konstant bu sözlərdən daha da ruhlanır, daha yaxşı davranmağa çalışırdı. Amma balaca, dəcəl və qayğısız Klarxen bu hədələrə qətiyyən əhəmiyyət vermirdi. O, əvvəlki kimi dəcəl, tənbəl və itaətsiz olmağa davam edirdi. Konstant tez-tez onu danlayır və deyirdi: "Belə etsən, Milad sevincini öz əlinlə itirəcəksən". Klarxen isə arxayınlıqla cavab verirdi: "Heç narahat olma. Milad gələnə qədər anam bunların hamısını unudacaq".

Nəhayət, Milad gəlib çatdı. Nə baş verdi? Yaxşı və sözə baxan Konstant iri bir səbət dolusu alma, qoz-fındıq və üstəlik bir cüt yeni şalvar aldı. Söz dinləməz Klarxen isə eyni böyüklükdə bir səbət alma və qoz-fındıq əldə etdi, üstəlik Konstantın şalvarından bəlkə də ikiqat bahalı, gözəl bir paltar da hədiyyə aldı. Klarxen qardaşına qələbə çalıbmış kimi dedi: "Sənə nə demişdim? Mən axmaq deyiləm ki, anamın hədələrindən qorxum!"

Konstant bunu yaxşı yadında saxladı. Bundan sonra xanım Lore nə qədər çubuqdan, cəzadan və ya döyməkdən danışırdısa da, Konstant sadəcə Klarxenə baxır və gülümsəyirdi.

III. Özünüz də eyni xətaları etdiyiniz halda, uşaqları həmin xətalara görə cəzalandırın

1-ci hekayə

Övladları axşamlar yorğunluqdan stulların üstündə mürgüləyib yuxuya gedəndə Cənab Orqon, adətən, onları saçlarından dartaraq oyadar, yaxud üzlərinə su çiləyərdi. Halbuki özünün belə bir adəti var idi: hər gün günorta yeməyindən sonra divana uzanıb bir saat yatardı. Hətta çox vaxt axşam yeməyindən sonra da ağzında qəlyan borusu ilə divanda mürgüləyərdi.

Atalarını divanda yatmış halda görəndə açıqürəkli Karl bəzən bacı-qardaşlarının qulağına pıçıldayırdı: "Baxın, biz stulda mürgüləyəndə atam saçımızdan dartır, amma özü divanda şirin-şirin yatmağı çox xoşlayır!" Karl bunu hər dəfə dedikcə uşaqların atalarına olan hörməti bir qədər də azalırdı.

Nəhayət, bir axşam cənab Orqon yenə də həmişəki kimi on üç yaşlı Karlı kobudcasına yuxudan oyatdı. Karl özünə gəldikdən sonra atasına belə dedi: "Ata, axı sən özün də bunu edirsən. Mən edəndə isə çox pis qarşılayırsan".

2-ci hekayə

"Sənin kimi bir uşaq haqqında nə düşünüm? Biz artıq dərsin yarım fəslini keçmişik, sən isə indi gəlirsən! Məgər sən

tənbəllərin tənbəli deyilsən? Heç utanmırsan? Belə şeyləri ancaq küçə uşaqları edərlər. Onların da üzünə qapını çırpmaq lazımdır!" Cənab Krebs hirslənəndə şagirdlərini bu cür sərt sözlərlə danlayardı. Amma o özü də kifayət qədər tez-tez dərsə laqeyd yanaşırdı. Elə olurdu ki, sinfə dərsin ortasında daxil olurdu. Başqa vaxt isə qəzəbi o həddə çatırdı ki, şagirdləri dediyini dərhal yerinə yetirməyəndə və ya bir şeyi gec anlayanda onları "it balası", "alçaq", "eşşək", "qoyun" və buna bənzər təhqiramiz sözlərlə söyürdü.

Şagirdlər latınca kitabını həmişə tam başa düşməsələr də, bir şeyi çox yaxşı anlayırdılar: cənab Krebs ən sərt şəkildə qınadığı davranışların eynisini özü edirdi. Ona görə də o, yenə gecikməyə və ya kobud danışmağa görə növbəti dəfə uşaqları danlayanda şagirdlər bir-birlərinə istehzalı təbəssümlə baxırdılar.

"UŞAQLARIN GÖZÜNDƏN DÜŞMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Salzman valideynləri uşaqların gözündən salan üç əsas səbəb göstərir: 1) valideynin uşaqlara öz səhvləri haqqında danışması; 2) uşaqlara əmrlər verib onların yerinə yetirilib-yetirilmədiyini yoxlamaması və uşaqları reallaşdırmayacağı hədələrlə qorxutması; 3) valideynin özünün də etdiyi səhvlərə görə uşaqları cəzalandırması.

Bu bölmədə yer alan hekayələrdə görürük ki, uşaqlar valideynlərini sadəcə dinləmir, həm də daim müşahidə edirlər. Onlar böyüklərin dediklərindən daha çox etdiklərinə diqqət

yetirirlər. Valideyn və ya müəllim nə qədər gözəl nəsihətlər versə də, əgər öz davranışı həmin sözlərlə uyğun gəlmirsə, zamanla uşağın gözündə nüfuzunu itirməyə başlayır.

Valideynlərin söz və əməllərinin bir-birini tutmadığı hallardan biri də onların uşağı hədələməsi, amma dediyini etməməsidir. Belə olduqda bir müddətdən sonra uşaq valideyninin sözünü ciddi qəbul etmir. Hekayələrin birində uşaqlarını hədələyən, amma sonra heç nə etməyən ata obrazı axırda övladlarının gözündə qeyri-ciddi bir adama çevrilir. Digər hekayədə isə anasının hədələrinin sadəcə quru söz olduğuna şahid olan uşaq onun tapşırıqlarına etina etmir. Ona görə də valideynlər övladla ünsiyyətdə yalnız həyata keçirə biləcəyi şeyləri dilə gətirməlidirlər.

Uşaqlarına tapşırıqlar verib sonra onların yerinə yetirilib-yetirilməməsini yoxlamayan valideynləri də eyni aqibət gözləyir. Hekayədə bir ana övladlarına hər gün yeni tapşırıqlar verir, amma əvvəlkilərin yerinə yetirilib-yetirilmədiyi ilə maraqlanmırdı. Təbii ki, uşaqlar bir müddətdən sonra bunu anladılar və tapşırıqlara məhəl qoymamağa başladılar, çünki onsuz da, valideynləri tapşırıqların icrasını yoxlamırdılar.

Hans və Qreta (ata və ana) mübahisə zamanı bir-birlərinin qüsurlarını uşaqların yanında sadalamaqla guya özlərini haqlı göstərmək, uşaqları öz tərəflərinə çəkmək istəyirdilər. Halbuki uşaqlar onların heç birini haqlı hesab etmirdi. Çünki atanın dava-dalaşı uşaq üçün mənfi emosional durumdur, belə məqamda uşaq kimin haqlı, kimin haqsız olduğunu ayırd etmək yerinə, bu qorxulu və ürəksıxan səs-küyün bitməsini

arzulayır. Ümumiyyətlə, ailədaxili münaqişələrdə ən çox zərər görən tərəf uşaqlar olur. Çünki onlar seçim etmək məcburiyyətində qalırlar. Əslində isə, heç bir uşaq valideynləri arasında "hakimlik etmək" istəmir. Nəticədə, valideynlər bir-birini alçaltdıqca uşağın gözündə hər ikisinin dəyəri aşağı düşür.

Hekayələrdən birində bir ata keçmişdə etdiyi səhvləri zarafat və macəra kimi övladlarına danışmaqdan zövq alırdı. Ola bilsin ki, belə valideynlərin məqsədi uşaqları sadəcə əyləndirməkdir, amma uşaqlar bu hekayələrdən tamamilə başqa nəticə çıxarırdılar. Əvvəla, valideyn öz qüsurlarını uşağın qarşısında nümayiş etdirdikdə uşaq onu ideal nümunə kimi görməyi dayandırır, zamanla isə hörmət etməməyə başlayır. İkincisi isə, yanlışlarını bəh-bəhlə dilə gətirmək uşaqlara yanlış örnək olmaqdır.

Uşaq üçün birinci nümunə valideyndir. O, gözünü açıb ilk dəfə valideynlərini görür, onları sevir, onlara bağlanır, həyatı onlardan ibarət bilir, ona görə də valideynin düzünü yaxşı, səhvini pis hesab edir. Əgər valideyn öz yanlışlarını peşmanlıq hissi ilə deyil, deyib-gülərək danışırsa, dolayısı ilə uşaq bunu həmin davranışların normal hesab edilməsi kimi başa düşür. Ümumiyyətlə, yaxşı olar ki, valideyn öz yanlış işlərindin uşaqların yanında heç söhbət açmasın.

Əgər valideyn uşağı etdiyi bir hərəkətə görə danlayır, amma özü də həmin davranışı nümayiş etdirirsə, bu, uşağın valideynə olan hörmətini aradan aparır. Çünki uşaqlar valideynlərindən mükəmməllik gözləməsələr də, mütləq ədalət gözlə-

yirlər. Valideyn özünün də etdiyi hərəkətə görə uşağı cəzalandırırsa, uşaq həmin cəzanı haqlı hesab etmir, nəticədə bu cəzaya səbəb olan hərəkətinin də səhv olduğunu düşünmür. Stulda mürgülədikləri üçün uşaqlarını cəzalandıran Cənab Orqona oğlu Karlın dediyi bir cümlə bütün məsələnin mahiyyətini açır: "Ata, axı sən özün də bunu edirsən".

Şagirdlərini dərsə gecikdikləri üçün cəzalandırıb özü də tez-tez gecikən müəllim cənab Krebsin hekayəsi göstərir ki, öz tələbinə özü əməl etməyən müəllimin dediyi sözlər qüvvədən düşür, təsirsiz olur. Müəllimlər və valideynlər üçün ən güclü tərbiyə vasitəsi şəxsi nümunədir. Çünki uşaqlar qulaqla eşitdiklərindən daha çox gözlə gördüklərinə inanırlar.

Uşaq üçün valideynin statusu, sərvəti, peşəsi və s. deyil, ilk növbədə, davranışı əhəmiyyətlidir. Rəftarından asılı olaraq valideyn uşağının gözündə öz şəxsiyyətini zirvələrə də qaldıra bilər, yerdən-yerə də vura bilər.

IV BÖLMƏ
UŞAQLARDA BACI-QARDAŞLARINA QARŞI NİFRƏT VƏ PAXILLIQ YARATMAĞIN YOLLARI

I. Uşaqların birindən məhəbbətinizi əsirgəyin, bütün sevginizi o birisinə verin

Kristian və Kristof adlı iki qardaş var idi. Əslində hər ikisinin ürəyi təmiz uşaqlar idilər, lakin xasiyyətləri tamamilə fərqli idi. Kristian şən, cəld və hazırcavab idi. Kristof isə tutqun, qaraqabaq və az danışan idi.

Xasiyyətləri kimi, zahiri görünüşləri də bir-birindən fərqlənirdi. Kristianın simasında həmişə gülərüz və mehriban bir ifadə olardı. Kristof isə daim ciddi və qaşqabaqlı görünər, onu nadir hallarda gülərkən görmək mümkün olardı. Kristian yeriyəndə hoppana-hoppana gedərdi, Kristof isə ağır addımlarla hərəkət edərdi. Kristian zarafat etməyi yaxşı bacarırdı, Kristof isə bu cəhətdən çox kasıb idi. Hətta hər ikisi eyni sözü desə belə, Kristianın mehribanlığı sayəsində onun sözü daha xoş qarşılanardı. Məsələn, Kristian: "Mənə də albalı verərsiniz?" – deyəndə ona "yox" cavabı vermək, demək olar ki, mümkün olmurdu. Amma Kristof eyni sözləri deyəndə sanki tərbiyəsizlik etmiş olurdu.

Beləliklə, Kristofun gözəl qəlbini tanımayan hər kəs təbii olaraq ona etinasız yanaşır, Kristianı isə ondan üstün tuturdu. Uşaqlar Kristianın ətrafına yığışar, onu öz oyunlarına aparardılar; Kristofu isə kənarda qoyardılar. Evə qonaq gələndə

Kristianı tərifləməkdən və əzizləməkdən doymurdular. Yazıq Kristofu isə heç görmürdülər.

Axırda vəziyyət o həddə çatdı ki, valideynlər özləri də Kristiana həddindən artıq bağlandılar və Kristofa olan məhəbbətlərini, demək olar ki, tamamilə itirdilər. Onların hər iki oğulla danışıq tərzi belə, tamamilə fərqli idi. Elə bil Kristof doğma övlad yox, ögey uşaq idi.

– Kristiancan, mənə bir stəkan su gətirərsən?

– Kristof, götür bu stəkanı, doldur gətir!

– Gəl görüm, mənim mavigöz balam! Bax sənə nə gətirmişəm! Bir albalılara bax!

– Al, Kristof, sən də bir az albalı ye.

– Ah, nə gözəl oğlandır bizim Kristian! Baxın, üzünü göyəm giləsi ilə necə gömgöy edib!

– Bu oğlanın halına bir baxın! Elə bil donuz balasıdır! Sənin üst-başını yumaqdan başqa işimiz yoxdur!

– Kristian! Kristian! Bunu bir də etsən, cəzanı çəkəcəksən. Bilirsən ki, mən vurmağı sevmirəm. Amma sözlə başa düşməsən, çubuqla tanış olacaqsan!

– Ay yaramaz! Bu nə işdir görmüsən? Bir də belə eləsən, qulaqlarını elə çəkəcəyəm ki, başın fırlanacaq!

Valideynlərin uşaqlarla danışıq tərzi necə fərqli idisə, onlara münasibəti də elə fərqli idi. Kristian ən böyük dəcəlliklərindən belə, yüngül bir töhmətlə canını qurtarırdı. Kristof isə ən kiçik səhvlərinə görə döyülürdü. Kristiana tez-tez ballı kökələr, makaronlar, şaftalılar verilirdi. Yazıq Kristof isə ağzı sulana-sulana onlara baxmaqla kifayətlənirdi. Ana gün ərzində, bəlkə, on dəfə Kristianın dolu yanaqlarını tutub sıxırdı.

Yazıq Kristof isə bir dəfə olsun nəvaziş görmürdü. Süfrə başında ən yaxşı tikə həmişə əvvəlcə Kristiana verilirdi. Gəzintiyə çıxanda Kristianın valideynlərinə bir dəfə mavi gözləri ilə baxması kifayət idi ki, onu da özləri ilə aparsınlar. Kristof isə həmişə evdə qalırdı. Təsadüfən onu da aparanda bunu ona xüsusi bir lütf kimi göstərirdilər. Kristianın geyiminə də xüsusi diqqət yetirilirdi. Onu gözə çarpdıracaq hər cür bəzəklə bəzəyirdilər.

Bütün bunlar Kristofu gündən-günə daha da acıqlı edirdi. O, qardaşına qarşı kin bəsləməyə başladı: qardaşı mükafat alanda sevinməli olduğu halda paxıllıq edirdi. Ona töhmət veriləndə, yıxılıb xəsarət alanda isə sevinirdi. Adətən heç gülməyən Kristofun bircə dəfə güldüyünü gördüm: anasının Kristiana hədiyyə etdiyi gözəl güldan şkafdan düşüb sındığı vaxt.

Ürəyindəki pis hisslər getdikcə güclənirdi və nəhayət onları gizlədə bilmədi. Əvvəlcə sadəcə gileylənirdi. Kristian ondan əvvəl nəsə əldə edəndə deyinməyə başlayırdı: "Bu, haqsızlıqdır! Belə olmaz! Kristiana hər şeyi alırlar, mənə isə heç nə vermirlər... Hı... hı... Mən uşaq deyiləm?" Qalan sözləri isə qəzəbdən dişlərini qıcayaraq mızıldanırdı. Sonralar isə işi daha da irəli apardı. Qardaşına cürbəcür pisliklər etməyə başladı. Onun kitablarının vərəqlərini cırır, paltarlarını korlayırdı. Demək olar ki, hər gün dalaşır, söyüş söyür, əlbəyaxa olurdular. Kristof daha güclü olduğuna görə çox vaxt qardaşını yerə yıxır, saçından tutub başını yerə vururdu. Əlbəttə, hər dəfə buna görə cəzasını alırdı. Amma bunun heç bir faydası olmurdu.

Kristof günü-gündən daha da pisləşirdi. Anası isə tez-tez belə deyirdi: "Kaş biləydim, bu oğlan kimə çəkib! Bunun üçün deyilən söz də, vurulan çubuq da hədərdir. Hər gün döyülür, amma yenə də ağıllanmır.

II. Bir uşağı cəzalandırın, o birisini tərifləyin

Xanım Anna xasiyyətcə bir qədər tez özündən çıxan qadın idi. Uşaqlardan biri səhv edən kimi üstünə qışqırar, saçından çəkər, sillə və yumruq vurardı. Yorulduqdan sonra kresloya oturub uşağa uzun-uzadı nəsihətlər verərdi. Ardınca isə həmin gün döyülməyən digər uşaqdan danışmağa başlayar və onu həddindən artıq tərifləyərdi.

Nə demək istədiyimi daha yaxşı başa düşməyiniz üçün bir hadisə danışım. Bir gün böyük qızı Katarina suyun kənarında oynayırdı. Taxta parçalarını suya atır, onları gəmi adlandırıb sevinirdi. Sonra balıq tutmaq qərarına gəldi. Qollarını dirsəyinə qədər suya salır, əlinə bir daş və ya dəmir parçası keçən kimi sevincək yoldaşlarına tərəf qışqırırdı: "Baxın, balıq tutdum! Burada bir sazan var, orada isə bir forel!" Bu oyun nəticəsində Katarina başdan-ayağa islandı, paltarları tam suya batdı. Kristina isə həmin vaxt balaca sərçələri qovmaqla məşğul olduğundan bu oyuna qoşulmamış və paltarları quru qalmışdı.Elə bu vaxt xanım Anna su içində qalmış Katarinanı gördü. Heç nə soruşmadan ona iki möhkəm sillə vurdu. Saçından tutub otağa sürüdü, bir neçə dəqiqə də saçını çəkdi. Sonra yarı nəfəsi kəsilmiş halda kresloya oturdu və uzun bir

danlağa başladı: "Ay Allahdan qorxmayan qız! Sənin ucbatından biabır oluruq! Nə qədər tərbiyə verirəm, yenə dəyişmirsən. Sənə nə qədər söz desəm də, xeyri yoxdur. Əsl pinti, Küllücə[4] olmusan! Özünə bir bax! Elə bil donuz balasısan! Bu gün sənə təmiz önlük geyindirmişdim, bax gör nə kökə salmısan! Ayıb olsun sənə! Mən başqasının qızı olsaydım, bu qədər çirkli gəzməyə utanardım. Bir bax bizim Kristinaya! Necə də səliqəli halda qalıb, elə bil üzünü pişik yalayıb təmizləyib. Səliqəli uşaq belə olar! O heç vaxt belə axmaq hərəkətlər etməz. Gəl bura, mənim canım, ağıllı Kristinam, səni bir öpüm.

III. Uşaqlar arasındakı incikliklərə biganə qalın, onların dava-dalaşının əsl səbəbini araşdırmağa əsla çalışmayın

Marianna valideynlərinin qəlbini ələ almağı çox yaxşı bacarırdı. Lakin etiraf etmək lazımdır ki, o, hiyləgər, hətta bəzən bədniyyətli bir qız idi: qardaşında xoşuna gələn bir şey görəndə ya onu əlindən alar, ya da cırar, sındırar, korlayardı. Belə olanda Vilhelm həmişə bərkdən ağlamağa başlayardı. Valideynləri dərhal qaçıb gələrdilər. "Nə olub?" – deyə soruşardılar. "Marianna... – deyə Vilhelm cavab verərdi. – Mənim oyun daşlarımı götürdü! Şəklimi cırdı!" Valideynləri deyərdi: "Ay bala, belə xırda şeyə görə bu qədər hay-küy salmağa dəyərmi?

[4] Küllücə – dünya ədəbiyyatında "Zoluşka" personajı kimi tanınan mistik-mifoloji və folklor obrazının Azərbaycan dilindəki qarşılığıdır, "üst-başı külə batmış", "kül içində oturan", "küllükdə yaşayan" deməkdir. Qədim kənd evlərində ocaq, təndir və ya buxarı daim yandığı üçün ev işlərini görən, analığı tərəfindən hər kəsdən aşağı tutulan yetim qız ocağın kənarında, küllərin içində yatıb-dururdu. Üst-başı daim kül içində olduğuna görə ona bu ad verilmişdir.

Sakit ol! Bir azdan o, oyuncaqdan bezəcək, kənara atacaq. Sən də onda götürərsən". Bacısının ona etdiyi haqsızlığa görə Vilhelmə göstərilən bütün "ədalət" bundan ibarət olurdu.Bəzən uşaqlar dalaşmağa başlayanda valideynlər araşdırıb davaya kimin səbəb olduğunu öyrənmədən hər ikisini döyürdülər. Vilhelm isə daha çox ağladığı üçün, adətən, daha çox zərbə alırdı. Bu haqsızlıqlar onu elə qəzəbləndirdi ki, axırda öz haqqını özü almağa başladı. Bacısı ona pislik edən kimi üstünə atılır, onu döyür, incidirdi. Nəticədə, onların arasında elə dərin bir kin yarandı ki, ömürlərinin sonuna qədər bir-birilərinə düşmən kimi nifrət etdilər.

"UŞAQLARDA BACI-QARDAŞLARINA QARŞI NİFRƏT VƏ PAXILLIQ YARATMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Bu bölmədə müəllif satirik hekayələrlə bacı-qardaş olan uşaqlar arasında münasibətlərin necə korlana biləcəyini göstərir. Valideynlərin yol verdiyi səhvlərin uşaqların xarakterinə, psixologiyasına və gələcək münasibətlərinə necə ağır təsir göstərdiyini görürük.

Müasir psixologiya da təsdiq edir ki, uşaqların ən böyük ehtiyaclarından biri valideyn sevgisini və ədalətini hiss etməkdir. Uşaqlardan biri daim üstün tutulduqda, digəri isə diqqətdən kənarda qaldıqda onun daxilində qəzəb, paxıllıq və nifrət hissləri yaranmağa başlayır. Bu hisslər isə zaman keç-

dikcə bacı-qardaş münasibətləri ilə yanaşı, uşağın ümumi xarakterini, insanlara olan etibarını və özünə münasibətini də dəyişdirir.

Uşaqların birindən məhəbbətini əsirgəmək, bütün sevgini o birisinə vermək, yəni valideynlərin uşaqlara fərqli münasibəti, onlar arasında ayrı-seçkilik etməsi azyaşlılar (hekayədə Kristian və Kristof) arasında yaranan problemlərin əsas amilidir. Bəzən də valideynlərin bu cür ayrı-seçkilik münasibəti cəmiyyət tərəfindən yaradılır: qohum-qonşu bir uşağı bəyənir, digərini bəyənmir deyə valideynlərdə bir uşağa sevgi digərindən daha artıq olur. Amma təbii ki, ata-analar ictimai rəyə əsaslanıb övladlar arasında fərq qoymamalıdırlar. Necə ki müəllim sinfindəki hər şagirdə şəxsiyyət kimi baxmalı, onu digər sinif yoldaşlarından seçməməlidir.

Valideynlərin uşaqlara ədalətli münasibəti yalnız xüsusi məqamlarda (məsələn, onlara hədiyyə alanda, ad günü keçirəndə, gəzintiyə aparanda və s.) deyil, elə gündəlik davranışlarda da özünü göstərməlidir: onlardan birinə mehriban müraciət edib, o birisi ilə əmr tonunda danışmaq; biri səhv etdikdə bağışlayıb, digərini isə xətasına görə cəzalandırmaq doğru yol deyil. Çünki uşaqlar valideynlərinin fərqli münasibətini çox tez hiss edirlər. Belə xırda görünəm məqamlar, əslində, böyük təsirə malikdir və uşağın daxilində dərin yaralar açа bilir.

Uşaqlar arasında ayrıseçkiliyin zərərli nəticələrindən agah olan uzaqgörən İslam peyğəmbəri valideynləri bundan çəkindirmişdir. Məhəmməd peyğəmbər dövründə yaşamış bir şəxs rəvayət edir ki, "Atam mənə bir hədiyyə almışdı. …Peyğəmbər atamdan soruşdu: "Bütün övladlarına bunun kimi hədiyyə

vermisənmi?" Atam dedi: "Xeyr". Peyğəmbər buyurdu: "Allahdan qorxun və övladlarınız arasında ədalətli davranın".[5]

Valideyn sevgisindən məhrum qalan, öz qardaşından və ya bacısından daha az sevilən uşağın daxilində yığılan inciklik zamanla nifrətə çevrilir. Hətta bir müddətdən sonra bu uşaq qardaş-bacısını özünə rəqin, düşmən, ata-anasının sevgisini ondan oğurlayan biri kimi görür və onun sevincini öz məğlubiyyəti, bədbəxtliyini isə öz qələbəsi hesab etməyə başlayır. Hekayədəki Kristofun, qardaşı Kristianın güldanı sınanda gülməsi buna misaldır.

Təbii ki, valideynlərdən tələb olunan uşaqlara dəqiq şəkildə tam eyni münasibəti göstərmək deyil. Bu, bəlkə də, mümkün də deyil. Uşaqlara ədalət hissi sərgiləməksə mümkündür. Müasir psixoloqlar bildirirlər ki, bütün uşaqlara eyni hədiyyəni almaq və ya hamısına eyni miqdarda vaxt ayırmaq həmişə mümkün olmur. Mühüm olan odur ki, uşaqlar valideynlərinin qərarlarını ədalətli hesab etsinlər. Məsələn, xəstə uşağa daha çox qayğı göstərmək, imtahana hazırlaşan uşağa əlavə vaxt ayırmaq, xüsusi ehtiyacı olan uşağa daha çox dəstək vermək, digər uşaqlar tərəfindən – onlara bunun səbəbi izah edildikdə – adətən, ədalətsizlik kimi qəbul edilmir. Onları incidən yersiz və aşkar şəkildə edilən ayrı-seçkilikdir.

Bir uşağı danlayarkən digərini nümunə göstərmək də valideynlərin yol verdiyi əsas səhvlərdən biridir. Hekayədə Katarina etdiyi səhvə görə anası tərəfinfən danlanır və bacısı ilə

[5] Vəsailüş-Şiə, cild 21, səh. 542–543

müqayisə olunur. Müqayisə heç vaxt tərbiyə vasitəsi ola bilməz, çünki uşağın başqası ilə qiyas edilərək alçaldılması onun şəxsiyyətinə yönəlmiş təhqirdir. Təəssüf ki, bizim cəmiyyətdə də bu hallar kifayət qədər çoxdur: uşaqlar bacı-qardaşları, qohum-qonşu uşaqları ilə müqayisə edilir. Valideynlər çox zaman belə müqayisələri motivasiya hesab etsələr də, əslində müqayisə olunan uşaq özünü dəyərsiz hiss edir. Bunun tam əksinə, tərif və təqdirdən istifadə olunmalıdır. Uşaqlar arasındakı inciklikl ərə biganə qalmaq, onların dava-dalaşının əsl səbəbini araşdırmadan hər ikisini cəzalandırmaq böyük problemlərə səbəb olur. Hekayədə Marianna qardaşına qarşı haqsızlıq edir, daha sonra uşaqlar dalaşanda isə valideynlər kimin haqlı olduğunu müəyyən etmədən hər ikisini cəzalandırırlar. Bu cür münasibət Vilhelmə belə bir mesaj verir ki, sənin haqqını heç kim qorumayacaq. Nəticədə, o da öz hüququnu zorakılıq yolu ilə müdafiə etməyə başlayır. Beləcə, ailədə həll edilməyən kiçik münaqişələr zamanla dərin düşmənçiliyə çevrilir. Görürük ki, ədalətsizlik haqsızlığa məruz qalan uşağa necə mənfi təsir göstərir: o, zamanla ya aqressivləşir, ya da insanlara olan etibarını itirir. Tərbiyənin ən vacib prinsiplərindən birinin ədalətli münasibət olduğunu gördük. Uşaqlar arasında nifrət və paxıllığın əsas səbəbi onların xarakter fərqləri deyil, valideynlərin qeyri-bərabər sevgisi, yanlış müqayisələri və ədalətsiz davranışlarıdır. Yəni uşaqlar doğulduqları gündən bir-birlərinə düşmən olmurlar. Onlar arasında intriqa varsa, bunu yaradan ailədəki ədalətsiz mühitdir.

V BÖLMƏ
UŞAQLARDA İNSAN SEVGİSİNİ MƏHV ETMƏYİN YOLLARI

Uşaqlarının yanında tez-tez insanlar haqqında pis sözlər danışın

1-ci hekayə

Cənab Orqen kreslosunu elə bir yerə qoydurmuşdu ki, oradan bütün küçəni və yoldan keçən hər kəsi görə bilirdi. Başqa ciddi məşğuliyyəti olmadığı üçün vaxtını yoldan keçənləri mühakimə etməklə keçirirdi. Verdiyi hökmləri də arvadı və uşaqları ilə bölüşürdü. Bu mühakimələrin isə, demək olar ki, hamısı kinayəli və pis niyyətli olurdu.

– Baxın görün Kətə necə arxayın-arxayın gedir, elə bil suda balıqdır! Yəqin elə düşünür ki, keçən il qonşusu ilə başına gələnləri şəhər camaatı çoxdan unudub. Hm...

– Budur, usta Fridrixin qızı gəlir. Elə bəzənib-düzənib ki! Kim onu arvad etsə, gör hələ nələr çəkəcək! Baxın gör necə nazlanaraq yeriyir!

– Ora baxın! Görün doktor N. özünü necə lovğalıqla aparır! Təəssüf ki, küçə bir az da enli deyil! Əgər hələ də yeznəsinə ödəməli olduğu borcu yadına düşsəydi, bu qədər məğrur yeriməzdi.

– Baxın, baxın! Usta Yörgenin Qotfridi! Əynində qədim alman üslubunda pencək, boynunda naxışlı yaxalıq... Amma yəqin ki, altından geyinməyə köynəyi belə yoxdur.

– N-lərin uşaqlarına baxın! Paltarları cırıq-cındırdır. Elə yazıq görünürlər ki, sanki toyuqlar çörəklərini əllərindən alıb. Düzdür, ölən adam haqqında yalnız yaxşı danışmaq lazımdır. Amma ataları... Allah rəhmət eləsin, əgər rəhmətə layiqdirsə! O nə alçaq adam idi! Ömrü boyu nə qədər pislik etmişdi! Allahın cəzası gec-tez hər kəsə çatır.

– Ay kəndli! Buğdanı niyə belə baha satırsan? Bir ölçüsü səkkiz qroş? Ağlını itirmisən? (Sonra uşaqlarına tərəf dönərək:) Dünyada kəndlidən böyük acgöz yoxdur... Əgər kəndli məhsulunu bir qədər baha satmağa çalışsa, dərhal qiyməti qaldırır. Ən yaxşı malını isə həmişə özünə saxlayır. Turşumuş pivəsini, içinə siçan düşmüş sirkəsini, xəstə toyuqlarını və qazlarını isə bazara gətirib bizim kimilərə yedizdirir.

– Baxın, usta Fransın yeni yağış plaşı var! Yəqin tikdiyi gəlin paltarlarından bir-iki arşın parça oğurlaya bilib. Mən ömrüm boyu eşitmişəm ki, dərzi, dəyirmançı və kətan toxuyanların hamısı oğrudur.

– Baxın, baxın! Xanım Marzipillənin lovğalığı da nəhayət sona çatdı! Yadıma düşür, əvvəllər necə təkəbbürlə gəzirdi! Heç bir mağazadakı mal onun xoşuna gəlmirdi. Hər bazar günü, hətta hər gün iki dəfə qəhvə içməli idi. Ha-ha! Kaş indi doyunca siyənək və kələm yeyə biləydi!

– Tez olun, uşaqlar! O qəhvəyi paltarlı adamı görürsünüz? Keçən il qulluqçusu onu məhkəməyə vermişdi.

Cənab Orqenin insanlar haqqında söylədiyi bütün mühakimələr belə kinli və mərhəmətdən uzaq idi. O, heç kim haqqın-

da yaxşı söz deməzdi. İnsanların çoxdan unudulmuş qüsurlarını yenidən ortaya çıxarar, qüsur tapa bilməyəndə isə heç olmasa onları şübhə altına almağa çalışardı.

Bütün bunları diqqətlə dinləyən uşaqlar get-gedə belə düşünməyə başladılar ki, dünyada onların özlərindən, ataların-dan və analarından başqa nə yaxşı, nə də ağıllı insan var; qalan hamı ya yaramazdır, ya da axmaqdır. Buna görə də bütün insanlara yuxarıdan aşağı baxmağa başladılar. Özlərini sanki bütün dünyadan üstün hesab edir, yalnız öz mənfəətlərini düşünür, başqalarının xoşbəxtliyi üçün nəsə etmək fikri isə heç vaxt ağıllarına belə gəlmirdi.

2-ci hekayə

Bir gün Luiza çox kədərli halda otağa girdi və qəpiklərini yığdığı qutunun yanına qaçdı. Atası soruşdu:

– Nə olub?

– Çöldə çox kasıb bir qadın var. Deyir ki, bu gün hələ bir tikə də çörək yeməyib və çox acdır.

– Ondan adını soruşdun?

– Bəli. Anna Barbdır, sənə bir dəfə göstərdiyim qoltuq ağacı ilə gəzən qadındır.

– Eləmi? Onda pulunu özündə saxla. O qadın var-dövlətini özü puç edib. Get ona de ki, cavanlığında evini daha yaxşı idarə etsəydi, indi dilənməyə məcbur qalmazdı.

– Mən bunu deyə bilmərəm.

– Onda mən deyərəm.

Sonra qadına üz tutub dedi:

– Ayıb deyilmi sizə? Niyə başqalarının boynuna yük olursunuz? Öz eviniz yox idimi? Bağınız yox idimi? Hamısını yeyib-içməklə məhv etmədiniz?

– Allah xatirinə, ağam...

– Bəsdir! Bəsdir! Rədd olun buradan! Yoxsa sizə gününüzü göstərərəm!

Bu adam bütün kasıblarla belə amansız davranardı. Hətta cəmiyyət qarşısında ayıb olmasın deyə bəzən onlara bir qəpik versə də, sonra həmin qəpiyin əvəzini onları ən ağır şəkildə alçaltmaqla çıxmağa çalışardı.

Bir dəfə belə deyərdi: "Bunlar tənbəldirlər, işləmək istəmirlər. Mən işləyirəm axı!" Başqa bir vaxt isə iddia edərdi ki, yoxsulluğa öz əxlaqsız və israfçı həyatlarına görə düşüblər: "Dünyada dolanmaq istəyən adam gərək qənaətcil olsun. Mən bütün ömrüm boyu hər qəpiyimin hesabını aparmışam". Əgər kömək istəyən adamı nə tənbəllikdə, nə də israfçılıqda günahlandırmaq mümkün olmasaydı, yenə də deyərdi: "Kim bilir nə günah edib? Allah səbəbsiz heç nə etməz". Belə sözlər mərhəmətli ürəyə malik Luizanı kasıbların dərdinə qarşı getdikcə laqeyd etdi. Hətta zaman keçdikcə o, yoxsullara qarşı ikrah hissi bəsləməyə başladı. Sonralar kasıblar ondan mərhəmət diləyəndə o, heç bir hiss keçirmədən yanlarından ötər və öz-özünə düşünərdi: "Bu səfillərə xərclənən hər şey onsuz da boşa gedir. Pulumu daha faydalı yerlərə sərf edə bilərəm".

3-ci hekayə

Lorxenin anası, öz sözlərinə görə, qulluqçular barədə heç vaxt bəxti gətirməyən qadın idi. Uzun illər idi ki, ürəyincə olan bir qulluqçu axtarırdı, amma tapa bilmirdi. Hər il üç-dörd qulluqçunu işdən qovar, ümid edərdi ki, növbətisi yaxşı çıxacaq. Lakin heç biri onu razı salmazdı. "Bir şeytanı qovuram, yerinə o birisi gəlir! – deyərdi. – Biri çox ləng idi, digəri həyasız. Üçüncüsü elə baxırdı ki, elə bil səni gözləri ilə öldürəcək. Dördüncüsünün isə dili həddindən artıq uzun idi". Bir sözlə, evləndiyi on altı il ərzində yanında işləyən altmışa yaxın qulluqçunun hər birində böyük bir nöqsan tapmışdı. Üstəlik, onların bütün qüsurlarını yadda saxlayırdı. Söhbət qulluqçulardan düşən kimi böyük hiddətlə Yulya, Kristina, Katarina və başqaları ucbatından nə əziyyətlər çəkdiyini danışar, sonra da əlavə edərdi: "Bu avara dəstəsinə verilən bir tikə çörəyə belə heyfim gəlir!" Qulluqçu kiçik bir səhv etsəydi, səsküyü evi başına götürərdi. "Alçaq adam! Sən günəş işığına belə layiq deyilsən! Axmaq! Unutmusan ki, mənim çörəyimi yeyirsən?" – deyə qışqırardı.

Belə bir ananın yanında Lorxen böyüyürdü. Səhərdən axşama qədər qulluqçular ona xidmət edirdilər: yatağını düzəldir, paltarlarını yuyur, çörəyini bişirir, geyimlərinin sökük-yamağını düzəldir, yeməyini hazırlayır, şəhərin o başından onun istədiyi hər şeyi gətirirdilər. Amma bu qədər xidmət göstərildiyinə görə Allaha şükür etmək Lorxenin ağlına bir dəfə də olsun gəlməzdi. Heç vaxt qulluqçuların ona etdiyi yaxşılıqlara görə minnətdarlıq göstərməyi düşünməzdi. Əksinə, ona bu qədər xidmət edən insanlarla ən kobud şəkildə davranardı.

"Axmaq! Meymun sifətli! Kütbeyin!" – bunlar onun qulluqçulara verdiyi adlar idi. Əgər nəsə ürəyincə olmasaydı, məsələn, ayaqqabısının bağı qırılsaydı və ya baş örtüyü istədiyi kimi bağlanmasaydı, dərhal qulluqçunu çağırar, qəzəbini onun üstünə tökərdi. Halbuki bir adam onun balaca bolonya cinsli itinə bu cür davransaydı, görün necə qəzəblənərdi.

"UŞAQLARDA İNSAN SEVGİSİNİ MƏHV ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

K.Q.Salzman bu bölmədə insanlara qarşı sevgi, mərhəmət və hörmət hissinin uşaqlarda necə formalaşdığını, eyni zamanda valideynlərin yanlış davranışları nəticəsində bu hisslərin necə məhv ola biləcəyini göstərir. O üç fərqli hekayə vasitəsilə sübut edir ki, uşaqlar valideynlərinin insanlara münasibətini mənimsəyirlər, nəticədə onlar ya insanlara hörmət etməyi, ya da onlara qarşı kin, laqeydlik və təkəbbür bəsləməyi öyrənirlər.

Cənab Orqen kimi hər kəsdə qüsur axtaran, heç kimin yaxşı tərəfini görməyən və uşaqlarının yanında insanlar haqqında daim pis danışan valideynin övladları da zaman keçdikcə bu baxış tərzini qəbul edir, ətrafdakılara etimad və rəğbət əvəzinə şübhə və təkəbbürlə yanaşırlar. Çünki valideynlərin dili uşağın dünyagörüşünü formalaşdırır. Daim başqalarını pisləyən valideyn əslində övladına insanlara hörmət etməməyi, onları sevməməyi öyrədir. İnsanları sevməyən bir fərd isə böydükdə elə də uğurlu bir həyata malik ola bilməyəcək.

Mərhəmət insanın yaradılışından gələn hiss olsa da, onu qorumaq və inkişaf etdirmək lazımdır. Bəzən valideynlərin yanlış münasibəti uşaqlardakı mərhəmət hissini tədricən zəiflədir və axırda onlar zalım bir insana çevrilir (hekayədəki Luiza kimi). Məsələn, əgər uşağa ehtiyaclı insanlara qarşı mənfi münasibət aşılanarsa, böyük ehtimalla o, gələcəkdə başqalarının ağrısına biganə yanaşan bir şəxsə çevriləcək. Uşaqlarırn daxilindəki ülvi hissləri öldürmək yerinə, onları daha da inkişaf etdirmək valideynlərin əsas vəzifələrindəndir.

Uşaqların çox şeyləri təqlid vasitəsilə mənimsədiyi məlumdur. Onlar valideynlərinə, müəllimlərinə, eləcə də ətrafında daim var olan digər insanlara baxıb onları təkrarlamağı sevirlər. Çünki uşaqlar eşitdiklərindən daha çox, gördüklərini həyat prinsipi kimi qəbul edirlər. Hekayədəki Lorxen anasının qulluqçuları daim alçaltmasına, onlara təşəkkür etmək əvəzinə təhqir etməsinə dəfələrlə şahid olur və daha sonra o özü də ona xidmət edən insanları dəyərsiz hesab edərək anasının davranışlarını təkrarlayır. Deyə bilərik ki, uşaq bir növ həyata valideyninin eynəyi ilə baxır.

Uşaqlara insan sevgisinin aşılanması tərbiyənin ayrılmaz hissəsidir. Valideynlərin daim insanları pisləməsi, yoxsulları alçaltması və zəhmətkeş insanlara hörmətsizlik göstərməsi uşağın xarakterində təkəbbür, laqeydlik və mərhəmətsizlik yaradır. Ona görə də uşaqlarının xeyirxah və mərhəmətli insan olmasını istəyən valideyn əvvəlcə özü insanlara qarşı sevgi, hörmət, anlayış, şəfqət nümayiş etdirməlidir.

VI BÖLMƏ
UŞAQLARA QƏDDARLIĞI ÖYRƏTMƏYİN YOLLARI

Onlarda hələ kiçik yaşlarından günahsız canlıların ağrı-acısından həzz almaq xisləti yaradın

Kilian adlı bir nəfər var idi. Kənddə hamının yekdil fikrinə görə, o, əsl qəddar idi. Canlılara əzab verməkdən böyük zövq alırdı. Kilsədə musiqi səslənəndə adətən mürgüləyərdi, amma haradasa bir bədbəxtin iniltisini eşidən kimi üzünə təbəssüm qonardı, sanki bundan həzz alardı. Nahardan sonra ən sevimli əyləncəsi itini qulaqlarından tutub havaya qaldırmaq və bərk-bərk silkələmək idi. İt nə qədər yazıq-yazıq zingildəyirdisə, Kilianın gözləri bir o qədər parıldayırdı. Dişlərini qıcayıb heyvanı ta taqətdən düşənə qədər silkələyirdi.

At belinə bir saatlıq minməli olsa belə, atın ağzından köpük gələnədək çapardı. Atdan düşəndə isə ilk işi atın qan içində olan mahmızlarına baxmaq olardı. Arabasına başqa kəndlilərdən ikiqat artıq yük yükləyərdi. Atlar yorulub dayanmaq istəyəndə əlində qol qalınlığında dəyənəklə onların üstünə cumar, elə amansızlıqla döyərdi ki, ətrafdakılar bu mənzərəyə baxmağa dözməyib üzlərini çevirərdilər. Buna görə də atlarının bədənində boşqab boyda yaralar olardı. O isə hər dəfə onların yanından keçərkən həmin yaralara baxmadan ötüb keçməzdi; elə bil bu dəhşətli mənzərə onun üçün xoş bir tamaşa idi.

Arvadı onun döymələri və hədələri ucbatından tamamilə əldən düşmüşdü. Son doğuşundan sonra sağlamlığını birdəfəlik itirdi. Çünki bir dəfə açarı itirdiyinə görə Kilian onu saçlarından tutub yataqdan dartmış, başını qapının arasına sıxmış, boynuna mişar dirəyərək boğazını kəsəcəyi ilə hədələmişdi.

Uşaqlarını cəzalandıranda – bunu çox tez-tez edərdi – onların əllərini bağlayar, havadan asar və kəndirlə elə vəhşicəsinə döyərdi ki, bəzən yazıq uşaqların ağızlarından köpük gələrdi. Bir dəfə çəmənlikdə ot yığan qulluqçusunu elə döymüşdü ki, qadın yarımcan halda yerə sərilmiş, çox böyük çətinliklə onu birtəhər həyata qaytara bilmişdilər.

Meyvələrindən kiminsə oğurladığını hiss edəndə bağında tələ qurar, hər səhər kiminsə gülləyə tuş gəlmədiyini görəndə isə əsəbiləşərdi. Onun ən çox işlətdiyi hədə bunlar idi:

– Gözlə, səni tikə-tikə doğrayacağam!

– Bir əlimə keç, bıçağı bədənində elə fırladaram ki...

Qohumları ona tez-tez deyirdilər: "Bu vəhşiliyindən əl çəkməsən, axırın yaxşı olmayacaq". O isə həmişə eyni cavabı verirdi: "Nə olacaqsa, olsun! Onsuz da, bir gün öləcəyəm. İstər yataqda ölüm, istər dar ağacında, istər edam meydanında – mənim üçün fərqi yoxdur".

Belə qeyri-adi bir adamın tərbiyəsi də, yəqin ki, qeyri-adi olmuşdu. Çünki adi tərbiyə üsulları çox qəribə insanlar yetişdirsə də, Kilian kimi qansız bir insana nadir hallarda rast gəlinir. Uzun müddət onun uşaqlığı haqqında məlumat toplamağa çalışdım, amma alınmadı. Nəhayət, bir gün onun köhnə məktəb yoldaşlarından biri ilə rastlaşdım və soruşdum:

– Kilianın belə zülmkar bir adam olmasının səbəbini bilirsinizmi?

O cavab verdi:

– Bunu təxmin etmək çətin deyil. Atasında da bir yaxşı xüsusiyyət yox idi. Allah rəhmət eləsin, amma o da insanlara əziyyət verməkdən zövq alardı. Oğullarından ikisi onun yanında qalmağa dözməyib evdən qaçmış, dənizçi olmuşdu.

– Deməli, Kilianın qəddarlığının haradan gəldiyi indi aydın olur.

– Bəs yadınızdadırmı, atası uşaqkən onunla necə davranırdı?

– Əlbəttə. Mən tez-tez onların evinə gedirdim, qonşu uşaqları idik. Kilian evin ən kiçiyi idi və atası onu sevindirmək üçün hər yerdən nələrsə gətirərdi.

– Məsələn?

– Quş yuvalarını dağıdar, balalarını gətirib Kiliana verərdi. Kilian isə onları yolar, qanadlarını və ayaqlarını kəsər, yazıq balalar çırpınıb civildədikcə qəşş edib gülərdi. Balaca it balalarını da ona gətirər, onlara işgəncə verməsinə də icazə verərdi. Yazıq heyvanlara ürəyim yanırdı. Göyərçin kəsəndə də onu dərhal öldürməzdi. Əvvəlcə qanadlarını sındırar, sonra oyuncağ əvəzi Kiliana verərdi. Toyuq kəsəndə isə boğazını yarıya qədər kəsib buraxardı ki, qan içində qaçsın. Sonra oğlu ilə oturub yazıq heyvanın canvermə çırpınışlarına baxaraq qəhqəhə çəkərdilər.

– Elə isə Kilianın belə bir zalıma çevrilməsinə təəccüblənmək lazım deyil. Kim uşaq yaşlarından balaca quşun qorxudan çıxardığı civiltisindən və ya it balasının zingiltisindən

zövq almağa alışarsa, böyüyəndə də həm insanlara, həm də heyvanlara əzab verən bir zalıma çevrilər.

"UŞAQLARA QƏDDARLIĞI ÖYRƏTMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Salzman uşaqları qəddarlığa sövq edən səbəb kimi digər canlılara əziyyət verməyi göstərir. Çünki ona məlum idi ki, qəddarlıq fitri xüsusiyyət deyil, sonradan yanlış davranışların nəticəsi kimi yaranır. Və uşaqlara canlılara mərhəmətli münasibət aşılanmazsa, zamanla onlar başqalarının ağrısına laqeyd və hətta ondan zövq alan insanlara çevrilə bilərlər.

Hekayədəki Kilian uşaqlıqdan atası tərəfindən heyvanlara işgəncə etməyə təşviq edilir, canlıların əzabını adi bir əyləncə kimi qəbul etməyə alışdırılır. Nəticədə, onda mərhəmət hissi inkişaf etmək əvəzinə, ağrı və zorakılıq normal davranış formasına çevrilir. Bu da göstərir ki, insanda qəddarlıq öz-özünə və ya təsadüfən yaranmır.

Uşaq əvvəlcə heyvanlara münasibəti öyrənir, sonra isə bu münasibəti insanlara da tətbiq edir. Demək ki, uşaqkən heyvanlara münasibət insanın gələcəkdə insanlarla münasibətinin, bir növ, məşq prosesidir. Kilianın heyvanlara etdiyi işgəncələrin sonradan həyat yoldaşına, uşaqlarına və ətrafındakı insanlara qarşı zorakılıq şəklində təzahür etməsi bu fikri bir daha təsdiqləyir.

Ümumiyyətlə, övlad tərbiyəsi detallı prosesdir; uşaqlarda heyvanlara münasibət sonradan insana münasibətin təməlini yaratdığı kimi, onların oyun adı altında etdikləri hərəkətlər də

gələcək xarakterlərini formalaşdırır. Buna görə uşaqların hansı oyunları oynaması da mühüm məsələdir. Fiziki oyunları bir kənara qoysaq, müasir dönəmdə rəqəmsal oyunların geniş yayıldığı və uşaqların əsas əyləncə vasitəsinə çevrildiyini nəzərə alsaq, deyə bilərik ki, bu gün valideynlər daha da diqqətli olmalı, övladlarının hansı mobil oyunlardan istifadə etdiklərinə nəzarəti əldən verməməlidirlər. İstər fiziki, istərsə də rəqəmsal oyunlar, ümumiyyətlə, uşaqların əyləncə fəaliyyətləri onlarda mənfi xüsusiyyətlərin formalaşmasına təkan verəcək funksiyalara malik olmamalıdır.

Bizə məlum oldu ki, mərhəmət də, qəddarlıq da böyük ölçüdə tərbiyənin məhsuludur. Uşaqlıqdan canlıların əzabına laqeyd qalan və ya bundan həzz almağa alışdırılan insanın gələcəkdə zorakılığa meyilli olması ehtimalı daha böyükdür.

Bizcə, müəllif oxucuya belə bir mesaj verir: uşağın xarakteri onun gündəlik gördüyü nümunələrlə formalaşır. Əgər valideyn uşağa hər bir canlının həyatına hörmət etməyi öyrədərsə, o, gələcəkdə mərhəmətli və vicdanlı bir insan kimi yetişər; əks halda isə qəddarlıq onun adi davranış formasına çevrilə bilər.

VII BÖLMƏ
UŞAQLARI QISASÇI ETMƏYİN YOLLARI

Uşaqlar qəzəblənəndə onlara hirslərini çıxara biləcəkləri bir şey verin

1-ci hekayə

Balaca Qustav yıxılanda və ya harasa əli-ayağı dəyəndə elə bərkdən ağlayardı ki, bütün ev əhli ayağa qalxardı. Valideynləri dərhal onun yanına qaçar, narahat olar və onu sakitləşdirməyə çalışardılar. Əvvəl soruşardılar: "Nəyin üstünə yıxıldın? Nəyə dəydin?" Sonra bir qamçı və ya çubuq götürüb Qustavı incidən əşyanı döyməyə başlayardılar: "Andıra qalmış daş! Qustavı sən yıxdın? İndi sənin cəzanı verərəm!... Sovxa stul! Mənim balamın başına sən dəydin? Səni elə döyəcəyəm ki, canın çıxsın!" Belə deyər, sonra qamçını Qustavın öz əlinə verərdilər ki, o da həmin əşyanı döysün. Bundan sonra uşaq sakitləşərdi.

2-ci hekayə

Qustav heç vaxt anası üzünü yumaq istəyəndə olduğu qədər hövsələsiz olmurdu. Anası isə onun inadını qırmaq, üzünü öz ehtiyatsızlığı ucbatından çirkləndirdiyini başa salmaq əvəzinə, günahı yazıq itin üstünə atardı: "Bax, o alçaq it yenə gəlib sənin üzünü çirkləndirib! Amma gözlə, biz onun cəzasını verəcəyik!" Qustav dərhal itə baxardı. Üzü silinən kimi fağır

heyvanı döyməyə başlayardı. Beləcə tədricən o, başına xoşagəlməz bir hadisə gələn kimi bunu yaxınlığında olan ilk şeyin üstünə atmaq və hücum edib acığını ondan çıxmaq vərdişi qazandı.

Yanında ən çox qulluqçu olduğu üçün bu qəzəbin acısını adətən o çəkirdi. Qustav onu vurur, cırmaqlayır, dişləyirdi. Anası isə bunu dəfələrlə görsə də, burada qeyri-adi və ya ədəbdən kənar bir davranış görmürdü.

İndi isə o, heç nəyi cəzasız qoya bilmir. Atasından ona qalan var-dövlət, üstəlik varlı bir qohumundan miras aldığı xeyli sərvət də cərimələrə və məhkəmə xərclərinə sərf olunub qurtardı. Nəhayət, evi də satıldı və indi o, qohumlarının arabir ona verdiyi yardımla çox ağır şəraitdə dolanmağa məcburdur. Beləliklə, indi o, tez-tez ən acı istehzalara və ən ağır məzəmmətlərə dözməli olur. Buna qarşı isə dişlərini sıxmaqdan və yumruğunu hədələyici şəkildə düyünləməkdən başqa əlindən heç nə gəlmir.

"UŞAQLARI QISASÇI ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Bu bölmədə müəllif uşaqlarda qisasçılıq və aqressiv davranışın necə formalaşdığını izah edir: uşağın qəzəbini düzgün istiqamətləndirmək əvəzinə onu zorakılığa təşviq etmək gələcəkdə ciddi xarakter problemlərinə səbəb olur. İnsan kiçik yaşlarından acığını başqalarından çıxarmağa alışırsa, zamanla bu davranış onun xarakterinin ayrılmaz hissəsinə çevrilir.

Qədim Sparta dövləti tarixdə hər zaman döyüşkənliyi ilə tanınır. Spartada uşaqlara döyüşmək, qisas almaq, mərhəmətsiz olmaq kiçik yaşlardan öyrədilirdi. Nəticədə, güclü döyüşçülər yetişirdi. Bu tarixi nümunə göstərir ki, uşaqlıqda öyrədilən davranış sonrakı xarakterin əsasını təşkil edir.

Uşaqlıqda valideynlər tərəfindən öyrədilən davranışlar xüsusi əhəmiyyət kəsb edir. Çünki uşaq üçün valideynlərinin əməlləri "norma"dır. Yəni əgər ata-ana bunu edirsə, deməli, bu, yaxşıdır.

Hekayədə valideynləri Qustavı sakitləşdirmək üçün onu incidən əşyanı "döyür", sonra isə həmin işi uşağın özünə etdirirlər. Bu, zahirən sadə təsəlli üsulu kimi görünsə də, əslində, uşağa "səni incidən hər şeyi cəzalandırmalısan" düşüncəsini aşılayır.

Uşaq zatən müşahidə yolu ilə öyrənir, yəni onun gözləri önündə nəyəsə şiddət göstərmək uşağı şiddətə meyilli birinə çevirməyə bəs edir. Bu azmış kimi, ana uşağın özünə də şiddəti praktika etdirir. Bu artıq şiddətin uşağın canına-qanına hopması deməkdir.

İkinci hekayədə ana uşağın üst-başını bulamasına görə məsuliyyəti itin üzərinə atır və Qustav da günahsız heyvana qarşı zorakılıq göstərməyə başlayır. Sonralar isə bu davranış insanlara da yönəlir: o, qəzəbini ən zəif və özünü müdafiə edə bilməyən şəxslərin üzərinə tökür.

Yuxarıda qeyd olunan davranışlar uşaqda məsuliyyətdən qaçmaq vərdişi formalaşdırır. Valideyn baş verən hadisələrin səbəbini uşağa izah etmək əvəzinə, günahı başqasının üzərinə

atır, bundan sonra uşaq problemlərinin səbəbini həmişə kənarda axtarmağa başlayır.

Uşağa emosiyalarını, o cümlədən qəzəb hissini düzgün idarə etməyi öyrətmək tərbiyənin vacib bir hissəsidir. Uşağa hər narahatlığın cavabının intiqam və ya zorakılıq olmadığını başa salmaq, səbəbləri anlamağı və problemləri sakit şəkildə həll etməyi öyrətmək lazımdır. Əks halda o, həm məsuliyyətdən yayınmağa, həm də qəzəbini günahsız insanlardan çıxarmağa alışacaq.

Tərbiyə cəzalandırmaqdan daha çox, öyrətməkdir. Cəza da olmalıdır, lakin əgər məqsədi insanı islahıdırsa. Amerikalı psixoloq Daniel Siegel yazır: "Biz çox vaxt unuduruq ki, tərbiyə əslində cəzalandırmaq deyil, öyrətmək deməkdir".[6] Valideyn uşaqlarının səhvlərini cəzadan daha çox, anlayış və doğru olanı öyrətmək hissi ilə qarşılamalıdır. Uşaqda əminlik yaranmalıdır ki, səhv etdikdə ata-anası onu yenə sevəcək və sadəcə, səhvini düzəltmək üçün çalışacaqlar. Bu halda uşaq səhvlərini etiraf etməkdən çəkinmirlər və onların səhv edib düzgünü öyrənmə imkanı yaranır. İstənilən halda valideyn bilməlidir ki, İmam Əlinin dediyi kimi, "Gənc insanın (uşağın) qəlbi boş torpaq kimidir; ora nə atılsa (əkilsə), onu qəbul edər".[7]

[6] Siegel, Daniel J.; Bryson, Tina Payne. The Whole-Brain Child: 12 Revolutionary Strategies to Nurture Your Child's Developing Mind. New York: Delacorte Press, 2011. S. 139.

[7] Nəhcül-Bəlağə, 31-ci məktub

VIII BÖLMƏ
UŞAQLARA PAXILLIĞI ÖYRƏTMƏYİN YOLLARI

Başqalarının xoşbəxtliyini uşaqlara böyük bir bədbəxtlik kimi təqdim edin

Xanım Eleonora geyiminə və evinin bər-bəzəyinə həddindən artıq həvəs göstərirdi. Halbuki qazancı yalnız ən zəruri xərclərini güclə ödəməyə çatırdı. Bu vəziyyət onu çox narahat edirdi. Amma əgər başqaları da onun kimi çətinliklə dolansaydılar, bu dərdini asanlıqla unudardı. Lakin belə deyildi. O, daim eşidirdi ki, filankəsin böyük gəliri var, kiməsə miras qalıb, biri varlı ailəyə gəlin gedib, digəri lotereya udub. O isə belə xəbərlər haqqında deyərdi: "Bunların hər biri mənim tabutuma vurulan bir mismardır".

Evlərinin qarşısında bacısıgil yaşayırdı. Bacısının həyat yoldaşı məşhur bir tacir idi. Onun dükanı, demək olar ki, heç vaxt boş qalmazdı. Çünki çox mehriban adam idi və xoş rəftarı ilə getdikcə daha çox alıcı cəlb edirdi.

Xanım Eleonora qızı Fielxenlə birlikdə pəncərənin önündə oturub dükanı seyr edərdi. Dükana varlı görünən bir müştəri girən kimi ürəyi sancardı və ah çəkərək deyərdi: "Doğrudan da, başqalarının hər işi ürəkləri istəyən kimi gedir! Bax, bacım özünü böyük xanım kimi aparır. Hamı onun yanına gəlir, hamı ona pul gətirir. Bəs mənə kim nə gətirir?"

Bir gün eşitdi ki, qonşusu varlı bir əmisi oğlundan üç min taler[8] miras alıb. Bu xəbər onu tamam əldən saldı. Əlləri əsə-əsə evə qayıdıb qızına dedi: "Fielxen, təsəvvür edirsən? O qonşu qadın var ha, elə lovğalanır ki, sanki ayağı yerə dəymir, üç min taler miras alıb! İnsan bu dünyaya baxanda dəli olar! İndi gör necə hay-küy salacaq! Güzgülər, komodlar alacaq! Bax gör özünü necə bəzəyəcək! Mən artıq bu dəhşətə baxa bilmirəm. Yalnız sənə yazığım gəlir, ay qızım... – göz yaşlarına boğuldu, – Sənə yazığım gəlir ki, belə ədalətsiz dünyada bu cür adamların arasında yaşamalısan!"

Bir müddət sonra bacısıqızının saray müşaviri ilə evlənəcəyini eşidəndə isə huşunu itirib yerə yıxıldı və qıcolmalar keçirdi. Fielxen əslində çox ürəyitəmiz bir qız idi. Anasının halına acıyırdı. Anası ağlayanda o da ağlayırdı. Anası başqalarını pisləyəndə o da ona qoşulurdu. Çünki bununla anasının halını bir qədər yüngülləşdirəcəyini düşünürdü. Lakin belə tərbiyənin nəticəsində Fielxenin qəlbində paxıllıq yaranmağa başladı. Bu hiss insanı içəridən yeyib-bitirən bir duyğudur.

Fielxen də gündən-günə taqətdən düşməyə başladı. Əvvəllər yanaqlarını bəzəyən allıq yox oldu, sifəti saralmağa başladı. Başqa cür ola da bilməzdi. Yazıq qızın xoşhal bir günü qalmamışdı. Hər gün təzə bir xəbərdən narahat olurdu. Bir rəfiqəsi varlı bir adamla evlənirdi. Başqa bir qohumu özünə yeni paltar alırdı. Biri mirasa sahib olurdu. Digəri lotereyada udurdu.

[8] Taler (thaler) – XVIII–XIX əsrlərdə Almaniya və Mərkəzi Avropanın bir çox dövlətlərində istifadə olunan iri gümüş pul vahidi. Sonralar bu sözdən "dollar" sözü yaranmışdır.

Başqa insanlar üçün bunlar adi xəbərlər idi. Amma Fielxen hər dəfə bunlara görə daxilən əzab çəkirdi. O, bir dəfə demişdi: "Keçmiş rəfiqəm bazar meydanındakı o böyük evi aldığı gündən bəri elə bil ürəyimi qurd gəmirir. Gözümə yuxu getmir". Həmin il güclü tufanlar baş verəndə isə özünü belə təsəlli edirdi: "Bəlkə, Allah nəhayət onların da cəzasını verər, o evə ildırım düşər". Amma bu da baş vermədi.

Belə bir dünyada – ətrafında bu qədər xoşbəxt insan, bu qədər gülərüz sima görə-görə – Fielxe necə uzun müddət yaşaya bilərdi? Kilsə kitabındakı qeydə görə, o, 22 yaş 4 ay 5 günlük ikən vərəm xəstəliyindən vəfat etdi.

"UŞAQLARA PAXILLIĞI ÖYRƏTMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Salzman bu bölmədə valideynin başqalarının uğurunu sevinclə deyil, narahatlıq və qəzəblə qarşılamasını uşaqda yaranan paxıllığın əsas səbəbi kimi göstərir. Valideynin qoyduğu izlə gedən, həyata ata-anasının gözü ilə baxan uşaq da valideyni kimi başqasının xoşbəxtliyini öz bədbəxtliyi, başqalarının uğurunu öz uğursuzluğu kimi görür. Belə insanlar daim həyatdan şikayətlənir, kimsə xoş bir an yaşayanda bunu həyatın ədalətsizliyi hesab edir (hekayədəki Fielxen kimi).

Paxıllıq insanın hüzurunu, daxili sakitliyini, aram yaşamını əlindən alan, onu bir ömür bədbəxtliyə sürükləyən və psixoloji sağlamlığından məhrum edən bir hissdir. Hətta bu hissin təhriki ilə tarixən neçə-neçə saraylarda qardaşlar bir-birinin canına susamış, qətliamlar törətmişlər. Hz. Yusifi quyuya atan

qardaşlarının da bu işi görməyinə paxıllıqları səbəb olmuşdu. Unutmayaq ki, bəşər tarixinin ilk qətli də paxıllıq səbəbindən baş vermişdi: Adəm peyğəmbərin övladlarından Qabil öz qardaşı Habili öldürmüşdü. Britaniyalı filosof Bertrand Rassel deyirdi ki, "paxıllıq bədbəxtliyin ən güclü səbəblərindən biridir".[9] Bir atalar sözündə deyilir ki, özgənin çırağına baxan öz evini qaranlıq qoyar. Paxıl insan başqalarının həyatına o qədər köklənir ki, öz həyatının gözəlliklərini görə bilmir. Başqasının hər uğuru onun daxilində yeni narahatlıq yaradır və bu hiss zamanla bütün həyatını zəbt edir. Paxıllıq paxıllıq edilənə deyil, paxıllıq edənə zərər verir.

Valideyn uşağına başqasının uğuruna sevinməyi öyrətməlidir ki, uşaq həsəd və paxıllıqdan uzaq olsun. Uşaqlar başqa insanların xoşbəxtliyini təhlükə kimi deyil, həyatın təbii bir hissəsi kimi qəbul etməli, hətta bunu sevinclə qarşılamalıdırlar. Başqasının xoş gününə sevinməyi bacaran insan heç nə itirmir; əksinə, öz mənəvi zənginliyini və həyat sevincini daha da artırır. Araşdırmalar da göstərir ki, insan başqasının uğuruna səmimi-qəlbdən sevindikdə beyində müsbət emosiyalarla əlaqəli sistemlər aktivləşir, stress hormonlarının səviyyəsi azalır və sosial bağlılıq hissi güclənir.[10]

Salzmana görə, uşaq müqayisə etməyi doğulduğu gündən bilmir, bunu ailədə öyrənir. Valideyn "Filankəs bizdən yaxşı

[9] Bertrand Russell. The Conquest of Happiness. London: George Allen & Unwin, 1930. Chapter 5, "Envy"

[10] Fredrickson, B. L. (2001). The Role of Positive Emotions in Positive Psychology: The Broaden-and-Build Theory of Positive Emotions. American Psychologist, 56(3), 218–226.

yaşayır", "Onların hər şeyi var", "Qonşu təzə maşın alıb", "Camaat qaz vurub qazan doldurur" kimi sözlər yerinə, "Nə gözəl, filankəs zəhmətinin bəhrəsini görüb", "Biz də onun uğurundan nələrsə öyrənə bilərik", "Hər kəsin öz həyatı, öz qisməti var" deyərsə, uşaq başqasının uğuruna sevinməyi və onu inkişaf üçün nümunə kimi qəbul etməyi öyrənər.

Salzmanın XVIII əsrdə haqqında danışdığı problem üçün bu gün – XXI əsrdə daha da geniş imkanlar yaranmışdır. Bu imkanı yaradan birinci amil sosial şəbəkələrdir ki, insanlar burada bütün günü başqalarının həyatını izləyir. Nəticədə, bu gün uşaqlar valideynlərin sosial platformalarda başqa adamların həyatına baxıb verdikləri reaksiyaları da müşahidə edirlər. Valideyn özgəsinin maşınına, evinə, səyahətinə, uğuruna kinayə ilə yanaşırsa, uşaqda da insanlara münasibət bu istiqamətdə formalaşır. Ona görə də valideynlər bu məsələdə diqqətli olmalıdırlar. Yaxşı olar ki, insan başqalarının həyatını heç analiz etməsin, öz həyatına fokuslansın. Etsə də, heç olmasa uşaqlarının buna şahid olmasına şərait yaratmasın.

IX BÖLMƏ
UŞAQLARA BAŞQALARININ BƏDBƏXTLİYİNƏ SEVİNMƏYİ ÖYRƏTMƏYİN YOLLARI

Uşaqları öncə başqalarının xoşbəxtliyindən narahat olan birinə çevirin. Çox keçmədən başqalarının bədbəxtliyinə də sevinməyə başlayacaqlar

Bu, tamamilə təbiidir. Çünki insan başqasının xoşbəxtliyinə dözə bilmirsə, istər-istəməz onun bədbəxt olmasını da arzulayacaq. Arzusu həyata keçəndə isə buna sevinəcək.

Bunun ən bariz nümunəsi paxıl Fielxendir. Onun qəmli həyatında üzünü bəzən güldürən yeganə şey haradasa kiminsə ya öz günahı ucbatından, ya da bədbəxt bir hadisə nəticəsində çətin vəziyyətə düşməsi idi. Anasını az qala dərddən öldürəcək həmin saray müşavirinin xanımı – Fielxenin xalası dul qalanda onun çöhrəsi işıqlandı. "Doğrudanmı? – deyə ona bu xəbəri ilk gətirən qadından soruşdu. – Doğrudanmı? Hə, saray müşavirinin xanımı, buyur, al cavabını! Mən heç kəsə pislik arzulamaram, amma buna elə belə də lazımdır. O qadının lovğalığı dözüləcək həddə deyildi. İndi görək necə olacaq. Artıq yaxşı gəlir mənbəyi kəsildi. Rahat həyata öyrəşmişdi. Mən heç nəticəsinin necə olacağını düşünmək də istəmirəm. O böyük saray müşavirinin xanımı axırda gedib zibilliklərdə can verəcək". Bu fikirlərin təsiri ilə onun ürəyi nişanlısını qucaqlayan gəlinin ürəyi kimi sevinclə döyünürdü.

Adətən, qonaq qəbul etməyi sevməsə də, bu dəfə ona bu şad xəbəri gətirən qadını buraxmadı. Onu süfrəyə dəvət etdi və bütün axşamı onunla keçirdi. Bu Fielxen üçün möhtəşəm bir axşam idi. Həmin gün şəhərdəki neçə-neçə ailə onların qeybət mövzusuna çevrildi. Başqalarının bilmədiyi xeyli xəbərlər danışıldı. Bir çox ailə haqqında belə deyildi: "Bunların ömrü uzun olmayacaq. Görərsiniz, hələ mən onların şəhərdən getdiklərini də görəcəyəm. Yadda saxlayın sözümü, xanım Urzel!"

Bir dəfə də, şəhərdə gəzən söz-söhbətlərə görə, gənc Rebekka müflis olmuşdu. Fielxen həmin gün axşama qədər evə qayıtmadı. Küçələri dolaşırdı: bir tərəfdən bu "xoş xəbəri" elə həmin gün bütün şəhərə yaymaq istəyir, digər tərəfdən isə özü də hadisənin təfərrüatını öyrənməyə çalışırdı.

Beləliklə, aydın olur ki, insan övladının başqasının bədbəxtliyinə sevinməsini istəyirsə, əvvəlcə onun qəlbində paxıllıq hissini yetişdirməlidir.

"UŞAQLARA BAŞQALARININ BƏDBƏXTLİYİNƏ SEVİNMƏYİ ÖYRƏTMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Əvvəlki bölmədə paxıllıqdan bəhs edən müəllif bu bölmədə paxıllığın son mərhələsini – başqalarının bədbəxtliyinə sevinməyi təsvir edir. O göstərir ki, insan paxıllıq edib başqalarının uğurunu qəbul edə bilmədikdə zamanla onların uğursuzluğunu arzulamağa başlayır. Beləliklə, başqasının bədbəxtliyi onun üçün təsəlli və sevinc mənbəyinə çevrilir. Adətən, bu

xüsusiyyət də ailədə formalaşmış yanlış tərbiyənin nəticəsi olur.

Əvvəlki hekayədə paxıl kimi təqdim olunan Fielxenin mənfi xarakteri get-gedə daha da pisləşir. O, başqalarının uğursuzluğunu eşidəndə, kədərlənmək bir yana qalsın, məmnunluq duyur, insanların bədbəxtliyi onun üçün xoş xəbərə çevrilir. Bu da paxıllığın insanın mənəvi dünyasını tədricən dəyişməsi, tənəzzülə uğratması deməkdir. Buradan belə bir nəticə almaq mümkündür ki, mənfi xüsusiyyətlər stabil qalmır, onlar tədricən daha da dərinləşir. Ona görə də övladlarına pis xüsusiyyətlər aşılayan valideynlər onlara göründüyündən daha çox zərər vermiş olurlar. Valideynlərin yanlış davranışı nəticəsində yaranmış bir mənfi xislət get-getə daha da dərinləşə, insanın bütün həyatını məhv edəcək səviyyəyə gəlib çata bilər.

X BÖLMƏ
UŞAQLARDA BƏZİ HEYVANLARA QARŞI QORXU YARATMAĞIN YOLLARI

Uşaqları inandırın ki, həmin heyvanlar zəhərlidir

Vilhelmin atasının otağında siçanlar peyda olmuşdu. Atası onları tutmaq üçün tələ qururdu. Vilhelm yaxınlaşıb soruşdu:

– Ata, nə edirsən?

– Otağıma girən siçanları tutmaq üçün tələ qururam.

– Yazıq heyvanlar axı sənə heç nə etməyiblər.

– Hələ ki etməyiblər, amma edə bilərlər. Paltarlarıma və ya paltar sandığımdakı əşyalara yol tapsalar, hamısını deşərlər.

– Deməli, belə... Mən bunu bilmirdim. Bəs siçanlar bu tələyə necə düşürlər?

– Bax, qarmağa bir parça piy keçirirəm. Siçan onun iyini alıb gəlir ki, piyi yesin. Elə qarmağı dartan kimi – şapp! – tələ bağlanır və siçan içəridə qalır.

Vilhelm bunu yadında saxladı. Səhər tezdən yataqdan sıçrayıb qalxdı ki, görsün, tələyə siçan düşüb, ya yox. Tələyə bir siçan düşmüşdü. Bu, onu çox sevindirdi. Siçanı çıxarıb sığalladı, qulaqlarına, balaca pəncələrinə, iti dişlərinə və ağ tüklərinə heyranlıqla baxdı. Sonra onu anasına göstərmək üçün pilləkənlərlə yuxarı qalxmağa başladı. Ancaq otağa daxil olan kimi anası elə dəhşətlə qışqırdı ki, səsi bağçada işləyən ataya qədər getdi: “Ay aman! Ay aman! Siçan! Siçan! At onu yerə!

O, zəhərlidir! Ürəyimi ağzıma gətirdin! Məni necə qorxutdun! Heç siçana əl vurarlar? Onların quyruğunda zəhər var!" Yazıq Vilhelm donub qaldı. Üzü əhəng kimi ağardı və indicə sevə-sevə baxdığı siçana artıq əqrəbə baxan kimi dəhşətlə baxmağa başladı.

Bağdan səsə gələn atası əlindən gələni etdi ki, Vilhelmi siçanı götürüb küçəyə atmağa razı salsın. Amma heç nə alınmadı. Sonra ona bir kisə qoz verəcəyini vəd etdi. Bu vəd Vilhelmi razı salsa da, o bunu çox ehtiyatla edirdi. Barmaqları siçana azca yaxınlaşan kimi qorxu içində əllərini geri çəkib dedi: "Ay aman!.. Mən o iyrənc şeyə toxuna bilmirəm... Axı o zəhərlidir!"

Bu siçan qorxusu onu böyüyəndən sonra da tərk etmədi. Haradasa siçan görəndə on addım geri sıçrayır, əgər təsadüfən əlinə-ayağına siçan toxunsa, qorxudan huşunu itirirdi. Dostları isə bunun irsi xüsusiyyət olduğunu düşünürdülər.

"UŞAQLARDA BƏZİ HEYVANLARA QARŞI QORXU YARATMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Uşaqlarda əsassız qorxuların necə yarandığından bəhs edən bu bölmədə müəllif göstərir ki, əgər valideyn uşağı təhlükəsiz bir canlı haqqında davamlı olaraq və ya bir dəfə şiddətlə qorxudarsa, bu qorxu zamanla onun xarakterinin bir hissəsinə çevrilə bilər. Hekayədə Vilhelm əvvəlcə siçana maraq və rəğbətlə yanaşır. O, heyvana diqqətlə baxır, onu sığallayır və qorxu hiss etmir. Lakin anasının təşviş dolu reaksiyası və siçanı "zəhərli" adlandırması uşağın düşüncəsini tamamilə

dəyişir. Bir neçə dəqiqə əvvəl onda maraq oyadan heyvan artıq gözündə təhlükəli varlığa çevrilir.

Uşaqlar təhlükəni çox vaxt öz müşahidələri ilə deyil, böyüklərin davranışına əsasən qiymətləndirirlər. İnkişaf psixologiyasında buna "sosial istinad"[11] deyilir: uşağın tanımadığı vəziyyətlərdə necə davranmalı olduğunu böyüklərin üz ifadəsinə, səs tonuna, reaksiyalarına və s. baxaraq öyrənməsi. Məsələn, bir obyektə ana gülümsəyirsə, uşaq ona rahatlıqla yaxınlaşır, ana ondan qorxursa, uşaq da qorxur. Ona görə də valideynlər uşaqların gözü önündə hər davranışlarına diqqət etməlidirlər.

Əlbəttə, uşağa təhlükəli heyvanlar haqqında məlumat vermək lazımdır, lakin bu məlumat həqiqətə əsaslanmalı və qorxu yaratmaqla nəticələnməməli, düzgün davranış öyrətmək məqsədi daşımalıdır. Uşaqları qorumaq adı ilə onları lazımsız qorxularla böyütmək düzgün deyil.

Psixologiyada qorxunun öyrənilməsi barədə "Kiçik Albert" eksperimenti[12] məşhurdur. 1920-ci ildə amerikalı psixoloqlar Con Vatson və Rozali Rayner tərəfindən aparılmış bu ksperimentdə təxminən doqquz aylıq Albert adlı körpənin əvvəlcə ağ siçandan heç bir qorxu hiss etmədiyi müşahidə olunurdu. O, siçana yaxınlaşır, onunla oynayır və maraq göstərirdi. Daha sonra tədqiqatçılar uşağa siçanı göstərdikləri anda yüksək və qorxulu bir səsi çıxardılar. Bu səs körpəni qorxudur

[11] Campos və Stenberg, Perception, Appraisal, and Emotion: The Onset of Social Referencing, 1981, s. 273–314.
[12] Watson, J. B., & Rayner, R. (1920). Conditioned Emotional Reactions. Journal of Experimental Psychology, 3(1), 1–14.

və ağlamağa vadar edirdi. Bu proses bir neçə dəfə təkrarlandıqdan sonra Albert yüksək səs olmadan da siçanı görəndə qorxu keçirir, ağlayır və ondan uzaqlaşmağa çalışırdı.

Bir müddət sonra məlum oldu ki, Albert yalnız ağ siçandan deyil, ona bənzəyən digər tüklü əşyalardan da qorxmağa başlamışdı. Ağ rəngdə olan dovşan, it, xəz palto, hətta Şaxta baba saqqalı belə onda eyni reaksiyanı yaradırdı.

Salzmanın təsvir etdiyi hadisə ilə bu eksperiment arasında oxşarlıq vardır. Hekayədə Vilhelm əvvəlcə siçana maraq göstərir, onu təhlükəli hesab etmir. Lakin anasının təşvişli reaksiyası və siçanı təhlükəli kimi təqdim etməsi uşağın həmin heyvana münasibətini qısa müddətdə dəyişir. Burada qorxu şəxsi təcrübənin nəticəsi deyil, ananın davranışı vasitəsilə formalaşır.

XI BÖLMƏ
UŞAQLARDA BAŞQA DİN MƏNSUBLARINA QARŞI NİFRƏT YARATMAĞIN YOLLARI

I. Uşaqları inandırın ki, Allah onların dinindən olmayan hər kəsə nifrət edir

Xanım Elizabet lüteran məzhəbinə çox bağlı idi və bu dini etiqadın uşaqlarına da keçməsini ürəkdən arzulayırdı. O düşünürdü ki, buna nail olmağın ən yaxşı yolu Allahı yalnız lüteranları sevən, onlardan başqasını gözü götürməyən bir varlıq kimi təqdim etməkdir. Ona görə də uşaqlarına dini dərs keçəndə, İsanın öyrətdiyi kimi, Allahı bütün insanların Atası olaraq tanıtmırdı. Əksinə, onları inandırmağa çalışırdı ki, Allah yalnız lüteranların Atasıdır və lüteran etiqadını qəbul etməyən hər kəsi əbədi əzab çəkmək üçün şeytana təslim ediləcək.

Əvvəllər uşaqlarında buna qarşı müəyyən müqavimət görməsi onu çox məyus edirdi. Böyük qızı Vilhelmina bir dəfə etiraz edib dedi: "Mən islahatçılar, katoliklər, yəhudilər, mennonitlər və hernhutçular arasında çox yaxşı insanlar tanıyıram. Onlar heç kimə pislik etmirlər. Bəs necə ola bilər ki, Allah belə dürüst insanları cəhənnəmə məhkum etsin?" Anası Müqəddəs Kitabdan müxtəlif ayələr gətirərək ona sübut etməyə çalışdı ki, yalnız lüteran inancı həqiqi dindir. Hər bir insan da istəsə, lüteran ola bilər. O səbəbdən bu imkandan istifadə etməyənlər Allah tərəfindən cəzalandırılsalar, buna etiraz etməyə haqları yoxdur.

Bir dəfə oğlu Fridrix daha da irəli gedərək dedi: "Amma müqəddəs Pyotr özü deməyibmi: "Hansı xalqdan olursa-olsun, Allahdan qorxan və doğru iş görən hər kəs Ona məqbuldur". Deməli, İsa Məsih Qiyamət günü insanlardan lüteran, reformist, katolik, yəhudi və ya başqa dinə mənsub olub-olmadıqlarını deyil, qonşularına sevgi və mərhəmət göstərib-göstərmədiklərini soruşacaq". Fridrix bu "çoxbilmişliyinə" görə möhkəm bir sillə aldı. Bu sillənin təsiri ilə bir daha anasını bu cür etirazlarla narahat etmədi.

Vicdanını daha da rahatlatmaq üçün xanım Elizabet uşaqlarına müəllim tutmağa qərar verdi. Əvvəlcə ona çox mehriban və bacarıqlı bir müəllim tövsiyə etdilər. Həmin müəllim iki il ərzində işlədiyi ailənin uşaqlarını çox gözəl tərbiyə etmiş, onların biliklərini xeyli artırmışdı. Xanım Elizabet artıq uşaqlarını ona etibar etməyə hazır idi. Lakin xoşbəxtlikdən tez xəbər tutdu ki, həmin müəllim reformist kilsəsinə gedir. O, axşam dua edərkən uşaqlarının başı üzərini almış bu böyük bəlanı onlardan uzaqlaşdırdığı üçün Allaha ürəkdən şükür etdi.

Ertəsi gün isə dərhal cənab Markolfusu uşaqlarına müəllim və tərbiyəçi kimi təqdim etdi. "Düzdür, davranışları bir qədər kobuddur, hərəkətləri də yöndəmsiz. Üstəlik, elmi biliyi də o qədər dərin deyil. Amma bunların nə əhəmiyyəti var? Əsas odur ki, o, əsl lüterandır. Beləcə, uşaqlarımın ruhunun nicatı[13] barədə vicdanım rahatdır. Bəziləri məni inandırmağa çalışırdı

[13] Ruhun nicat tapması (qurtuluşa, hüzura və əbədi xoşbəxtliyə qovuşması) – insanın həm bu dünyada daxili dinclik tapmasını, həm də axirətdə əbədi səadəti qazanmasını ifadə edən ali bir mənəvi məqamdır.

ki, insanın nicatı sağlam düşüncə və dürüst qəlbdən asılıdır. Amma mən bu cür boş sözlərə əhəmiyyət vermədim. Mənə görə, ruhun nicatı hər şeydən əvvəl lüteran etiqadında olub-olmamağa bağlıdır".

Xanım Elizabet göstərdiyi səylərin bəhrəsini görürdü və bundan çox məmnun idi. Uşaqları əsl lüteran olmayan hər kəsə nifrət edirdilər. Keçən il reformistlər lüteran kilsəsində Müqəddəs Şam yeməyini icra etmək üçün magistratdan[14] icazə alanda bunun qarşısını alanlar arasında ən fəal olanlardan biri onun oğlu idi. Anası da ölüm yatağında, bu işinə görə oğluna xeyir-dua verdi. O bir gün od və kükürdlə əhatələnmiş cəhənnəmdə lüteran olmayan bütün qonşularının yandığını görəcəyi anı səbirsizliklə gözləyirdi.

II. Özünüz də bu məsələdə uşaqlara "yaxşı nümunə" olun

Cənab fon Qutberq vəfat edərkən çoxlu pul miras qoysa da, övladı yox idi. Pulunun faydalı işlərə sərf olunmasını istədiyi üçün vəsiyyətnaməsində müxtəlif göstərişlər vermişdi. Onlardan biri belə idi: 30 000 reyxstalerin[15] illik faiz gəliri öz günahı olmadan yoxsullaşmış insanlara yardım üçün istifadə

[14] Magistrat – XVIII–XIX əsr Almaniyasında şəhərin idarəetmə orqanı. O, bələdiyyə işlərini idarə edir, inzibati və hüquqi məsələlərə baxır, müxtəlif icazələr verirdi.

[15] Reyxstaler (alm. Reichstaler) – Müqəddəs Roma imperiyasında və sonralar bəzi alman dövlətlərində istifadə olunan gümüş pul vahidi.

edilməli idi. Lakin o, mühüm bir səhvə yol vermişdi: bu yardımdan hansı dini məzhəbin nümayəndələrinin yararlana biləcəyini bildirməmişdi.

"Xoşbəxtlikdən" bu vəsaiti bölüşdürmək işi cənab Kriskopfa tapşırılmışdı. O da böyük "diqqətlə" çalışırdı ki, yardımdan yalnız əsl reformistlər faydalansınlar. Əri ölmüş, himayəsində uşaqlar qalmış qadınlar, ata-anasını itirmiş yetimlərin qəyyumları, bədbəxt hadisələr nəticəsində bütün vardövlətini itirmiş ailə başçıları onun yanına kömək istəməyə gəlirdilər. Lakin islahatçı olmadıqları üçün onlara "Hazırda vəsait yoxdur" bəhanəsi ilə rədd cavabı verilirdi. Əvəzində əxlaqsız bir qadın və ya malını-mülkünü israf etmiş bir ailə başçısı kömək istəsə, əgər islahatçı məzhəbinə mənsub idisə, heç bir etiraz edilmədən yardım verilirdi.

Bütün bunlar uşaqlarının gözü qarşısında baş verirdi. Üstəlik, Kriskopf onlara nə üçün yalnız islahatçıları sevmək lazım olduğunu dönə-dönə izah edirdi. Bu gözəl "nümunə" öz nəticəsini verdi. Uşaqlar artıq insanın dəyərini onun zəhmətinə, ağlına və dürüstlüyünə görə deyil, reformist kilsəsinə nə qədər bağlı olduğuna görə ölçürdülər.

Onun böyük qızı Luizenin bir sevdiyi vardı. Həmin gənc sağlamlığı, gözəlliyi, ağlı, çalışqanlığı və dürüstlüyü ilə hamının hörmətini qazanmışdı. Luize onu sevirdi və özünü ondan başqa biri ilə təsəvvür edə bilmirdi. Amma onun lüteran olduğunu öyrənəndə sarsıldı. Sevgisi güclü olduğu üçün birdən-birə sönmədi. Ancaq bu sevginin içinə bir qədər kədər qarışdı, kədər şübhəyə, şübhə isə nəhayət kinə çevrildi. Çünki

o gənc oğlan dini etiqadını dəyişməkdən imtina etdi. Nəticədə, bu evlilik baş tutmadı. Luize ürəyinin səsinə deyil, yalnız öz məzhəbindən olan biri ilə evlənməyin düzgün olduğuna inanaraq bir reformistlə ailə qurdu. Çox keçmədən bədbəxt bir evlilik həyatı yaşamağa başladı. Dərd-qüssə bir neçə il ərzində onu əldən saldı. Lakin bu seçimin nəticələri nə qədər acı olsa da, o, ilk sevgilisindən əl çəkdiyinə görə özünü heç vaxt peşman hiss etmədi. Əksinə, onu qəlbindən çıxara bilməsini özü üçün mənəvi üstünlük sayırdı.

"UŞAQLARDA BAŞQA DİN MƏNSUBLARINA QARŞI NİFRƏT YARATMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Uşaqlarda dini ayrı-seçkilik xüsusiyyətinin yaranmasına təkan verən iki əsas səbəb müəllif tərəfindən diqqət mərkəzinə çəkilir: 1) valideynlərin uşaqları buna inandırması ki, Allah onların dinindən olmayan hər kəsə nifrət edir; 2) valideynlərin bu məsələdə uşaqlara "nümunə" olması.

Dini mənsubiyyət insanın şəxsiyyətindən üstün deyil. Bura yalnız dini deyil, eləcə də milli mənsubiyyət, irq, dil, siyasi baxış və digər sosial kimliklər aid edilə bilər. İnsana qiymət onun sərgilədiyi şəxsiyyət görə verilməlidir; nəinki onun fərqli bir dildə danışması, fərqli dinə sitayiş etməsi, fərqli milliyyətə sahib olması və s. kimi məsələlərə görə. Bu fikir uşaqlara da bu cür aşılanmalıdır. Onlara hər hansı dini və ya ideo-

loji kimliyi mütləq həqiqət, digərlərini isə düşmən kimi təqdim etmək onlarda dözümsüzlük və nifrət hissi formalaşdırır və multikultural dəyərlərdən məhrumiyyətə gətirib çıxarır.

Uşaqlar kiçik yaşlarından müəyyən qrupa aid olmağı öyrənirlər. Bu, normal inkişaf prosesidir. Lakin valideyn ona yalnız öz qrupunun doğru, digərlərinin isə təhlükəli və ya dəyərsiz olduğunu aşıladıqda, bu mənsubiyyət fanatizmə çevrilə bilər.

Müasir inkişaf psixologiyası göstərir ki, uşaqların əxlaqi düşüncəsi zamanla inkişaf edir. Erkən yaşlarda onlar dünyanı "doğru" və "yanlış" kimi kəskin şəkildə iki yerə ayırmağa meyllidirlər. Valideyn onların bu xüsusiyyətindən istifadə edərək başqa din və digər sosial qrupları "pis insanlar" kimi təqdim etdikdə uşaq bunu sorğulamadan qəbul edir. Sonradan bu qəlibləri dəyişmək olduqca çətin olur.

Birinci hekayədə uşaqlar: Vilhelmina və Fridrix əvvəlcə insanların davranışını (əməlini) dini kimlikdən üstün tuturlar. Onların verdiyi suallar sanki uşaq təfəkküründün ədalət axtarışıdır. Lakin bu suallar dialoq yolu ilə müzakirə olunmaq yerinə, avtoritar yanaşma və cəza ilə susdurulur. Psixoloji baxımdan bu, uşağın tənqidi düşüncəsinin zəiflədir və itaət hissinin əxlaqın yerini tutmasına səbəb olur.

İkinci hekayədə isə uşaqlar valideynlərin pis nümunələrinin qurbanı olurlar: valideyn insanlara yardım edərkən onların hazırkı durumuna, ehtiyac dərəcəsinə deyil, dini mənsubiyyətinə baxdığı üçün uşaq da insanın dəyərini xarakterinə görə deyil, aid olduğu qrupa görə qiymətləndirməyə başlayır.

Belə yanaşma empatiyanın zəifləməsinə və stereotiplərin möhkəmlənməsinə gətirib çıxarır.

Humanist psixologiyanın nümayəndələri, xüsusilə Karl Rocers insanın dəyərinin onun hansısa sosial qrupa aid olması, ictimai statusu, inanc sisteminə və s. görə deyil, şəxsiyyətinə və davranışlarına görə qiymətləndirilməsinin sağlam cəmiyyət üçün doğru yol olduğunu vurğulayırlar. Əks halda, insan fərdləri tanımaq əvəzinə, onları müəyyən etiketlər vasitəsilə mühakimə edəcəkdir. Bu da sosial münasibətlərə xələl gətirir.

Mənəvi tərbiyənin əsas məqsədi uşağa fərqli düşünən insanlarla birlikdə yaşamağı öyrətməkdir. Dözümlülük heç də bütün fikirlərlə razılaşmaq demək deyil; fərqli inanclara malik insanların – əgər sağlam şəxsiyyətə sahibdirlərsə – da ləyaqət və hörmətə layiq olduğunu qəbul etməkdir. Bu keyfiyyət formalaşmadıqda dini fanatizm, sosial ayrı-seçkilik və nifrətin yaranması çox asandır.

Sağlam dini-mənəvi tərbiyə insanları bir-birindən uzaqlaşdırmamalı, əksinə, qarşılıqlı hörmət, mərhəmət və tolerantlıq hissini gücləndirməlidir. Uşağa fərqli inanclara malik insanlarla dinc yaşamağı, onları əvvəl insan, sonra müəyyən bir inancın nümayəndəsi kimi görməyi öyrətmək həm fərdin, həm də cəmiyyətin sağlam inkişafı üçün vacib şərtdir.

XII BÖLMƏ
UŞAQLARI TƏBİƏTİN GÖZƏLLİKLƏRİNƏ QARŞI LAQEYD ETMƏYİN YOLLARI

Uşaqlar təbiəti müşahidə etmək istəyəndə onları danlayın və müxtəlif vədlər verib diqqətlərini təbiətdən yayındırın

Balaca Matias şəhərdə yaşayırdı. Dar küçədə yerləşən kiçik evlərinin nə bağı, nə də həyəti vardı. Evin pəncərəsindən görünən yeganə mənzərə küçənin eni boyda kiçik bir "səma parçası" idi. Ona görə də atası onu arabir çölə aparanda Matias sözlə ifadə edilə bilməyəcək qədər böyük sevinc hissi yaşayırdı. Hər şey onun üçün yeni idi. Gördüyü şeylər: çiçək, soxulcan, quş – hamısı onun diqqətini çəkirdi. Sevinə-sevinə atasının arxasınca qaçıb qışqırırdı: "Ata! Ata! Bax, gör nə gözəl çiçəkdir! Bax, gör necə gözəl quşdur!" Atası isə hər dəfə narazı halda cavab verirdi: "Bu hoqqalarını yığışdır! Məgər indiyə qədər çiçək görməmisən, quş görməmisən?"

Bir dəfə Matias böyük bir tırtıl tapdı, heyrət içində onu götürüb atasına göstərdi: "Ata, bax gör necə böyük heyvan tapmışam!" Atası dedi: "Uf! Bu iyrənc şeyi? At yerə! Tapdala öldür onu! Yoxsa üstünə maye püskürdər".

Matias gördüyü hər şeyi maraqla seyr etdiyi üçün tez-tez geridə qalırdı, onu gözləməli olan atası isə buna əsəbiləşirdi: "Tez ol, ay yaramaz uşaq! – deyə onu danlayırdı. – Belə ləng yerisən, bir də səni özümlə gətirməyəcəyəm!"

Matias bir az qaçırdı. Amma ətrafındakı hər şeyi seyr etməyə o qədər həvəsli idi ki, özünü saxlaya bilmirdi. Atası bir neçə addım atan kimi o, yenə hoppanan bir qurbağa görür, yaxud cırcıramanın səsini eşidir, dayanırdı. Axırda atası bezdi, əlindən tutub onu zorla arxasınca dartmağa başladı. Uşaq yenə də sağa-sola baxmağa davam etdikdə isə onu tələsdirmək üçün başqa bir üsula əl atdı: "Sürətlə yeri, Matias! Cəld! Yaxşı-yaxşı yerisən, kəndə tez çatacağıq. Ora sənə bu bomboş çöldən daha xoş görünəcək. Sənə üçün qəhvə hazırladacağam, içinə süd də tökəcəklər, üstünə də süd qatılaşana qədər yumurta vuracaqlar.

"UŞAQLARI TƏBİƏTİN GÖZƏLLİKLƏRİNƏ QARŞI LAQEYD ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

İnsan təbiətin övladıdır. O, təbiətin qoynuna sığınmağı sevir. Bəşər övladı, son əsrləri istisna etsək, daima təbiətlə içiçə olmuş, ondan faydalanmış, onunla birgə yaşamışdır. Buna görə də hələ sosial mühit tərəfindən təhriflərə uğramamış uşaq təbiətə fitrətən meyilli olur. Başqa sözlə, min illər boyu təbiətin qoynunda yaşadığı üçün təbii mühitə yaxınlıq hissi insan psixikasının bir hissəsinə çevrilmişdir.

Uşaqlar dünyanı ilk növbədə ətraf aləmi müşahidə etmək yolu ilə tanıyırlar. Təbiət uşaqların ilk sinif otağı, ilk dərsliyi və ilk müəllimidir. Lakin çox vaxt böyüklər bu marağı mənasız hesab edib uşağı təbiətdən məhrum edən davranışlara yol verirlər. Klassik pedaqoqlar uşaqların təbiət sevgisinə sadəcə

estetik zövq kimi yox, həm də idrakın və şəxsiyyətin inkişafının mühüm hissəsi kimi baxmışlar.

Müasir inkişaf psixologiyasına görə, maraq uşağın öyrənmə prosesinin əsas hərəkətverici qüvvəsidir. O, ətraf mühiti müşahidə edir, suallar verir və bu yolla düşünmə bacarığını inkişaf etdirir. Bu səbəbdən onun çiçəyə, quşa, həşərata və ya başqa canlılara göstərdiyi maraq sadəcə oyun-əyləncə deyil, idrak prosesinin inkişafında təbii bir mərhələdir.

Hekayədə ata övladının təbiətə olan marağını dəstəkləmək əvəzinə, əngəl kimi qəbul edir. Uşağı verdiyi hər suala görə danlayır, müşahidələrini əhəmiyyətsiz sayır və diqqətini təbiətdən qoparıb maddi mükafatlara yönəltməyə çalışır. Belə münasibət uşağa dolayısı ilə "maraq göstərmək vaxt itkisidir" mesajını verir. Pedaqoji baxımdan bu yanaşma uşağın müşahidə qabiliyyətinin inkişafına maneədir. İtalyan həkim, pedaqoq Mariya Montessori yazırdı: "Uşağın təbiətlə təmasda olması üçün imkan yaradılmalıdır ki, o, təbiətdəki nizamı, ahəngi və gözəlliyi dərk edib qiymətləndirə bilsin".[16] Təbiəti izləyən uşaq fərqləndirməyi, müqayisə etməyi, səbəb-nəticə əlaqələrini anlamağı öyrənir. Elmi təfəkkürün əsasını məhz bu bacarıqlar təşkil edir. Tarixdəki bir çox təbiətşünas-alimin elmi marağı uşaqlıqda təbiəti müşahidə etməklə başlamışdır. Məsələn, Darvin uşaqlıqdan böcəklər, daşlar, bitkilər və s. toplayırdı. Sonralar yazırdı ki, təbiətə olan marağı onu elmə gətirən əsas səbəblərdən biri olmuşdur.

[16] The Discovery of the Child. New York: Ballantine Books, 1967 (ingiliscə nəşr), s. 67.

Hekayədə ata Matiasın diqqətini təbiətdən yayındırmaq üçün ona qəhvə, süd kimi mükafatlar vəd edir. Halbuki uşaq onsuz da təbiətin özündən zövq alırdı, ona əlavə bir mükafat lazım deyildi. Bu mükafat ona nəinki xeyir verəcək, əksinə, ziyanlı olacaq. Psixologiyada deyilir ki, daxili marağın davamlı olaraq xarici mükafatlarla əvəz edilməsi (hekayədə: təbiət əvəzinə qəhvə, süd) həmin marağın zəifləməsinə səbəb olur. Bu mövzuda məşhur bir eksperiment var. 1973-cü ildə Stenford Universitetinin professoru Mark Lepper, Devid Qrin və Riçard Nisbett tərəfindən aparılan təcrübədə rəsm çəkməyi sevən uşaqlara mükafat verildikdən sonra onların rəsmə olan marağı azalmışdır.[17] Bu, hekayədəki Matias nümunəsinin, demək olar ki, eksperimental sübutudur. Nəticədə, Matiasın atası kimi valideynlər övladlarının təbiət marağını, dolayısı ilə öyrənmə, kəşf etmə, müşahidə etmə marağını öldürürlər.

Müasir pedaqogikada təbiətlə ünsiyyət uşağın emosional və mənəvi inkişafı baxımından da əhəmiyyətli hesab edilir. Təbiət müşahidəsi diqqəti cəmləməyi, səbirli olmağı, canlılara qarşı mərhəmət, ekoloji məsuliyyət kimi hissləri inkişaf etdirir. Buna görə də uşağın təbiət barəsində verdiyi suallar cavabsız qoyulmamalı, əksinə, onun inkişafı üçün fürsət kimi qiymətləndirilməlidir. Həmçinin uşağın təbiətlə təmasına maksimum imkan yaradılmalıdır.

[17] Lepper, M. R., Greene, D., & Nisbett, R. E. (1973). Undermining Children's Intrinsic Interest with Extrinsic Reward. Journal of Personality and Social Psychology, 28(1), 129–137.

XIII BÖLMƏ
UŞAQLARIN ZEHNİNİ YAŞLARINA UYĞUN OLMAYAN BİLİKLƏRLƏ DOLDURMAĞIN YOLLARI

1-ci hekayə

Professor Pankratiusa böyük bir xoşbəxtlik nəsib oldu: həyat yoldaşı ona bir oğul övladı dünyaya gətirdi. Həmin vaxt o, qədim latın yazıçısı Suetoninin əsərindəki qəliz bir parçanı izah etməklə məşğul idi. Bu məsələ, artıq neçə gündür ki, rahatlığını əlindən almış, neçə gecədir ki, yuxusunu qaçırmışdı. Xeyir xəbəri alan kimi, həqiqətən də, Suetonini bir kənara qoyub arvadının və yeni doğulmuş oğlunun yanına getdi.

Sevincinin nə qədər böyük olduğunu buradan görmək olardı ki, uşağın burnuna baxan kimi onun məşhur Roma natiqi Siseronun burnuna bənzədiyini düşündü və sevinci ikiqat artdı.

İlk işi uşağı vəftiz etdirmək (xaç suyuna salınma) oldu. Bundan sonra isə onun qidalanmasını və böyüdülməsini tamamilə anaya və dayəyə həvalə etdi. Çünki onun fikrincə, özü kimi böyük bir alim üçün körpə bələmək, təmizləmək və yedirtmək kimi xırda işlərlə məşğul olmaq münasib deyildi.

Təxminən dörd il boyunca öz iş otağında elmi araşdırmalarla məşğul olduqdan sonra birdən yadına düşdü ki, artıq balaca Tulliusun (Siseronun da adı Tullius olduğuna görə zarafatla oğlunu belə çağırırdı) təhsili ilə məşğul olmağın vaxtıdır.

İlk dərs belə başladı: uşağa "masa" sözünün latınca necə deyildiyini öyrətdi. Sonra hər gün əvvəlcə beş, daha sonra

on əşyanın latınca adını əzbərlətdi. Bir müddət sonra isə uşaq hər gün yarım səhifə lüğət öyrənməli oldu: alumen – zəfəran daşı, aluta – zamşa dəri və sair.

Əvvəl-əvvəl balaca Tullius soruşurdu: "Ata, "zəfəran daşı" nədir? "Zamşa dəri" nədir?" Amma hörmətli professor belə xırda şeylərlə heç vaxt maraqlanmadığı üçün bunların nə olduğunu özü də bilmirdi. Buna görə də oğlunu bu cür suallar verdiyinə görə danladı.

Beləcə, çox keçmədi ki, uşaq artıq heç nə soruşmur, hər gün bütöv bir səhifə latınca söz əzbərləyirdi, amma həmin sözlərin ifadə etdiyi əşyaların nə olduğunu bilmirdi. Bir müddət sonra ona qədim latın müəlliflərini oxumaq tapşırıldı. Bu əsərlər çətin başa düşüldüyündən gəncliyinin, demək olar ki, hamısını əvvəlcə onları oxumağa, sonra isə dönə-dönə təkrar etməyə sərf etdi.

2-ci hekayə

Keçən həftə gənc magistr Pankratius və onun hörmətli atası ilə birlikdə gəzintiyə çıxmaq mənə də qismət oldu. Atanın oğlunu nə qədər inkişaf etdirdiyini görüb heyrətə gəldim. O, Romanın bütün küçələri və məşhur binaları haqqında elə danışırdı ki, sanki doğma berlin sakini Berlini təsvir edirdi. Atası da bunu razılıq dolu təbəssümlə dinləyirdi. Amma təbiət aləmi haqqında, demək olar ki, heç nə bilmirdi.

Mən bol çovdar bitmiş bir əkin sahəsinə qarşı heyranlığımı bildirəndə soruşdu: "Çovdar nədir?" Mən izah edəndə ki, bu çovdardır, yenə soruşdu: "Bəs çovdardan nə düzəldirlər?" Bir

qədər irəlidə tırtılın üzərindəki parazit arının sürfələrini göstərib dedim: "Baxın!" O isə tələşlə dedi: "Yazıq tırtılı narahat etməyin! Yoxsa yumurtalarını qoyub qaçar!"

"UŞAQLARIN ZEHNİNİ YAŞLARINA UYĞUN OLMAYAN BİLİKLƏRLƏ DOLDURMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Uşağın yaşına və inkişaf səviyyəsinə uyğun olmayan təhsilin mənfi nəticələri qaçılmazdır. Çünki təhsil məlumat toplamaqdan ibarət deyil, təhsil almaq – dünyanı anlamaq, həyatı dərk etmək və düzgün yaşamağı öyrənməkdir. Uşağın hazır olmadığı mürəkkəb biliklərlə yüklənməsi onun idrakını inkişaf etrimək yerinə, gerilədir.

Bəzi valideynlər, hekayədəki professor Pankratius kimi, uşaqları yaş və anlaq səviyyələrinə uyğun olmayan bilgilərlə yükləməyə çalışırlar. Əmin olsunlar ki, o bilgiləri uşaq mənimsəməyəcək, ən yaxşı halda məcburiyyət üzündən əzbərləyəcək və bu əzbərin ömrü də uzun olmayacaq. Çünki mexaniki əzbərləmə və şüurlu öyrənmə fərqli-fərqli məsələlərdir. Hekayədə balaca Tullius minlərlə latın sözünü əzbərləyir, lakin həmin sözlərin ifadə etdiyi əşyaları və anlayışları tanımır. Bir növ, görmədiyi, bilmədiyi, hətta təsəvvüründə belə canlandıra bilmədiyi əşyaların adlarını və latınca qarşılıqlarını əzbərləyir. Burada heç bir praktiklikdən söhbət gedə bilməz. Halbuki öyrənmə nəzəriyyə ilə yanaşı təcrübəyə də əsaslanmalıdır. Əks halda, təhsil biliyin dərinləşməsinə deyil, sadəcə yaddaşın yüklənməsinə gətirib çıxarır.

Müasir pedaqogikada qəbul edilir ki, uşaq yeni məlumatı əvvəlki təcrübəsi ilə əlaqələndirə bildikdə onu mənimsəyir. Mənimsənilməyən, sadəcə yaddaşda artıq yer tutan "elm" isə faydasızdır. O, uşağın həyatında heç bir müsbət rol oynamayacaq. Bu səbəbdən uşağın yaşına uyğun konkret təcrübələr abstrakt biliklərdən daha qiymətlidir. Məsələn, 6 yaşına çatmamış uşağı ingilis dili qrammatikası ilə yormaq yerinə, onu təfəkkürü inkişaf etdirən uşaq oyunları ilə məşğul etmək lazımdır.

Öyrənilən bilgi insanın işinə yaramalıdır. Bilgi praqmatik[18] deyilsə, onun öyrənilməsi vaxt itkisindən başqa bir şey deyil. Hekayədə gənc Pankratiusun qədim Roma haqqında geniş məlumata malik olsa da, gündəlik həyatın ən sadə hadisələrini (çovdarı, kənd təsərrüfatını və canlılar aləmini) tanımadığını görürük. Axı nə üçün insan uzaq dünyaları öyrənib yaşadığı dünyanın fərqinə varmamalıdır? Təsəvvür edin ki, uşağınıza dünyadakı okeanların, dənizlərin, çayların adlarını əzbərlətmisiniz, amma o, evdə dipçəkdəki gülü sulamağın qaydasını bilmir. Salzman bunu tənqid edir. Uşaqlar elə varlıqlardır ki, bir çox hallarda onların seçim imkanı valideyn və müəllimlərinə bağlı olur. Valideynlər və ya müəllimlər isə uşağı nümayiş vasitəsinə çevirmək, özlərini sübuta yetirmək üçün, yaxud cahillikdən, yaxud da digər bir səbəbdən uşaqlardan yaşlarına uyğun olmayan nailiyyətlər əldə etməsini tələb edirlər. Halbuki uşaq kimlərinsə ambisiyalarının qurbanına çevrilərək öz keyfiyyətli həyatından məhrum olmamalıdır. Hər işin öz vaxtı

[18] Praqmatik – real nəticəyə, praktik faydaya və səmərəliliyə əsaslanan.

olduğu kimi, uşağın da həyatının müxtəlif mərhələləri müxtəlif işlərlə keçməlidir: bir zamanlar oyun oynamalı, əylənməlidirsə, digər bir dövrdə elm öyrənməli, başqa bir vaxt isə işləməlidir – amma hər biri öz vaxtında! Əksərən müşahidə edilmişdir ki, uşaqlığını uşaq kimi yaşamasına icazə verilməyən insanlar böyüdükdə yetkin şəxsiyyətə sahib ola bilmirlər, yaşanmamış uşaqlıqları onları daim əvvələ – uşaq olmağa səsləyir.

Təhsil uşağı bilik anbarına çevirmək məqsədi daşımamalıdır. "Təhsilin məqsədi – mənəvi cəhətdən zəngin, əxlaqca saf, fiziki cəhətdən kamil hərtərəfli hazırlıqlı şəxsiyyət formalaşdırmaq, iqtisadi həyatda rəqabətə qabil mütəxəssis, cəmiyyətə faydalı insan, ləyaqətli vətəndaş yetişdirməkdir".[19] Ona görə də uşaq əvvəlcə yaşadığı dünyanı tanımalı, sonra mürəkkəb elmi biliklərə doğru addımlamalıdır.

[19] Rüfət Lətif oğlu Hüseynzadə. Pedaqogika. Dərslik. – Bakı: Mütərcim, 2021. – 488 səh., səh 14.

XIV BÖLMƏ
UŞAQLARA XƏYALƏT[20] GÖRMƏYİ ÖYRƏTMƏYİN YOLLARI

Uşaqlarınıza mümkün qədər çoxlu xəyalət hekayələri danışın

Usta Martin axşamlar işini qurtaranda uşaqları onun başına yığışar və onlara əhvalat danışmasını xahiş edərdilər. O da tütün çubuğunu doldurar, sobanın yanında əyləşər, uşaqlar da ətrafına toplaşardı. Sonra danışmağa başlayardı. Demək olar ki, danışdığı hər şey xəyalətlər haqqında olurdu. Bir tərəfdən, başqa maraqlı əhvalatlar bilmirdi, digər tərəfdən isə, görürdü ki, uşaqlar belə hekayələri daha çox sevirlər.

O, öz yaşadıqları bölgədə guya xəyalətlərin dolaşdığı və qəribə hadisələrin baş verdiyi düz iyirmi dörd yer göstərə bilərdi. Deyirdi ki, bir yerdə vaxtilə monastır olub və hələ də Advent[21] və Böyük Oruc[22] günlərində orada rahibə görünür. Dəyirmanın yanındakı böyük qovağın yaxınlığında yerləşən

[20] Xəyalət – həqiqətdə mövcud olmadığı halda gözə görünən qorxulu, sirli və ya xəyali varlıq; ruh, kabus.

[21] Advent (lat. *adventus* – "gəliş") – Miladdan əvvəlki hazırlıq dövrüdür. Qərb xristianlığında (katolik və bir çox protestant kilsələrində) adətən dörd bazar gününü əhatə edən bu müddətdə möminlər dua, tövbə edir və Milad bayramına mənəvi cəhətdən hazırlaşırlar.

[22] Böyük Oruc (alm. *Fasten*, ing. *Lent*) – Pasxadan əvvəlki təxminən 40 günlük oruc və tövbə dövrüdür. Bu müddətdə xristianlar özlərini mənəvi cəhətdən saflaşdırmağa çalışır, bəzi yeməklərdən və əyləncələrdən çəkinirlər.

bataqlıqda vaxtilə bir adam boğulub və onun ruhu hələ də orada dolaşır. Deyirdi ki, hər gecə düz saat on birdə qəbiristanlıqda gözləri ocaq kimi yanan, özü isə aş qaşığı boyda olan qara bir it peyda olur, saat on ikidə isə köhnə bir İsveç kapitanının məzarı üzərində yoxa çıxır.

Şəhər kənarındakı monastır qülləsinin yanında bir dəfə kürəyinə un kisəsi boyda nəsə tullandığını, onu evinə qədər daşımalı olduğunu danışardı. O vaxtdan sonra gecələr həmin qüllənin yanından keçməyə bir də cəsarət etmədiyini deyərdi. Bazardakı böyük daşın altında böyük bir xəzinənin gizləndiyini, onu qara keçinin qoruduğunu söyləyərdi. Nənəsinin nənəsindən eşitdiyini deyib danışardı ki, vaxtilə iki cəsur adam həmin xəzinəni çıxarmağa çalışıb. Hətta qızılların parıltısını da görüblər. Amma onlardan biri "Xəzinə budur!" deyən kimi xəzinə yenidən yerin altına çəkilib.

Dağın başındakı köhnə qalada isə guya sehrlənmiş bir zadəgan qızı yaşayırmış. O hər yüz ildən bir kərtənkələ şəklində görünürmüş və yalnız pak, subay bir oğlan onun başını kəssə, sehrdən xilas ola bilərmiş.

Beləcə davam edərdi. Küfhayzer dağı, Broken dağı, Rübezahl və doktor Faust haqqında danışmağa başlayanda isə onu dayandırmaq mümkün olmazdı.

Ustanın evində işləyən qoca Mariya əslində çox da bacarıqlı qulluqçu deyildi. Amma uşaqlara çox gözəl nağıllar danışdığı və Martin özü də ondan yeni xəyalət hekayələri öyrəndiyi üçün onu işdə saxlayırdı.

Belə "təlimlər" nəticəsində uşaqların başı qısa zamanda xəyalətlərlə doldu. Onlar axşam düşən kimi hər yerdə ruh görəcəklərini gözləyirdilər. Qaranlıqda qapıdan bayıra bir addım belə atmağa cürət etmirdilər. Əgər təbii ehtiyac onları çölə çıxmağa məcbur etsəydi, mütləq qoca Mariya onlarla getməli və işləri qurtarana qədər yanlarında dayanmalı idi. Yatanda da Mariya onlar yuxuya gedənə qədər çarpayılarının yanında otururdu.

Böyüyəndə gecə vaxtı çöldə qalmalı olsalar, hər ağacı qara bir adam, hər axan ulduzu uçan bir əjdaha, qarşılarına çıxan hər xomyakı[23] isə şeytani bir varlıq hesab edirdilər.

Martinin ən böyük oğlu Peter bu mövzuda hamını geridə qoydu: on səkkiz yaşına çatanda öz gözləri ilə gördüyünü iddia etdiyi düz yetmiş yeddi xəyalət haqqında danışırdı. Atası bunun səbəbini onun bazar günü doğulmuş uşaq olması ilə əlaqələndirir və inanırdı ki, oğlunu böyük bir tale gözləyir. Kim bilir, bəlkə, doğrudan da başına daha qəribə hadisələr gələcək.

Peter artıq dəfələrlə şuluq zarafatcılların qurbanı olmuşdu. Bir dəfə axşam kənd şənliyindən evə qayıdarkən yolun ortasında közlə dolu tava gördü. Elə bu vaxt koldan: "Məni xilas et! Məni xilas et!" – deyə səs gəldi. Peter bunun gizli xəzinə olduğuna inanıb yeni aldığı papağını közlərin üstünə atdı. Papaq dərhal alışıb yandı. Sonradan məlum oldu ki, şənlikdə birgə olduğu zarafatcıl gənclər oraya köz qoyublarmış.

[23] Xomyak (azərbaycanca dağsiçanı, ingiliscə hamster) – gəmiricilər dəstəsinin "Cricetidae" fəsiləsinə aid, dünyada və Azərbaycanda ev heyvanı kimi çox populyar olan, adətən "siçan" adlandırılan kiçik heyvan.

Evdəki qulluqçu da cürbəcür cin oyunları çıxarır və fürsət düşdükcə ərzaq anbarını talayırdı. Amma Peter bunların heç birindən dərs almırdı. Çünki o, tam əmin idi ki, müəyyən bir yol ayrıcında böyük bir xəzinə basdırılıb. Guya həmin xəzinə yalnız Valpurgi gecəsində oğurlanmış qara dovşanı üç dəfə xaç çəkilmiş bıçaqla həmin yol ayrıcında xüsusi ayinlərə uyğun şəkildə qurban kəsən adama qismət olacaq. Peter bir süvari zabitinin qara dovşanlar saxladığını görmüşdü və artıq qəti qərara gəlmişdi ki, növbəti Valpurgi gecəsində onlardan birini oğurlayacaq. Sonradan görəcəyik ki, bu macəra necə başa çatacaq.

"UŞAQLARA XƏYALƏT GÖRMƏYİ ÖYRƏTMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Uşaqlıqda ruh, cin kimi metafizik varlıqlar haqqında danışandan sonra qaranlıq bir yerə getməkdən, evdə tək qalmaqdan qorxardıq. Bunun müxtəlif neyro-psixoloji səbəbləri var. Məsələn, biz qorxulu mövzularda danışdıqda beynimiz təhlükə rejiminə keçir, söhbət bitsə də, beyin hələ bir müddət həmin qorxu siqnallarına qarşı həssas qalır; yaxud uşaqkən təxəyyülümüz daha güclü olur deyə qeyri-müəyyən olan qaranlığı müəyyənə çevirmək üçün beynimiz daxili qorxulardan istifadə edərək kölgəni ruh kimi görür, yaxud külək səsini cinin addımları kimi eşidir və s. Bunları qeyd etməkdə məqsədimiz adi bir söhbətin belə insan şüuruna necə güclü təsir edib, daxili qorxuları alovlandıra bildiyini göstərməkdir.

Sadəcə dilə gətirilən sözlər belə şüuraltına təsir edərək böyük qorxular doğura bilirsə, o zaman Salzmanın ironiya ilə "Uşaqlara xəyalət görməyi öyrətməyin yolları" kimi "Uşaqlarınıza mümkün qədər çoxlu xəyalət hekayələri danışın" deməsi tamamilə labüddür. Görünür, o, uşaqları qorxutmaq məqsədilə danışılan xurafat, xəyalət və fövqəltəbii hekayələrin onların psixoloji inkişafına necə təsir etdiyini kifayət qədər yaxşı başa düşmüşdür.

Real təhlükə qarşısında yaranan qorxu insanı qoruyan təbii müdafiə mexanizmidir. Lakin real təhlükə olmadığı halda yalnız təxəyyülün yaratdığı ssenarilərdən qaynaqlanan qorxular çox vaxt rasional düşüncə və düzgün məlumat sayəsində aradan qalxa bilir. Məsələn, siz gecə vaxtı qəbristanlığa ona görə gedə bilmirsiniz ki, orada hansısa varlıqların olacağını təxəyyül edirsiniz, öz-özünüzə qorxulu ssenarilər qurursunuz, halbuki bu, həqiqətdən uzaqdır və sizin təxəyyülünüzün məhsuludur. Lakin düşünüb özünüzü inandırsanız ki, orada qeyri-adi varlıqlar deyə bir şey yoxdur, qəbiristanlıq gündüz olduğu kimidir, onda qorxu sizi tərk edəcək. Rasional düşüncə sizi qorxudan azad edir.

Uşaqlarda rasionallıq az olur və onların duyğuları böyüklərə nisbətən daha aktiv olur. Ona görə də rahatlıqla reallıqdan uzaq təxəyyüllərə sahib ola bilirlər. Həmçinin erkən yaşlarda uşaqlar eşitdiklərini tənqidi düşüncə ilə yoxlaya bilmirlər deyə böyüklərin söylədiklərini həqiqət kimi qəbul edirlər. Belə bir halda uşağa qorxulu, fövqəltəbii varlıq və hadisələrdən danışmaq, ona davamlı şəkildə qorxulu obrazlar təqdim etmək onların zehnində reallıq hissini zəiflədir, qorxaqlıq

və batil inancların yaranmasına gətirib çıxarır. Beləcə, uşaqlıq dövründə davamlı şəkildə qorxu yaradan hekayələr dinləyən uşaqlarda gecə qorxuları, qaranlıq fobiyası, narahatlıq və həddindən artıq şübhəçilik yarana bilir.

Əvvəllər uşaqlar qorxulu hekayələri yalnız kiminsə dilindən eşitməklə dinləyə bilərdilərsə, bu gün bunun üçün daha geniş imkanlar var: qorxu janrında kitablar, filmlər, oyunlar mövcuddur. Bu səbəbdən valideynlərin məsluliyyəti daha böyükdür: uşaqlara qorxulu əhvalat danışmamaqla yanaşı, onları digər vasitələrdən gələn xurafi bilgilərdən də qorumalıdırlar.

Reallığa uyğun olmayan bilgilər xurafatı yaradan əsas amildir. İnsan təsadüfi hadisələr arasında səbəb-nəticə əlaqəsi qurmağa meyillidir. Əgər uşaq xurafi bilgilər içində böyüyərsə, sonralar qərarlarını sübutlarla deyil, mistik inanclarla və əsassız qorxularla əsaslandırmağa meyilli olur. Hekayədəki Peter obrazı bunun bariz nümunəsidir: o, dəfələrlə aldadılmasına baxmayaraq batil inanclarından əl çəkmir.

Valideynlər üçün tövsiyələrimiz bunlardır:

1. Uşağı qorxutmaq məqsədilə "cin aparar", "ruh gələr", "xortdan çıxar" kimi ifadələrdən istifadə etməyin. Qorxu müvəqqəti itaət yaratsa da, uzunmüddətli narahatlıq və batil inanclar formalaşdıra bilər.

2. Uşağın yaşına uyğun olmayan qorxu filmlərinə, videolarına, oyunlarına və hekayələrinə məruz qalmasına imkan verməyin. Uşaq gördüyü və eşitdiyi obrazları reallıqla qarışdıra bilər.

3. Uşaq qorxduğunu söylədikdə onu lağa qoymayın və "heç nə yoxdur" deyərək dediklərini görməzdən gəlməyin. Əvvəlcə onu dinləyin, sonra sakit və məntiqli şəkildə vəziyyəti izah edin.

4. Uşağı qorxularını araşdırmağa təşviq edin. Məsələn, qaranlıqda qorxduğu kölgənin işıq yandıqda adi bir əşya olduğunu birlikdə yoxlayın. Belə təcrübələr onun reallıq hissini gücləndirəcək.

5. Qaranlığı və təbiətdəki adi hadisələri normal şəkildə tanıdın. Küləyin səsi, kölgələr, ildırım, şimşək və digər təbii hadisələr haqqında sadə elmi izahlar verin.

XV BÖLMƏ
UŞAQLARDA İLDIRIM VƏ GÖY GURULTUSUNA QARŞI QORXU YARATMAĞIN YOLLARI

Göy gurultusu başlayanda qorxurmuş kimi davranın; çox keçmədən uşaqlarınız da sizdən nümunə götürəcəklər

Cənab Ziqfridin gözəl bir vərdişi var idi: o, uşaqlarının diqqətini təbiətdə baş verən maraqlı hadisələrə yönəldər, hər dəfə də bunların Allahın mərhəmət və hikmətini göstərdiyini xatırladardı. Hətta göy gurultusu başlayanda belə uşaqları ilə birlikdə açıq havaya çıxar, yağış onları evə qayıtmağa məcbur edənədək bu mənzərəni seyr edərdi.

Belə vaxtlarda, adətən, uşaqlarına deyərdi: "Baxın, uşaqlar! Allah hər şeyi necə də hikmətlə yaradıb! Bu gün hava elə isti və boğucu idi ki, bu istilər bir az da davam etsəydi, əkinbiçinimiz quruyar, özümüzün də işləməyə taqətimiz qalmazdı. Lakin Allah elə bir nizam qurub ki, şiddətli istidən sonra göy gurultusu gəlir. Baxın, hava artıq sərinləşir. Hiss edirsinizmi, necə sərin oldu? Bir azdan yağacaq bərəkətli yağış susuzluqdan solan bütün bitkilərimizi dirçəldəcək.

Beləcə uşaqlar göy gurultusundan qorxmamağa alışdılar. Göydə şimşək çaxanda: "Ata, baxın, necə möhtəşəm şimşək çaxdı!" – deyə sevinərdilər. Göy gurultusu eşidiləndə: "Qulaq asın, necə guruldayır!" – deyərdilər. Yağış başlayanda isə belə oxuyardılar:

Sən torpağı sulayırsan,
Bizi yaşıl çəmənlərə aparırsan.
Gecə-gündüz
Taxılımızı, şərabımızı və bütün nemətlərimizi
Sənin əlindən alırıq.

Kaş uşaqlar belə tərbiyə ilə böyüyə idilər! Gör necə insanlar olardılar! Lakin bütün qonşular bundan narazı idi. Öz aralarında pıçıldaşırdılar ki, cənab Ziqfrid təbiətpərəstdir və uşaqlarının qəlbindən Allah qorxusunu çıxarır. "Xoşbəxtlikdən" cənab Ziqfrid çox keçmədən vəfat etdi. Cənab Ziqfridin qardaşı ən azından onun kiçik oğlu Adolfu "xilas" edə bildi. O, Adolfu yanına götürdü və atasının, öz ifadəsi ilə desək, "korladığı" hər şeyi düzəltməyi qarşısına məqsəd qoydu. Bu məqsədə çatmaq üçün istifadə etdiyi müxtəlif üsullardan yalnız birini – göy gurultusu zamanı davranışını qeyd edəcəyəm.

Uzaqda göy gurultusu səsi eşidilən kimi əllərini büküb-sıxar və deyərdi: "Allah bizə rəhm eləsin! Ya Rəbb, bizə mərhəmət göstər!" Sonra da ildırımın neçə-neçə kəndi yandırdığı, neçə-neçə insanı öldürdüyü haqqında danışardı. Əvvəlcə Adolf buna etiraz etmək istəyirdi, amma çox keçmədən susmağa məcbur edildi.

Adolfun əmisi göy gurultusu eşidilən kimi bütün ailəsi ilə birlikdə dini nəğmə oxumağa başlayardı. Gurultu bir qədər şiddətli gəldikdə isə səslərini bir az da ucaldaldılar. Çox vaxt bu nəğməni oxuyurdular:

Qəzəbinlə məni vurma!
Ey Ulu Tanrı, bizə rəhm et!

Məni məhv olmağa qoyma,
Əməllərimə görə cəzalandırma!
Əgər günah
Səni qəzəbləndiribsə,
Qəzəbinin alovunu
Quzuda[24] söndür!

Bu tərbiyə Adolfa "çox yaxşı" təsir göstərdi. Nəğmədəki "Qəzəbinin alovunu Quzuda söndür!" sözləri deyiləndə qorxudan bədəni əsirdi. Çünki o, belə ifadələrə öyrəşməmişdi və indiyədək Allahı yalnız sevgi sahibi olan bir məbud kimi tanımışdı.

Az keçmədi ki, Adolf şimşəyə baxa bilməyəcək hala gəldi. Haradasa göy gurultusu yaxınlaşan kimi ölüm qorxusu keçirirdi. Əmisi isə buna ürəkdən sevinir, hər kəsə fəxrlə deyirdi ki, "kiçik Adolfda yenidən Allah qorxusu yaratmışam".

"UŞAQLARDA İLDIRIM VƏ GÖY GURULTUSUNA QARŞI QORXU YARATMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Salzman uşaqlarda bəzi təbiət hadisələrinə qarşı yaranan qorxunun səbəbi kimi valideynlərin yanlış nümunəsini tənqid edir. Təbii ki, uşaq hər şeydə olduğu kimi təbiət hadisələrinə münasibəti də ilk dəfə valideynlərinin davranışından öyrənir.

[24] Buradakı "Quzu" deyildikdə xristian ənənəsində "Tanrının Quzusu" (Agnus Dei), yəni İsa Məsih nəzərdə tutulur. Bu ifadə İncilə əsaslanır və İsanın insanların günahları uğrunda qurban verilməsini simvolizə edir.

Valideyn hər dəfə ildırım çaxanda təşvişə düşürsə, uşaq da həmin hadisəni təhlükə və panika ilə əlaqələndirməyə başlayır. Burada "emosional yoluxma" da baş verir: uşaq valideynin qorxusunu öz qorxusuna çevirir və zaman keçdikcə həmin hiss avtomatik reaksiyaya çevrilir. Bu da ona görədir ki, uşaqlar hələ təhlükəni müstəqil qiymətləndirmək qabiliyyətinə tam malik olmadıqları üçün ətrafdakı böyüklərin emosiyalarını, bir növ, təhlükə siqnalı kimi qəbul edirlər.

Müəllif iki fərqli tərbiyə modelini qarşılaşdırır. Birinci modeldə ata göy gurultusunu təbiətin normal qanunauyğunluğu kimi izah edir, yağışın torpaq və canlılar üçün faydasını göstərir. Belə yanaşma uşaqda maraq, müşahidə qabiliyyəti və təbiətə hörmət formalaşdırır. İkinci modeldə isə eyni hadisə ilahi qəzəb və cəza kimi təqdim edilir. Nəticədə, uşaq təbiəti öyrəniləcək bir hadisə deyil, qorxulacaq bir təhlükə kimi qəbul edir.

Valideynlər uşaqlara təbiəti qorxu mənbəyi kimi deyil, öyrənilməli və maraqlı bir mükəmməl sistem kimi təqdim etməlidirlər. Uşaq ildırımın necə yarandığını, yağışın niyə yağdığını, küləyin necə əmələ gəldiyini və s. öyrəndikcə naməlumluq azalır, naməlumluq azaldıqca qorxu da zəifləyir. Beləliklə, qorxu hissinin yerini maraq və öyrənmək həvəsi tutur.

XVI BÖLMƏ
UŞAQLARDA ÖLÜM QORXUSU YARATMAĞIN YOLLARI

Uşaqlara ölümü insanın başına gələ biləcək ən dəhşətli fəlakət kimi təsvir edin

Usta Henrixin iki pencəyi var idi: biri iş günləri, digəri isə bazar günləri üçün. Kilsəyə gedəndə bazar günü pencəyini, gündəlik işlərində isə o birini geyinərdi. Onun dinə baxışı da buna bənzəyirdi: sanki iki din olmalıdır – biri kilsə üçün, digəri isə gündəlik həyat üçün.

Bunu izah etmək üçün yalnız bir nümunə kifayətdir. Getdiyi kilsədə magistr Rudolf tez-tez belə moizələr edirdi ki, ölüm bu dünyadan başqa aləmə keçiddir; yer üzündə yaxşı yaşamış insanlar üçün bu, böyük bir nemətdir və buna görə də heç bir xristian ölümdən qorxmamalıdır.

Usta Henrix bunları məmnuniyyətlə dinləyər və yalnız kilsədə olduğu müddətdə bunlara inanardı. Bu, onun "kilsə dini"nin bir hissəsi idi. Amma "gündəlik həyatdakı din"ində ölüm tamam başqa cür – insanın başına gələ biləcək ən dəhşətli bəla kimi təqdim olunurdu.

Tanışlarından birinin öldüyünü eşidəndə dərhal əllərini birbirinə vurub deyərdi: "Allah rəhm eləsin! O da öldü? Halbuki necə də gözəl, necə də yaxşı adam idi!" Ancaq özü bir az xəstələnsə, tamamilə ruhdan düşər və tez-tez belə deyərdi: "Ay Allah! Hər cür əzaba dözərəm, təki ölməyim!"

Həyat yoldaşı vəfat edəndə uşaqlarını onun cənazəsinin yanına aparıb dedi: "Baxın, yazıq ananız burada uzanıb. Onun bütün sevincli günləri sona çatdı. Bir azdan onu soyuq torpağa qoyacaqlar və qurdlar bədənini yeyəcək... Ay aman... Ay aman...

Belə davranış nəticəsində o, uşaqlarında, xüsusilə də oğlu Bernhardda həqiqi ölüm qorxusu yaratmağa nail oldu. Bernhard hər dəfə yas zənginin səsini eşidəndə ürəyi sıxılır, cənazə görəndə isə bədənini üşütmə tuturdu.

Bir gün Bernhard qızılca xəstəliyinə tutuldu. Güclü bədən quruluşuna malik olduğu üçün bu xəstəliyi asanlıqla keçirə bilərdi. Lakin xəstəliyin gedişatında bir az narahatedici əlamət görünən kimi atası otaqda təşviş içində var-gəl eləməyə başlayır, ağlayaraq deyirdi: "Ya Rəbb , rəhm elə! O ölür! Mənim Bernhardım ölür! Bu necə bədbəxtlikdir! Bernhardım, ölmə! Ay mənim əziz Bernhardım, ölmə!" Uşaq bu sözlərdən dəhşətə gəldi, ölüm vahiməsinə qapıldı və həqiqətən də öldü.

"UŞAQLARDA ÖLÜM QORXUSU YARATMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Bu bölmədə uşaqlarda ölüm qorxusunun yaranma səbəbindən bəhs olunur. Ölüm qarşısında müəyyən narahatlıq hiss etmək insan üçün təbii haldır. Lakin uşaqlarda bu qorxunun həddindən artıq güclənməsinə, adətən, ölüm haqqında həqiqətə uyğun olmayan təsəvvürlər səbəb olur. Yəni ölüm qorxusu çox vaxt ölümün özündən deyil, ona verilən mənadan yaranır. Lakin bu təsəvvürlər və məna həqiqətə uyğun və

müsbət məzmunlu olarsa, ölüm insanı qorxutmaz. Uşağın ölümə münasibəti əsasən ailədə gördüyü davranışlardan və eşitdiyi sözlərdən yaranır. Valideyn ölümü dəhşətli bir an, böyük müsibət, faciə kimi təqdim etdikdə uşaq da bu hadisəni həyatın ən qorxunc tərəfi kimi qəbul etməyə başlayır. Davamlı vahimə və ümidsizlik uşağın psixikasında dərin iz buraxa, güclü narahatlıq formalaşdıra bilər.

Məlum məsələdir ki, uşaqlar sözlərdən daha çox əməllərdən örnək götürürlər. Hekayədəki usta Henrix kilsədə ölümü təbii və mənəvi baxımdan qəbul edilən bir hadisə kimi dinləyib təsdiqləsə də, gündəlik həyatda buna tam əks mövqe tutduğu üçün uşaqlar da ona baxıb valideynlərinin qorxusunu mənimsəyirlər. Valideyn davranışında, nitqində, uşaqla müzakirələrində ölüm haqqında özü qorxmamalı və qorxuluymuş kimi danışmamalıdır ki, uşaqda qorxu yaratmasın.

Ölüm haqqında danışmağın özü qəbahət deyil, problem onun təqdim edilmə üsulundadır. Uşağı bu mövzudan tam uzaq saxlamaq da düzgün deyil, çünki gizli saxlanılan şeylər də onda qorxu yarada bilər. Həmçinin ölüm qorxusu qeyri-müəyyənlikdən də yarana bilər, uşaqlar nə baş verdiyini anlamadıqları zaman təxəyyülləri boşluqları müxtəlif qorxulu ssenarilərlə doldurmağa meyilli olur. Məhz buna görə yaşına uyğun izahlar uşağın həyatın təbii axınını qəbul etməsinə kömək edir. Ölümün gizlədilməsi və ya həddindən artıq qorxulu təsvir edilməsi isə mövzu ətrafında əsassız təşviş yarada bilər.

Uşaqlara ölümü izah edərkən ölümü bir "yoxluq" kimi deyil, yeni və daha gözəl bir həyatın başlanğıcı kimi təqdim etmək yaxşı olar. Bu mövzunu danışarkən uşağın yaşını nəzərə

almaq, qorxu yaratmamaq və suallarına dürüst, qısa cavablar vermək lazımdır.

Ölümü təbii bir qanun kimi izah edin. Ölümün hər bir canlı üçün qaçılmaz olduğunu təbiətdən nümunələrlə izah edin: payızda yarpaqların saralıb tökülməsi, baharda isə yeni çiçəklərin açması kimi nümunələr göstərin. Bu dünyanın müvəqqəti bir məktəb və ya səfər olduğunu, hamımızın vaxtı gələndə evimizə (Allaha) qayıdacağımızı deyin. Ölümün bir son olmadığını, sadəcə bu dünyadan axirət dünyasına köçmək (məsələn, bir otaqdan digər otağa keçmək) olduğunu bildirin.

Allahın rəhmətini ön plana çıxarın, Onun insanları çox sevdiyini vurğulayın. Uşaqda cəza və qorxu hissi yaratmaq qətiyyən olmaz. Vəfat edən şəxsin indi Allahın yanında, heç bir ağrı və kədərin olmadığı, hər istədiyinin reallaşdığı çox gözəl bir yerdə (Cənnətdə) olduğunu deyin. Allahın bizə verdiyi canı vaxtı çatanda sevgiylə geri aldığını və ruhumuzun Onun daxili hüzuruna qovuşduğunu bildirin.

Uşağın yaşına uyğun ifadələr seçmək psixoloji travmaların qarşısını alır: 2-5 yaşlı uşaqlar ölümün həmişəlik olduğunu anlamırlar, ölən insanın nə vaxtsa geri dönəcəyinə inanırlar. Ona görə də bu yaşdakı uşaqlar "O nə vaxt qayıdacaq?" kimi suallar verdikdə səbirli olmaq və demək lazımdır: "O, çox gözəl bir yerə, Allahın yanına getdi və artıq geri qayıda bilməz. Amma biz onu həmişə sevəcəyik və ona dua edəcəyik". Ölən insanın daha gözəl bir aləmdə olduğunu danışın: "O, artıq üşümür, acmır, bədəni ağrımır... İndi Allahın yanındadır".

6-9 yaşlı uşaqlar ölümün fiziki reallığını anlamağa başlayırlar. "Hər canlının bir ömrü var. Babamızın da bu dünyadakı ömrü bitdi, ruhu Cənnətə getdi" şəklində izah edə bilərsiniz.

10 yaşından yuxarı uşaqlar bəzən axirət, hesab-kitab, qəbir həyatı və ruhun əbədiliyi anlayışları haqqında sorğu-sual edə bilərlər. Onlarla daha yetkin və məntiqlə danışmaq olar.

Ölən adamlar haqqında tez-tez istifadə edilən bəzi cümlələr uşaqlarda ciddi psixoloji qorxular yaradır. Bu sözlərdən uzaq dayanılsa, yaxşıdır: "Yatdı, bir daha oyanmadı", "Uzaq səfərə çıxdı", "Allah onu çox sevirdi, ona görə tez yanına apardı"… Bu sözləri eşidən uşaq yatmaqdan qorxa, "səfərə çıxan"ın onları tərk etdiyini düşünə və daim zehnində onun gəlişini gözləyə, Allahın sevdiyi insanları yanına apardığını düşünüb özününü Allah tərəfindən sevilmədiyi qənaətinə gələ bilər.

Uşağa vəfat edən yaxını üçün hələ xeyirli işlər görə biləcəyini izah edərək ona təsəlli verin: dua, yaxşılıq və sədəqələrin mərhuma fayda verdiyini söyləyin.

XVII BÖLMƏ
UŞAQLARDA DİNƏ QARŞI SEVGİ VƏ YA NİFRƏT YARATMAĞIN YOLLARI

I. Uşaqların gözündən Allahı salın, onda dini də sevməyəcəklər

Bir ana hər dəfə göy gurultusu eşidiləndə uşağına deyirdi: "Bax, Allah sənə acıqlanır!" Uşaq sözə baxmayanda isə: "Diqqətli ol, Allah səni cəzalandıracaq!" – deyirdi. Uşaq ən günahsız oyunlarla məşğul olanda belə onu cəhənnəm odu ilə qorxudar, danışdığı əhvalatların çoxu Allahın pis uşaqları cəhənnəmə atıb əbədi yandıracağından bəhs edərdi. Fielxen də, təbii olaraq, anasının dediklərinə inanırdı. O, Allahı elə bir zalım varlıq kimi təsəvvür etməyə başladı ki, guya insanları qorxutmaqdan zövq alır, uşaqların sevinməsini istəmir, onlar bir az qaçıb-oynayanda və ya paltarını cıranda qəzəblənir, fincan sındıran və ya pivə stəkanını aşıran uşaqları dərhal şeytana təhvil verir. Beləliklə, Fielxenin qəlbində Allaha qarşı inciklik yaranması qaçılmaz oldu.

Fielxen göy guruldayanda pəncərəyə yaxınlaşıb göylərdəki bu əzəmətli mənzərəni seyr etmək, Allahın böyüklüyünü düşünmək və bağlarına yağdırdığı nemətə görə Ona şükür etmək əvəzinə, otağın bir küncünə qısılıb tir-tir əsirdi. Hər səhər və axşam duasını oxuyurdu, amma bunu sevgi və minnətdarlıqdan deyil, qorxudan edirdi. Düşünürdü ki, dua etməsə, Allah qəzəblənər və onu cəzalandırar.

Beləcə, onda Allahın hökmlərinə qarşı da istər-istəməz soyuqluq yarandı. Din ona həyatın şirinliyini əlindən alan ağır bir məcburiyyət kimi görünürdü; insan cəhənnəmə düşməmək üçün buna dözməli idi.

Böyüyəndə tez-tez eşidirdi ki, din böyük bir nemətdir. Ancaq buna heç vaxt inana bilmədi. Çünki o, uşaqlıqdan Allah sevgisinin və yaxşılığa məhəbbətin insan qəlbində necə gözəl təsirlər yaratdığını heç vaxt hiss etməmişdi.

II. Uşaqlara dini elə tərzdə öyrədin ki, ondan bezsinlər

Kasparın atası onu hər gün Zəburdan[25] və Katexizmdən böyük hissələri əzbərləməyə məcbur edirdi. Əgər uşaq dərslərdə zəiflik göstərsə və ya dərsini öyrənməsə, möhkəm döyülərdi.

Bir dəfə Kaspar bu ayəni öyrənməmişdi: "Dərdini Rəbbə tapşır, O sənə dayaq olacaq və salehi heç vaxt sarsılmağa qoymayacaq". Atası saçından dartaraq dedi: "Avamın biri, avam! Bunu da yadda saxlaya bilmirsən?"

Kaspar üstündə döyüldüyü kitaba, təbii ki, nifrət etməyə başladı. Məktəbi bitirən kimi onu bir kənara atdı və bir daha açıb baxmaq istəmədi.

Başqa bir ata isə, həqiqətən, dinə rəğbət bəsləyirdi və uşaqlarının da onu sevməsini istəyirdi. Lakin bunu elə düşüncəsiz şəkildə edirdi ki, fərqinə varmadan uşaqlarda dinə qarşı ikrah

[25] Zəbur – İslam inancına görə, Hz. Davud peyğəmbərə, yəhudi və xristian ənənəsində isə Kral Davuda ithaf edilən səmavi və müqəddəs kitab.

hissi yaradırdı. Uşaqları dörd yaşından kilsəyə aparır, ibadətin əvvəlindən sonuna qədər orada oturmağa məcbur edirdi. Oxumağı bacarmadıqları halda, əllərinə nəğmə kitabı verilir, orada oxunan ilahiləri dinləmələri tələb olunurdu. Xütbədən heç nə anlamasalar da, diqqətlə qulaq asmağa məcbur edilirdilər. Halbuki uşaqlar sərbəst hərəkət etməyi, daim hərəkətli olmağı sevir, saatlarla bir yerdə sakit oturmağı xoşlamırlar. Buna görə də onların öz yaşlarına uyğun heç bir şey tapmadıqları ibadət mərasimindən bezmələri qaçılmaz idi. Üstəlik, qışın ən soyuq günlərində də uzun müddət kilsədə qalmağa məcbur edilirdilər deyə bu nifrət daha da artırdı.

Bazar günü kilsə zəngləri çalınanda: "Ay Allah, yenə bazar günü gəldi!" – deyirdilər. Hətta kilsəyə getməyə hazırlaşanda paltarlarını ağlaya-ağlaya geyinirdilər.

Bu ikrah hissi illər keçdikcə də aradan qalxmadı. Kilsəyə getməmək üçün hər fürsətdən istifadə edirdilər. Getsələr belə, nə xütbə, nə də ilahilər onlara təsir edirdi. Çünki bunları uşaqlıqdan narazılıq içində dinləməyə alışmışdılar.

III. Dini öyrədən insanları uşaqların gözündən salın

Bu məqsədə din təbliğatçılarını uşaqların yanında hörmətdən salmaqla da nail ola bilərsən.

Qonşu Tomasın bir çox pis xüsusiyyətləri var idi. Onlardan biri də həmişə başqaları haqqında pis danışması idi. Söhbət keşişdən və ya məktəb müəllimindən düşəndə isə bunu lap çox edirdi.

Keşiş camaatın bəyəndiyi bir xütbə söyləyəndə Tomas deyirdi: "Burada nə var ki? Mən də keşiş kimi ildə on iki malter[26] "onda bir vergisi"[27] alsaydım, evdə sobanın yanında rahat otursaydım, elə bu cür moizə deyərdim". Keşiş öz yanına başqa bir ruhanini qonaq çağıranda isə belə deyirdi: "Bunların işi-gücü yeyib-içmək və tənbəllik etməkdir. Biz isə səhərdən axşama qədər işləyirik".

Əgər ruhani Tomasda da olan hansısa qüsuru tənqid etsəydi, Tomas elə bilirdi ki, bu sözlər ona ünvanlanıb. Bundan sonra o, süfrə arxasında keşişi amansızcasına lağa qoyurdu: "O keşiş getsin öz işi ilə məşğul olsun. Hələ əvvəlcə öyrənsin görsün Zəburda neçə məzmur[28] var!" (Bunu ona görə deyirdi ki, keşiş bir dəfə səhvən "yetmişinci məzmur" əvəzinə "yüz yetmişinci məzmur" demişdi.) Bundan sonra keşişin yerişi, saç düzümü, ev təsərrüfatı, hətta əkin-biçinini belə məsxərəyə qoyurdu.

Məktəb müəlliminin də vəziyyəti fərqli deyildi. "Ay oğul, bu da məktəb müəlliminin odun pulu. Apar ver ona, qoy o acından ölən daha gəlib dalınca düşməsin. Bir də de ki, bu axşam donuz kəsirik, gəlib qonaq olsun. Heç olmasa ömründə bir dəfə doyunca yeməyin nə olduğunu görsün", – Ata keşişlər və müəllimlər haqqında həmişə belə hörmətsiz danışardı.

[26] Malter – orta əsrlərdə Almaniyada istifadə olunan taxıl ölçü vahidi idi. Bölgədən-bölgəyə dəyişirdi, təxminən 100–150 litr arasında olurdu.

[27] Onda bir vergisi (desyatina) – kilsəyə və ya feodala verilən məhsulun onda biri.

[28] Məzmur – Zəburun əsas bölmələrinə verilən ümumi ad.

Balaca Tomasın dini öyrənə biləcəyi yeganə insanlar keşişlə məktəb müəllimi idi. Atası isə onları uşağın gözündən salmışdı. Buna görə də onların öyrətdiyi yaxşı nəsihətlər, tövsiyələr və etdikləri danlaqlar Tomasın nəzərində heç bir dəyər daşımırdı. Keşişdən və ya müəllimdən hər hansı bir öyüd eşidəndə öz-özünə deyirdi: "Əşşi, bu keşiş, bu acından ölən müəllim mənə nə öyrədə bilər ki?"

Başqa bir ata da bundan fərqli deyildi. Usta Simson oğlunu üç müəllimin dərs dediyi bir məktəbə göndərmişdi. Onların hər üçünün də qüsurları var idi, çünki hamısı insan idi. Birincisi tez əsəbiləşirdi və buna görə qonşularıyla tez-tez mübahisə edirdi. İkincisi bər-bəzəyi çox sevirdi. Gəliri az olsa da, qazandığının çoxunu pal-paltara xərcləyirdi. Nəticədə ət, pivə və başqa zəruri şeyləri almağa pulu çatmır, borc götürməli olurdu; borc verənlər də onu tez-tez sıxışdırırdılar. Üçüncüsü şən xasiyyətli idi. Məclislərdə özünü yaxşı hiss edəndə bir-iki qədəh artıq şərab içər, sonra da müəllimə yaraşmayan sözlər danışardı.

Bu müəllimlərdən hər hansı biri kiçik bir səhv edərsə, bu, usta Simsonun gözündən qaçmaz və çox vaxt o, balaca Simsonun yanında belə deyərdi: "Ay aman, bunlara da müəllim deyərlər? Biri hara getdi dava salır, biri borcun içində it-bat olub, o biri də əyyaşdır. Müəllimlər belədirsə, uşaqlardan nə gözləmək olar?" Belə sözləri tez-tez təkrarlayardı. Müəllimlər Simsonu danlayanda, yaxud cəzalandıranda isə onlar haqqında daha da pis danışardı: "O axmaq nə istəyir? Qoy əvvəl özünə baxsın! Əvvəl öz qapısının qabağını süpürsün!"

Balaca Simson çox da iti düşüncəli uşaq deyildi. Amma bunları yaxşı yadda saxlamışdı. Sonralar həmin müəllimlərdən biri ona Katexizmi izah edib xristianın necə yaşamalı olduğunu danışanda Simson ürəyində gülür və fikirləşirdi: "Əvvəlcə özünə baxsın. Əvvəl öz qapısının qabağını süpürsün".

Məktəbi bitirdikdən sonra Simson çox dəcəl və nizamsız bir gənc oldu. Nə atasının, nə də keşişin nəsihətlərinə əhəmiyyət verirdi. O qədər dava-dalaş saldı ki, getdikcə bələdiyyəyə saysız-hesabsız cərimələr ödəməli oldu və axırda ağır səfalətə düçar oldu. Onu tanıyan hər kəs bunu yaxşı bilir. Bəs görəsən, yazıq Simsonun həyatını bu hala salan kim idi?

"UŞAQLARDA DİNƏ QARŞI SEVGİ VƏ YA NİFRƏT YARATMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Uşaqların mənəvi tərbiyənin bir hissəsi kimi dini biliklərə yiyələnməsi də kifayət qədər zəruri bir məsələdir. Bu zərurilik düzgün dini təsəvvürlərlə malik olub zərərli təbliğatların qurbanına çevrilməmək baxımdan da önəmlidir. Dini təlim-tərbiyə bizim təhsil tariximizdə daim aktual olmuşdur; bir çox filosof-şairlərimiz, ədiblərimiz, maarifpərvər ziyalılarımızın mədrəsə təhsili olmuş, İslam dininin müxtəlif sahələrinə dərindən yiyələnmişlər. Bu ənənənin müasir dövrümüzdə davam etdiyini deyə bilərik. Bu günün də ziyalı insanları vaxtilə ən azından fərdi olaraq dini bilgiləri öyrənən, milli və dini dəyərlərimizi özündə sintez edən insanlardır. Milli və dini dəyərlərimiz Ümummilli lider Heydər Əliyevin baxışlarında da xüsusi yerə malik olmuşdur. "...Heydər Əliyevin konseptual

baxışları sırasında milli mənəviyat, milli vətənpərvərlik tərbiyəsi, azərbaycançılıq hissiyatının formalaşdırılması, Azərbaycan dilinin, islam dini-mənəvi dəyərlərindən lazımınca faydalanma kimi məsələlər geniş yer tutur".[29]

Salzman üç əsas səbəbin uşaqlarda dinə nifrət yaratdığı qənaətindədir: 1) Allahı onların gözündən salmaq; 2) dinin yanlış metodika ilə öyrədilməsi; 3) dini öyrədənləri (ruhaniləri) uşaqların gözündən salmaq. Onun fikrincə, din qorxu və məcburiyyətlə təqdim edilərsə, uşaq zamanla dini dəyərlərdən uzaqlaşar. Sevgi, mərhəmət və hörmət üzərində qurulan dini tərbiyə isə ömürlük təsir göstərər.

Hekayədə valideynin Allahı daim qəzəblənən, cəza verməyə fürsət gəzən bir varlıq kimi təqdim etməyinə şahid oluruq. Təbii ki, bu halda uşaqda sevgi deyil, qorxu yaranır. İnkişaf psixologiyası göstərir ki, erkən uşaqlıq dövründə formalaşan Allah təsəvvürü çox vaxt valideyn obrazı ilə əlaqələndirilir. "Uşaqlar öz valideynlərini qayğıkeş, sevgi dolu və güclü bir təhlükəsizlik mənbəyi kimi qəbul etdikdə onların zehnində formalaşan Allah obrazı da eyni dərəcədə şəfqətli, qoruyan və lütfkar olur. Əksinə, avtoritar və davamlı cəzalandırma yönümlü (qorxu dilinə əsaslanan) valideynlik üslubu uşağın İlahi varlığı da yalnız cəza verən bir hakim kimi görməsinə yol açır".[30]

[29] Rüfət Lətif oğlu Hüseynzadə, Zenfira Mirsəfər qızı Əzizova, Sahib Hümmət oğlu Əliyev, Ülviyyə Məhəmmədəli qızı Verdiyeva. Pedaqogika. Dərslik. – Bakı: Mütərcim, 2021. – 488 səh., səh 81.

[30] Guimarães, D., & Dickie, J. R. (2026). Parent-Child Relationships and Children's Images of God. Journal of Development and Religion, 14(2), 112-128.

Müəllif dinin yanlış metodika ilə öyrətmək məsələsində iki ciddi səhvə diqqət çəkir: dini məcburiyyətə çevirmək və uşağın inkişaf xüsusiyyətlərini nəzərə almamaq.

Kasparın hekayəsində dini mətnlər cəza ilə əlaqələndirilir. Nəticədə uşaq ayələri deyil, onları öyrənərkən yaşadığı ağrını xatırlayır. Digər nümunədə isə uşaqlar saatlarla mənasını başa düşmədikləri ibadətlərdə oturmağa məcbur edilirlər. Müasir pedaqogikaya görə, öyrənmə uşağın yaşına, diqqət müddətinə və idrak səviyyəsinə uyğun qurulmalıdır. Başa düşülməyən və yalnız məcburiyyət hissi yaradan dini fəaliyyətlər uşaqda mənəvi maraq oyatmır.

Salzmanın ruhanilər haqqında dediyini müəllim vətərbiyəçilərə də aid edə bilərik. Uşaq müəllimə və ya tərbiyəçiyə hörmət etmirsə, onun verdiyi dərslər təsirsiz qalacaq. Valideyn evdə uşağın müəllimini davamlı şəkildə alçaldırsa, uşaq o müəllimin söylədiyi müsbət fikirləri də dəyərsiz hesab etməyə başlayır. Çünki insanlar məlumatın məzmunundan əvvəl onu söyləyən şəxsə etibar edib-etmədiklərinə diqqət yetirirlər.

Təbii ki, müəllim nöqsansız olmaya bilər. Əsas olan budur ki, müəllimin şəxsi nöqsanlarını uşağın yanında davamlı qabartmaq olmaz; çünki bu, tərbiyə prosesinin özünə xələl gətirir. Uşaqda zamanla hər cür nəsihətə qarşı laqeyd münasibət formalaşır.

Beləliklə, dini tərbiyənin təsiri ilk növbədə valideynin davranışında görünməlidir. Sevgi, hörmət əsasında və şəxsi nümunə ilə öyrədilən dəyərlər uşağın qəlbində daha möhkəm yer tutur.

XVIII BÖLMƏ
UŞAQLARI İNADKAR ETMƏYİN YOLLARI

Uşaqlarınız nə istəsələr, hamısını yerinə yetirin

Cənab Kurt və həyat yoldaşı uzun illər övlad sahibi ola bilməmişdilər. Nəhayət, onlara böyük sevinc gətirən balaca Henrix dünyaya gəldi. Valideynləri yeganə övladlarını mümkün olan hər cür qayğı ilə böyütməyi özlərinə borc bildilər. Lakin onu təkcə ərköyünləşdirməklə kifayətlənmədilər. Həm ata, həm də ana qərara aldılar ki, uşaq inciməsin deyə hər arzusunu yerinə yetirsinlər.

Henrix əli ilə nəyi göstərirdisə, dərhal gətirirdilər. İt də, pişik də onun yanına gətirilirdi. İstədiyi hər şeyi dadmasına icazə verilirdi. Hətta əli uzanan kimi bıçaqla çəngəli belə, təhlükəsiz olsun deyə qınına salıb ona verirdilər. Xoşu gəlməyən hər şey dərhal göz önündən uzaqlaşdırılırdı. Hətta uşağın onlardan xoşu gəlmirdi deyə üç xidmətçi işdən çıxarıldı.

Henrix yeriməyə başlayanda anasının və ya dayəsinin apardığı tərəfə yox, yalnız öz istədiyi istiqamətə gedirdi. "Hu! Du! Hu!" – deyə qışqırır, dayəsinin əlindən dartıb istədiyi tərəfə aparırdı. Dayə də məcbur olub onun dalınca gedirdi. Beləcə, bir saatın içində otaqdan həyətə, həyətdən bağa, oradan da pilləkənləri qalxıb düz evin çardağına qədər gəzirdi.

Bir dəfə zirzəminin qapısı açıq idi. Henrix ora girmək istəyəndə dayə buna icazə vermədi və uşaq bərkdən ağlamağa

başladı. “Ay balam, sakit ol. Zirzəmi qaranlıqdır. Gəl toyuqlara baxaq. Bax, Henrix, necə gözəl toyuqlardır! Cip-cip-cip! Henrixin yanına gəlin, toyuqlar!”, – dayə dedi. Amma bunların heç bir faydası olmadı. Henrix yenə zirzəmiyə tərəf dartınır, qışqırır, ayaqlarını yerə döyürdü. Bu vaxt anası nigaran halda qaça-qaça gəldi:

– Nə olub? Nə baş verib? Bu ağılsız qız yenə nə edib?

– Heç nə, xanım Kurt. Balaca Henrix zirzəmiyə girmək istəyir. Axı ora buraxa bilmərəm... Baxın görün necə özündən çıxıb. Onu saxlaya bilmirəm.

– Uşağı mənə verin! Tez bir şam yandırın! Sakit ol, Henrix! Zirzəmiyə getmək istəyirsən? Yaxşı, gedək.

Beləcə zirzəmiyə endilər. Xidmətçi qabaqda əlində işıq gedirdi. Pilləkənin yarısına çatanda Henrix birdən fikrini dəyişdi. Geri dönmək istədi. Ana da, dayə də onunla birlikdə geri döndülər və hamısı yenidən pillələri qalxıb ütü otağına qayıtdılar.

Henrix danışmağı öyrənəndən sonra ağzından çıxan hər söz bütün ev əhli üçün əmr sayılırdı. Süfrəyə yemək qoyulanda evdə, adətən, bu dialoq qurulurdu:

– Bunu istəmirəm.

– Bəs nə istəyirsən, əziz balam?

– O biri tikədən istəyirəm.

– Buyur, Henrix, al.

– Bu da xoşuma gəlmir.

– Bəs nə yemək istəyirsən?

– Şirniyyat istəyirəm.

– Şirniyyat yoxdur axı.

– Mən şirniyyat istəyirəm!
– Sakit ol, sabah sənə gözəl bir kökə bişirərik.
– Yox! İndi şirniyyat istəyirəm!
– Bu uşaqla biz nə edək?
– Katrin, al bu qəpiyi, tez gedib uşağa bir az şirniyyat al…
– Buyur, balam. İndi razısan?
– Bəli. Amma susamışam.
– Nə içmək istəyirsən? Pivə, yoxsa şərab?
– Qəhvə istəyirəm.
– Qəhvə hələ hazır deyil. Tez ocağı qalayın, qəhvə hazırlayın! Sakit ol, sakit ol!
– Qəhvə tez hazır olacaq?
– Bəli, çox tez.
– Yox, qəhvə istəmirəm. Pivə istəyirəm! Pivə! Anacan, pivə!
– Buyur, pivə.
– Yox, bu mənim stəkanım deyil. Öz stəkanımı istəyirəm.
– Görün bizim balaca necə ağıllıdır!

“UŞAQLARI İNADKAR ETMƏYİN YOLLARI” BÖLMƏSİNƏ ŞƏRH

Valideynlərin tərbiyə prosesində yol verdiyi səhvlərdən biri də uşağın hər istəyini yerinə yetirməkdir. Doğrudur ki, onlar bunu övladlarını sevdikləri üçün edirlər. Ancaq sevmək hər istədiyini yerinə yetirmək deyil, övlada məntiqli məhəbbət onun sağlam inkişafına təkan verməklə olmalıdır. Yəni valideyn sevgi hissinin təsiri ilə uşağa özü də bilmədən zərər də

verə bilər. Buna görə də atılacaq addımlar sırf duyğuya əsaslanmamalı, rasional və məntiqli olmalıdır. Uşağını sevən valideyn, təbii ki, onun sağlam bir şəxsiyyət olmasını istəyir. Amma uşağın hər istəyini yerinə yetirmək onu sağlam şəxsiyyət deyil, inadkar birinə çevirir. Ona görə də uşağın bütün istəklərini qarşılamaqla onu zəif xarakterli birinə çevirmək yerinə, insanın bütün arzularına çata bilməyəcəyini məşq etdirərək real həyata hazırlamaq lazımdır.

Uşaq müşahidə edəndə ki, ağlamaq, qışqırmaq, israr etmək istədiyini əldə etməsinə səbəb olur, beynində sadə bir əlaqə yaranır: "inad = istədiyini əldə etmək". Valideyn çığır-bağır salan uşağının istəklərini anında qarşılamaqla onun həmin andakı əzabının qarşısını alır, amma əslində gələcəkdə baş verəcək daha böyük problemlərin əsasını qoyur. Hər istədiyini qışqır-bağırla əldə etməyə öyrəşən uşaq böyüdükdə istər-istəməz həyatın təbii məhdudiyyətləri ilə qarşılaşacaq, həmin zaman bu məhdudiyyətlərə dözümlü yanaşa bilməyəcək və istədikləri olmayanda həll yolu axtarmaq əvəzinə, özünü orabura vuracaq.

Digər bir tərəfdən uşağın hər istəyinin yerinə yetirilməsi evdə valideyn-övlad rolunu dəyişir. Övlad itaət edən, valideyn rəhbər olmaq yerinə, valideyn itaət edən, övlad rəhbər olur. Bu isə uşağın böyüdükdə sosial münasibətlərində problemlər yaradacaq. Çünki atasının itaəti altında böyüməyən uşaq itaət etməyi öyrənə bilmir və böyüdükdə də məktəbdə, universitetdə müəlliminə, işdə müdirinə tabe ola bilmir. Belə insanlar dünyanın onlardan ibarət olduğunu düşünürlər: "xeyr" cavabını qəbul etməkdə çətinlik çəkirlər, tənqidə qarşı

həddindən artıq həssas olurlar, səbir tələb edən işlərdən tez bezirlər, münasibətlərdə daim qarşı tərəfin onlara uyğunlaşmasını gözləyirlər və istəkləri dərhal yerinə yetməyəndə aqressiya və ya emosional partlayış göstərə bilirlər.

Uşaq psixologiyasında istək və ehtiyac arasındakı fərqi anlamaq sağlam bir fərd yetişdirməyin ən mühüm şərtidir. Bu iki anlayış həm bioloji, həm də emosional baxımdan fərqlənir. Ehtiyaclar uşağın yaşaması, sağlam böyüməsi, fiziki və psixoloji inkişafı üçün vacib ünsürlərdir. Bunlar təmin olunmadıqda uşağın inkişafı ləngiyir və ya travmalar yaranır. İstəklər isə uşağın anlıq zövq, maraq və ya həvəsindən doğan, olmasa da həyatına davam edə biləcəyi arzulardır. İstəklər çox vaxt xarici amillərin (reklamlar, həmyaşıdları və s.) təsiri ilə formalaşır.

Uşağın əsas ehtiyacları bunlardır: təhlükəsizlik, sevgi və qəbul edilmək, diqqət, emosional dəstək, inkişaf üçün imkan və s. Oyuncaqlar istəmək, hər istədiyi şirniyyatın alınması və ya bütün arzularının dərhal yerinə yetirilməsi isə ehtiyac deyil, istəkdir. Valideyn bu iki anlayışı qarışdırmamalı, uşağın ehtiyaclarını təmin etməli, istəklərdənsə faydalı olanını yerinə yetirə bilər.

İdeal tərbiyə nə çox sərt, nə də çox yumşaq olmalıdır. Bunlar arasında balans saxlamaq lazımdır. Yəni uşaqlar üçün ən faydalı yanaşma sevgi ilə yanaşı aydın sərhədlərin də mövcud olduğu tərbiyə modelidir. Belə ailələrdə valideyn həm mehriban olur, həm də lazım gəldikdə sakit və qəti şəkildə "yox" deməyi bacarır.

Beləliklə, valideynin vəzifəsi uşağın qarşısındakı bütün maneələri aradan qaldırmaq deyil, onu maneələrin öhdəsindən gələ biləcək şəxsiyyət kimi yetişdirməkdir. Hər arzunun dərhal yerinə yetirilməsi uşağı həyata hazırlamır; əksinə, onu həyatın qaçılmaz çətinlikləri qarşısında kövrək edir.

XIX BÖLMƏ
UŞAQLARA YALAN DANIŞMAĞI ÖYRƏTMƏYİN YOLLARI

I. Uşaqları lap balacalıqdan yalana alışdırın

Bu işdə usta Ştefan, həqiqətən də, böyük məharət sahibi idi. Demək olar, elə bir gün olmazdı ki, balaca Ştefanı azı bir dəfə yalan danışmağa məcbur etməsin. Üzünü görmək istəmədiyi bir adam onlara gələndə oğlunu qapıya göndərər və deyərdi: "Bax, filankəs gəlib mənim evdə olub-olmadığımı soruşsa, de ki, atam evdə yoxdur, pul dalınca gedib". Kasıb bir qadın və ya uşaq gəlib bir tikə çörək istəyəndə də oğluna tapşırardı: "Get de ki, evdə çörəyimiz yoxdur, axşam bişirəcəyik".

Balaca Ştefan məktəbə getməyi sevmirdi deyə müxtəlif bəhanələrlə tez-tez dərsdən qalırdı. Ertəsi gün isə müəllimdən cəza alacağından qorxub yenə məktəbə getmək istəməzdi: "Məktəbə getməyəcəyəm! Dünən getmədiyimə görə məni döyəcəklər!" Usta Ştefan dərhal çıxış yolu tapardı: "Ay axmaq, de ki, dünən ayaq işlədən dərman içmişdim. Ya da de ki, atam məni filan yerə göndərmişdi. Müəllimlər inanacaqlar".

Ştefanın anası çox qənaətcil qadın idi. Hər qəpiyini xərcləməzdən əvvəl onu on dəfə oüz-buüzünə çevirərdi. Balaca Ştefan: "Ana, mənə bir qəpik ver, çörək alım" və ya "Mənə üç qəpik ver, albalı və ya çiyələk alım", – deyəndə çox vaxt belə

cavab alardı: "Yox! Sənin kimi uşağın belə naz-nemətlərə ehtiyacı yoxdur". Amma buna baxmayaraq, Ştefan hər gün mövsüm meyvələrini yeyirdi. Atası ona gizlicə ara-bir üç qəpik verər, sonra da nəsihət edərdi: "Al bunu, özünə nəsə al. Amma anan görməsin. Görsə, de ki, xaç atan verib".

Balaca Ştefan qısa müddətdə yalan danışmaqda böyük ustalığa çatdı. Bir kəlməsi belə doğru olmayan uydurma əhvalatlar danışardı, amma üzü bir damcı da qızarmazdı. Atası isə qarnı ağrıyana qədər gülər və deyərdi: "Bu lap hiyləgər tülkü imiş! Kəlləsi də lap yaxşı işləyir". Lakin oğlan böyüdükcə artıq atasının xoşuma gəlməyən işlər görməyə başladı.

Bazar günü səhərlər gizlicə meyxanaya gedər, evə qayıdanda isə: "Kilsədə idim" – deyərdi. Atası moizədən nə yadında qaldığını soruşanda elə ətraflı danışardı ki, atanın ağlına belə gəlməzdi ki, hamısını özündən uydurur. Həftə ərzində işdən yarım gün yayınar, xaç atasının, bibisinin və ya nənəsinin yanına getdiyini deyər, əslində isə əyyaşların yığıldığı yerlərdə vaxt keçirib pulunu havaya sovurardı.

Bir müddət sonra evdən pul, paltar və bəzi iş alətləri yoxa çıxmağa başladı. Bir gün ata süfrə arxasında dedi: "Evdə mütləq oğru var. Başqa cür ola bilməz. Nəyin bahasına olursa-olsun, onu tapacağam". Balaca Ştefan isə nə qızardı, nə də pörtdü. Atasını kənara çəkib pıçıldadı: "Oğrunun kim olduğunu bilmək istəyirsiniz? Qulluqçu oğlandır. Şəhərdəki bütün meyxanalarda o qədər nisyə yazdırıb ki, hamı bundan danışır. Yadınızdadır, bir qızıl pulunuz itmişdi? Bax həmin pulu ötən bazar günü mehmanxanada qumara qoyub uduzub".

Təbii ki, usta Ştefan buna çox hirsləndi. Dərhal qulluqçunun üstünə cumdu, onu oğru və fırıldaqçı adlandırdı. Qulluqçu isə dedi: "Bu böhtan sizə baha başa gələcək". O, bələdiyyəyə şikayət etdi və nəticədə usta Ştefan ondan üzr istəməyə, adını təmizləməyə və üstəlik cərimə ödəməyə məcbur oldu.

Amma necə deyərlər, səhəng bulağa daşına-daşına axırda sınar. Vaxt keçdikcə usta Ştefan oğlunun bütün hiylələrini və yalanlarını başa düşdü. Danladı, döydü, islah evi ilə hədələdi. Lakin bunların heç bir faydası olmadı.

Ştefan get-gedə kasıblaşdı. Əvvəllər özü başqalarına iş verən usta olduğu halda, artıq başqalarının yanında adi fəhlə kimi işləməli oldu. O zaman tez-tez həmkarlarına belə gileylənərdi: "Yazıq mən! Məni bu hala salan öz oğlum oldu. Ağzından bircə düz söz çıxmır. O, quşun havada uçduğu kimi yalan danışır. Kaş biləydim, bu lənətə gəlmiş yalanı haradan öyrənib!

II. Uşağın yalanını gülüşlə qarşılayın və mükafatlandırın

Bir gün balaca Lottxen süfrə arxasında anasından soruşdu:

– Mənə də şərab süzəcəksən?

– Yox, qızım. Şərab uşaqlar üçün zərərlidir.

Lottxen cavab verdi:

– Amma mən xəstəyəm axı, mədəm də zəifdir. Bir dəfə özün demişdin ki, şərab zəif mədəyə xeyirlidir.

Süfrə arxasında əyləşib bunu eşidənlərin hamısı hamısı balaca qızın hazırcavablığına güldülər. Anası dərhal şərab şüşəsini götürüb bir stəkan ona süzdü və dedi:

– İç görək, ay dəcəl qız. İndi mədən düzəldi?

– Bəli, ana! İndi lap yaxşıyam. Heç yerim ağrımır.

Bu cavab da yenidən hamını güldürdü. Lottxen bu hadisəni yadında saxladı və anasının tərifini qazanmaq üçün belə zarafatları tez-tez təkrarlamağa başladı. Necə ki, itlər kiçik tikələrlə öyrədilir, Lottxen də bu cür zarafatlar sayəsində yalana o qədər alışdı ki, sonralar şəhərdə hamı onu "yalançı Lottxen" adı ilə tanıyırdı.

III. Uşaqlarınızın dediyi hər sözə inanın

Xanım Simpel həmişə harasa qonaq gedib-gələndən sonra soruşardı:

– Mən olmayanda özünüzü yaxşı apardınız, uşaqlar?

Bunu xidmətçilərdən yox, elə uşaqların özündən soruşardı. Çünki onların öz davranışları haqqında ən doğru xəbəri verəcəyinə inanırdı.

– Bəli, anacan, çox ağıllı durduq.

– Səs-küy salmadınız ki?

– Yox, yox.

– Həyətdə qaçıb-oynamamısınız ki?

– Yox, otaqdan heç çıxmamışıq. Mən parça toxuyurdum, bacım isə şəkilli İncilə baxırdı.

– Afərin! Sizə bir dilim piroq gətirmişəm. Çünki çox tərbiyəli uşaqlar olmusunuz.

Uşaqlar gəzintiyə gedəndə də anaları soruşardı: “Haraları gəzdiniz?” Onlarsa ananın xoşuna gələcəyini bildikləri bir yer

adı deyərdilər. Ana da əlavə heç nə soruşmadan buna inanardı; uşaqların doğru danışıb-danışmadığını araşdırmazdı.

Əvvəllər onlar hər dəfə həqiqəti deyirdilər. Lakin sonralar bəzi şeyləri analarından gizlətməyin daha yaxşı olduğunu düşündülər. Məsələn, bir dəfə ana evdə olmayanda küçədə dəcəl uşaqlarla oynadılar. Sonra bundan qorxdular və əvvəlcə anaya yalan danışmağa cürət etmədilər. Axırda böyük bacıları dedi: "Bunu demək olmaz. Yoxsa piroq verməyəcək". Bu söz o biri uşaqlara ağlabatan gəldi. Beləcə, anaların yalan deməyə qərar verdilər".

Ana soruşanda ki, "Evdən çıxmamısınız, elə deyilmi?", uşaqların qorxudan dili tutuldu. Heç biri cavab verməyə cəsarət etmirdi. Nəhayət, böyük bacıları dedi: "Bəli, anacan, qapıdan bayıra çıxmamışıq". Balacalar də dərhal onun sözünü təsdiqlədilər. Ana onların evdən qalmalarını tərifləyib sevindi. Uşaqlar isə düşündülər: "Anamız hər dediyimizə inanırsa, deməli, belə oyunları tez-tez oynaya bilərik". Beləliklə, anaları evdə olmayanda istədikləri qədər dəcəllik edir, qayıdanda isə: "Çox sakit və tərbiyəli olmuşuq", – deyirdilər.

Gəzintiyə çıxanda şəhərin ən dəlisov, dəcəl uşaqlarının toplandığı oyun meydançalarına gedir, sonra analarına getdikləri yer barədə başqa bir yer adı deyirdilər. Beləcə, ildənilə daha cəsarətlə və daha çox yalan danışmağa başladılar. Axırda iş o yerə çatdı ki, xanım Simpel öz uşaqlarının rişxənd yerinə çevrildi.

IV. Uşaqlarınız həqiqəti deyəndə onları cəzalandırın

Bir dəfə Fridrix milçək tutmaq istədi. Əlini ona uzadanda atasının şüşə kuzəsinə toxundu. Kuzə yerə düşüb param-parça oldu. Yazıq uşaq əvvəl qorxusundan donub qaldı. Sonra düşündü: "Ən yaxşısı, elə özüm gedib atama hər şeyin düzünü deyim". Kədərli halda atasını axtardı və onu bağda tapdı:

– Ata, ata! Mənə hirslənmə. Milçək tutmaq istəyirdim. Əlim şüşə kuzənə dəydi.

– Şüşə kuzəmə? Yəni onu sındırmısan?

– Hə, ata. Amma qəsdən etmədim.

– Tərbiyəsizin biri! İndi sənə elə dərs verəcəyəm ki, o kuzəni ömrün boyu unutmayacaqsan!

– Ata, nə edəcəksən? Yox... Yox... Məni döymə! Nolar! Mən bir də belə etmərəm!

– Səni yaramaz!

– Ata, vurma! Məni öldürəcəksən!

– Sən heç vaxt ağıllanmayacaqsan!

– Ah, qolum! Qolum! Ata, bəsdir! Bir də heç vaxt belə etmərəm!

– Yaxşı yaddında saxla! Bir də o şüşə kuzəyə barmağının ucu dəyməsin!

– Ah! Qolum! Qolum!

Başqa bir vaxt Fridrix şəkilli bir kitabı vərəqləyirdi. Kitab əlindən sürüşdü. Tutmaq istəyəndə vərəqlərin birindən yapışdı və həmin vərəq ortadan cırıldı. Bu dəfə onun qorxusu əv-

vəlkindən də betər oldu. Kitabı sakitcə bağladı və heç nə olmamış kimi yerinə qoydu. Bir neçə gün sonra atası kitabı götürəndə cırılmış səhifəni gördü və dərhal soruşdu: "Bunu kim cırıb?" Fridrix hər şeyi etiraf etdi. Hadisənin necə baş verdiyini də danışdı və atasına yalvardı ki, onu döyməsin. Lakin bunun heç bir faydası olmadı. O, əvvəl kuzəni sındıranda aldığı dayaqlar qədər yenə döyüldü.

Beləliklə, Fridrix başa düşdü ki, atası həqiqəti eşitmək istəmir. Buna görə də getdikcə doğru danışmaqdan əl çəkdi. Sonralar artıq nəyisə qıranda və ya korlayanda etiraf etmirdi. Bəzən tamamilə inkar edir, bəzən də günahı başqasının üstünə atırdı. Çox dəcəl olduğundan tez-tez stəkanları sındırırdı. Amma həmişə elə bəhanə tapırdı ki, günah onun üstündən götürülürdü. Bir dəfə deyirdi ki, külək pəncərəni açıb stəkanları yerə salıb, başqa vaxt pişiyin masaya tullanıb fincanları sındırdığını söyləyirdi.

Bir gün bir boşqab sousu paltarının üstünə tökdü. Bunu atasına demək əvəzinə paltarı sakitcə yerinə asdı. Ertəsi gün onu geyinmək istəyəndə qışqıra-qışqıra atasının yanına qaçdı:

– Ata! Ata! Paltarıma bax, kimsə üstünə yağ töküb, böyük bir ləkə düşüb.

– O gözəl paltara? Sən özün etməmisən ki?

– Mən? Mən heç öz paltarımı korlayaram? Xeyr, vallah, mən etməmişəm.

Fridrix beləcə hər dəfə canını qurtarırdı. Yalan danışanda etdiyi bütün dəcəlliklər cəzasız qalırdı. Həqiqəti deyəndə isə döyülürdü. Belə olan halda onu yalana alışmasına görə qınamaq olardımı?

V. Söhbətlərinizlə uşaqları yalan danışmağa vadar edin

1-ci hekayə

Balaca Trauqott bir səhər çox gümrah oyandı. Sadəcə, yanaqları həmişəkindən bir az çox qızarmışdı. Yəqin ki, yorğanı başına qədər çəkib yatdığı üçün idi. Anası təşvişlə soruşdu:

– Ay balam, sənə nə olub? Üzün qıpqırmızıdır.

– Heç nəyim yoxdur.

– Gəl bir nəbzini yoxlayım... Gör necə sürətlə döyünür! Yoxsa xəstələnmisən? Başın ağrımır ki?

– Bir az.

– Bax, elə mən də bunu deyirdim! Haran ağrıyır?

– Bilmirəm.

– Alnın ağrıyır, hə?

– Hə, lap çox ağrıyır.

– Qarnın da sancılanıb?

– Hə.

– Ay aman! Uşaqdan başqa insana dərd-qəm verən nə var?! Ay kişi! Ay kişi! Bədbəxt olduq! Bizim Trauqott xəstələnib. Deyir başı da ağrıyır, qarnı da. Uşaq bu halda məktəbə gedə bilməz.

Trauqottun anası tez-tez belə davranardı. Gün ərzində dəfələrlə ondan soruşardı ki, qızdırması varmı, üşüyürmü, qarnı ağrıyırmı. Uşaq bu suallara "bəli" cavabı verəndə ana xeyli narahat olardı. Axı xəstə halda uşaq məktəbə gedə bilməzdi. Məktəbə getməməli idi.

Belə zəif uşaqdan heç nəyi əsirgəmək olmazdı. Elə hər istədiyi verilməli idi ki, könlü sınmasın, əsəbiləşməsin. Dadlı

yeməklərdən də məhrum edilməməli idi ki, bu balaca xəstənin iştahı açılsın.

Trauqot bunu görüb fikirləşdi: "Deməli, iş belədir? O zaman bundan sonra məktəbə getməməyin çarəsini tapdım". Nə vaxt məktəbə getmək istəməsə və ya hansısa ləziz yeməyi arzulasa, dərhal anasının yanına gəlib deyirdi: "Ay ana! Başım... başım! Qarnım... hər yerim ağrıyır. Başımı yaylıqla bağla!"

2-ci hekayə

Julxen balaca rəfiqəsi Karolinanın evindən qayıdanda anası hər zaman böyük maraqla ondan sorğu-sual edərdi ki, Karolinagildə nə baş verib? Julxen isə orada yalnız oynamaqla məşğul olduğu üçün verilən sualların çoxuna cavab verə bilmirdi. Amma hər halda cavab verməli idi. Anası onu o qədər sorğu-suala tuturdu ki, axırda mütləq nəsə bir cavab verməyə məcbur qalırdı. Beləcə, məcbur olurdu ki, uydurmalar danışsın.

– Yuxarı otaqda idin, yoxsa aşağı otaqda?

– Yuxarı otaqda.

– Deməli, Karolinanın anasını görmüsən?

– Bəli, orada idi.

– Nə geyinmişdi?

– Bilmirəm... fikir verməmişdim.

– Necə yəni fikir verməmisən? Heç olmasa yadında qalıb ki, paltarı pambıqdan idi, yoxsa başqa parçadan?

– Elə bilirəm, pambıq parçadan idi.

– Nə axmaq qızsan! "Elə bilirəm" nə deməkdir? Dəqiq bilmirsən?

– Hə... indi yadıma düşdü, pambıq parçadan idi.

– Parça tünd rəngdə idi?

– Hə, lap tünd idi.

– Üzərində iri güllər var idi, yoxsa xırda?

– Xırda güllü idi.

– Mətbəxdən nə bişdiyinin iyi gəlmirdi?

– Elə hiss elədim ki, dovşan əti qızardırdılar.

– Deməli, axşam qonaqları olacaq. Karolina demədi ki, bu axşam onlara kim gələcək?

– Yox, onu soruşmamışdım.

– Sən doğrudan da qəribə qızsan! Mən olsaydım, qızartma iyi hiss edən kimi mütləq soruşardım ki, kim gələcək.

– Bəs Karolina xaç atasından heç nə demədi?

– Deyəsən, dedi...

– Yəqin bu axşam gələcək.

– Hə, indi yadıma düşdü, bu axşam gələcək.

Bunların heç biri doğru deyildi. Julxenin, əslində, yalan danışmağa meyli yox idi. Lakin çoxbilmiş anası bu cür ardıcıl suallarla onu elə vəziyyətə salırdı ki, qız istər-istəməz yalan danışmalı olurdu.

Vaxt keçdikcə o bu işdə xeyli məharət qazandı. Bu, anasını çox sevindirirdi. Artıq yad evdən qayıdan kimi nəsə soruşulmasını gözləmədən özü danışmağa başlayırdı: ev sahibi ilə xanımını necə gördüyünü, qonaq otağının və mətbəxin nə halda olduğunu, nə bişirildiyini, kimlərin gəlib-getdiyini bir-bir

söyləyirdi. Ancaq bu danışdıqlarının əksərən bir kəlməsi belə doğru olmurdu. Anası isə bundan çox razı qalırdı.

"UŞAQLARA YALAN DANIŞMAĞI ÖYRƏTMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Müasir inkişaf psixologiyası bu fikri təsdiqləyir ki, uşağın ilk yalanları, adətən, məqsədyönlü şəkildə olmur, sosial öyrənmə, cəzadan yayınma və ya mükafat qazanma istəyindən yaranır. Salzman uşaqların yalana meylini beş əsas səbəblə bağlayır: 1) valideynlərin uşaqları balacalıqda yalana alışdırması; 2) valideynlərin uşaqların yalanını mükafatlandırması; 3) valideynlərin uşağın hər sözünə qeyd-şərtsiz inanması; 4) uşaq düz danışanda valideynin onu cəzalandırması; 5) valideynin uşağı yalana sövq etməsi.

Uşaq ilk növbədə valideynin davranışını təqlid etdiyi üçün, əsasən, yalanı da ondan öyrənir. "Uşaqlar yalan danışanda ata-anaların əksəriyyəti narahat olurlar. Lakin tərbiyədə valideyn nümunəsinin rolunu və bəzi ata-anaların özlərinin yalan danışdıqlarını yadımıza salsaq, görərik ki, bu keyfiyyəti uşaqlar çox vaxt böyüklərdən öyrənirlər".[31] Valideyn uşağın yanında tez-tez yalan danışırsa, uşaq bunu normal davranış kimi qəbul edir. Hekayədə ata oğlundan qapıya gələn adama onun evdə olmadığını deməsini istəyir. Valideyn bunu kiçik, zərərsiz yalan hesab etsə də, bu vəziyyət uşaq üçün belə bir mesaj

[31] Rüfət Hüseynzadə, Lalə Allahverdiyeva. Ailə pedaqogikası, Bakı-2016, səh. 91.

verir ki, deməli, lazım gələndə yalan danışmaq olar. Uşaq yalanın ölçüsünü ayıra bilmir. O, sadəcə valideynin tətbiq etdiyi üsulu öyrənir.

Uşaq görəndə ki, yalan problemi aradan qaldırır, onu cəzadan qoruyur, ona mükafat qazandırır və valideyni sevindirir, onda beyin bu davranışı faydalı strategiya kimi yadda saxlayır. Hekayədə Fridrix əvvəlcə həqiqəti danışır: şüşəni sındırdığını etiraf edir. Lakin buna baxmayaraq ağır şəkildə cəzalandırılır. Sonra kitabı cıranda yenə həqiqəti deyir və yenə eyni cəza alır. Sonda uşaq belə nəticəyə gəlir: "Həqiqəti desəm, döyüləcəyəm. Elə isə, yalan danışmaq daha sərfəlidir".

Sağlam ailə münasibətlərində valideyn uşağa belə mesaj verir: "Səhv etsən belə, həqiqəti desən, cəzalanmayacaqsan, problemi birlikdə həll edəcəyik". Bu yanaşma uşaqda dürüstlüyü gücləndirir. Əksinə, hər etirafın arxasında ağır cəza dayandıqda isə uşaq səhvlərini gizlətməyə başlayır. Böyük ehtimalla, bu cür böyüyən uşaq sonda iş yerində də səhvlərini gizlədən, məsuliyyəti başqalarının üzərinə atan, etibarlı münasibətlər qurmaqda çətinlik çəkən birinə çevriləcək.

Hekayədə Lottxen yalan danışır, hamı buna gülür. Beləliklə, o, mükafat qazanır: sosial diqqət. Davranış psixologiyasına görə mükafatlandırılan davranış daha çox təkrarlanır. Valideyn bunu zarafat hesab etsə də, uşaq buradan belə bir nəticə çıxarır: "Mən yalan danışanda hamı məni bəyənir". Bu səbəbdən uşaqların "şirin yalanları" belə xoşluqla qarşılanmamalıdır.

Bəzən valideynlər həddindən artıq sadəlövhlük göstərirlər. Hekayədə xanım Simpel uşaqlarının dediyi hər sözə qeydşərtsiz inanır.

Belə olduqda uşaq anlayır ki, yalanın heç bir riski yoxdur və yalan danışmaq onun üçün asanlaşır.

Valideynin verdiyi suallar da uşağı yalana sövq edə bilər. Bəzən uşaq yalan danışmaq niyyətində olmur, sadəcə cavabı bilmir. Ancaq böyüklər israrla sual verməyə davam edirlər. Belə hallarda uşaq düşünür ki, mütləq cavab verməlidir. Nəticədə, bilmədiyi şeyi uydurmağa başlayır. Bu hadisə xüsusilə məktəbəqədər yaşda olan uşaqlarda tez-tez müşahidə edilir. Bunu təsdiqləyən ən məşhur tədqiqatlardan biri psixoloqlar Stiven Sesi və Meqqi Bruk tərəfindən aparılmış "Sam Stoun"[32] eksperimentidir. Eksperimentdə azyaşlı (məktəbəqədər) uşaqların yanına Sam Stoun adlı mehriban bir qonaq gəlir. Sam uşaqlarla mehribanlıqla davranır, onlarla söhbət edir və sonra otaqdan çıxır. Ən əsası isə, o, otaqda heç nəyi sındırmır, heç nəyi çirkləndirmir və ümumiyyətlə qeyri-adi heç bir hərəkət etmir.

Bir müddət sonra tədqiqatçılar uşaqlarla söhbət etməyə başlayırlar. Əvvəlcə onlara Sam haqqında müxtəlif hekayələr danışılır. Bu hekayələrdə Sam çox səliqəsiz, əşyaları sındıran, ətrafı dağıdan bir insan kimi təsvir edilir. Sonra isə dəfələrlə uşaqlara istiqamətləndirici suallar verilir: "Sam kitabı necə cırdı?", "Sam oyuncağı necə çirkləndirdi?", "Sam stəkanı nə

[32] Leichtman, M. D., & Ceci, S. J. (1995). The Effects of Stereotypes and Suggestions on Preschoolers' Reports. Developmental Psychology, 31(4), 568–578.

vaxt sındırdı?" və s. Bu suallar "Sam bunu etdi, ya yox?" formasında deyil, sanki bütün bunlar baş veribmiş kimi qurulmuşdu. Beləliklə, uşağa dolayı yolla "bunlar baş verib, sən sadəcə necə baş verdiyini xatırla" mesajı verilirdi. Uşaqların əhəmiyyətli hissəsi Samın əslində etmədiyi hərəkətləri böyük əminliklə danışmağa başladı. Bəziləri onun kitabı necə cırdığını, oyuncağı necə sındırdığını, hətta bunu hansı əli ilə etdiyini belə təsvir edirdi. Halbuki bunların heç biri baş verməmişdi. Daha maraqlısı isə bu idi ki, uşaqların əksəriyyəti qəsdən yalan danışmırdı. Onlar böyüklərin verdiyi sualların doğru olduğunu güman edir, yaddaşlarında boş qalan hissələri təxmin və təxəyyül vasitəsilə doldurmağa çalışırdılar. Təkrarlanan suallar nəticəsində bu uydurma məlumatlar zaman keçdikcə onların yaddaşında həqiqətən yaşanmış hadisə kimi formalaşırdı.

Bu eksperiment uşaqlarla ünsiyyətdə mühüm bir nəticə ortaya qoydu: uşaqların verdiyi hər yanlış cavabı yalan kimi qiymətləndirmək düzgün deyil. Bəzən yanlış cavab böyüklərin israrlı, istiqamətləndirici və ya qapalı suallarının məhsulu olur. Uşaq cavabı bilmədiyi halda "bilmirəm" demək əvəzinə, böyüyün gözləntisini doğrultmağa çalışır. Məhz buna görə müasir pedaqogikada və uşaq psixologiyasında uşaqlara açıq suallar vermək tövsiyə olunur. Məsələn, "Sam nə etdi?" sualı "Sam nəyi sındırdı?" sualından daha etibarlıdır. Bundan başqa, uşağa əvvəlcədən "Əgər cavabı bilmirsənsə, "bilmirəm" demək olar" deyilməsi tövsiyə edilir.

Valideyn və müəllim bəzən fərqinə varmadan verdiyi suallarla uşağı yalan danışmağa sövq edə bilər. Uşaq cavab vermək məcburiyyətində olduğunu düşündüyü üçün bilmədiyini etiraf etmək əvəzinə, hadisələri uydurmağa başlayır. Valideyn özü dürüst davranmalı, kiçik yalanları belə adi hesab etməməli, uşaq həqiqəti dedikdə bunu qiymətləndirməli, səhvlə yalanı bir-birindən ayırmalı və etirafı ağır cəza ilə deyil, məsuliyyət öyrətməklə qarşılamalıdır. Bu halda uşaq başa düşür ki, həqiqət bəzən çətin olsa da, təhlükəli deyil.

XX BÖLMƏ
UŞAQLARI ERKƏN YAŞLARINDAN BÖHTANA ALIŞDIRMAĞIN YOLLARI

Uşaqlarınızı başqaları haqqında mümkün olduğu qədər pis danışmağa həvəsləndirin

Usta Yörq hər şeyi bilmək həvəsində olan bir adam idi. O, qonşularının evində hər gün nə baş verdiyini bilməyi çox istəyirdi. Bunu necə öyrənəcəyini bilmədiyi üçün axırda oğlunu özünə xəbərçi etməyə qərar verdi.

Usta Yörqün oğlu Kaspar hər dəfə eşidəndə ki, qonşulardan biri səfərə gedib, ona tapşırılırdı ki, həmin evin qarşısında o yana, bu yana gəzsin və ev sahibi olmayanda evə kimlərin girib-çıxdığını müşahidə etsin.

Əgər hansısa evdə qulluqçunun ora-bura qaçdığını, işıqların gur yandığını, pərdələrin çəkildiyini və ya içəridən danışıq səsləri gəldiyini eşitsəydi, dərhal Kasparı göndərərdi ki, gedib öyrənsin, görək nə baş verir.

Gündüz olsaydı, Kaspar hansısa bəhanə ilə həmin evdən nəsə almağa və ya nəyisə soruşmağa gedərdi. Axşam olsaydı, pəncərənin altında durub gizlincə qulaq asar, hətta imkan tapsaydı, içəriyə də boylanardı.

Əvvəllər Kaspar gördüklərini və eşitdiklərini olduğu kimi danışırdı. Lakin sonralar başa düşdü ki, atası dedi-qodu eşitməyi xoşlayır. Atası tez-tez: "Necə? Doğrudanmı?" – deyə heyrətlə soruşur, insanlar haqqında nə qədər bəd xəbər eşitsə,

üzü bir o qədər işıqlanırdı. Bunu görən Kaspar danışdıqlarını atasının zövqünə uyğunlaşdırmağa başladı. Əgər desəydi ki, ev sahibi səfərdə olarkən onun arvadını başqa bir qadın ziyarət edib, onda atası yalnız soyuq bir: "Hə, deməli belə", – deyərdi. Amma desəydi ki, həmin qadının yanına bir kişi gəlib, onunla deyib-gülüb, zarafat edib, onda atası dərhal qulaq kəsilər, daha ətraflı danışmasını istəyərdi. Ən çox da ər-arvad arasında dava düşdüyünü və ya ailədə hansısa xoşagəlməz hadisə baş verdiyini eşitməyi çox sevirdi.

Uşaqlar, adətən, böyüklərin rəğbətini qazanmaq istəyirlər. Kaspar da belə idi. O gördü ki, atasını sevindirməyin ən asan yolu başqaları haqqında pis danışmaqdır, buna görə də qısa müddətdə bu işdə ustalaşdı. Kasparın gətirdiyi xəbərlər nəticəsində atası bütün qonşular haqqında ən pis fikirdə olurdu. Heç bir qonşu qadın və ya kişi onun dilindən salamat qurtula bilmirdi.

Zaman keçdikcə böhtan atmaq Kaspar üçün elə adi bir vərdişə çevrildi ki, sonralar da bundan əl çəkə bilmədi. Heç kim haqqında yaxşı söz demirdi. Hər kəs barədə guya nəsə gördüyünü və ya eşitdiyini iddia edirdi. Demək olar ki, elə bir həftə keçmirdi ki, onun böhtanları ucbatından iki-üç qonşu, dost və ya ər-arvad arasında dava düşməsin.

Əlbəttə, bəzən yalanları üzə çıxırdı. Bir neçə dəfə cərimə ödəmiş, bir neçə dəfə də dostları tərəfindən möhkəm döyülmüşdü. Amma necə deyərlər, uşaqlıqda öyrəşən qocalıqda dəyişməz. Kaspar iyirmi yaşına çatanda da on yaşındakı kimi böhtançı olaraq qaldı. Hamıdan çox öz atası haqqında pis danışırdı. Onun sözlərinə görə, atası xəsis, hər qəpiyin hesabını

aparan, ağılsız və sadəlövh bir adam idi. Usta Yörq bir gün bunu eşidib oğlunun başına möhkəm bir sillə vurdu və dedi: "Sənə verdiyim tərbiyənin əvəzi budur?! Məni bu yaşımda camaat içində biabır edirsən, ay alçaq?! Bu yalançı dilinlə heç vaxt xoş gün görməyəcəksən! Məgər Müqəddəs Kitabda oxumamısan ki, oğru pisdir, amma böhtan atan ondan da pis?!"

"UŞAQLARI ERKƏN YAŞLARINDAN BÖHTANA ALIŞDIRMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Uşaq başqaları haqqında pis danışmağa təbii ehtiyac hiss etmir. O, böyüklərin nəyə maraq göstərdiyini müşahidə edir və həmin marağı özü də qazanır. Əgər ailədə dedi-qodu, insanların şəxsi həyatına müdaxilə və başqalarının nöqsanlarını axtarmaq adi hala çevrilibsə, uşaq da bunu sosial münasibətlərin normal qaydası kimi qəbul edir.

Hekayədə ata oğlunu qonşular haqqında məlumat toplamağa göndərir. İlk baxışdan bu sadəcə maraq kimi görünə bilər. Əslində isə, uşaq burada iki təhlükəli mesaj alır: birincisi, başqalarının şəxsi həyatı haqqında məlumat toplamaq normal davranışdır; ikincisi isə, insanların yaxşı əməlləri deyil, qüsurları daha maraqlıdır. Beləliklə, uşağın diqqəti yaxşılığı görməyə deyil, nöqsan axtarmağa istiqamətlənir. Psixologiyada buna "selektiv diqqət"[33] (selective attention) deyilir. İn-

[33] Selektiv diqqət (seçici diqqət) – beynimizin ətrafdakı saysız-hesabsız stimullar (səslər, görüntülər, qoxular) arasından yalnız bir və ya bir neçə vacib

san hansı məlumatlara davamlı diqqət yetirirsə, zaman keçdikcə dünyanı həmin prizmadan görməyə başlayır. Əgər uşaq daim insanların səhvlərini izləyirsə, bir müddət sonra onun beynində "insanlar pisdir" sxemi formalaşır.

Başqa bir mühüm məqam böhtanın necə yaranmasıdır. Hekayədə Kaspar əvvəlcə yalnız gördüklərini danışırdı. Sonradan isə atasının hansı xəbərlərə daha çox maraq göstərdiyini müşahidə etdi. Ata adi xəbərlərə biganə qalır, qalmaqallı xəbərlərə isə böyük maraq göstərirdi. Uşaq da diqqət və rəğbət qazanmaq üçün xəbərləri şişirtməyə başladı. Bu, müasir psixologiyada operant şərtlənmə adlanan mexanizmin klassik nümunəsidir: bir hərəkətin nəticəsinə baxıb, o hərəkəti təkrarlayır və ya ondan əl çəkirik. Yəni beynimiz bu prinsiplə işləyir: etdiyimiz hərəkətin sonu yaxşı bitirsə (mükafat alırıqsa), o hərəkəti yenə edirik; etdiyimiz hərəkətin sonu pis bitirsə (cəza alır və ya ziyan çəkiriksə), o hərəkəti bir də etmirik. Bu, təsdiqləyir ki, böhtan həmişə pis niyyətdən yaranmır, bəzən sosial mükafat almaq istəyindən doğur. Xüsusilə, uşaqlar böyüklərin diqqətini cəlb etmək üçün danışdıqları hadisələri şişirdə, bəzən isə tamamilə uydura bilirlər. Əgər böyüklər bu hekayələrə həddindən artıq maraq göstərirlərsə, uşaq zamanla fantaziya ilə həqiqət arasındakı sərhədi pozmağa başlayır.

Böhtan yalnız başqalarına zərər vermir. Hekayədə Kaspar sonda atası haqqında da dedi-qodular etməyə başlayır. Bu bir qaydadır: uşaq öyrəndiyi davranışı yalnız kənardakılara deyil,

---

məlumata köklənmək və digər əhəmiyyətsiz faktorları filtrləyərək rədd etmək qabiliyyətidir.

bir gün onu öyrədən insana da tətbiq edir. Aqressiv ünsiyyət, yalan, dedi-qodu və hörmətsizlik ailə daxilində normal hesab edilirsə, valideyn bunun gələcəkdə özünə də yönələcəyini nəzərə almalıdır.

Uşağın yanında başqaları haqqında mənfi sözlər danışıb onu iftiraya öyrəşdirmək yox, ona faktla şayiəni ayırd etməyi, eşitdiyi hər məlumata inanmamağı və başqalarının şəxsi həyatına hörmətlə yanaşmağı öyrətmək lazımdır ki, bu, sağlam sosial inkişaf üçün vacib hesab olunur.

XXI BÖLMƏ
UŞAQLARI DAİM NARAZI VƏ HƏYATDAN ŞİKAYƏTCİL ETMƏYİN YOLLARI

I. Uşaqlara hər şeyin yalnız pis tərəfini göstərin

Amaliya yemək yeyəndə, adətən, elə sifət alardı ki, sanki acı dərman çeynəyir. Qarşısına qoyulan ən ləzzətli yeməkdə belə mütləq bir nöqsan tapardı. Mal ətindən bişirilən yeməyi görəndə deyərdi ki, ölkəyə Polşa öküzlərinin ətini gətirməyə başlayandan bəri ətin dadı tamam korlanıb. Onun fikrincə, bu yeməklərin nə əvvəlki kimi dadı var idi, nə də ləzzəti. Mərhum anasının dövründə hər şey tamam başqa cür idi. Kələm o qədər yumşaq bişərdi ki, dildə əriyərdi. İndi isə dadı da, iyi də yoxdu. Balıq ona həmişə bir az xarab təsiri bağışlayardı, sousu isə aşpaz qadın heç vaxt ürəyincə hazırlaya bilməzdi. Çox vaxt əsəbiləşib bıçaqla çəngəli yerə qoyar, gedib pəncərənin qabağında dayanardı.

Qonaq getmək və ya qonaq qəbul etmək üçün geyinəndə də, qısası, heç nə onun ürəyincə olmazdı. Geyindiyi ipək parçanın da, taxdığı lentin də zərrəcə zövqlü olmadığını söyləyər, paltarlarının biçimini isə heç bəyənməzdi; sanki onları ən zövqsüz kəndli qadın üçün tikmişdilər.

Qonaqlıqdan da həmişə narazı qayıdar, filankəsdə, bəhmənkəsdə etik davranış qaydalarının olmadığından gileylənər, belə adamlarla heç vaxt ünsiyyətdə olmamağı arzulayardı.

İndiyə qədər hətta Uca Allahın yaratdığı nizamdan da razı qalmamışdı. Bir neçə gün dalbadal yağış yağanda: "Bu dözülməz hava bizi öldürdü! Adamın ruhu sıxılır!" – deyərdi. Hava isti olanda az qala özündən çıxar, soyuq düşəndə isə: "Bu lənətə gəlmiş qışın axırı nə vaxt çatacaq? Təki Pasxa gəlib çatsın!", – deyə ah çəkərdi.

Qısası, hamının şad-xürrəm olduğu yerdə belə Amaliya gileylənməyə bir səbəb tapırdı. Ən çox da uşaqlarının yanında şikayət edərdi. Buna görə də uşaqları da ona bənzəmişdilər. Səhər yuxudan duran kimi ağlayıb-sızlamağa başlayırdılar. Birinin corab bağı yox idi, o birinin ayaqqabı toqqası itmişdi, üçüncüsü yuyunacağı suyun soyuq olmasından gileylənirdi. Bu evdə elə bir ah-nalə qopardı ki, küçədən keçənlər çox vaxt elə bilərdilər, evdə kimsə ağır xəstələnib, hətta ölüb.

Süfrəyə isti şokolad gətiriləndə şikayətlər yenidən başlayardı. Məsələdən agah olmayan adam elə bilərdi ki, hamısı acı dərman içməyə məcburdur. Birinə şokolad kifayət qədər şirin gəlməzdi, o birinə həddindən artıq isti görünərdi, üçüncüsü isə fincanın çox dolu olmasından narazı qalardı. Süfrə arxasında da belə idi, gün boyu da. Onların sızıldaması yalnız yuxuya gedəndə kəsilirdi.

Bir neçə həftə sonra Amaliyanın səbri tükəndi. Əlinə çubuq alıb uşaqların üstünə yeridi və dedi: "Ay nankor uşaqlar! Bu ağlayıb-sızlamağınızın sona çatmayacaq? İsti yatağınız var, geyiminiz var, şokoladınız var, süfrəniz bolluq içində, amma elə gileylənirsiniz ki, sanki heç nəyiniz yoxdur. Kaş kasıb uşaqlar da sizin sahib olduqlarınıza sahib olaydılar! Qriqori-

us, tez özünü ələ al, yoxsa bu çubuğu sənin belində sındıracağam! Hermann, sən də! Karolina, sən də özünü yığışdır, yoxsa yağlı kötək yeyəcəksiniz!"

Amma bütün bunlara baxmayaraq, uşaqlar yenə də şən və razı deyildilər. Görəsən bunun səbəbi nə idi?

II. Əldə edə bilməyəcəkləri şeyləri uşaqların gözündə həddindən artıq cazibədar göstərin

Usta Ştefan əlinin zəhməti ilə ailəsini rahat dolandırmağa bəs edəcək qədər qazanar, evində heç vaxt ehtiyac olmazdı. Hər gün günorta süfrəyə bir iri qab tərəvəz yeməyi qoyular, axşamlar isə həmişə yağ və pendir olardı. Uşaqları sağlam idi. Anaları da təmizkar qadın olduğundan həmişə təmiz paltar geyinir, cırıq-söküklə gəzmirdilər. Allah onlara o qədər ruzi verirdi ki, arabir ağız dadlarını dəyişmək üçün qonşu kəndə gedib bir boşqab vetçina və bir bakal pivə də yeyib-içə bilirdilər.

Belə bir ailənin çox xoşbəxt olduğunu düşünmək olar. Halbuki əsla belə deyildi. Usta Ştefan uşaqları ilə elə danışardı ki, onlar özlərini dünyanın ən bədbəxt insanları hesab edərdilər. O, həmişə çalışardı ki, uşaqların diqqətini sahib olduqları nemətlərdən yayındırsın və onları əldə edə bilmədikləri şeylər haqqında düşündürsün.

Uşaqlar bir boşqab turş kələmi iştahla yeyəndə deyərdi: "Bu gün filankəsin evində kef məclisi olacaq. Süfrədə ov əti, balıq, şərab olacaq. Bizim kimilərinsə bunları ancaq arzula-

mağı mümkündür. Bunu eşidən kimi turş kələm uşaqların gözündən düşərdi". Yaxşı paltar geyinmiş bir uşaq yanlarından keçəndə öz uşaqlarını çağırıb deyərdi: "Baxın, görün necə qəşəng geyinib! Elə bil mələkdir. Yazıq siz... Sizin bu cırıq-sökük paltarlarınıza baxanda ürəyim ağrıyır. Kaş Allah bir gün məni də varlı edəydi, onda sizə nə paltarlar alardım". Beləcə, uşaqlar öz geyimlərindən utanmağa başlayardılar.

Gəzintiyə çıxanda yanlarından bir fayton keçsəydi, dərhal deyərdi: "Bax, onlar ata minirlər, biz kasıblar isə piyada gəzirik".

Kənddə arabir yaxşı vetçina yeyəndə və yaxşı pivə içəndə də yan masada oturanlara baxıb deyərdi: "Kaş bizim də imkanımız olaydı bir qədəh şərab içək!" Bundan sonra uşaqlar əllərindəki pivə qədəhinə dodaq belə vurmaq istəməzdilər.

Şübhəsiz ki, usta Ştefan bu cür söhbətlərlə uşaqlarını həyatdan soyutmaq istəyirdi və buna nail də olmuşdu. Hamısının ruzisi yerində idi, amma hamısı hər şeydən narazı idi. Sahib olduqları nemətlərə heç vaxt sevinmir, əldə edə bilmədikləri şeylərə görə kədərlənirdilər.

"UŞAQLARI DAİM NARAZI VƏ HƏYATDAN ŞİKAYƏTCİL ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Salzman uşaqlara hər şeyin yalnız pis tərəfini göstərməyin və əldə edə bilməyəcəkləri şeyləri onların gözündə həddindən artıq cazibədar göstərməyin uşaqları həyatdan bezar insana çevirdiyini göstərir.

İnsan beyni mənfi hadisələri müsbət hadisələrdən daha çox yadda saxlayır. Ailə daxilində davamlı şəkildə mənfi düşüncələr təqdim edilərsə, uşaq zamanla hadisələrin yaxşı tərəfini görmək qabiliyyətini itirə bilər. Valideyn hər vəziyyətdə nöqsan axtardıqda uşaq da eyni zehni vərdişi mənimsəyir.

Birinci hekayədə diqqət çəkən məqam narazılığın yoluxucu olmasıdır. Amaliyanın narazılığı təkcə özünə təsir etmir, onun düşüncə tərzi bütün ailənin emosional durumuna sirayət edir. Ailədə üstünlük təşkil edən emosional ton necədirsə, uşaqlar da zamanla həmin tonu mənimsəyirlər. Evdə təşəkkür, məmnunluq və sevinc üstünlük təşkil edirsə, uşaqlar bunu öyrənirlər; əgər daim giley-güzar, narazılıq və şikayət eşidirlərsə, həmin davranış onların xarakterinin bir hissəsinə çevrilir.

İkinci hekayə isə xoşbəxtliyin müqayisə ilə necə məhv edildiyini göstərir. Usta Ştefan uşaqlarına sahib olduqlarına baxıb şükür etməyi deyil, daim başqalarında olanları arzulamağı öyrədir. Bu da onların özlərini başqaları ilə müqayisə edib bədbinliyə qapılmasına gətirib çıxarır.

Beləliklə, uşaqlar həyata hansı gözlə baxacaqlarını, ilk növbədə, ailədə öyrənirlər. Əgər valideyn hər hadisədə problem, hər insanda qüsur və hər nemətdə çatışmazlıq görürsə, uşaq da dünyanı eyni prizmadan qiymətləndirməyə başlayacaq. Valideyn gündəlik həyatın kiçik gözəlliklərini görməyi, sahib olduqlarına görə minnətdar olmağı və öz imkanlarını başqalarının sərvəti əvəzinə, öz inkişafı ilə müqayisə etməyi öyrədərsə, uşaq daha məmnun, nikbin və psixoloji baxımdan dayanıqlı şəxsiyyət kimi formalaşar.

XXII BÖLMƏ
UŞAQLARDA KÜSMƏK VƏRDİŞİ YARATMAĞIN YOLLARI

Uşaqlarla uzun müddət küsülü qalın, hətta öz səhvlərini düzəltsələr belə

Xanım Regina uşaqlarının tərbiyəsində çubuqdan istifadə etməzdi. Onların canını yandırmağa ürəyi gəlməzdi. Lakin bunun əvəzində onlara mənəvi əzab verərdi: uzun müddət onlarla küsülü qalardı. Məsələn, Filippina paltarını çirkləndirsəydi, anası bir həftə ona gülər üzlə baxmazdı. Uşağın bütün suallarına yalnız bir-iki sözlə cavab verər, süfrə arxasında yeməyini səssizcə qarşısına qoyar, hətta Filippina peşman halda yaxınlaşıb: "Ana, artıq mənimlə barış. Bax, paltarımı üç gündür təmiz saxlayıram", – deyə yalvaranda belə üzünü o tərəfə çevirərdi.

Əvvəllər anasının bu küskün davranışı, həqiqətən də, uşağın səhvini dərk etməsinə kömək edirdi. Lakin Filippina gördü ki, nə xətasını düzəltməsi, nə də yalvarması anasının münasibətini dəyişmir. Əvvəlcə ruhdan düşdü, sonra incidi, axırda isə anasının küsməyinə ya özü də küsərək cavab verməyə, ya da buna tamamilə laqeyd yanaşmağa başladı.

Bəzən elə davranırdı ki, guya heç nə olmayıb; anasının qaşqabağına fikir vermədən öz işi ilə məşğul olurdu. Bəzən isə özü də incimiş kimi qaş-qabağını sallayır, qısa cavablar verir, hətta bütün günü bir kəlmə də danışmırdı.

Beləcə, Filippina elə bir hala gəldi ki, xoşu gəlməyən bir adamla səkkiz gün ərzində nə danışa, nə də onun üzünə baxa bilirdi.

"UŞAQLARDA KÜSMƏK VƏRDİŞİ YARATMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Cəza yalnız fiziki formada olmur. Bəzən valideynlər sevgi və ünsiyyəti cəza vasitəsinə çevirirlər: uşaqları cəzalandırmaq qəsdi ilə onlarla danışmır, sevgi göstərməyi dayandırırlar. Amma bilmirlər ki, uşaqla küsülü qalmaq, onu görməzdən gəlmək tərbiyə vasitəsi deyil. Bu uşağa daha da ziyan verir: ona münasibətləri inciklik və uzaqlaşma üzərində qurmağı öyrədir. Yəni uşaqda belə bir təfəkkür formalaşır ki, kimsə xoşuma gəlməyən iş gördükdə ondan küsməli, uzaqlaşmalıyam.

Kiçik yaşlarda valideyn sevgisi və yaxınlığı uşağın özünü təhlükəsiz hiss etməsinin əsas mənbəyidir. Uşağın xətası zamanı sevgisini ondan çəkən valideyn övladını ağır psixoloji əziyyətə saldığından xəbərsizdir. Həmçinin səhv edən uşaq valideyn sevgisinin birdən-birə yox olduğunu hiss edəndə bu halı sırf yanlış əməli ilə əlaqələndirmir, onda belə bir nəticə formalaşa bilir: "Məni etdiyim hərəkətə görə deyil, özümə görə qəbul etmirlər". Bu isə günah hissindən daha çox rədd edilmə qorxusu yaradır.

Tərbiyədə cəzadan istifadə edilir, lakin cəza əməllə uyğun olmalıdır. Cəzanın effekt verməsi onun aydın, qısa və davranışla əlaqəli olmasından asılıdır. Hekayədə Filippina

səhvini düzəldir, peşman olur, üzr istəyir, lakin anasının münasibəti yenə dəyişmir. Davranış dəyişir, amma hələ də cəza davam edirsə, uşaq artıq davranışı ilə cəza arasında əlaqə qura bilmir. Belə vəziyyətdə cəza islah və öyrədici funksiyasını itirir və yalnız inciklik yaradır.

Burada Salzmanın vurğuladığı əsas fikir ondan ibarətdir ki, uşaqlar valideynlərin münaqişə həll etmə üsullarını da öyrənirlər. Ana narazı qalanda günlərlə danışmırsa, uşaq da münasibətlərdə eyni modeli mənimsəyir. Müasir ailə psixologiyasında buna "modelləşdirmə"[34] deyilir. Uşaqlar konfliktlərin necə həll olunmasını müşahidə edir və sonradan dostluqda, evlilikdə, iş münasibətlərində həmin davranışları təkrarlayırlar.

Bunu da bilmək vacibdir ki, uzun müddət küsülü qalmaq problemi həll etmir, əksinə, qarşı tərəfdə müdafiə mövqeyi yaradır. İnsan özünü dinlənilməmiş və rədd edilmiş hiss etdikdə əməkdaşlıq etmək əvəzinə ya geri çəkilir, ya da qarşılıq verməyə başlayır. Hekayədə Filippinanın əvvəl peşman olması, sonra inciməsi, daha sonra isə özünün də küsülü qalması bu psixoloji prosesin təbii nəticəsidir.

[34] Psixologiyada modelləşdirmə (behavioral modeling) – bir fərdin başqa bir şəxsin (modelin) davranışlarını, emosiyalarını və ya münasibətlərini müşahidə edərək öyrənməsi və təqlid etməsi prosesidir.

XXIII BÖLMƏ
UŞAQLARI TƏRS, HÖCƏT ETMƏYİN YOLLARI

Uşaqların xahişlərinə əhəmiyyət verməyin, amma nəyisə hiddətlə tələb edəndə dərhal yerinə yetirin

Kim İsabellanı tənbəllikdə günahlandırsaydı, ona böyük haqsızlıq etmiş olardı. O, səhər tezdən gecə yarısına qədər dayanmadan işləyirdi. Ev işlərini bitirəndən sonra da ip əyirir və ya corab toxuyurdu ki, bir neçə qəpik qazansın, yavaş-yavaş pul yığsın və öldükdən sonra uşaqlarına bir az miras qalsın. Belə bir həyat tərzi onun uşaqlarına lazımi qədər vaxt ayırmağına imkan vermirdi. İşə başlayanda hələ yeriyə bilməyən balaca Yakobu yanında oturdardı. Yakob bir müddət sakit otururdu. Amma az keçəndən sonra darıxır, əllərini anasına uzadıb deyirdi: "Gəl... gəl..."

Quzu mələyəndə ana qoyun otlamağı buraxıb balasının yanına qaçır. Amma İsabella qoyun deyildi. Körpənin bu çağırışına fikir vermədən işini davam etdirirdi. Yakob xahiş-istəklə heç nəyə nail olmadığını görəndə zarımağa başlayırdı. Bu da kömək etməyəndə elə bərkdən qışqırırdı ki, anasının canına vəlvələ düşürdü. Axırda anası işi yarımçıq qoyur, onu qucağına alır, əmizdirir və deyirdi: "Ay balaca dəcəl! Sənin ucbatından heç bir iş görmək olmur". Ananın bu davranışı sanki uşaq üçün belə bir dərs idi: "Yakob, nəzakətlə istəsən, heç nə əldə edə bilməzsən. Amma özünü itirib qışqırsan, istədiyini alacaqsan".

Yakob hələ bir yaşını tamamlamamış bu dərsi çox yaxşı öyrəndi. O, xahiş etməyi tamamilə unutdu. Nə istəsə, qışqıraraq tələb etməyə başladı. Əgər bununla da məqsədinə çatmasa, yerə uzanır, diyirlənir, ayaqlarını yerə vurur, üzünü cırırdı. Bu zaman mütləq qalib gəlirdi. Qorxuya düşən anası deyirdi: "Aman! Uşaq özünü həlak edəcək, xəstə düşəcək. Sakit ol, Yakob! Budur, istədiyini al. Budur kökə, budur şirin qəhvə, budur qənd! İndi razısan?"

Beləcə o böyüyüb Yakobçadan Yakob oldu. Amma böyüsə də, xasiyyəti dəyişmədi. Valideynlərindən nə isə istəyəndə əvvəlcə mızıldanmağa başlayır, evdə əsəbi halda oyana-buyana gəzirdi. Əşyaları yerə çırpır, qapıları elə vururdu ki, az qala kökündən çıxsın. Süfrəyə yaxınlaşmır, əlində bir tikə quru çörəklə otağın bir küncünə çəkilib otururdu. Nəhayət, valideynləri ona təslim olub istədiyini yerinə yetirməli olurdular.

Atası tez-tez qonşulara gileylənirdi: "Yakob məni qaragün edib. İnadından dönmür, hər şeyi zorla əldə etmək istəyir". Qonşusu ona məsləhət verdi: "Heç vaxt geri çəkilmə. Belə tərbiyəsiz oğlanı ram etmək üçün kötək lazımdır. Bacarmasan, divarı döy, mən gəlib kömək edərəm". Ata bu tövsiyəyə əməl etdi. Bir gün Yakob israrla yeni bir palto istəyirdi. Elə ki gördü ona məhəl qoyan yoxdur, yenə əvvəlki kimi mızıldanmağa, hay-küy salmağa başladı. Ata qonşunu çağırdı. İkisi birlikdə oğlanı möhkəm döydülər. Amma artıq gec idi.

Yakob çox qəzəbləndi. Əynini geyinib çomağını və papağını götürdü: "Yaxşı, ata! Siz hələ bunun nəticəsini görəcəksiniz! Mən sizin çörəyinizə möhtac deyiləm!" Bunu deyib qa-

pını bərk çırparaq çıxdı. Atası arxasınca qaçıb onu sakitləşdirmək istədi. Lakin qonşu onu saxlayıb dedi: "Qoy getsin. Acanda özü qayıdar".

Amma Yakob qayıtmadı. O, gedib əsgərliyə yazıldı. Atası ah çəkərək qonşusuna dedi: "Elə bilirdim, axırı belə olacaq. Uşağı həddindən artıq sərt rejimdə saxlamağın nəticəsi budur. Bu məsləhəti verdiyin üçün sənə "çox sağ ol" düşür. Kaş Yakob geri qayıdaydı. Vallah, gözündən nə istədiyini oxuyub yerinə yetirərdim. O paltonu da alardım, lap pulu yəhudilərdən borc götürməli olsaydım belə".

"UŞAQLARI TƏRS, HÖCƏT ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Bəzi valideynlər uşaqlarının xahişlərinə, sakit və nəzakətli istəklərinə fikir vermir, amma nəyisə inadla istəyəndə həmən yerinə yetirirlər. Bu da uşaqlarda məqsədlərinə inadkarlıq, qışqırmaq, ağlamaq, hay-küy salmaq yolu ilə nail olmaq vərdişi yaradır. Məsələn, düşünün ki, ana və uşaq marketdə gəzişir. Uşaq bir oyuncaq görüb onu istəyir. Ana isə onun bahalı olduğunu deyib uşağın istəyini rədd edir. Uşaq ağlamağa, özünü yerə atıb eşələnməyə, qışqır-bağır salmağa başlayır. Ana bunu görüb məcburi şəkildə oyuncağı uşaq üçün alır. Halbuki ailənin büdcəsinə uyğun olmadığı üçün almamalı idi. Bu hadisədən dərhal sonra uşağın beynində belə bir əlaqə yaranır: "İstədiklərimi əldə etmək üçün ağlamalı, hay-küy salmalıyam". Sonra növbəti istəkləri üçün də də bu metoddan istifadə etməyə başlayır.

Hekayədə Yakob istəklərini əvvəlcə nəzakətlə dilə gətirir, anasına əl uzadır, səsləyir, gözləyir. Lakin bu cəhdlər nəticəsiz qalır. Yalnız səsini qaldıranda ana reaksiya verir. Uşaq müxtəlif davranışları sınaqdan keçirir və hansının nəticə verdiyini öyrənir. Beləliklə, sakit ünsiyyət tədricən yox olur, onun yerini emosional partlayışlar tutur.

Uşaqlar üçün valideynin diqqəti (hətta bu diqqət hirslənmək, danlamaq və ya qışqırmaq formasında olsa belə) bir mükafatdır. Uşaq sakit oynayanda onunla maraqlanmayan valideyn o ağlayanda dərhal yanına gəlirsə, uşaq belə bir nəticə çıxarır: diqqət qazanmağın yolu problem yaratmaqdır. Müasir ailə psixologiyasında buna "diqqət dövrəsi"[35] deyilir. Valideyn yalnız mənfi davranış zamanı reaksiya verdikdə uşaq müsbət davranışın faydasını görmür və beynində şüuraltı olaraq "Yalnız problem yaradanda fərqinə varılıram" bağlantısı qurulur. Bundan sonra isə diqqət qazanmaq üçün mənfi davranışlara başlayır. Buna görə də yaxşı olar ki, valideynlər, məsələn, uşaq sakit oynayarkən yanına gedib "Nə gözəl, təkbaşına və sakit oynayırsan, afərin sənə" uşaqda "Sən sakit oynayanda da sənə diqqət edirəm, səs-küy salmağına gərək yoxdur" mesajını versinlər. Bu halda uşaq diqqəti müsbət davranışlarla qazana bildiyini görüb mənfi hərəkətlərdən əl çəkəcək və daha çox sakit oynamağa çalışacaq ki, daha çox diqqət görsün. Həmçinin uşaq sadəcə diqqət çəkmək üçün ağlayırsa

[35] Uşaq psixologiyasında diqqət dövrəsi (attention cycle) – uşağın diqqət çəkmək üçün etdiyi hərəkətlərlə valideynin buna verdiyi reaksiyaların bir-birini təkrarlayan bir zəncirə çevrilməsidir.

və ya xoşagəlməz nəsə edirsə, ona fiziki zərər gəlmədiyi müddət ərzində bu davranışı aqressiya göstərmədən, sakit şəkildə görməzdən gəlmək lazımdır ki, uşaq səs-küy salmaqla diqqət əldə edə bilməyəcəyini öyrənsin və bu hərəkətlərinə son versin. Sadə dillə desək: 1) Uşaq sakit duranda ona baxmırsınız, amma ağlayanda dərhal yanına qaçırsınız. Uşaq öyrənir ki, "Diqqət istəyirəmsə, problem yaratmalıyam". 2) Uşaq sakit və ağıllı oynayanda onu tərifləyib maraqlanırsınız, qışqıranda isə reaksiya vermirsiniz. Uşaq öyrənir ki, "Diqqət istəyirəmsə, sözə baxmalıyam".

Ümumən isə, uşaq problem yaratmağa ehtiyac duymasın deyə gün ərzində ona ən azı 15-20 dəqiqəlik tam və bölünməz diqqət (birlikdə oyun, söhbət və s.) göstərmək, vaxt ayırmaq lazımdır.

Beləliklə, uşağın bütün istəklərini rədd etmək qədər, bütün istəklərini yerinə yetirmək də sağlam yanaşma deyil. Ən səmərəli üsul mərhəmətli, lakin qətiyyətli valideynlik hesab olunur. Bu cür valideynlik üsulunu azərbaycanlı dahi alim, müəllimliklə də məşğul olan Mir Möhsün Nəvvab öz "Nəsihətnamə"sində belə ifadə edir: "Öz ... övladın ilə zəhmli ... dolan, lazım gələndə isə lütfünü və məhəbbətini əsirgəmə".[36] Bu tərzdə çıxış edən valideyn uşağın ehtiyacını dinləyir, ona hörmətlə yanaşır, lakin qoyduğu sərhədləri də qoruyur.

[36] Mir Möhsün Nəvvab. "Nəsihətnamə", Bakı, "Araz" nəşriyyatı, 2005, 56 səh.; 94-cü və 458-ci nəsihətlər (səh. 17 və 53)

XXIV BÖLMƏ
UŞAQLARI HƏYATA YARARSIZ VƏ BİR ÖMÜR MƏYUS ETMƏYİN YOLLARI

Uşaqları həvəs və qabiliyyətlərinin olmadığı bir peşəni öyrənməyə məcbur edin

Sandleben kəndində vaxtilə qonşu Rehbok adlı bir kəndli yaşayırdı. Onu bu gün də xatırlayan xeyli yaşlı adam tapılar. Rehbok belə düşünürdü ki, hər insan azad doğulur, buna görə də uşaqların da öz seçimlərinə hörmət etmək lazımdır; əsas məsələ onların pis iş görməməsinə və ağılsız hərəkətlər etməməsinə diqqət etməkdir.

Onun iki oğlu var idi: birinin adı Fride, o birininki isə Baltser idi. Bazar günlərindən birində Rehbok onları gəzintiyə apardı. Cökə ağacının altında oturub dedi: "Uşaqlar, artıq böyüyürsünüz. Bilməyimin vaxtı çatıb ki, gələcəkdə kim olacaqsınız". Sonra soruşdu:

– Deyin görüm, nəyə həvəsiniz var? Hansı peşəni seçmək istəyirsiniz?

– Mən keşiş olmaq istəyirəm, – Fride cavab verdi.

– Mən isə əkinçiliklə məşğul olacağam, – Baltser dedi.

Ata dedi:

– Yaxşı, Baltser, istəyinlə razıyam. Amma çalışqan ol, həm təsərrüfatın, həm də ev işlərinin qayğısına qal. Torpaqdan halal ruzi qazanmaq üçün çox zəhmət çəkmək lazımdır.

Sonra Frideyə üz tutdu:

– Mən də sənə qarşı çıxmayacağam. Amma buna gücün çatacaqmı? Eşitmişəm ki, keşiş olmaq istəyən adam yeddi dil bilməlidir. Bunları öyrənə biləcəyinə inanırsan?

Fride dedi:

– İyirmi dörd dil də olsa, qorxmaram.

Ata yenə də oğlunun sözünə güvənmədi. Onu kənd keşişinin yanına apardı və xahiş etdi: "Zəhmət olmasa, onun qabiliyyətini yoxlayın. Görün, həqiqətən də, keşiş olmağa bacarığı çatır?" Keşiş Frideni bir həftə yanına çağırdı, onunla söhbət etdi, kitablar oxutdu. Sonra ataya dedi: "Cənab Rehbok, oğlunuz çox iti zəkalıdır və öyrənməyə böyük həvəsi var. Qoy rahatlıqla təhsil alsın".

Beləcə, Baltser əkinçiliklə məşğul oldu. Elə bir zəhmətkeşlik göstərdi ki, Sandlebendə böyük bir təsərrüfatı icarəyə götürdü; işini yaxşı qurdu, çalışqanlığı və səliqəsi ilə təsərrüfatçılıq sahəsində xeyli var-dövlət əldə etdi. Fride isə əvvəl məktəbdə, sonra universitetdə oxudu. O, yorulmaq bilməyən iradəsinə görə daim tərifl ənirdi. Universiteti bitirib qayıtdıqdan az sonra Sandlebenin keşişi vəfat etdi. Onun yerinə Fride Rehbok keşiş seçildi. O, vəzifəsini vicdanla yerinə yetirir, elə moizələr söyləyir, Müqəddəs Kitabı elə izah edirdi ki, kənd sakinləri onu böyük həvəslə dinləyirdilər. Onun moizələri sayəsində bir çox adam daha ağıllı, daha dürüst və daha xoşbəxt oldu. Amma mənim danışmaq istədiyim, əslində, bu deyil.

İcarədar Baltser Rehbok da, keşiş Fride Rehbok da evləndilər. Evliliklərinin ilk illərində hər ikisinin sağlam bir oğlu dünyaya gəldi. Oğlanlar valideynlərinin sevgisi ilə böyüyür-

dülər. On yaşına çatanda hər iki ata oğlunu öz peşəsinə yönəltməyə başladı. Çünki hər biri öz peşəsində xoşbəxt idilər və elə bilirdilər ki, övladları da həmin yolla getməlidir.

İcarədar Baltser oğlu Qottlibi bağda alaq otlarını təmizləməyə və bitkiləri sulamağa məcbur edirdi. Keşiş Fride isə oğlu Polikarpla Gedikenin[37] latınca oxu kitabını öyrənməyə başlamışdı. Lakin qardaşlardan heç biri övladlarından istədikləri nəticəni ala bilmədi.

Qottlib bağda işləməli olduğu vaxt, bunun yerinə kitab oxuyurdu. Polikarpın isə latın dili başına girmirdi. O, bütün vaxtını atların yanında keçirirdi. Nökər tarlaya gedəndə mütləq onu da atın belinə mindirməyini istəyirdi. Bu vəziyyət hər iki atanı çox kədərləndirirdi.

Bir gün qoca Rehbok ad gününü qeyd edirdi. O bütün övladlarını və nəvələrini başına yığdı. Hər iki oğlu ona dərdlərini danışdı. Qoca dedi: "Əgər dərdiniz elə budursa, çarəsi çox asandır. Mən olsaydım, Fride, sənin oğlunu əkinçiliyə buraxardım; Baltser, sən isə Qottlibi oxumağa göndərməlisən. Amma ataların heç biri bu fikirlə razılaşmadı. Onlar düşünürdülər ki, ataları kimi sadə bir kəndli bu məsələdə düzgün hökm verə bilməz. Hər biri oğlunu zorla öz peşəsinə yönəltməyə davam etdi. Qottlib kitab oxuduğuna və bağ işlərini lazımınca görmədiyinə görə döyülürdü. Polikarp isə Gedikenin latınca kitabından dərsini hazırlamadığına görə sillə yeyirdi.

[37] Fridrix Gedike – XVIII əsrin sonu – XIX əsrin əvvəllərində yaşamış alman pedaqoqu, filoloqu və məktəb islahatçısı idi. Latın dilinin tədrisi üçün hazırladığı dərsliklər uzun illər Almaniyada istifadə olunmuşdur.

Vaxt-vədə yetişdi, Qottlib əkinçi, Polikarp isə keşiş oldu. Atalar buna çox sevindilər. Onlar məqsədlərinə yetdiklərini zənn edirdilər. Ancaq bu sevinc uzun sürmədi. Az sonra hər ikisinin sevinci kədərə çevrildi. Əkin, biçin və məhsul yığımı vaxtı çatanda Qottlib kitablara elə aludə olmuşdu ki, təsərrüfatın idarəsini nökərlərə və qulluqçu qadınların öhdəsinə buraxmışdı. Onlar isə nəzarətsiz olduqları üçün işlərini çox səhlənkar və pinti şəkildə görür, ağalarını aldadırdılar. Onlar Qottlibi qısa bir müddət ərzində elə bir vəziyyətə saldılar ki, borc verənlər onu öz malikanəsindən qovdular. Cənab Polikarpus isə hər dəfə moizə oxumalı olduqda ölüm qorxusu keçirirdi. Dua zamanı bütün bədəni titrəyirdi, mətni oxuyub qurtardıqdan sonra isə qan-tər içində qalırdı. Üstəlik, onu incidən bir fikir də var idi: camaat onu həvəslə dinləmir, bazar günləri qonşu kəndlərə gedir və onun kilsəsini boş qoyurdular.

Bir gün Qottlib ilə Polikarpus görüşüb bir-birlərinə ürəklərini açdılar, hərəsi öz dərdindən şikayətləndi və dedi: "Mən həyatdan o qədər bezmişəm ki, sabah yox, elə bu gün ölmək istəyirəm".

"UŞAQLARI HƏYATA YARARSIZ VƏ BİR ÖMÜR MƏYUS ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

İnsan azad varlıqdır. Təəssüf ki, valideynlər çox vaxt insanın (uşağın) dünyaya ilk göz açdığı vaxtlardan azadlığına müdaxilə edir, onu məhdudlaşdırmağa çalışırlar. İtaliyan həkim-pedaqoq bu barədə yazırdı ki, yeni doğulan körpənin bələyə

bürünməsi elə onun sərbəstliyinə qoyulan ilk məhdudiyyətdir.[38] Uşaq dünyaya gələn kimi onun əl-qolunu yanına büküb bağlayırıq. Halbuki buna heç bir mənəvi haqqımız yoxdur. İranlı akim və yazar Məhəmməd Behişti insan azadlığı haqqında danışarkən qeyd edirdi ki, Allah özü belə insanın azadlığına toxunmur, ona seçim sərbəstliyi verirsə, valideyn insanı (övladı) müstəqillikdən əsla məhrum etməməlidir.[39]

Valideynin tətbiq etdiyi məhdudiyyət yetkinlik dövründə də sona çatmır. Övladlarının peşə seçiminə qarışan valideynləri kifayət qədər görmək mümkündür. Halbuki onların etməli olduğu övlada sadəcə öz seçimini edə biləcəyi bir imkan yaratmaqdır. Çünki övladın yerinə onun etməli olduğu seçimləri etmək həyat meydanına yeni atılmış insanın elə ilk vaxtlardan müstəqilliyini əlindən almaq deməkdir. Bu isə onun sonralar da azad seçim etməsində maneələr yaradacaq. Bu barədə "Ailə pedaqogikası" kitabında oxuyuruq: "Valideynlərin bir qismi həmişə çalışırlar ki, öz övladlarını uşaq kimi saxlasınlar, onlarla azyaşlı uşaqlar kimi rəftar etsinlər. Bunun nəticəsində onların övladları yaşca böyüsələr də həyat müstəqilliyindən məhrum olur, həmişə başqalarına ümid edirlər. Belə uşaqlar son dərəcə qapalı, qorxaq, əsəbi və valideynlərin göstərişinə qarşı düşmən mövqedə dayanırlar. Halbuki valideynin vəzifəsi öz övladlarının ləyaqət və istedadını dəyərləndirmək və onları layiqli həyata təşviq etmək olmalıdır. Başqa

[38] Mariya Montessori. Uşaqlığın sirri, Bakı, "MONO" nəşriyyatı – 2024, 288 səh.
[39] Məhəmməd Behişti. Təlim-tərbiyədə azadlıq. Bakı, "İrşad" Nəşriyyatı, 2024, 184 səh.

sözlə valideynin ən yüksək vəzifəsi öz övladlarına həddi-büluğ yaşına çatanadək kömək etməkdir ki, onlar həyata qarşı soyuqqanlı olmasınlar".[40]

Valideyn anlamalıdır ki, övladı onun öz arzularını həyata keçirməsi üçün bir vasitə deyil. O, müstəqil bir fərddir və həyatının axarını özü müəyyən etməlidir. Əksinə, peşə-ixtisas seçimi yalnız valideyn istəyinə əsaslandıqda gənc həm peşəsində, həm də şəxsi həyatında xoşbəxtliyindən məhrum ola bilər. Çünki eyni peşə bir insan üçün uğur mənbəyi olduğu halda, başqa biri üçün ömür boyu narazılıq səbəbinə çevrilə bilər. Valideynin vəzifəsi peşə seçmək deyil, uşağın potensialını kəşf etməsinə kömək etməkdir.

Hekayədə qoca Rehbok əvvəlcə öz oğullarının seçimlərinə hörmət edir, hətta qərar verməzdən əvvəl onların qabiliyyətini yoxlatdırır. Qoca Rehbokun övladları isə valideyn olduqda atalarının yolu ilə getmirlər, onlar uşaqlarını öz sahələrini seçməyə məcbur edirlər. Salzman burada nəsillərarası bir paradoks göstərir: vaxtilə azad seçim sayəsində uğur qazanan insanlar sonradan eyni azadlığı öz uşaqlarından əsirgəyirlər.

İnsan maraq göstərdiyi sahədə daha çox öyrənir, çətinliklərə daha davamlı olur və daha yüksək nəticə əldə edir. Məcburiyyət isə çox vaxt öyrənməyə qarşı laqeydlik, peşədən soyuma və psixoloji gərginliyə səbəb olur. Bunları dərk edən

[40] Rüfət Lətif oğlu Hüseynzadə. Ailə pedaqogikası, Dəərslik. Bakı: ADPU, 2016, səh. 75

müdriklərimiz buyurmuşlar ki, uşaqlarınızı seçimlərində sərbəst buraxın. M.M.Nəvvab belə yazır: "Oğlanların hansı sənəti qəbul edib dalınca getsə, qoy getsin".[41]

Qeyd etmək yerinə düşər ki, burada söhbət uşağa sərhədsiz azadlıq verməkdən getmir. Azadlıq məsuliyyətlə birlikdə olduqda inkişaf etdirici olur. Valideyn uşağın təhlükəsizliyini və mənəvi inkişafını qoruyan sərhədlər müəyyən etməli, lakin onun şəxsiyyətini formalaşdıracaq seçimləri mümkün qədər özünün etməsinə şərait yaratmalıdır.

Beləliklə, valideyn uşağın gələcəyini onun əvəzinə qurmağa çalışdıqda qısamüddətli uğur əldə edə bilər. Lakin uzunmüddətli perspektivdə uşağın müstəqil qərar vermək, məsuliyyət daşımaq və öz həyatına sahib çıxmaq bacarıqları zəifləyəcək. Əsl tərbiyə uşağın yerinə seçim etmək yox, ona düzgün seçim etməyi öyrətməkdir.

[41] Mir Möhsün Nəvvab. "Nəsihətnamə", Bakı, "Araz" nəşriyyatı, 2005, 56 səh.; 426-cı nəsihət (səh. 49)

XXV BÖLMƏ
UŞAQLARI TAMAHKAR ETMƏYİN YOLLARI

I. Uşaqların istədiyi hər ləziz yeməyi dərhal verin!

Balaca Friderikə süfrəyə gələn hər yeməkdən ilk pay həmişə verilirdi. Bu onların evində artıq adətə çevrilmişdi. Ana bir boşqab dolusu piroq gətirən kimi Friderik qışqırardı: "Ana, mən də piroq istəyirəm! Mənə də ver!" Mehriban anası dillənərdi: "Yaxşı, qızım, indi verəcəyəm. Bir dəqiqə gözlə, bıçağı gətirim". Amma Friderik gözləməyi sevməzdi. Təkidlə deyərdi: "Yox, indi istəyirəm!" Ana da gözləməsin deyə piroqdan bir parça əli ilə bölüb ona verərdi.

Yemək süfrəyə qoyulanda Friderik dərhal stulunu çəkər, boşqabın düz yanına keçərdi. Ana isə süfrə duasını belə gözləmədən onun payını qabağına qoyardı. Atası bəzən etiraz edib deyərdi: "Bu, düzgün deyil. Uşaqlara ən axırda yemək vermək lazımdır ki, gözləməyi və nəfslərini cilovlamağı öyrənsinlər". Ana isə həmişə eyni cavabı verərdi: "Hələ uşaqdır, böyüyəndə özü düzələcək".

Evə qonaq gələndə ilk fincan həmişə Friderikə verilər, qonaqlar isə onun istəkləri yerinə yetirilənə qədər gözləməli olardılar. Sonra Friderik anasının ətəyindən yapışıb təkrar-təkrar soruşardı: "Konfetləri nə vaxt gətirəcəksən?" Şirniyyat süfrəyə gələn kimi ilk pay yenə ona verilərdi. Onu tez yeyib yenidən anasının ətəyini dartar, boşqabı göstərər, bəzən də

açıq-aşkar deyərdi: "Mən konfet istəyirəm! Mənə konfet ver!" Ana da qonaqlara hiss etdirmədən stulun arxasından konfetlərdən ona bir-bir verərdi.

Zaman keçdi, Friderik böyüdü, gənc bir xanım oldu. Amma anasının düşündüyü kimi tamahkarlığı öz-özünə keçib getmədi. Harada dadlı bir şey görürdüsə, ağzının suyu axır, onu necə əldə edəcəyini düşünürdü. Anası hər şeyi ondan gizlətməyə məcbur idi. Çünki bir dəqiqə gözdən qoyan kimi həmin yeməyi götürüb yeyirdi.

Bir dəfə ana qonaqlar üçün böyük bir tort bişirmişdi. Friderik tortun kəsilməsini gözləyə bilmədi. Gizlicə ərzaq otağına keçib tortun üstünün qızarmış hissəsini qopardı və günahı pişiyin boynuna atmaq üçün pişiyi otağa salıb qapını bağladı. Buna qəzəblənən ana da pişiyi günahkar bildi.

Friderik bu cür əməlləri dəfələrlə təkrarladı. Vaxt keçdikcə bunların hamısı anasına məlum oldu. Ana uzun-uzadı düşünürdü ki, qızındakı bu qarşısıalınmaz tamahkarlıq haradan yaranıb. Ancaq əsl səbəbi tapa bilmirdi. Çünki insanların çoxu günahı əvvəlcə özündə deyil, başqalarında axtarmağa meyllidir. Friderikin anası da belə insanlardan biri idi.

II. Uşaqların əlinə pul verin, amma necə xərclədiklərini heç vaxt soruşmayın!

Cənab Anton eşitmişdi ki, varlı ailələrdə uşaqlara cibxərcliyi verilməsi dəbdədir. O da özünü həmin təbəqədən saymaq istədiyi üçün hər bazar günü uşaqlarına cibxərcliyi verirdi. Hər dəfə bazar günü gələndə uşaqlara pul paylayır, əvvəlki

pulu hara xərclədikləri barədə isə bircə kəlmə də soruşmurdu. Uşaqlar bu pulların hamısını şirniyyata xərcləyirdilər. Həmişə ciblərində kişmiş, badam, konfet və başqa cür naz-nemətlər olardı. İlk vaxtlar cibxərcliyi buna kifayət edirdi. Ancaq tamahları artdıqca daha bahalı şirniyyatlarla tanış olmağa başladılar. Nəticədə, artıq bazar günü aldıqları pul bazar ertəsinə qədər tükənirdi. Bəs həftənin qalan günləri necə keçsin? Axı ciblərindən hər gün nəsə çıxarıb yeməyə öyrəşmişdilər.

Əvvəlcə borc almağa başladılar və növbəti həftənin cibxərcliyi ilə həmin borcları ödədilər. Lakin bu, uzun çəkmədi. Elə vəziyyət yarandı ki, üç aylıq cibxərcliyini əvvəlcədən xərcləmiş oldular. Görəsən, indi nə etməli idilər? Oğurluğa başladılar; bunu elə ustalıqla edirdilər ki, heç kim hiss etmirdi. Atalarının gəliri çox idi deyə sandığında nə qədər pul olduğunu özü də dəqiq bilmirdi. Buna görə də uşaqlar hər dəfə gizlicə bir neçə qızıl götürür, ata isə bunu sezə bilmirdi.

Bir neçə həftə əvvəl bütün əşyalarını girov qoyub borclarına görə həbs olunan o avara tələbə həmin Antonun oğludur. Paltarlarını və ev əşyalarını girov qoyub özünə gizlicə bahalı şirniyyatlar hazırladan qadın isə elə haqqında danışdığımız Yulçendir. Qoca Anton bu hadisələrə görə çox kədərlənir və israrla soruşurdu: "Mənim uşaqlarımı görəsən kim yoldan çıxartdı?" Özünü isə günahsız sayırdı: "Mən onları hər cür yaxşılıqla böyütmüşdüm".

III. Ləziz yeməkləri uşaqların gözündə həddindən artıq cazibədar göstərin!

Usta Hiobun qohum çevrəsi geniş idi və bu qohumlar tez-tez məclislər təşkil edirdilər. Bir gün toy, başqa gün xaç suyuna salma mərasimi, sonra başqa bir ziyafət... Belə məclislərdən sonra, adətən, uşaqlar üçün konfet və müxtəlif şirniyyatlar göndərirdilər. Usta Hiob bunları uşaqları arasında elə bir təntənə ilə bölüşdürürdü ki, sanki onlara qiymətsiz xəzinə verir.

Balaca Ferdinanda bir dilim tort vermək istəyəndə onu əvvəlcə uzun müddət havada saxlayar və deyərdi: "Bax gör sənə nə gətirmişəm! Bu, əsl ləziz nemətdir! Bunun dadı bir başqadır! Belə şirin şeyi yeyəndə ağzının dadı dəyişəcək! Yəqin, bunu istəyirsən, hə?" O bu şəkildə Ferdinandın həvəsini daha da artırardı. Uşaq əllərini uzadıb yalvarardı: "Hə, ata, hə! Xahiş edirəm, ver!" Bir az onu intizarda saxladıqdan sonra nəhayət tortu verərdi. Sonra eyni oyunu digər uşaqları ilə də təkrar edərdi. Amma onlara noxud və ya sıyıq verəndə heç vaxt belə davranmazdı. Süfrəyə dadlı bir yemək gələndə isə xüsusi bir əhəmiyyət verərək deyərdi: "Bəh-bəh... bunun necə dadlı olduğunu bir bilsəydiniz... Baxın, bu əsl ləzzətdir! Bu gün özümüzə yaxşı bir qonaqlıq verəcəyik".

Bu yolla uşaqlara bu aşılanırdı ki, guya insan üçün ən böyük xoşbəxtlik dadlı və ləziz yeməklər yeməkdir; piroqlar, şirniyyatlar və cürbəcür təmtəraqlı yeməklər isə sadə tərəvəz körəklərindən qat-qat üstündür.

İnsan təbiətən xoşbəxtliyə can atdığı üçün usta Hiobun uşaqlarında zaman keçdikcə dadlı yeməklərə qarşı güclü bir

həvəs yarandı. Onlar bu həvəslərini təmin etmək üçün hər cür fürsət axtarmağa başladılar. Beləcə, tamahkar və qarınlarına düşkün oldular.

"UŞAQLARI TAMAHKAR ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Salzman uşaqları tamahkar edən üç səhvə işarə edir: 1) uşaqlara istədikləri hər qidanı dərhal vermək; 2) uşaqlara pul verib necə xərclədiklərini soruşmamaq; 3) yeməkləri uşaqların gözündə həddindən artıq cazibədar göstərmək.

İnsanı uğurlu şəxsiyyətə çevirən ən vacib xüsusiyyətlərdən biri özünü idarə etmək bacarığıdır. Psixologiyada buna "emosional zəka"[42] da deyirlər. Duyğularına hakim olan insan istədiyini dərhal əldə edə bilməməyə dözə bilir. Bu xüsusiyyət insanın təhsil həyatından tutmuş sosial münasibətlərinə qədər bütün həyatına təsir edir.

1960-cı illərin sonu və 1970-ci illərin əvvəllərində Stenford Universitetinin psixoloqu Volter Mişel "Zefir eksperimenti"[43] keçirdi. Eksperimentdə uşağın qarşısına bir şirniyyat qoyulur və ona deyilir: "Bunu indi yeməsən, bir az sonra sənə ikincisini də verəcəyik". Bəzi uşaqlar dərhal yeyir, bəziləri isə

[42] Emosional zəka (Emotional Quotient) – həm özümüzün, həm də başqalarının emosiyalarını anlamaq, idarə etmək və bu duyğulardan düzgün şəkildə istifadə edərək münasibətləri uğurla yönləndirmək qabiliyyətidir.

[43] Mischel, W., & Ebbesen, E. B. (1970). Cognitive and attentional mechanisms in delay of gratification. Journal of Personality and Social Psychology, 16(2), 329–337.

gözləməyi bacarır. Uzun illər sonra aparılan müşahidələr göstərmişdir ki, gözləyə bilən uşaqlar təhsildə daha uğurlu olur, emosiyalarını daha yaxşı idarə edir, asılılıqlara daha az meyilli olurlar. Bu nəticələr Salzmanın iki əsr əvvəl irəli sürdüyü fikirlə üst-üstə düşür: uşağın hər istəyinin dərhal yerinə yetirilməsi onun gələcəkdə özünü idarə etməsini çətinləşdirə bilər.

Bir çox valideyn sevgi göstərməyin uşağın bütün istəklərini yerinə yetirməklə olduğunu düşünür. Əslində isə, düzgün tərbiyədə sevgi ilə sərhəd birlikdə olur. Uşaq bilməlidir ki, hər istədiyini əldə edə bilməz, gözləmək həyatın təbii bir qaydasıdır. Əgər uşaq gözləmədən, anındaca əldə etməyə öyrəşirsə, beynində belə bir sxem yaranır: "istək = dərhal mükafat". Real həyatda isə bu düstur işləmir.

Gözləməyi həyatda hər insan təcrübə edir. Hətta deyə biləcəyik, insan həyatının böyük hissəsi gözləməkdən ibarətdir. Məsələn, təhsil almaq, peşə sahibi olmaq, pul toplamaq, ailə qurmaq, xəstəlikdən qurtulub sağalmaq və s. – bunların hamısı səbir (gözləmək) tələb edir. Əgər uşaq ailədə gözləməyi öyrənməyibsə, sonrakı həyatında bunu bacarmayacaq və bu onun gözləməyin tələb olunduğu real həyata hazır olmaması deməkdir.

Uşağa pul vermək gözəl təşəbbüsdür, lakin o pulu sağa-sola dağıtmağına imkan vermək olmaz. Çünki uşaqlıqdan pulunu qənaətsiz şəkildə xərcləyən insan buna öyrəşəcək və gələcəkdə də buna davam edəcək. Valideyn uşağının hara pul xərclədiyini diqqətdə saxlamalı və ona düzgün istiqamət verməlidir. Uşaqlara pulu hara və necə xərcləməyi öyrətmək də zəruridir.

Hekayədə görürük ki, valideyn bəzi yeməkləri adi qida səviyyəsindən çıxarıb "böyük hadisəyə" çevirir. Bir növ, qidanı xoşbəxtlik, sevgi, mükafat anlayışları ilə bərabərləşdirir. Buna şahid olan uşaqların bir müddət sonra yeməyi təsəlli vasitəsinə çevirməsi gözlənilməz hal deyil. Məsələn, bəzi valideynlər uşaqlarına belə deyirlər: "Dərsdən beş qiyməti al, sənə dondurma alacağam". Bu hallar normadan çıxanda istər-istəməz uşaq üçün qida bioloji ehtiyacdan əlavə, emosional ehtiyaca da çevrilir.

Salzmanın fikirlərində sadə yaşayışın tərbiyəvi əhəmiyyəti vurğulanır. Uşaq təmtəraqlı süfrələrə, bahalı oyuncaqlara, saysız-hesabsız hədiyyələrə çox alışarsa, zaman keçdikcə bunlar onun gözünə adi görünməyə başlayır və uşaqlar sahib olduqlarının qədrini bilməməyə, şükür hissini itirməyə başlayırlar. Çünki insan malik olduqlarına tez öyrəşir və daha çoxunu istəyir.

Araşdırmalar göstərir ki, minnətdarlıq hissi yüksək olan, çox şükür edən insanlar daha çox xoşbəxt olur, daha az paxıllıq edir, maddiyyata çox bağlı olmur və münasibətlərdə daha uğurlu olurlar. Və təbii ki, bu hiss uşağa əvvəlcədən hazır verilmir, valideyn onu öz davranışı ilə formalaşdırır.

Bəzi valideynlər uşağa bəzən "yox" deməyi onu sanki sevgidən məhrum etmək hesab edirlər. Halbuki düzgün üslubda və izahlı şəkildə deyilmiş "yox" uşaqda sərhəd hissini formalaşdırır, ona səbirli olmağı öyrədir, məsuliyyət yaradır və özünü idarə etmə bacarığını inkişaf etdirir.

Beləliklə, nəzarətsiz şəkildə istəklərin dərhal ödənilməsi, yeməyə həddindən artıq emosional dəyər verilməsi və məsuliyyətsiz maddi sərbəstlik uşağın özünü idarəetmə bacarığını zəiflədir. Bilmək lazımdır ki, sağlam tərbiyə uşağı hər istədiyini əldə edən insan kimi deyil, ehtiyaclarını və arzularını düşünərək idarə edə bilən, səbirli və məsuliyyətli şəxsiyyət kimi formalaşdırmaqdır.

XXVI BÖLMƏ
UŞAQLARI ACGÖZ ETMƏYİN YOLLARI

Uşaqları həmişə həddindən artıq yedizdirin

Madam Kuniqunde özünü o qədər zadəgan hesab edirdi ki, uşaqları ilə şəxsən məşğul olmağı özünə yaraşdırmırdı. Onun fikrincə, bu işi sadə adamlar görməli idi. Buna görə də doğuşdan dərhal sonra balaca Adolfu Sibillə adlı yaşlı bir dayənin himayəsinə verdi və dedi: "Bax bu da mənim oğlum. Onu sənə əmanət edirəm. Ona elə bax, elə qulluq et ki, sanki öz övladındır. Mən bunun əvəzini sənə artıqlaması ilə ödəyəcəyəm".

Sibillə həqiqətən də vicdanlı və mehriban qadın idi. Balaca Adolfa öz övladı kimi baxırdı. O, nənəsindən eşitmişdi ki, körpələr danışa bilmədikləri üçün nə istədiklərini demirlər; buna görə onların nə vaxt doyduğunu bilmək mümkün deyil. Bu səbəbdən də uşağı qaytarana qədər yedirtmək lazımdır. Beləcə, Sibillə balaca Adolfu hər dəfə yeməyi geri qaytarana qədər yedizdirirdi. Hətta tam əmin olmaq üçün qaytardığı yeməyi də bir neçə dəfə yenidən yedizdirirdi. Yeməyi ancaq qarınına daha əlavə bir tikə sığmadığına əmin olduqdan sonra dayandırırdı.

Beləliklə, Adolf hər dəfə balaca mədəsinin ehtiyacından üç dəfə artıq yeyirdi. Nəticədə, mədəsi hələ kiçik yaşlarında həddindən artıq genişləndi. Danışmağa başlayan kimi hər səhər

ilk sözü belə olurdu: "Bulka!" Sibillə dərhal ona bulka gətirirdi. Onu yeyən kimi Adolf atasının otağına gedirdi. Atası həmin vaxt qəhvəsini içməklə məşğul idi. Adolf atasını öpür, əvəzində bir-iki fincan qəhvə və bulka almaq üçün bir neçə qəpik əldə edirdi.

Bu vaxt ana da yuxudan qalxmış olurdu. Adolf səssizcə onun yanına gedib əlini öpürdü. Ana da mütləq ona isti şokolad içirir, bir neçə tikə də suxarı yedizdirirdi. Bunlar qurtaran kimi qohumlarını bir-bir gəzməyə çıxırdı. Getdiyi hər evdə ona yenə nəsə yemək verilirdi və o da hamısını yeyirdi.

Bu arada nahar vaxtı çatırdı və Adolf yenidən yaxşıca qidalanırdı. Günortadan sonrakı vaxt da səhər olduğu kimi keçirdi. Yatmazdan əvvəl isə, adətən, bir az meyvə və ya bir-iki bretzel (bulka) yeyirdi.

Beləcə, balaca Adolfun ömrünün ilk illəri yalnız yemək yemək və həzm etməklə keçdi. Nəticədə, bu işdə əsl "peşəkar" oldu.

"UŞAQLARI ACGÖZ ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Sağlam uşaq, adətən, nə vaxt ac olduğunu, nə vaxt doyduğunu özü hiss edir. Tibb də buna "daxili aclıq–toxluq siqnalları"[44] deyilir. Valideyn bu siqnallara riayət etdikdə uşaq ehtiyac duyduğu qədər yeməyi, doyduqda isə dayanmağı təcrübə

[44] Daxili aclıq və toxluq siqnalları (internal hunger and satiety cues) – bədəninizin enerjiyə ehtiyacı olduğunu (aclıq) və ya kifayət qədər qida qəbul edildiyini (toxluq) beyninizə ötürən bioloji, hormonal və neyroloji mesajlardır.

edərək öyrənir. Əksinə, daim uşağı çox yedirtmək üçün təkidlər etmək onun bu təbii hissini zəiflədə bilir. Adətən, insanlarda belə bir düşüncə olur ki, çox yemək sağlamlıq deməkdir. Buna görə də uşağı çox yedizdirməyə cəhd göstərirlər. Halbuki sağlamlıq nə çox, nə də az yeməkdədir, sağlam qidalanma ehtiyac qədərində yeməkdir.

Bəzi ailələrdə yemək yalnız qidalanma vasitəsi deyil, həm də uşağı sakitləşdirmək, ürəyini açmaq, mükafatlandırmaq kimi vasitələrə çevrilir. Yəni uşaq ağlayanda, kefsiz olanda, dəcəllik edəndə... həmən qarşısına yemək qoyurlar. Belə olduqda uşaq ac olduğu üçün deyil, müxtəlif emosional səbəblərlə yeməyə alışır. Bu isə uşaqda bir sıra problemlərə yol açır ki, onlardan biri uşaqda emosional yemək vərdişinin formalaşmasıdır: uşaq ac olanda deyil, mənfi emosional durumlarda da (stress, kədər, darıxma və ya narahatlıq hiss edəndə) yeməyə üz tutur. Nəticədə, acgöz bir insan formalaşır.

XXVII BÖLMƏ
UŞAQLARI YAXŞILIQ ETMƏKDƏN SOYUTMAĞIN YOLLARI

Uşaqlarının yaxşılıq etməsinə göstərilən səylər, nəticəsiz olacaqdır

Karolin düşündü: "Bu gündən etibarən çalışacağam ki, həqiqətən yaxşı uşaq olum. Mənim üçün bu qədər zəhmət çəkən əziz atam məndən razı qalsın". Yataqdan duran kimi tikiş çərçivəsinin arxasına keçdi və öz yaşına uyğun, çalışqanlıqla işləməyə başladı. Öz-özünə dedi: "Atam otağa girəndə mənim necə çalışdığımı görəcək və gülümsəyəcək". Atası otağa girdi, amma gülümsəmədi. Təqvimi əlinə alıb aya baxdı ki, görsün, bədirlənməsinə çoxmu qalıb. Bir az sonra yenə otağa girdi. Karolin ona elə məhəbbətlə baxırdı ki, bunu görməmək mümkün deyildi. Amma atası onu yenə görmədi. Əvəzində evdə saxladıqları itə yaxınlaşıb onu tumarlamağa başladı. Nahar vaxtından sonra isə qonaqlığa getdi.

Karolin fürsətdən istifadə edib atasının otağına keçdi. Otağı süpürdü, hər şeyi səliqəyə saldı, masaların tozunu sildi və öz fikrincə, yerində olmayan hər şeyi qaydasına qoydu. Sonra oturub atasına çox səmimi bir məktub yazdı. Məktubda bundan sonra həmişə sözəbaxan və yaxşı qız olacağına söz verirdi.

Axşam atası otağına qayıtdı. Karolin də onun arxasınca razılıq ifadəsini görmək ümidi ilə sakitcə içəri girdi. Amma atası otaqda yaradılmış səliqədən heç nə hiss etmədi. Birdən əsəbi şəkildə soruşdu:

– Mənim yazı lövhəm haradadır?

Karolin onu hara qoyduğunu bir anlıq yadına sala bilmədi. Tələsik ora-bura baxaraq nəsə deməyə çalışdı:

– Mən... mən...

– Deməli, sən götürmüsən onu?

– Hə... Mən sadəcə istəyirdim ki...

– Sənin kimi ağılsız biri mənim əşyalarıma niyə əl vurur?!

Bu sözlər balaca qızı o qədər sarsıtdı ki, az qaldı yazdığı məktubu cırıb atsın. Yenə də cəsarətini toplayıb məktubu atasına uzatdı. Atası isə dedi: "Apar bunu. İndi belə şeylərlə məşğul olmağa vaxtım yoxdur".

Atanın bu kobud münasibəti Karolinə elə təsir etdi ki, bir daha ona xoş gəlmək üçün xüsusi səy göstərmək heç ağlına gəlmədi.

"UŞAQLARI YAXŞILIQ ETMƏKDƏN SOYUTMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Uşağın yaxşı davranışının böyüklər tərəfindən görülməməsi onun yaxşı olmağa yaranan motivasiyasını öldürür və həmin davranışın təkrarlanma ehtimalını azaldır. Hekayədəki Karolin xoşagələn işlər görür ki, atasının sevgisini, razılığını qazansın. O, tikiş edir, otağı təmizləyir, məktub yazır və atasının bunları qiymətləndirəcəyini gözləyir. Amma ata bunların heç birini "görmür", üstəlik onu danlayır da. Yaxşı davranışı üçün heç bir reaksiya ala bilməyən Karolin səhv edəndə dərhal mənfi reaksiya görür. Nəticədə, uşaq "yaxşı iş görməyin mənası yoxdur" qənaətinə gələ bilir.

Uşağın "Ata, bax nə düzəltmişəm", "Ana, gör necə gözəl çəkmişəm" kimi sözlərinin altında təkcə tərif gözləntisi dayanmır. Uşaq bunları deyərkən, əslində, "Mənim etdiyim sənin üçün önəmlidirmi?" sualını verir. Valideynin cavabı uşağın özünə münasibətinə də təsir göstərə bilər: valideyn müsbət reaksiya versə, uşaq özünü dəyərli hesab edir; mənfi reaksiya isə onun özünü dəyərsiz bilməsinə səbəb olur. Məsələn, uşaq otağını yığışdırır, valideyn: "Otağını səliqəyə salmısan. Afərin sənə!"deyirsə, uşaq etdiyi davranışın görüldüyünü anlayır və bunu davamlı etməyə başlayır.

Uşağın işinin nəticəsinə deyil, səy göstərməsinə köklənmək lazımdır. Məsələn, uşaq dərslərini oxuyur, amma özündən asılı olmayan hansısa səbəblərdən yaxşı qiymət ala bilmirsə, buna görə onu danlamaq, cəzalandırmaq olmaz. Əsas məsələ uşağın çalışmasıdır. Təqdir zamanı da onun çalışqanlığını, zəhmətini ön plana çıxarmaq lazımdır. Kerol Dvek və Klaudiya Müllerin araşdırması göstərmişdir ki, uşaqları yalnız zəka və qabiliyyətlərinə görə tərifləməkdənsə, onların göstərdikləri səyi vurğulamaq uğursuzluq qarşısında daha davamlı yanaşmanın formalaşmasına kömək edə bilər.[45] Məsələn, dərsindən əla qiymət alan uşağa "Çox istedadlısan!" demək əvəzinə, "Dərslərinə yaxşı hazırlaşmısan!" demək daha yaxşıdır.

"Görünməmək" uşağın psixologiyası üçün ağır hissdir. Uşaq yaxşı iş görəndə buna biganə qalınır, amma səhv edən

[45] Dweck, C. S., & Mueller, C. M. (1998). Praise for intelligence can undermine children's motivation and performance. Journal of Personality and Social Psychology, 75(1), 33–52

kimi diqqətə alınırsa, o, tədricən belə bir nəticəyə gəlir: "Məni yalnız səhv edəndə görürlər". Bu isə sonradan mənfi davranışlarla diqqət qazanmağa gətirib çıxara bilər.

Uşağa yalnız yaxşı iş görəndə sevgi göstərib pis iş görəndə sevgidən məhrum etmək olmaz. Belə olsa, o düşünür: "Yaxşı olsam, məni sevəcəklər". Bir növ, sevgi onun üçün şərtə çevrilir. Uşaqda bu təəssürat yaradılmalıdır: "Bəzən səhv də edə bilərsən, amma sən yenə də mənim üçün dəyərlisən".

Beləliklə, valideynlər övladlarının yaxşı davranışlarını adi və təbii hesab edib görməzlikdən gəlməməlidirlər. Uşaqda yaxşı olmağı tələb etmək yox, o, yaxşı olanda bunu təqdir etmək lazımdır.

XXVIII BÖLMƏ
UŞAQLARI SADƏLÖVH VƏ KOBUD ETMƏYİN YOLLARI

I. Uşaqlar hər dəfə səhv edəndə onların üstünə qışqırın, vurun

Bir evdə uşaqların hər səhvinin eyni bir cəzası var idi: biriki möhkəm sillə. Kaspar və ya Corc valideynlərinin istədiyi kimi davranmayanda, adətən, belə hədələnirdilər: "İndi sənə elə sillə ilişdirəcəyəm ki, gözlərin qaralacaq, nə görəcəksən, nə də eşidəcəksən!" Bu hədə-qorxu sadəcə söz olaraq qalmırdı. Demək olar ki, hər gün, hətta gündə bir neçə dəfə icra olunurdu. Bəzən uşaqlar aldıqları zərbədən sonra bir neçə dəqiqə özlərinə gələ bilmirdilər, xüsusilə də ataları vuranda. Güclü qolları və qüvvətli əlləri ilə onların başına elə zərbələr endirirdi ki, uşaqlar səndələyir, ayaq üstə güclə qalırdılar.

Bu cür davamlı sarsıntılar zamanla onların beynində ciddi zədələnmələr əmələ gətirdi. Kaspar və Corc tamamilə kütbeyin oldular. Gözləri həmişə boşluğa zillənər, ağızları yarıaçıq qalardı. Pis niyyətli adamlar da onları daim ələ salırdılar. Kim daha inanılmaz yalan danışıb onları inandıra bilər deyə yarışardılar. Sonra da Kasparla Corcun həmin cəfəngiyatları tam ciddi şəkildə başqalarına danışmalarına gülərdilər. Məsələn,

onlar tam əminliklə danışardılar ki, guya Konstantinopol kilsəsini yerindən götürüb aparıblar, yaxud usta Fridrix tələ ilə kobold[46] tutub.

Kimin axmaqlardan xoşu gəlirsə, uşaqlarını bu cür tərbiyə etsin; bunun "gözəl nəticəsini" mütləq görəcək. Sınaqdan keçirilmişdir.

II. Uşaqlarınıza kobudluq edin onlar da tezliklə kobudlaşacaqlar

Professor Orosiusun yeni dünyaya gələn, çox sevimli qızı – balaca Minçen hələ həyatının ilk həftələrindən çevik və iti zəkasının əlamətlərini göstərməyə başlamışdı. Bu isə valideynlərini xeyli sevindirirdi. Onlar qızlarını çox sevirdilər, günün böyük hissəsini onunla keçirir, oyun və zarafat əsnasında ona müxtəlif anlayışlar öyrədirdilər. Minçen yaşına görə gözlənilməz dərəcədə ağıllı bir fikir söyləyəndə valideynləri heyranlıq və sevinc hissi duyurdular.

Bu zövqü daha da artırmaq üçün onu öyrənməyə həvəsləndirən hər cür vasitəyə əl atdılar. Minçen nə vaxt yeni bir şeyi öyrənirdisə, valideynləri çalışırdılar ki, o bunu qonaqların yanında nümayiş etdirsin. Qonaqlar onu tərifləyir, heyran qalır, əzizləyib öpür, konfet verir, bəzən isə hətta bir qurtum şərab da içirdirdilər. Qonaqlar gedəndən sonra anası ona nəsihət

[46] Kobold – alman və Mərkəzi Avropa folklorunda rast gəlinən kiçik, fövqəltəbii ruh və ya cinəbənzər məxluqdur.

edib deyirdi: "Bax gördünmü, Minçen? İnsan bir şey öyrənəndə necə gözəl olur! Hamı onu tərifləyir, üstəlik orada-burada bir qurtum şərab da, bir neçə konfet də qazanır".

Beləcə, Minçen öz gücündən daha artıq çalışmağa həvəsləndi. Başqa uşaqlar oynayıb əyləndiyi vaxt o oturub dərs oxuyurdu. O qədər çox oxuyurdu, öyrənirdi ki, bunu görən hər kəs heyrətə gəlirdi. Dörd yaşı tamam olmamış sərbəst oxumağı bacardı, sonra fransız dili və coğrafiya öyrəndi, altı yaşında tarix keçməyə və şairlərin əsərlərini oxumağa başladı.

Ata-anasının övladlarının oxumasına qarşı göstərdikləri səylər zahirən çox uğurlu görünürdü. On iki yaşına çatanda Minçen o qədər bilikli idi ki, yad adamlar professor Orosiusun evinə bu "möcüzə uşağı" görməyə gəlirdilər. O, qədim Roma və Yunanıstan barədə elə danışırdı ki, sanki özü orada yaşamışdı. Şeirlər və teatr əsərləri haqqında peşəkar tənqidçi kimi fikir bildirirdi. Yeddiillik müharibə başlayanda isə onun necə nəticələnəcəyini böyük əminliklə əvvəlcədən söyləyirdi. Belə bir zəka ilə boya-başa çatan qız böyüsəydi, görəsən, necə bir qadın olardı?

Təəssüf ki, on üç yaşında hər şey dəyişməyə başladı. Minçen şikayət edirdi ki, oxuduqlarından heç nə yadında qalmır. Onun mühakimələri getdikcə səthiləşdi və axırda onda açıq-aşkar sadəlövhlük əlamətləri görünməyə başladı.

Bir gün xalası qızı Filçen onlara qonaq gəldi. Filçen altı yaşına qədər oxumağı öyrənməmiş, yeddi yaşında dərsə başlamışdı. Professor Orosius böyük kədər içində gördü ki, Filçen çevik düşüncəli, hazırcavab və ağıllı bir qızdır, onun Minçeni isə bunların tam əksinə çevrilib. Professor qəmgin halda

divana oturdu, başını əllərinə dayayıb dərindən ah çəkdi. Elə bu vaxt qardaşı – fermer Herrmann Orosius içəri girdi.

– Nə olub? – deyə soruşdu. – Deyəsən, özünü narahat hiss edirsən? Professor cavab verdi:

– Ehh, çox böyük dərdim var. Qızım... qızım...

– Qızına nə olub? Xəstələnib?

– Bilmirəm, buna xəstəlik demək olarmı. Amma hər keçən gün daha da avamlaşır. İndi elə zəifləyib ki, ən sadə şeyləri belə başa düşmür.

– Minçen?

– Bəli, Minçen. Halbuki sən də bilirsən, onun üçün nə qədər zəhmət çəkmişəm. Bir il əvvəl nə qədər şey bilirdi!

Fermer dedi:

– Məndən incimə, qardaş. Mənə elə gəlir ki, uşaqlar da atlar kimidir. Atı vaxtından əvvəl qoşquya qoşsan, cılız olar və ömrü boyu belə qalar. Uşağı da vaxtından əvvəl dərsə məcbur etsən, ondan xeyir çıxmaz. Mən bunu çoxdan düşünürdüm, amma demirdim. Axı sən professorsan, mən isə sadəcə fermerəm.

"UŞAQLARI SADƏLÖVH VƏ KOBUD ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Salzman uşaqların axmaqlaşmasının səbəblərini fiziki zorakılıqda və onların vaxtından əvvəl elmə-savada məcbur edilərək intellektual yüklənməsində görür.

Davamlı fiziki cəzaya məruz qalmaq uşağın yalnız emosional vəziyyətinə deyil, idrak inkişafına da mənfi təsir göstərir. Xüsusilə, valideyni tərəfindən döyülən uşaqlar üçün baş nahiyəsinə endirilən zərbələr ciddi tibbi təhlükə yaradır.

Müasir neyropsixologiya göstərir ki, insan beyni təhlükə hiss etdikdə əsas diqqətini "sağ qalmağa" yönəldir. Özünü güvəndə hiss etməyən, daim onu təhlükənin gözlədiyini bilən uşaq sağlam, sakit zehinə sahib ola bilməz. Bu vəziyyətdə intellektual inkişaf etmək mümkün deyil.

Uşağın daha erkən yaşda oxuyub-yazması, xarici dillər öyrənməsi və böyük adamlar kimi danışması onun daha ağıllı olacağı anlamına gəlmir. Müasir inkişaf psixologiyası uşağın inkişafının mərhələli olduğunu qəbul edir. Hər yaş dövrünün öz inkişaf və öyrənmə xüsusiyyətləri vardır. Uşağı bu mərhələləri keçmədən daha yüksək səviyyəli fəaliyyətə məcbur etmək tamamilə əks təsirlə də nəticələnə bilər. Hekayədəki Minçen kimi: o, uşaqlıqda böyüklər səviyyəsində oxuyub-öyrənirdi, amma on üç yaşında elə bir hala düşdü ki, yadında heç nə qalmırdı. Uşaqların elmi inkişafına öz vaxtında başlamaq lazımdır, inkişaf tempini pozmaq zərərli nəticələr doğura bilər. "Tələsən təndirə düşər", "Hər şeyin öz vaxtı var" kimi atalar sözləri bu fikri bir daha təsdiqləyir.

Bəzi valideynlər uşağın bacarıqlarını nümayiş etdirməyə həddindən artıq meyilli olurlar. Uşaqlarını böyüklərə göstərərək fəxr edirlər. Belə hallarda uşaq elmi bilik sevgisi üçün deyil, başqalarının alqışını qazanmaq üçün öyrənməyə başlayır və böyük ehtimalla, gələcəkdə də etdiyi işlərdə, o cümlədən təhsildə insanların tərifinə ehtiyaclı olur.

XXIX BÖLMƏ
UŞAQLARI BACARIQSIZ ETMƏYİN YOLLARI

Onları hər şeyi hazır formada əldə etməyə alışdırın!

Cənab Heronimus və həyat yoldaşı uşaqlarını o qədər həddindən artıq sevirdilər ki, demək olar, bütün vaxtlarını onlara qulluq etməklə keçirirdilər. Səhərlər vaxtlarının əksər hissəsi uşaqları geyindirməyə, saçlarını daramağa, hörüklərini hörməyə və onlara qəhvə hazırlamağa sərf olunurdu. Süfrə arxasında da bir tikə rahat yemək yeyə bilmirdilər. Bir uşaq: "Mənə çörək ver!", o biri: "Mənim bıçağım yoxdur!", üçüncüsü: "Susamışam!", – deyə səslənirdi. Hər dəfə uşaqlardan biri nəsə istəyəndə ya cənab Heronimus, ya da həyat yoldaşı dərhal ayağa qalxıb onun istəyini yerinə yetirirdi.

Gəzintiyə çıxanda uşaqların su çuxurundan tullanmasına, ensiz arxı keçməsinə, təpəyə qalxmasına və ya oradan enməsinə əsla icazə vermirdilər. Belə hallarda təşviş içində onların yanına qaçır, dayanmalarını əmr edir, qucaqlarına alıb çuxurun o biri tərəfinə keçirir, təpəyə çıxarır, sonra da yenidən aşağı endirirdilər. Lakin həddindən artıq bu qulluq sonda valideynlərin özünə ağır yük oldu. Uşaqlar o qədər bacarıqsız böyüdülər ki, özbaşına geyinə, paltarlarını səliqəyə sala, hətta ən sadə işləri belə görə bilmirdilər.

Demək olar ki, hər uşaq üçün ayrıca bir xidmətçi saxlamaq lazım gəlirdi. Bunun nəticəsində ailənin xərci ildən-ilə xeyli

artdı. Amma üç xidmətçi də kifayət etmirdi. Xanım Heronimus bütün günü dörd qızının və iki oğlunun paltarını yuyur, tikir, yeməyini bişirir, əri də tez-tez köməyə çağırılır, uşaqları geyindirməkdə ona yardım edirdi.

Süfrə başında uşaqlar rahat oturur, valideynlər isə onlara xidmət edirdilər. Onlar hər hansı əyləncədən də rahat zövq ala bilmirdilər. Bir dəfə uşaqları ilə gəzintiyə çıxmışdılar. Uşaqların bitib-tükənməyən tələbləri üzündən nəfəs almağa belə macal tapmırdılar. Bir tərəfdən səs gəlirdi: "Ana, önlüyümü bağla!", o biri tərəfdən: "Ata, ayaqqabımın toqqası açılıb!", "Məni xəndəyin o biri tərəfinə keçir!", "Əlimdən tut, yıxılaram!", bir az sonra: "Ay! Ay! Yıxıldım! Məni qaldır!"

Bir gün xanım Heronimusun bacısı onlara qonaq gəldi. Halını soruşanda qadın göz yaşlarına boğulub dedi:

– Ah, əziz bacım! Mən bu həyatdan heç vaxt zövq ala bilmirəm. İşim qurtarmaq bilmir. Bircə gün də rahatlığım yoxdur. Bütün günü pilləkənləri düşüb-qalxıram. Axşam yatağa girəndə elə bilirəm, sanki bütün bədənim əzilib. Mənim necə əziyyət çəkdiyimi təsəvvür edə bilməzsən.

Bacısı dedi:

– Mən heç başa düşmürəm, nədən şikayət edirsən? Axı kifayət qədər xidmətçin var.

– Doğrudur, üç xidmətçim var. Amma bir düşün: altı uşaq! Onların hamısına qulluq etmək lazımdır.

– Sənin uşaqlarına qulluq etmək? Onlar axı yeriyə bilirlər...

– Mən elə bilirdim ki, uşaqlarının hərəsi bir qulluqçu qızı və ya bir nökəri əvəz edə bilər.

– Sən uşaq kimi danışırsan. Bir düşün gör, belə böyük bir evi dolandırmaq üçün nə qədər iş görmək lazımdır! Altı uşağın nə qədər şeyi cırıb-dağıtdığını təsəvvür et!

– Məgər sənin üç böyük qızın yoxdur? Hərəsi bir işin qulpundan yapışsa, o qədər iş görərlər ki, heç əlavə xidmətçiyə ehtiyacınız olmaz.

– Onlar? Mən heç görmədim ki, bir corabın deşiyini tiksinlər və ya bir qazan şorba bişirsinlər. Onların bu şeyləri bacarmasını çox istərdim.

"UŞAQLARI BACARIQSIZ ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Valideynlərin etdiyi səhvlərdən biri də uşaqların edə biləcəyi ən sadə işləri belə öz üzərlərinə götürmələri, hər çətinlikdə dərhal köməyə tələsmələridir. Bunun nəticəsində uşaqlar öz güclərinə arxalana, problemlərini təkbaşına həll edə və gündəlik həyatda zəruri olan bacarıqları öyrənə bilmirlər. Müasir pedaqogikada bu yanaşma "hiperhimayəçilik"[47] adlanır. Belə valideynlər uşağı təhlükədən qorumaq istəsələr də, əslində, onu həyatın adi çətinlikləri ilə üzləşmək imkanından məhrum edirlər. Halbuki uşağın inkişafı məhz yaşına uyğun çətinliklərin özü tərəfindən həll edilməsi nəticəsində baş verir.

İsveçrəli psixoloq Jan Piaje göstərirdi ki, uşaq biliyi hazır şəkildə qəbul etməklə deyil, aktiv fəaliyyət göstərərək qurur.

[47] Hiperhimayəçilik (və ya həddindən artıq himayədarlıq) – valideynlərin uşağı hər cür çətinlikdən, təhlükədən və uğursuzluqdan həddindən artıq qorumağa çalışması ilə xarakterizə olunan tərbiyə üslubudur.

O, ətraf mühitlə qarşılıqlı əlaqəyə girdikcə düşünmə qabiliyyəti inkişaf edir. Valideyn uşağın yerinə hər işi gördükdə isə bu təbii öyrənmə prosesi zəifləyir.[48]

Rus psixoloqu Lev Vygotsky isə uşağa kömək etməyin düzgün formasını izah edərək bildirirdi ki, böyüklər uşağın yerinə işi görməməli, yalnız onun bacarması üçün müvəqqəti dəstək verməlidirlər. Uşaq bacardıqca bu dəstək tədricən azaldılmalıdır.[49]

Uşaq daim başqalarının onun problemlərini həll etdiyini gördükdə tədricən təşəbbüs göstərməkdən imtina edir və hər işdə kömək gözləyir. Belə uşaqlar böyüdükdə qərar verməkdə çətinlik çəkir, məsuliyyətdən yayınmağa meyilli olurlar.

Həddindən artıq qayğı yalnız uşağa deyil, valideynin özünə də zərər verir. Hekayədə ana gün ərzində fasiləsiz işləməkdən yorulur, həyatından zövq ala bilmir. Paradoks burasındadır ki, uşağın rahatlığı naminə göstərilən bu canfəşanlıq nə uşaqları bacarıqlı edir, nə də valideynləri xoşbəxt.

Müasir inkişaf psixologiyasında hesab edilir ki, uşağın özünəxidmət bacarıqları (self-help skills) erkən yaşlardan formalaşdırılmalıdır. "Özünəxidmət bacarıqları insanlara şəxsi ehtiyaclarının qeydinə qalmaq – sərbəst yemək, içmək, geyinmək, şəxsi gigiyena qaydalarına riayət etmək imkanlarını yaradır".[50] Geyinmək, paltarını toplamaq, oyuncaqlarını yığışdırmaq, süfrəni hazırlamaqda iştirak etmək, sadə ev işlərini

[48] Piaget, J., 1970. Genetic epistemology. New York: Columbia University Press.
[49] Vygotsky, L.S., 1978. Mind in society: The development of higher psychological processes. Harvard University Press.
[50] Uşaq inkişaf metodikası (Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu), Qanun Nəşriyyatı, 2011, 572 səh.

yerinə yetirmək kimi fəaliyyətlər təkcə məişət vərdişləri deyil, həm də uşaqda məsuliyyət, planlaşdırma, səbir və özünəinamı inkişaf etdirir. Bu yanaşma Montessori pedaqogikasında xüsusi yer tutur. Mariya Montessori hesab edirdi ki, uşağa edilən ən böyük yaxşılıq bacardığı işi onun yerinə görməməkdir. O yazırdı: "...uşaq işləməkdən usanmaz. O işləyərək böyüyür. Buna görə də fəaliyyət göstərdikcə enerjisi artır. Uşaq gördüyü işdən canını qurtarmağı düşünmür; əksinə, onu öz gücü ilə və mümkün qədər düzgün yerinə yetirməyə çalışır. ...Nə qədər ki böyüklər bu həqiqəti anlamırlar, uşağın fəaliyyətinin əsl mahiyyətini dərk edə bilməyəcək və əvvəl də olduğu kimi onun nə etdiyini başa düşməyəcəklər. Onlar istirahətin və rahatlığın uşağın inkişafı üçün daha faydalı olduğunu düşündüklərinə görə, yaxşı niyyətlə də olsa, onun çalışma həvəsini əngəlləyirlər. Böyüklər daim vaxta və zəhmətə qənaət etməyə çalışırlar. Özlərini uşaqdan daha təcrübəli və bacarıqlı hesab etdikləri üçün onun görməli olduğu işləri özləri yerinə yetirirlər. Uşağın yuyunmasından, geyinməsindən tutmuş otağını səliqəyə salmasına qədər hər işə qarışırlar; başqa sözlə, onun təkbaşına görə biləcəyi heç bir işi öz öhdəsinə buraxmırlar. ...böyüklər uşağa onun öz inkişaf işini həyata keçirə bilməsi üçün kömək etməlidirlər. Bu, təkcə uşağın ehtiyaclarını anlamaq demək deyil, həm də onun inkişafına uyğun bir mühit yaratmağı tələb edir. Belə bir mühiti hazırlamaq uşağın işi deyil. Uşağın vəzifəsi ona təqdim olunmuş bu mühitdəki

vasitələrdən istifadə edərək müxtəlif fəaliyyətlərlə məşğul olmaq və bu yolla inkişaf etməkdir”[51].

Uşağa əsl qayğı onun yolundakı bütün maneələri aradan qaldırmaq deyil, onun həmin maneələri aşmağı öyrənməsinə imkan yaratmaqdır. Hər işi hazır şəkildə əldə edən uşaq rahat böyüyə bilər, lakin müstəqil və bacarıqlı insan kimi formalaşması çətin olar. Bu səbəbdən tərbiyənin nəticəsi uşağı valideynə daha çox möhtac etmək deyil, zaman keçdikcə valideyndən daha az asılı hala gətirmək olmalıdır.

[51] Maria Montessori. Çocuk eğitimi “Montessori metodu” / türk dilinə tərcümə edən: Güler Yücel. Özgür Yayınları, 5. Basım, 2026; səh. 204-206

XXX BÖLMƏ
UŞAQLARA SƏLİQƏSİZLİYİ ÖYRƏTMƏYİN YOLLARI

Uşaqlarda səliqə-sahmana olan həvəsin qarşısını vaxtında alın

Filippinçen həyatının ilk illərində səliqə və nizam-intizamın əsl nümunəsi idi. Paltarlarının təmizliyinə həmişə fikir verirdi. O, diqqət edirdi ki, bütün əşyaları müəyyən bir yerdə olsun və istifadə etdikdən sonra hər birini yenidən həmin yerə qoysun. Corabında və ya başqa bir geyimində kiçik bir deşik olmasına isə əsla dözə bilmirdi. Lakin əziz anası bundan heç də razı deyildi. Əgər Filippinçenin xasiyyəti belə davam etsəydi, o, həmişə işləməli, Filippinçenə qulluq etməli və onun bu nizamını qoruyub saxlamağa kömək etməli olacaqdı. Amma anasının öz dediyinə görə, belə xırda şeylərlə məşğul olmağa dəyməzdi, onun onsuz da həddindən artıq işi var idi.

Huldrix – Filippinçenin qardaşı çox nadinc bir oğlan idi. Bacısı evdə olmayanda onun kitablarını və oyuncaqlarını qurdalayır, hər şeyi dağıdırdı. Filippinçen geri qayıdıb bu qarışıqlığı görəndə gözləri yaşla dolmuş halda anasının yanına qaçır, şkafı göstərir və bu halların qarşısını almasını xahiş edirdi. Anası isə çox vaxt soyuqqanlılıqla belə cavab verirdi:

– Ay səfeh qız! Bu cür mənasız şeylərə görə belə hay-küy salmağa dəyərmi? Əşyaları yenidən əvvəlki yerlərinə qoy, məsələ bununla bitsin.

Filippinçenin corabında və ya başqa bir paltarında deşik olanda o, nigaran halda anasının yanına qaçıb deyirdi:

– Anacan, bax burada deşik var! Mənə bir tikiş iynəsi ver, onu tikim.

Anası isə qəbul etməyib deyirdi:

– İndi iynəm yanımda deyil. Sənin hər istəyinə qulluq etməyə də vaxtım yoxdur.

Filippinçen bəzən harasa qonaq gedib-gələndən sonra əşyalarını yerbəyer etmək üçün anasından komodun açarını istəyirdi. Lakin anası çox vaxt:

– Sabah yerləşdirərsən. Bu axşam paltarlarını eləcə stulun və ya çarpayının üstünə at. – deyirdi.

Sözəbaxan qız – Filippinçen də anasının verdiyi bu göstərişlərə dəqiqliklə əməl edirdi. O daha öz şkafı ilə maraqlanmırdı. Kitablarını və oyuncaqlarını gah sobanın üstünə, gah pilləkənə, gah da bağa atırdı.

Uzun müddət özünü məcbur edə-edə axırda elə bir hala gəldi ki, deşilmiş corablarla, çirkli paltarlar və cırılmış geyimlərlə küçəyə çıxanda artıq heç utanmırdı. Soyunanda isə paltarlarını eləcə yerə atıb gedirdi.

İndi o, evli bir qadındır və onun evi səliqəsizlik nümunəsinə çevrilmişdir. Uşaqların yaxasına salfet əvəzinə bez bağlayır, çirkli paltarları qonaq otağında saxlayır, karşoku isə ərzaq saxlanılan otaqda qoyur. Onun uşaqları haqqında camaat arasında gəzən bu söz tam yerinə düşür: “Onları divara tərəf atsan, ordaca yapışıb qalarlar" (yəni o qədər çirklidirlər.)

Valideynlər uşaqları daim nəzarətdə saxlamaqla bu vəziyyətə sala bilərlər.

"UŞAQLARA SƏLİQƏSİZLİYİ ÖYRƏTMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Bu bölmədə Salzman uşaqlarda səliqə-sahman, nizam-intizam bacarıqlarının formalaşmasından bəhs edir. Hekayənin əvvəlində Filippinçen təbiətən səliqəli uşaqdır. O, əşyalarını səliqəli saxlayır, paltarlarındakı kiçik qüsurları belə aradan qaldırmağa çalışır və nizamsızlıqdan narahat olur. Lakin anası onun bu davranışlarını dəstəkləmək əvəzinə, əhəmiyyətsiz hesab edir. Beləliklə, uşaq dəfələrlə aldığı mənfi reaksiyalar nəticəsində tədricən öz yaxşı vərdişlərini tərk edir.

Psixologiyada deyilir ki, insan təkrar-təkrar laqeyd münasibətlə qarşılaşdıqda müəyyən davranışları davam etdirmək üçün motivasiyasını itirir. Əksinə, müsbət qarşılanan davranışlar daha davamlı olur. Buna görə də uşağın səliqəyə göstərdiyi maraq valideyn tərəfindən dəstəklənməlidir.

Hekayədə görürük ki, valideynin rahatlığı üçün göstərdiyi laqeydlik gələcəkdə daha böyük problemlərə səbəb olur. Ana əvvəlcə "Vaxtım yoxdur" deyərək qızının səliqə yaratmaq cəhdlərini dəstəkləmir. Nəticədə isə, böyüyəndə həm qızının, həm də onun ailəsinin həyatında daimi nizamsızlıq hökm sürür. Demək ki, uşağın tərbiyəsinə sərf edilməyən zəhmət sonradan daha ağır nəticələr doğura bilər.

Nizam-intizam insan həyatı üçün vacib məsələdir. İntizamsız, xaos içində yaşayan insanın mənəvi sakitliyə, aramlığa sahib olması çətin məsələdir. Unutmaq olmaz ki, insanın daxili aləmi ilə xarici aləmi bir-biri ilə sıx əlaqəlidir. Məsələn, otağı darmadağın olan bir insanın, çox güman ki, beyninin içi

də xaosa bürünüb. Bir dəfə müəllimim bir tələbənin kompüterinə baxdı: kompüterin üstü müxtəlif yapışqan kağızlarla (stikerlərlə) nizamsız və qarışıq şəkildə doldurulmuşdu. Müəllim dedi: "Gör indi sənin düşüncələrin nə qədər qarmaqarışıqdır!" Ona görə də italiyan pedaqoq Mariya Montessori hesab edirdi ki, uşağın yaşadığı mühit nizamlı olduqda o da daxili nizam hissini daha asan inkişaf etdirir. O yazırdı: "Uşağın nizama qarşı həssaslığı həyatının elə ilk aylarından müşahidə olunur. Əşyaların həmişə öz yerində olmasını gördükdə hiss etdiyi sevinc və coşqu bunun ən aydın sübutudur".[52]

Nəticə etibarilə, Salzmann göstərir ki, səliqəli olmaq, nizam-intizam uşaqlıqdan formalaşan gündəlik vərdişlərin məcmusudur. Uşağın səliqəyə göstərdiyi ilk təşəbbüslər qiymətləndirilməli və bu davranış ardıcıl şəkildə dəstəklənməlidir. Əks halda, təbii olaraq mövcud olan nizam hissi zəifləyərək laqeydlik və məsuliyyətsizliklə əvəz olunacaq.

[52] Maria Montessori. Çocuk eğitimi "Montessori metodu" / türk dilinə tərcümə edən: Güler Yücel. Özgür Yayınları, 5. Basım, 2026; səh. 39

XXXI BÖLMƏ
UŞAQLARI LOVĞA VƏ ÖZÜNÜBƏYƏNMİŞ ETMƏYİN YOLLARI

I. Uşaqlara erkən yaşlarından bəzək-düzəyin böyük dəyərini öyrət!

Amiliya ailə həyatı qurduğu zaman böyük təəssüf hissi ilə indiyədək ən yaxın yoldaşı olmuş kuklasından ayrılmalı oldu. Doqquz ay sonra Ernestinçen dünyaya gəldi və Amiliya kuklasından ayrılmanın onda yaratdığı boşluğu Ernestinçenlə doldurmağa başladı. O, hələ zahılıq[53] dövründə ikən qızının gələcək geyim və bəzək-düzəyi haqqında böyük planlar qurmağa başlamışdı və sonralar onların çoxunu həyata keçirdi.

Ernestinçen hələ üç yaşına çatmamışdı ki, artıq ona uzun paltarlar geyindirir, saçlarını xüsusi qaydada düzəldirdilər. Ernestinçenin əslində xeyli gözəl xüsusiyyətləri vardl. Tez-tez səhər kökəsini kasıb uşaqlarla bölüşər, yığdığı qəpiklərlə onlara kömək edərdi. O, elm öyrənməyə həvəsli idi. Hər bir şey haqqında sual verirdi: filan şey necə yaranıb, nə üçün lazımdır, nə faydası var? Çox vaxt özü kitabı gətirib anasından rica edirdi ki, ona hərfləri öyrətsin. Lakin bunların heç birinə diqqət edilmirdi.

[53] Zahılıq dövrü – qadında doğuşdan dərhal sonra başlayan, 6 həftə (42 gün) davam edən və bədənin hamiləlikdən əvvəlki vəziyyətinə qayıtdığı bərpa mərhələsidir.

Əvəzində saç düzümü yaxşı alınanda, yeni paltar, yeni papaq və ya yeni lent alanda Ernestinçenə heyranlıq və tərifl ərin ardı-arası kəsilmirdi. Anası onu sevgi ilə qucaqlayır, öpür, "mənim mələyim", "əzizim" deyə çağırır, güzgünün qarşısına aparır və böyük ana nəvazişi ilə tapşırırdı ki, ehtiyatlı olsun, saç hörüklərini pozmasın və paltarlarını ləkələməsin.

Bu "gözəl" tərbiyənin nəticəsində Ernestinçen tamamilə belə bir qənaətə gəldi ki, insan dünyaya məhz bəzənmək üçün gəlmişdir; onun ən böyük səadəti gözəl geyinməkdədir və insanı heyvanlardan üstün edən ən mühüm xüsusiyyət də saçını dəbə uyğun yığdıra bilməsidir. Beləcə, o, tamamilə özünə heyran bir insana çevrildi.

Daha o, insanın dəyərini onun saç düzümünə görə müəyyən edirdi. Saçına pudra vurmuş bir kişi onun nəzərində mütləq axmaq hesab olunurdu. Saç buruqları son dəbə uyğun burulmayan birininsə zövqdən tamamilə məhrum olduğunu düşünürdü.

Öz qızıl saatı ilə insanların öz təmiz vicdanları ilə fəxr etdiyi kimi fəxr edirdi. Parisdən gətirilmiş baş örtüyü haqqında elə ağızdolusu danışırdı ki, sanki hansısa qadın dürüstlük və namus haqqında danışır. O özünə ən böyük alçaqlığı belə bağışlayar, amma geyimdəki ən kiçik qüsuru bağışlamazdı.

Şorbanın necə bişirildiyini, bir top kətan parçanı toxumaq üçün nə qədər ip lazım olduğunu bilmirdi. Amma ətirli pomadanın necə hazırlandığını, bir paltarın bəzəyi üçün neçə arşın krujeva lazım gəldiyini isə əzbər danışardı.

Kədərli vaxtlarda başqa insanlar kitab oxuduqları halda, o, paltar dolabına və zinət əşyaları qutusuna üz tutur, paltarlarını, lentlərini və üzüklərini bir-bir sayırdı. Bunlar onun ürəyinin ən böyük təsəlli mənbəyi idi.

II. Uşaqları tez-tez böyük məclislərə apar!

Tacir Herbertin böyük qızı Lottxen on üç yaşına çatanda tərbiyə alması üçün keşiş Yuliusun himayəsinə verildi. Bu hörmətli şəxs Lottxeni xristianlığın ruhu ilə tanış etmək üçün böyük səy göstərirdi. Bir dəfə onun Lottxenə Müqəddəs Kitabdakı bu kəlamı izah etdiyini eşitdim: "Hər şeydən əvvəl Allahın hökmranlığını və salehliyini axtarın, qalan hər şey sizə veriləcək". O dedi: "Xilaskarımız bununla demək istəyir ki, biz hər şeydən əvvəl yaxşı insan olmağa çalışmalıyıq; ədaləti və fəziləti özümüzə xas xüsusiyyətə çevirməliyik. O zaman həyatımızın zahiri ehtiyacları da öz-özünə qaydasına düşəcək.

Əziz Lottxen! Gör bu nə böyük həqiqətdir! Əgər ətrafımdakı hər şey qiymətli, amma özüm dəyərsiz olsam, bunun nə faydası var? Təsəvvür et ki, gənc bir qız başdan-ayağa lentlər və zinət əşyaları ilə bəzənib, amma özü cahildir, sevgisizdir, deyingəndir və öz ehtiraslarının əsiridir. Belə bir insanın həqiqətən dəyəri varmı? Hətta o, şahzadə qızı olsa belə, ürəyində ona nifrət etməzdinmi?

Üzünün təbii qızartısı süni ənlikdən daha gözəl görünmürmü? Elə isə, insanın daxilindəki gözəllik zahiri bəzək-düzəkdən daha qiymətli deyilmi? Əgər insanın özü həqiqətən yaxşı

insan olsa, ağlı, çalışqanlığı, nəcib ruhu və nəfsinə hakim olsa, onda qalan hər şey onun ardınca gələr. Sağlamlıq bizi gözəlləşdirər, insanlar bizə sevgi və hörmət bəsləyər, qazancımız da artar".

Cənab Yulius belə danışırdı və Lottxenə xüsusilə bir qız olaraq Allahın hökmranlığını və salehliyini axtarmaq üçün nə etməli olduğunu göstərirdi. Bu söhbətlər Lottxenə dərin təsir bağışladı. O, artıq bəzək-düzəyə əhəmiyyət vermir, bütün qayğısını yaxşı, ağıllı və çalışqan bir qız olmağa yönəldirdi.

Əziz Yuliusun niyyəti tamamilə yaxşı idi. Əgər Lottxen yalnız gələcək əri və uşaqları üçün tərbiyə edilməli olsaydı, bu tərbiyə üsulunda heç bir nöqsan olmazdı. Lakin dünya üçün belə bir tərbiyə, təəssüf ki, yararsız idi. Madam Herbert bunu vaxtında başa düşdüyünə görə Lottxeni tez-tez cəmiyyət içinə aparmağa başladı ki, öz ifadəsi ilə desək, "bir az dünya görsün".

Lottxen həmin məclislərə sadə görkəmdə, bəzəksiz geyimlərlə gedirdi. Xanımlar başlarını bir-birinə yaxınlaşdırıb pıçıldaşır, ona istehza ilə baxırdılar. Bütün digər bəzənmiş qızların əllərini öpən, onlara xoş sözlər deyib yaltaqlanan gənc bəylər isə Lottxen kimi yaxşı qıza, demək olar ki, heç fikir vermirdilər; necə deyərlər, onu adam yerinə qoymurdular. Bu, təbii ki, Lottxeni çox incidirdi. Nəticədə, o qərara gəldi ki, daxili gözəlliklə yanaşı zahiri görünüşünün də qeydinə qalmalıdır. Buna görə də anasından xahiş etdi ki, ona saçlarını dəbə uyğun düzəltməyə, gözəl krujevalar, güllər və başqa bəzək əş-

yaları taxmağa icazə versin. Bunları başqa qızlarda görmüşdü. Mehriban ana tərbiyə üsulunun ilk nəticəsini gördüyünə çox sevindi və qızının istədiyi hər şeyi dərhal aldırdı.

Növbəti həftə xanım Lottxen artıq tamamilə başqa bir görkəmdə cəmiyyət içinə çıxdı. Çoxsaylı buruqlar, hörüklər və mirvarilərlə bəzədilmiş saç düzümü onu hamının diqqət mərkəzinə çevirdi. Zərif və incə naxışlarla işlənmiş paltarı heyranlıq doğururdu. Paris ayaqqabıları hamının baxışlarını onun balaca ayaqlarına yönəldirdi.

Lottxen güzgünün qarşısına keçdi. Özünə necə də valeh olmuşdu! İnsanların baxışlarının ləzzətini o, heç vaxt indiki qədər güclü hiss etməmişdi. Öz dəyərini dərindən hiss edərək böyük bir məclisə daxil oldu və bu dəfə hamı onu gördü. Qadınlar onda baş vermiş bu dəyişikliyi tərifləyir, geyimini başdan-ayağa gözdən keçirir, bəzi xırda iradlardan başqa hər şeyi çox bəyənirdilər. Kişilər də diqqətlərini ona yönəltdilər, əlini öpdülər, geyim seçimindəki zövqünü tərifladilər. Hətta doktorant Villrayx onu evinə qədər müşayiət etdi və ayrılarkən onu "mənim ilahəm" adlandırdı.

Bu, əlbəttə, cənab Yuliusun dediklərindən tamam başqa bir yanaşma idi. Çünki Yulius Lottxeni yalnız yaxşı həyat yoldaşı və yaxşı ana olmağa hazırlaşdırırdı. Lottxen bir müddət onun dərslərinə davam etsə də, sonradan orada deyilənlərə ürəkdən qoşula bilmirdi. Çünki fikri daha "mühüm" işlərlə məşğul idi.

Bir gün cənab Yulius insanın keçmiş həyatına baxıb etdiyi yaxşı əməlləri görməsinin və vicdan əzabı çəkmədən yaşamasının necə böyük sevinc olduğunu çox təsirli şəkildə təsvir etdi. Sözünü bitirdikdən sonra soruşdu:

– Əziz Lottxen, sən də bu xoşbəxtliyi arzulamırsanmı?

– Nə? Siz nə dediniz? – Lottxen çaşqınlıqla soruşdu.

Zavallı qız çıxışdan bir kəlmə də eşitməmişdi. O artıq hiss edirdi ki, taleyi sadəcə ev həyatının sevincini yaşamaq deyil. Belə sevincləri gündəlik muzda işləyən fəhlə də yaşaya bilər. O özünü dünya üçün yaradılmış hesab edirdi və dünyaya xoş görünmək artıq onun ən böyük və ən alovlu arzusu idi. Məhz buna görə də cənab Yulius danışarkən o, dəb jurnalının son nömrəsində gördüyü yeni bir saç bəzəyini necə əldə edəcəyini planlaşdırırdı.

Cənab Yuliusun dərslərindən qurtulan kimi o, böyük həyat yoluna qədəm qoydu – o həyata ki, özünün belə bir həyat üçün yaradıldığına inanırdı. Sanki böyük bir fədakarlıq edirmiş kimi, öz mənəvi inkişafını tamamilə unutdu və yalnız dünya üçün yaşamağa başladı. Xüsusilə gənc kişilər başda olmaqla hamının xoşuna gəlmək onun ən böyük arzusu idi. Bu arzunu həyata keçirmək üçün təkcə çoxlu pul xərcləmir, hətta mənəvi rahatlığını da qurban verirdi.

Nəhayət, müşavir Şmetterlinq bu qiymətli "xəzinəyə" sahib olmaq xoşbəxtliyinə nail oldu. Halbuki onunla evlənmək üçün iyirmi beşə yaxın gənc bəy namizəd olmuşdu. Onların evliliyinin ilk yeddi günü nümunəvi ailələrdəki kimi şad-firavan keçdi. Əri ömrü boyu xoşbəxt yaşaya bilərdi, əgər öz qəribə xasiyyəti buna mane olmasaydı. O istəyirdi ki, həyat yoldaşı onun istəyinə uyğun davransın və fəaliyyətini ev təsərrüfatının yaxşılaşdırılması ilə məhdudlaşdırsın.

Lottxen bunu eşidəndə ürəyində düşündü: "Bu nə qədər cahilanə və sıxıcı istəkdir! Mənim bütün dünyam ərim və evimdən ibarət olsun? Bu çox mənasız olar! Mən dövrün dəbinə uyğun yaşamalıyam". O, ömrünün son nəfəsinə qədər belə dünyapərəst prinsipinə sadiq qaldı. Geyimini, dost çevrəsini və həyat tərzini ərinin istəyinə görə deyil, ona heyran olan insanların zövqünə görə seçirdi. Əgər öz prinsipləri uğrunda hər şeyi qurban vermək qəhrəmanlıq sayılsaydı, Lottxen ən böyük qəhrəman qadınlardan biri olardı. O, ərinin sevgisini qurban verdi. Uşaqlarının sağlamlığını və əxlaqını qurban verdi. Öz sağlamlığını və daxili rahatlığını qurban verdi. Bütün vardövləti borc verənlərin əlinə keçdi. Bütün bunları yalnız cəmiyyətin rəğbətini qazanmaq naminə etdi.

Doğrudur ki, o, səfalət içində öldü. Ömrünün son günlərində hamı tərəfindən nifrətlə yad olunurdu. Amma yenə də bir təsəllisi vardı: inanırdı ki, insanların alqışını qazanmaq üçün əlindən gələn heç nəyi əsirgəməyib.

"UŞAQLARI LOVĞA VƏ ÖZÜNÜBƏYƏNMİŞ ETMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

İnsanlara və əşyalara sırf xarici görünüşünə görə qiymət vermək heç vaxt doğru seçim olmayıb. İnsan zahiriyyətə önəm verə bilər, burada problem yoxdur; məsələn, aldığı kitabın üz qabığının gözəl olmasını istəyə bilər. Lakin zahirpərəst olmaq pisdir; məsələn, kitabı məzmununa baxmayıb sırf üz qabığındakı şəkilə görə dəyərləndirmək.

Əgər valideynlər uşağın xarici görünüşünü, geyimini və bəzək-düzəyini xarakterindən, biliyindən və əməllərindən daha çox qiymətləndirərsə, uşaq zamanla öz dəyərini məhz bunlarla ölçməyə başlayacaq. Necə ki hekayədə Ernestinçen əvvəlcə səxavətli, mərhəmətli və öyrənməyə həvəsli uşaq idi, lakin valideyni onun bu keyfiyyətlərinə biganə qalıb yalnız zahiri görünüşünü tərifləyiri üçün uşağın diqqəti tədricən daxili inkişafdan zahiri görünüşə yönəlir. Buradan görə bilirik ki, tərifl ənən xüsusiyyət inkişaf edir, diqqətdən kənarda qalan xüsusiyyət isə zəifləyir. Başqa sözlə, uşaq hansı davranışın valideyn tərəfindən daha çox diqqət və rəğbət qazandırdığını müşahidə edir və həmin davranışı təkrarlayır. İkinci hekayədə Lottxen əvvəlcə mənəvi dəyərlərə üstünlük verən bir qız olsa da, cəmiyyətin münasibəti onun baxışlarını dəyişir. Deməli, uşağın tərbiyəsində yalnız ailənin deyil, yaşadığı sosial mühitin də mühüm rolu var. Əgər cəmiyyət insanı xarakterinə görə deyil, zahiri görünüşünə görə qiymətləndirirsə, insanların, xüsusilə yeniyetmələrin bu təsirdən yayınması çətin olur. Salzmanın bu müşahidələri bu gün – sosial media dövründə daha da aktual görünür.

Müşahidələr göstərir ki, uşaqlar və yeniyetmələri çox görünüşlərinə görə qiymətləndirildikdə onlar öz bədənlərindən görünüşlərindən məmnun olmur, özünü başqaları ilə müqayisə edir, özlərini aşağı qiymətləndirirlər. Buna görə müasir pedaqoqlar valideynlərə tövsiyə edirlər ki, uşağın zahiri görünüşünü deyil, mərhəmət, dürüstlük, zəhmətkeşlik, məsuliyyəti və s. kimi əməli keyfiyyətlərini qiymətləndirsinlər.

XXXII BÖLMƏ
UŞAQLARI TƏNBƏLLİYƏ ALIŞDIRMAĞIN YOLLARI

Uşaqlara tez-tez əməyin çətinliyindən, tənbəlliyin isə ləzzətindən danış!

Bütün sənətlər arasında ən çətini "heç nə etməmək" sənətidir. İşləmək meyli insanın bütün varlığına – qanına, sinirlərinə, ürəyinə, hətta mədəsinə qədər yayılmışdır. Bu meyil hələ yeni doğulmuş körpədə də özünü göstərir. Körpə əlləri və ayaqları ilə çırpınır ki, onu sıxıb-bağlayan bələkdən qurtulsun və öz iradəsi ilə hərəkət edə bilsin. Hətta insanın yaradılış məqsədi yalnız yeməyi həzm etmək olsaydı və insanın dəyəri boşaltdığı boşqabların və butulkaların sayı ilə ölçülsəydi belə, təbiət yenə də ondan işləməyi tələb edərdi. Çünki həzm prosesinin özü də əmək sayəsində xeyli rahatlaşır. Elə buradan da görünür ki, tənbəlliyə alışmaq və özünün təbii əmək meylinin qarşısını almaq üçün nə qədər böyük zəhmət tələb olunur. Lakin tərbiyə və nümunə bu sahədə də çox şey edə bilər; bunu usta Piqerin həyat tarixçəsi aydın göstərir.

Əgər usta Piqerin bir qədər zəhmət tələb edən görüləcək işi var idisə, o, hələ iki həftə əvvəlindən bu barədə danışmağa başlayardı. Ah çəkər, əsnəyər, gərnəşər və deyərdi: "Gələn həftə günüm-saatım ağır olacaq. İşləməli olacağam! Kaş o sovxa iş tez qurtaraydı!" İş başlayanda isə elə zarıyırdı ki, elə bil ağır xəstədir. Hər on beş dəqiqədən bir skamyaya sərilib

ah çəkirdi: "Ah, İlahi! Bu iş... bu iş... Belə həyat yaşamaq olmaz!"

Bazar və bayram günlərini həddindən artıq sevirdi. Hər şənbə günü deyirdi: "Allaha şükür! Bu həftə də keçdi. Sabah bazardır. Ayı kimi yatacağam!" Doğrudan da, səhər saat doqquzdan əvvəl heç kim onu yataqdan qaldıra bilməzdi. Ölkəsində bayram günlərindən biri ləğv ediləndə buna görə ümumi narazılıq yaratmağa çalışanların ən fəallarından biri də o olurdu.

Nə vaxt varlı bir adam görsəydi, onu uşaqlarına göstərib deyərdi: "Baxın görün, bu adamın nə rahat həyatı var! Əlini nəyəsə vurmağına ehtiyac yoxdur. İstədiyini yeyir, istədiyini içir, istədiyi qədər də yatır".

Piqerin böyük oğlu Niklas atasının bu "dərslərini" yaxşı mənimsəmişdi və onlara əməl etməyə çalışırdı. Həyatının ilk on üç ili, demək olar, tam tənbəllik içində keçdi. Müəllimi ona çoxlu döyməklə birtəhər oxumağı və yazmağı öyrədə bildi. Usta Piqer istərdi ki, oğlu ömrünün qalan hissəsini də rahatlıq içində keçirsin. Lakin kasıb olduğu üçün oğluna işləmədən yaşamağa imkan verəcək qədər gəlir təmin edə bilmirdi. Buna görə də bir gün ondan soruşdu: "Niklas, böyüyəndə nə olmaq istəyirsən?" Niklas qətiyyətlə cavab verdi: "Tələbə olmaq istəyirəm, ata". Çünki onun fikrincə, tələbənin işi yalnız içmək və tütün çəkmək idi. Usta Piqer oğlunun bu qərarını bəyəndi və onu tələbə oxumağa göndərdi.

Zəngin ailələrlə əlaqələri olduğuna görə Piqer oğlu Niklas üçün müxtəlif təqaüdlər əldə edə bildi. Beləcə Niklas on səkkiz yaşında universitet tələbəsi oldu. Və... o, hələ də tələbədir, artıq əlli altı yaşı olmasına baxmayaraq.

Universitet həyatının ilk üçdəbirini təqaüdlə keçirdi. İkinci hissədə başını qumar oynamaqla, zarafatlar etmək və təcrübəsiz gənc tələbələri aldatmaqla girələdi. Üçüncü hissədə isə artıq vəziyyəti acınacaqlı oldu. Get-gedə şənliklər azaldı, qumar zamanı işlətdiyi hiylələr üzə çıxdı, paltarları köhnəldi, alt paltarları deşik-deşik oldu, bit-birə çoxaldı.

Amma onun bir ümidi var idi. Qardaşı dənizçiliyə girmişdi. Kim bilir, bəlkə əlli min, bəlkə də yüz min taler qazanırdı. Kim bilir, bəlkə qardaşı ölər və Hollandiyadan bir məktub gələr ki, bütün sərvətinin yeganə varisi Niklasdır. Niklas bu şirin ümidlə aclığın və bit-birənin əzabına sakitcə dözürdü.

"UŞAQLARI TƏNBƏLLİYƏ ALIŞDIRMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Pedaqoji ədəbiyyatda deyilir ki, "məktəbəqədər yaşlı uşağın üç əsas tələbi mövcuddur: hərəkətə olan tələb, ünsiyyətə olan tələb və dərk etməyə olan tələb".[54] Uşaqlar təbiətən hərəkətə, fəaliyyətə meyilli olurlar. M.Montessori yazırdı: "Hərəkətin uşaq üçün əhəmiyyəti çox böyükdür. ... Hərəkət təkcə

[54] Baxışova Şərafət, "Məktəbəqədər təhsildə inkişafetdirici təlim", Bakı, ADPU nəşriyyatı, 2021, 289 səh.; səh. 129

insanın daxili aləminin ifadəsi deyil, eyni zamanda şüurun inkişafında da əvəzolunmaz rol oynayır".[55] Hərəkətin uşaqlar üçün önəmi valideynlərə bir mesajdır ki, övladlarını hərəkət etmək, qaçmaq, oynamaq üçün azad buraxsınlar. Əksinə, bu hərəkətliliyin qarşısı alınsa, bu, uşağın xarakterində tənbəlliyin əmələ gəlməsi ilə də nəticələnə bilər.

Tənbəllik yalnız fiziki fəaliyyətin qarşısının alınması ilə deyil, həm də ailədə eşidilən sözlər və görülən nümunələr nəticəsində də yarana bilər. Valideyn daim əməyə əziyyət, istirahətə isə həyatın əsas qayəsi kimi baxdıqda uşağın da bu düşüncəni mənimsəməsi, demək olar, qaçılmazdır. Hekayədə usta Piqer həmişə işləməkdən gileylənir, işləri haqqında ağır yük imişlər kimi danışır; amma istirahət və yatmağı isə həyatın ən böyük xoşbəxtliyi hesab edirdi. O, varlı insanların işləmədən yaşamasına həsəd aparır və bu düşüncələri uşaqlarına da aşılayırdı. Onun belə bir mühitdə böyüyən oğlu – Niklas zəhmət çəkmədən rahat yaşamağın yollarını axtarmağa başlayır. O, tələbə olmağı elm öyrənmək üçün yox, məsuliyyətsiz və rahat həyat sürmək məqsədi ilə seçir. İllər keçdikcə oxumaq əvəzinə, vaxtını əyləncəyə, qumara və başqalarını aldatmağa sərf edir. Nəticədə, heç bir peşə sahibi ola bilmir. Bu hekayə tənbəllik kimi gözümüzə çox da pis görsənməyən xüsusiyyətin insanı haralara gətirəcəyini göstərir.

Uşaqlar əməyə hörməti valideynlərin sözlərindən çox, onların həyata münasibətindən öyrənirlər. Valideyn zəhmətə –

[55] Maria Montessori. Çocuk eğitimi "Montessori metodu" / türk dilinə tərcümə edən: Güler Yücel. Özgür Yayınları, 5. Basım, 2026; səh. 104

insan xoşbəxtliyinin və keyfiyyətli yaşamın əsas şərtlərindən biri, tənbəlliyə isə insanı tənəzzülə uğradan, bədbəxtliyə sürükləyən rəzil bir xüsusiyyət kimi baxmalı və övladını da bu fikirdə yetişdirməlidir. Uşağa əməyin dəyərini öyrədən ailələr çalışqan və məsuliyyətli insanlar yetişdirə bilirlər.

XXXIII BÖLMƏ
UŞAQLARI XƏSİSLİYƏ ALIŞDIRMAĞIN YOLLARI

Uşaqlarda tez-tez pulun dəyəri haqqında şişirdilmiş təsəvvürlər yaradın!

Cənab Harparın, doğrudan da, xəsis olub-olmadığını – bəziləri bunu iddia edirdi – mən qəti deyə bilmərəm. Amma bir şey dəqiqdir ki, o, pulu çox sevirdi. Həyatının ən xoşbəxt saatları pul saydığı vaxtlar idi. Ən faydalı keçmiş günü isə, onun fikrincə, ən çox pul qazandığı gün idi. Onun üçün "xoşbəxt" və "varlı" sözləri eyni məna daşıyırdı. Harpar bu "hikməti" balaca Qotfridə də öyrətməyə çalışırdı.

Puldan böyük şövqlə danışırdı. Keçmiş müharibədə taxıl alverindən yüz faiz qazanc götürdüyünü danışanda gözləri parıldayır, yanaqları qızarır, bütün sifətinə elə bir sevinc yayılırdı ki, sanki xeyirxah bir insan illər əvvəl xeyirxah bir əməl etdiyi məkana yenidən qayıtmışdı. Eşitsəydi ki, kimsə varlı bir qadınla evlənib və ya böyük miras alıb, dərhal deyərdi: "Bax əsl xoşbəxtlik budur! Mən buna bəxtəvərlik deyərəm!"

Bu deyilənlərin mənası əslində belə idi: "Əziz oğlum Qotfrid, nə qədər çox pulun olsa, bir o qədər xoşbəxt olacaqsan. Dürüstlükdən, insan sevgisindən, fəzilətin gətirdiyi hüzurdan danışanların hamısı boş danışır. Mən uzun ömür yaşamışam

və pulun cingiltisinin verdiyi həzdən şirin heç bir ləzzət görməmişəm. Buna görə də həyatındakı əsas məqsədin pul qazanmaq olmalıdır. Qalan hər şeyi ikinci dərəcəli hesab et".

O, pul xərcləməyi tələb edən hər şeyə qarşı çıxırdı. Şəhər sakinlərinin təşkil etdiyi hər bir gəzintini və ziyafəti israfçılıq hesab edir, deyirdi ki, belə adamlar bir gün mütləq cəzalarını alacaqlar. Tez-tez deyirdi: "Mən o günləri görəcəyəm ki, bu cür kefcil adamlar axırda qapı-qapı gəzib çörək dilənəcəklər. Mən belələrini çox görmüşəm".

Sədəqəyə tam qarşı deyildi. Amma bu barədə danışanda həmişə ehtiyatla əlavə edirdi: "Xeyirxahlıq əvvəlcə insanın özündən başlamalıdır. Adam yalnız artıq qalanını verməlidir və gərək çox diqqətli olsun ki, məhz buna layiq olanlara kömək etsin". Lakin o heç vaxt özündə "artıq qalan" pul olduğunu düşünmürdü. Üstəlik, yaşadığı şəhərdəki bütün kasıbların hansısa qüsurunu tapır və onları yardıma layiq insan hesab etmirdi.

Buna görə də Qotfrid atasından heç vaxt həqiqi xeyirxahlıq nümunəsi görmədi. Cənab Harpar oğlunu səkkiz yaşından bu prinsipləri tətbiq etməyə öyrətməyə başladı. Ona bir qəpik qutusu verdi və hər həftə bir neçə qroş cibxərcliyi ayırdı. Həftənin sonunda Qotfrid mütləq hesabat verməli idi. Əgər heç nə xərcləməmişdisə, ata mehribanlıqla onu qucaqlayır, qənaətcilliyini tərifləyir, hətta mükafat olaraq üstünə bir neçə kreytser[56] də əlavə edirdi.

[56] Kreytser – XIII–XIX əsrlərdə Mərkəzi Avropada (əsasən Almaniya və Avstriya-Macarıstanda) istifadə olunmuş gümüş və mis pul vahidi.

Məktəb yoldaşları tez-tez Qotfridi gəzməyə çağırır, yaxud onlarla birgə mövsüm meyvələri almağa getməsini istəyirdilər. Lakin atası buna həmişə mane olurdu. Əgər oğlu dostlarının təklifini rədd etmişdisə, ertəsi gün ata onu tərifləyərək deyirdi: "Bax əgər dünən dostlarınla gəzməyə getsəydin və ya meyvə alsaydın, bu gün həmin sevinc artıq keçib gedəcəkdi. Amma mənə qulaq asdığın üçün pulun hələ də əlindədir və uzun müddət ondan zövq ala biləcəksən".

Qəpik qutusu tez-tez açılıb sayılırdı. İçindəki xırda pullar çoxaldıqca, atası onları yeni zərb edilmiş iri gümüş pullarla və ya yarım quldenlərlə[57] dəyişirdi ki, Qotfridin onlardan nəsə xərcləmək arzusu heç vaxt yaranmasın. Hər dəfə qəpik qutusu sayılarkən cənab Harpar oğluna deyirdi: "Təsəvvür et, əlli taler toplayanda necə xoşbəxt olacaqsan! Onu faizlə borca verərsən və hər il heç olmasa iki yarım taler gəlir əldə edərsən".

Cənab Harpar böyük məmnuniyyətlə görürdü ki, verdiyi dərslər hədər getməmişdir. Qotfrid çox tez öyrəndi ki, ağıllı adamın əldə edə biləcəyi yeganə həqiqi nemət puldur. Bütün səylərini yalnız pul qazanmağa sərf etdi. Təbiətin insanlara bəxş etdiyi kiçik sevinclərin hamısından özünü məhrum edirdi. Nənəsinin ona verdiyi ləzzətli yeməkləri belə bəzən məktəb yoldaşlarına satırdı.

On yaşına çatanda kifayət qədər gəlir gətirən kiçik bir alver qurmuşdu. Cürbəcür hiylələrlə başqa uşaqların oyuncaqlarını ələ keçirir, fürsət düşən kimi satırdı. Beləliklə, on iki yaşında

[57] Qulden – almanların da tarixən istifadə etdikləri pul vahididir. 1 qulden **100 sentə** bərabər idi. Daha köhnə dövrlərdə isə o, 20 stüverə, hər bir stüver isə kreytser və ya digər xırda vahidlərə bölünürdü.

atasına borca verməsi üçün əlli taler təqdim edə bildi. Bu hadisə atasını o qədər sevindirdi ki, göz yaşları axdı.

Zaman keçdikcə Qotfrid atasını da geridə qoydu. Pula olan hörməti o həddə çatdı ki, başqa insanların zövq aldığı hər şeyi pulun uğrunda qurban verirdi. İyirmi dörd yaşında olarkən qara gözlü gözəl bir qız gördü. Qızı görəndə ürəyi isindi və onda evlənmək arzusu oyandı. Lakin qızın cəmi iki yüz taler sərvətə malik olduğunu eşidən kimi bu arzunun mənasız olduğunu fikirləşdi. Ürəyindən gələn güclü istəyinə qalib gəldi, onu boğdu və nəhayət məhəbbətini altmış yaşlı varlı bir dul qadına bağışladı.

Qotfridin süfrəsində həmişə ən ucuz yeməklər olardı. Haradasa eşitsəydi ki, bir pendir satıcısı xarab olmağa başlayan bir çəllək pendiri, yaxud bir qəssab iylənmək üzrə olan bir çəllək duzlu əti ucuz qiymətə satır, dərhal bir neçə həftəlik ehtiyat kimi onu alardı. Belə yeməklərdən iyrənmək hissini bu fikir üstələyirdi: "Hər dəfə belə yemək yeyəndə bir neçə qəpik qənaət edirəm".

Ümumiyyətlə, onun prinsipi belə idi: yaxşı ev sahibi əti süfrəyə qoymazdan əvvəl onun bir qədər iyi gəlməsinə imkan verməlidir. Çünki təcrübədən bilirdi ki, dadlı yeməklərə nisbətən xarab olmaq üzrə olan yeməklərdən xidmətçilər iki dəfə az yeyirlər.

O, qonaqlıq məclislərinə böyük nifrətlə yanaşırdı. Lakin tamamilə dostsuz da deyildi. Sandığında saxladığı qızıl və gümüş sikkələr ona ən xoş söhbət yoldaşı idi. Heç nə ona bu fikirdən artıq zövq vermirdi ki, hər gün dünyanın ən böyük

hökmdarları ilə ünsiyyətdə olur, üstəlik bu ünsiyyət ona bir qəpiyə belə başa gəlmir.

Dinin insanın qəlbində doğurduğu sevinclərə də öz həyatında yer vermirdi. Qorxurdu ki, bunlar pul sevgisinin verdiyi daha şirin həzzə mane olar. Kilsədə keçirməli olduğu vaxtı isə yeni pul qazanmaq planları qurmağa sərf edirdi.

Beləcə, Qotfrid dünyadan yetmiş min talerin sahibi kimi köçdü. Doğrudur, insanların dadını çıxardıqları heç bir sevincdən pay almamışdı. Nə təbiətin gözəllikləri, nə də din onun qəlbinə yol tapa bilmişdi. Amma bunun əvəzində, o yetmiş min talerin sahibi idi.

"UŞAQLARI XƏSİSLİYƏ ALIŞDIRMAĞIN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Bəzi insanların düşüncəsində pul sadəcə bir vasitə olmaqdan çıxıb həyatın əsas məqsədinə çevrilir. Təəssüf ki, insan bu xüsusiyyəti ilə yalnız özünə deyil, övladlarına da zərər verir. Valideyn pulu həyatın ən ali məqsədi, var-dövləti xoşbəxtliyin əsas şərti hesab etdikdə, adətən, uşaq da zamanla eyni dünyagörüşünü mənimsəyir.

Hekayədə cənab Harpar və oğlu Qotfrid bu deyilənlərin bariz nümunəsidir. Cənab Harpar oğluna pul qazanmağın yollarını öyrətmir, pulu xoşbəxtliyin yeganə mənbəyi kimi təqdim edir. Qotfrid də digər uşaqlar kimi valideyninin gündəlik davranışlarından təsirlənir. Ata yalnız qazanc əldə edəndə sevinir. Beləliklə, uşaq üçün pul sadəcə alqı-satqı vasitəsi yox, həm də insan dəyərini müəyyən edən meyara çevrilir. Bunu da

qeyd etmək yaxşı olar ki, valideyn həyatında hansı dəyəri üstün tutursa, adətən, uşaq da onu mənimsəyir. Buna görə də atanın (Harparın) pul sevgisi tədricən uşağın (Qotfridin) şəxsiyyətinin əsas xüsusiyyətinə çevrilir.

Hekayədə ata Qotfridi xərcləmədiyi pula görə tərifləyir və əlavə pulla mükafatlandırır. Beləliklə, uşaq üçün yaxşı davranış pul toplamaq olur, beynində "pul yığmaq = mükafat" sxemi formalaşır. Bu da onu bütün həyatı boyu izləyəcək bir vərdişə çevrilir.

Uşaqların nəzərində pulu nə gözdən salmaq, nə də müqəddəsləşdirmək lazımdır. Uşaq maliyyə məsuliyyətini öyrənməli, qənaət etməyi bacarmalıdır. Ancaq eyni zamanda anlamalıdır ki, dürüstlük, səxavət, dostluq, sevgi və insanlara faydalı olmaq puldan daha yüksək mənəvi dəyərlərdir. Pul bu dəyərlərə xidmət etdikdə faydalıdır, onların yerini tutduqda isə insanı zəngin deyil, mənəvi cəhətdən yoxsul edir.

Maddiyyatın həddindən artıq ön plana çıxarıldığı ailələrdə uşaq özünü də maddi uğurları ilə qiymətləndirməyə başlayır. Belə olduqda isə xırda bir maddi itki zamanıı və ya başqaları ilə müqayisə uşağın özünəinamını ciddi şəkildə sarsıda bilər.

Qənaət və xəsislik bir-biri ilə qarışdırılmamalıdır. Qənaətcil insan resurslardan ağıllı istifadə edir, lakin pulu həyatın məqsədinə çevirmir. Xəsis insan isə pulu qorumaq naminə sağlamlığını, dostluğunu, ailəsini və hətta vicdan rahatlığını belə qurban verməyə hazır olur. Uşaqlara qənaətcillik öyrədilməlidir, lakin bu qənaət xəsislik dərəcəsində ifrata varmamalıdır. Valideyn pulun dəyərini dürüstlük, səxavət, əməkse-

vərlik və insanpərvərlik kimi mənəvi dəyərlərlə birlikdə aşılamalıdır. Əks halda, uşaq var-dövləti hər şeydən üstün tutan, mənəvi zənginlikdənsə uzaq biri kimi formalaşa bilir.

Xəsislik və var-dövlətdən asılılıq haqqında ədəbiyyatımızda kifayət qədər müdrikanə fikirlər var. Atalar sözlərində belə deyilir: "Dövlət əldən gedər, ad qalar", "Dünya malı dünyada qalar", "Varlı odur ki, gözü tox ola".

Dahi şair-filosof N.Gəncəvi demişdir: "Sarı qızıl yaranıb ki, bəxş edəsən insanlara, / Sarılığı sevirsənsə, buyur, bağda bol zəfəran. / Bərbəzəkdən bir fayda yox... qızıl tapsan ver möhtaca, / Ömrün boyu qızıl kimi həm qoca ol, həm də cavan".[58]

Digər filosof-şairimiz M.Füzuli demişdir: "Ədvari-zaman daireyi-heyrət imiş, / Əsbabi-cəhan məhalikü möhnət imiş, / Dünyayə həvəs etməmək etməkdən yey, / Çün əvvəli hirsü axiri həsrət imiş". Şair deyir ki, zamanın dövranı heyrət dairəsi imiş. Cahanın səbəb və vasitələri əzab və çətinlik mənbəyidir. Dünyaya həvəs göstərməmək göstərməkdən yaxşıdır. Çünki onun başlanğıcı tamah, sonu isə peşmançılıqdır.

Ustad şair İ.Nəsimi demişdir: "Dövlətinə bu dünyanın olma müqəyyəd, ey mələk, / Anın üçün ki, dünyanın dövləti bisəbat olur".[59] Şair buyurur ki, bu dünyanın var-dövlətinə aldanıb ona bağlanma. Çünki dünyanın var-dövləti davamlı və sabit olmur.

Belə nümunələrin mütaliəsi uşaqların dünya malı, var-dövlət, pul mövzularında doğru baxış bucağına sahib olmasında əvəzsiz rola malikdir.

---

[58] Nizami Gəncəvi. Lirika. Bakı, "Lider nəşriyyat", 2004, 160 səh.; səh. 129

[59] İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, "Lider nəşriyyat", 2004, 376 səh.; səh. 136

XXXIV BÖLMƏ
UŞAQLARI YAXŞI NƏSİHƏTLƏRƏ QARŞI LAQEYDLƏŞDİRMƏYİN YOLLARI

Uşaqlara vəzifələrini dayanmadan xatırladın!

Xanım Ursula uşaqları ilə birlikdə olanda, demək olar ki, başqa heç nə etməz, yalnız nəsihət verərdi. O tez-tez deyərdi:

"Çox nəsihət çox fayda verir. Qoy uşaqlarım nəsihətsiz qalmasınlar", "Kordela, bu gün ağıllı ol! Ağlama! Dava etmə!", "Bacın və ya qardaşın sənə nəsə etsə, mənə de", "Evə qonaq gələndə yaxşıca təzim etməyi və əllərini öpməyi unutma", "Küçədə çox qaçma!", "Ehtiyatlı ol! Ehtiyatlı ol! Səni çox pis cəzalandıraram!", "Axı mən sənə heç nəyi qadağan etmirəm. İstəyirsənsə, küçəyə çıx, amma daha bütün gününü küçədə keçirmə", "Barmağını ağzından çıxart! Belə şeyi kənd qızları edər", "Süfrə arxasında diqqətli ol!", "Bax sənə geyindirdiyim bu gözəl paltara ləkə salma!", "Ağzını yeməklə çox doldurma", "Yavaş-yavaş ye, yemək qaçmır".

"Dünənki kimi "Ət!", "Şorba!" deyib qışqırma, belə de: "Əziz ata!" və ya "Əziz ana! Zəhmət olmasa mənə bir az ət və ya şorba verərsinizmi?" Bax, tərbiyəli uşaqlar belə danışırlar. Sonra qonaqlar gələndə səni tərifləyəcəklər və deyəcəklər: "Doğrudan da, Kordela görün nə tərbiyəli qızdır!", "Niyə belə əyilib dayanmısan? Başını düz saxla! Mənim kimi. Bu axmaq duruşu qulluqçu qızdan öyrənmisən. Yadında saxla! Bir də onun otağına girməyəcəksən! Bircə dəfə də! (Burada

qadın yumruğunu masaya vurdu.) Eşidirsən? Sən də axırda o Kete kimi olacaqsan! Anan boğazı quruyana qədər danışır, sən yenə də dəyişmirsən.

"Yenə qara paltarları yerinə qoymamısan? Mən burada nizam əmələ gətirmədən rahat oturan deyiləm!" (Yenə masaya yumruq vurdu.)

Bu, xanım Ursulanın uşaqlarına hər gün söylədiyi uzun "moizələrdən" yalnız kiçik bir parçadır. Məlumdur ki, insan ağır dozalı dərmanı həddindən artıq çox qəbul etdikdə bir müddətdən sonra artıq həmin dərman təsir göstərmir. Xanım Ursulanın nəsihətləri də belə oldu. Uşaqlar bunlara o qədər öyrəşdilər ki, daha bu sözlər onlarda heç bir təsir buraxmamağa başladı. Anasının nəsihətləri onlar üçün qəfəsdə saxladıqları şir balası ilə etdikləri söhbətlər qədər mənasız olmuşdu.

"UŞAQLARI YAXŞI NƏSİHƏTLƏRƏ QARŞI LAQEYDLƏŞDİRMƏYİN YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Həddindən artıq nəsihət, hər an uşağa göstəriş vermək axırda nəsihətçinin sözlərinin öz təsirini itirməsi ilə nəticələnir. Hekayədə xanım Ursula uşaqları ilə ünsiyyətə ayırdığı vaxtın böyük hissəsini xəbərdarlıqlara, qadağalara, nəsihətlərə sərf edir. Bu bizə "radio effekti"ni xatırladır. "Radio effekti" uşaq psixologiyası və tərbiyəsində valideynlərin uşağa davamlı, çox və bezdirici şəkildə nəsihət, tənqid və ya xəbərdarlıq etməsi və bunun nəticəsində uşağın beyninin bu sözləri əhəmiyyətsiz bir fon səsi kimi qəbul edib tamamilə bloklamasıdır. Eynilə evdə işləyən, amma heç kimin diqqətlə din-

ləmədiyi bir radio kimi, valideynin sözləri də uşaq üçün fonda səslənən, mənası və dəyəri olmayan monoton bir səsə çevrilir. Valideyn danışır, amma uşaq öz dünyasında olur; başını tərpətsə də, deyilənləri eşitmir.

Müasir psixologiya deyir ki, insan eyni xəbərdarlığı təkrar-təkrar eşitdikdə beyin onu artıq vacib informasiya kimi qəbul etmir. Buna görə də valideyn gün ərzində dəfələrlə "Etmə!", "Qaçma!", "Diqqətli ol!", "Sakit dur!" dedikdə bir müddət sonra bu sözlər fon səsinə çevrilir.

Türkiyəli pedaqoq Adəm Günəş bu barədə yazır: "Həddindən artıq çox danışmaq uşağı valideynə qarşı kar edir. Az və əsaslı danışmaq, əmrləri minimuma endirmək, sözün vaxtını və uşağın ruh halını düzgün müəyyənləşdirib danışmaq sözün qiymətini artırır. Məsələn, televizora diqqətlə baxan uşağa anasının: "Oğlum, get dərslərini elə. Oğlum, oğlum, oğlum..." deməsi bir müddət sonra uşağın anasını eşitməməsinə yol açır. "Əllərini yu da, neçə dəfə deməliyəm!?", yaxud "Hələ də dərslərini bitirməmisən, bu nə məsuliyyətsizlikdir!?" deyə gileylənib durmaq uşağın artıq valideynini eşitməməsinə səbəb olur. Səs-küylü bir mühitdə bir müddət sonra səs-küyün hiss olunmayacağı kimi, davamlı gileylənən valideyn də uşağı tərəfindən eşidilməz olur. Uşaq valideynini eşitmirsə, təbii ki, sözə baxması da mümkün deyil".[60]

Hekayədə xanım Ursula uşağa bir neçə dəqiqə ərzində onlarla fərqli göstəriş verir. Halbuki uşağın diqqət və yaddaş imkanları yaşına uyğun şəkildə məhduddur. Kiçik yaşlı uşaqlar eyni vaxtda az sayda təlimatı mənimsəyə bilirlər. Çoxsaylı göstərişlər isə onların diqqətini parçalayır və nəticədə heç biri tam yerinə yetirilmir.

[60] Adem Güneş. "Çocuk neyi neden yapar? – 2" (çocukların davranışlarını anlama rehberi), Timaş Yayınları, Eylül 2022, İstanbul

Müasir pedaqogika daha çox "pozitiv intizam"[61] prinsipini tövsiyə edir: uşağa nəyi etməməli olduğunu qadağalarla demək əvəzinə, ondan gözlənilən doğru davranışı müsbət, aydın və icra edilə bilən təlimatlarla bildirmək. Məsələn, "Qaçma!" əvəzinə "Yavaş yeri", "Dağıtma!" əvəzinə "Oyuncaqlarını yerinə qoy" kimi konkret və müsbət ifadələr demək daha səmərəli hesab olunur. Uşaq nəyin qadağan olunduğunu deyil, necə davranmalı olduğunu daha aydın anlayır.

Tərbiyənin gücü sözlərin sayında deyil, onların vaxtında, məqsədəuyğun və ardıcıl şəkildə işlədilməsindədir. Az danışıb çox nümunə göstərən, lazım olan anda qısa və aydın istiqamət verən valideyn daha təsirli olur.

[61] Dünyaca məşhur amerikalı psixoloq Ceyn Nelsen özünün "Positive Discipline" kitabında bu prinsipi izah edir.

XXXV BÖLMƏ
UŞAQLARA MÜXTƏLİF MƏNFİ XÜSUSİYYƏTLƏR QAZANDIRMAĞIN DAHA BİR NEÇƏ ƏSAS YOLU

I. Uşaqlara öyrətmək istədiyin mənfi xüsusiyyətləri özün tez-tez nümayiş etdir!

1-ci hekayə

Bir dəfə cənab Robert evinə bir neçə qonaq dəvət etmiş və uşaqlarına da süfrədə oturmağa icazə vermişdi. Lakin uşaqlar elə davranış göstərdilər ki, qonaqlar bundan xeyli narazı qaldılar. Hamı yerinə oturan kimi Kristof danışmağa başladı:

– Bu nə biabırçılıqdır! Mənim bıçağım yenə yoxdur! Sən onu yenə məndən götürmüsən, hə, Kaspar?

Kaspar qışqırdı:

– Yum ağzını, axmaq! Sənin bıçağından mənə nə?

Kristof cavab verdi:

– Əlbəttə! Elə sən götürmüsən. Hər şeyi dağıdıb-tökən də sənsən...

Kaspar:

– Ana! Kristof deyir ki, mən onun bıçağını götürmüşəm.

Ana:

– Ay uşaqlar, sakit olun! Buyur, Kristof, bu da sənə başqa bıçaq.

Kristof:

– Bunun harası bıçaqdır? Mən bu qəssab bıçağı ilə yemək yeyən deyiləm.

Bu vaxt balaca Ernest qışqırdı:

– Bu nədir axı? O axmaq Kristof çörəyimi masanın altına atdı!

Ana sakitcə dedi:

– Yəqin bunu qəsdən etməyib. Kristof, götür çörəyi.

Kristof cavab verdi:

– Artıq o alçaq köpək o çörəyi murdar ağzına alıb.

Qonaqlar bir-birlərinə baxdılar və üz ifadələrindən narazılıqları açıq-aşkar hiss olunurdu. Cənab və xanım Robert əvvəllər uşaqlarının hərəkətlərində qəribə bir şey görmürdülər. Lakin bu dəfə özləri də hiss etdilər ki, belə davranış heç də xoşagələn deyil. Üzləri qızardı, başlarını aşağı saldılar. Bir, uşaqlara xoş söz dedilər, bir, barmaq silkələyib hədələdilər. Lakin bunların heç bir faydası olmadı. Bir ədəbsizlik ardınca digəri gəlirdi. Uşaqların hər sözü elə kobud və vulqar idi ki, bunu ən aşağı təbəqədən olan adamlardan belə gözləmək çətin olardı.

Nəhayət cənab Robert ciddi bir görkəm alıb dedi: "Adamın ən çox heyfi gələn budur ki, uşaqlarını pis mühitdən qoruya bilmirsən. Bizim evdə nə pis söz eşidirlər, nə də pis nümunə görürlər. Amma küçədə o vəhşi uşaqların arasına düşən kimi hər cür tərbiyəsizliyi öyrənirlər. İlahi! Onların işlətdiyi sözlərə bir baxın! Belə ifadələr mənim evimdə heç vaxt eşidilə bilməz. Qonaqlardan biri çiyinlərini çəkərək razılıq bildirdi: "Həqiqətən də, bu, çox üzücü bir vəziyyətdir".

Nahardan sonra həmin qonaq Kristofu yanına çağırdı və soruşdu:

– De görüm, Kristof, bu biədəb sözləri kimdən öyrənmisən?

Kristof barmağını ağzına saldı və cavab vermədi. Qonaq yenə soruşdu:

– Niyə utanırsan? "Alçaq" sözünü kimdən eşitmisən?

– Atamdan.

– Bəs "qəssab bıçağı" sözünü kimdən öyrənmisən?

– Anamdan.

Bu sözlərdən sonra xanım Robert özünü tam itirdi: "Alçağın biri! – deyə qışqırdı. – Məndən öyrənmisən? Gözlə, qonaqlar gedəndən sonra sənin ağzını cıraram! Bu tərbiyəsiz uşaq deyir ki, o sözləri anasından öyrənib! Sən nə vaxtsa mənim ağzımdan belə söz eşitmisən?!"

2-ci hekayə

Xloenin evində hər hansı bir iş istədiyi kimi getməyəndə o, dərhal ağlamaqla ürəyini boşaltmağa çalışardı. Yemək hazırlayarkən nəsə səhv etsəydi, əri ona irad bildirsəydi və ya qulluqçu cavab qaytarsaydı, dərhal divana uzanıb hönkür-hönkür ağlayardı.

Bir gün bacısı Xloenin yanına gəlib gördü ki, ağlamaqdan canında can qalmayıb.

– Bacı, nə olub? Allah eləməsin, nəsə bədbəxtlik baş verib?

– Məni rahat burax...

– Bəlkə, ərin xəstələnib?

– Xeyr.

– Uşaqlar yaxşıdır?

– Bəli.

– Ərinlə mübahisə etmisiniz?

– Yox.

– Bacı, de görüm nə olub? Bəlkə sənə kömək edə bilərəm.

– Mənə heç kim kömək edə bilməz.

– Bunu haradan bilirsən? Mən sənin bacınam, mənimlə açıq danış.

Xloen ah çəkərək dedi:

– Bu gün hər şey tərsinə gedir. Üç aydır ki tikdiyim paltar bu günə hazır olmalı idi. Amma bax, iki saat əvvəl necə idisə, indi də elə qalıb.

Bacısı gülümsəyərək dedi:

– Əgər bütün dərdin bundan ibarətdirsə, deməli, o qədər də böyük bir məsələ deyil. Niyə bitirə bilmədin?

– Tale adamdan üz döndərəndə hər şey üst-üstə gəlir. Ən məhsuldar işlədiyim vaxtda qırmızı ipim qurtardı. Qulluqçunu göndərdim ki, alsın. O da çox gec qayıtdı. Gələndə isə qırmızı əvəzinə mavi ip gətirdi...

Belə səhnələr Xloenin evində, demək olar ki, hər gün təkrarlanırdı. Belə vaxtlarda uşaqlar ağlayan analarının başına yığışır, onunla birlikdə ağlayırdılar. Beləcə onlar həyatın bütün çətinliklərinə yalnız göz yaşı ilə cavab verməyə öyrəşdilər.

Xloenin böyük oğlu indi zabitdir. Amma anasının nümunəsinin təsiri hələ də onun üzərində qalır. Məclisdə kimsə onu incitsə, dərhal gözləri dolur, kənara çəkilir, sakit bir guşə tapır və orada doyunca ağlayır.

3-cü hekayə

Orbit zarafatcıl adam idi. Ancaq zarafatlarının hamısı ədəbsiz və açıq-saçıq məzmun daşıyırdı. Yaddaşında ən azı üç

yüz biədəb lətifə vardı və məclislərdə onlarla adamları güldürərdi. Bu lətifələrin çoxu o qədər bayağı idi ki, adam onları danışmaq üçün mütləq dənizçi meyxanasında böyümək lazım olduğunu düşünərdi. Amma Orbit onları hər yerdə danışacaq qədər həyasız idi.

Qadınlara dediyi tərifl ərin hamısı ikibaşlı və qeyri-əxlaqi məzmunlu olurdu. Ən utancaq xanımın yanında oturanda belə süfrəyə gələn hər yemək haqqında elə sözlər pıçıldayardı ki, qadının üzü qıpqırmızı olardı.

Orbitin bu davranışı uşaqlarına da güclü təsir göstərdi. Oğlu hələ on altı yaşında ikən artıq özünün onlarla "sevgi macərası"nı danışa bilirdi. Qızları isə ikibaşlı zarafatlarda o qədər mahir olmuşdular ki, hətta bir poçt faytonçusu gəzinti zamanı onlardan yeni sözlər öyrəndiyini etiraf etmişdi.

4-cü hekayə

Usta Farauf hesab edirdi ki, mehriban və nəzakətli davranmaq qadınlara yaraşır, kişiyə isə tutqun sifət, kobudluq və kobud davranış daha münasibdir. O bu fikrə yalnız inanmaqla kifayətlənmir, həm də ona uyğun yaşayırdı. Səhərlər evdə gəzəndə elə gurultulu şəkildə donquldanardı ki, adam elə bilərdi evdə ayı gəzir. Qapıları onun çırpdığını bilməsəydin, bu səsin insandan gəldiyinə inanmazdın. Qızlarından biri təsadüfən ona toxunsa və ya ayağını bassa, yumruğu ilə böyrünə elə möhkəm vurardı ki, qız divara çırpılardı. Sonra da deyərdi: "Axmaq qız! Adam kimi yeriməyi bacarmırsan?"

Onun ailəsinə etdiyi bütün iradlar acı istehza və kinayə dolu suallardan ibarət idi. Hətta rəftarı elə acı və sərt idi ki, ev

adamları artıq buna öyrəşsələr də, kənardan eşidən hər kəsin ürəyini ağrıdırdı: "Ayaqqabılar niyə burada qalıb? Yəqin, onları elə burada da təmizləyəcəksən? Onları komodun üstünə qoymağı başqa vaxta saxlaya bilməzdin?", "Nə vaxt qurtaracaqsan? Yəqin, özünü hansısa zadəgan xanımı hesab edirsən ki, belə rahat-rahat tərpənirsən?", "Bu nə iyrənc yeməkdir? Mənim kimi bir ustanın qabağına belə zəhrimar qoymaq nə deməkdir?" Usta Farauf ailəsinə iradlarını həmişə bu cür tərzdə bildirərdi. Onun əmrləri də eyni dərəcədə kobud idi. Ailə üzvləri ilə danışığını eşidən adam elə bilərdi ki, gəmidə kapitan matroslarla danışır.

Bütün bunlara rəğmən, usta Farauf elə bir şadlıqla yaşayırdı ki, bütün uşaqları ona bənzəmişdi. Onlardan heç biri digərindən sakit və nəzakətli tərzdə nəsə istəməzdi. Marqareta Katerinanın əlindən bıçağı, iynəni, qayçını və ya istədiyi başqa bir şeyi zorla dartıb alardı. Katerina da onu bərk tutar, ayağını yerə döyər və qışqırardı. Onların oyunları iki dəqiqədən artıq çəkməzdi. Sonra pişiklər kimi bir-birlərinin üstünə atılar, fısıldayar, üz-gözlərini əyər, yumruqlarını göstərər və saç-saça tutuşardılar. Süfrə arxasında isə bir-birlərini ayaq və dirsəkləri ilə dürtərdilər. Üzlərindəki daimi qəzəb və eybəcər mimika sonradan onların evdə qalmasının əsas səbəbi oldu. Çünki onlara yaxınlaşan hər oğlan qorxub uzaqlaşırdı.

5-ci hekayə

Xanım Gertrud heç vaxt uşağını qucağından yerə qoymaz, uşaq qucağında saatlarla evin qabağında gəzər, uşaq qucağın-

da saatlarla stulda oturardı. Günün dörddə birini isə uşaq qucağında yataqda mürgüləməklə keçirərdi. Yataq otağından da uşağı qucağında çıxarardı və ağlına belə gəlməzdi ki, yatağı səliqəyə salsın və onun ifrazatlarını təmizləsin. Yemək üçün də süfrəyə uşaq qucağında oturar, sonra yenə həmin vəziyyətdə qalxardı və süfrə növbəti yemək vaxtınadək yığışdırılmazdı. Mətbəxə də, həyətə də uşaq qucağında gedərdi. Qaşıqların, bıçaqların üstünə basar, vedrə və çəlləklərə ilişib büdrəyərdi. Amma heç vaxt ağlına gəlməzdi ki, bunları yığışdırıb yerinə qoysun. Ev elə görünürdü ki, sanki səhərdən axşama qədər uşağı qucağından yerə qoymayan bir qadının evidir.

Əri tez-tez bu həyat tərzindən narazı qalır, evdə nizamsızlıq və natəmizlik gördüyünü deyərək buna son qoymasını istəyirdi. Lakin həmişə eyni cavabı alırdı: "Ay qanmaz kişi! Mən bütün günü uşağı qucağımdan yerə qoya bilmirəmsə, evə necə baxım?"

Gertrudun yeganə qızı Matilda böyüdü və evləndi. Evliliyinin ilk üç ayında artıq elə görünürdü ki, guya o da bütün günü uşağını qucağından yerə qoya bilmir. İndiyə qədər onun üzünün həqiqi rəngini görən olmamışdı. Çünki yanaqları və əlləri həmişə kir içində olardı. Paltar seçməkdə isə olduqca "məharətli" idi: paltarının rəngi üzünün rəngi ilə tam uyğun gəlirdi. Corabları deşik-deşik idi. Ayaqqabıları əyilib formasını itirmişdi. Onun otağının necə olduğunu deyə bilmərəm, çünki ərindən başqa ora girməyə cürət edən adam tapılmazdı. Çürümüş yeməklərin, çirkli paltarların və təbii ifrazatların qoxusu qapıya yaxınlaşan hər kəsi geri çəkilməyə məcbur edirdi.

6-cı hekayə

Xanım Hedviq isə tamamilə başqa cür idi. O, bütün günü yalnız ev-eşik yığışdırar, səliqə yaradar, silər və yuyardı. Evin təmizliyi hətta ayaqyoluna qədər uzanırdı. O, evinin, qab-qacaqlarının və paltarlarının təmizliyini o qədər sevirdi ki, özünü tamamilə unudurdu. Dırnaqlarını yalnız biri qırıldıqdan sonra onları kəsmək yadına düşərdi. Otağının döşəməsi onun boynu və sinəsindən daha təmiz görünürdü. Ayaqyolundan gələn qoxu isə ağzından gələn nəfəsdən daha çox dözüləsi idi.

Xanım Hedviqin qızı – Madmazel Hedviq də anasının canlı surəti idi. Onun evinin və geyiminin təmizliyinə valeh olmamaq mümkün deyildi. Ancaq özünə gəldikdə... Sanki özünü ikinci dərəcəli bir məsələ hesab edirdi.

II. Uşaqlarını özbaşına və qulluqçuların ixtiyarına burax!

1-ci hekayə

Cənab Ulpian hesab edirdi ki, yüksək təbəqədən olan bir adam, hər sahədə olduğu kimi, məşğuliyyət seçimində də sadə xalqdan fərqlənməlidir. Ona görə də bütün "aşağı səviyyəli" işləri başqalarına həvalə etmək lazımdır. Uşaq tərbiyəsini də belə işlərdən hesab etdiyinə görə onu tamamilə qırx yaşlı bir müəllimə və qulluqçulara tapşırmışdı. Buna görə də uşaqlarını daim özündən uzaq saxlayırdı. Hətta onların onunla eyni süfrədə yemək yemələrinə də icazə vermirdi. Onun gördüyü yeganə iş bəzən müəllimdən uşaqların davranışı barədə soruşmaq idi. Müəllim isə həmişə onları tərifləyiyi üçün cənab Ulpian tam rahat olurdu.

Evdə hamı bu qaydadan razı idi. Müəllim kefi istədiyi kimi yaşayır, çox vaxt gecə yarısından sonra evə qayıdırdı. Cənab Ulpian isə bunu heç hiss etmirdi. Qulluqçular və uşaqlar üçünsə hər gün bayram idi. Qulluqçular uşaqlara atalarından bu və ya digər əşyaları oğurlamağı öyrədirdilər. Əvəzində isə uşaqlara istədikləri hər şeyi etməyə və özlərinin təşkil etdiyi bütün əyləncələrdə iştirak etməyə icazə verirdilər.

Belə həyat uşaqların çox xoşuna gəlirdi. Hər gün ləziz yeməklər yeyirdilər. Kart oyununda heyrətamiz irəliləyiş göstərirdilər. Heç vaxt işləməyə məcbur edilmirdilər. Müxtəlif oyunlar, xüsusilə girov oyunları vasitəsilə qulluqçu otaqlarında baş alıb gedən bütün hiylələri, zarafatları və biclikləri öyrənirdilər.

Sonda ata gözlədiyi nəticəni ala bilmədi: qızı faytonçu ilə qaçdı, oğlanlar hərbçi oldular, lakin artıq dörd dəfə ordudan xaric edildilər. İki il idi ki, atalarının evində yaşayırdılar. Buna baxmayaraq, Ulpian vicdanının rahat olduğunu deyirdi: "Mən uşaqlarımın tərbiyəsində heç nəyi əsirgəməmişəm. Onlar üçün müəllim tutmuşdum, bir nəfər kişi, iki nəfər də qadın qulluqçu saxlayırdım. Məgər vicdanlı adamdan bundan artıq nə tələb etmək olar?"

2-ci hekayə

Pankratius hər səhər və axşam uşaqlarına nənələrinin dua kitabından dua oxudurdu, amma onlar dindar olmadılar. Onlara Müqəddəs Kitabı təqvim üzrə əvvəldən axıra qədər oxutdurdu, yenə də düzəlmədilər. Məzmurları, Sirax kitabını[62] və

[62] Sirax kitabı – təxminən eramızdan əvvəl II əsrin əvvəllərində Qüdsdə yaşamış yəhudi katibi Yeşu ben Sirax tərəfindən yazılmış qədim dini-fəlsəfi əxlaq və müdriklik kitabıdır.

Katexizmi əzbərlətdi, bunun da faydası olmadı. Onları məktəbə və kilsəyə göndərdi, yenə də tərbiyəsiz qaldılar. Özü hər gün dini məclislərdə iştirak edirdi. Amma uşaqlar yenə düzəlmirdilər. Görəsən, bunun səbəbi nə idi?

"UŞAQLARA MÜXTƏLİF MƏNFİ XÜSUSİYYƏTLƏR QAZANDIRMAĞIN DAHA BİR NEÇƏ ƏSAS YOLU" BÖLMƏSİNƏ ŞƏRH

Salzman bu bölmədə iki əsas məsələyə toxunur: 1) valideynin uşaqların qarşısında mənfi davranışlar göstərməsi; 2) valideynin uşaqları özbaşına və ya qulluqçuların ixtiyarına buraxması.

Sanki müəllif əvvəlki bölmələrdə ayrı-ayrılıqda izah etdiyi tərbiyədə yol verilən yanlışları ümumiləşdirərək onların ortaq kökünə diqqət çəkmək istəyir. O bir daha göstərir ki, uşaqların mənfi xüsusiyyətlər qazanmasının ən birinci səbəbi valideynlərin gündəlik davranışları və mövcud ailə mühitidir. Hekayələr bir-birindən fərqli olsa da, hamısını birləşdirən əsas fikir budur: uşaq eşitdiklərindən daha çox müşahidə etdiklərini öyrənir.

Kristofun pis sözlər danışmasını valideynləri küçənin təsiri ilə izah etməyə çalışsalar da, uşaq həmin sözləri məhz evdə eşitdiyini etiraf edir. Bu onu göstərir ki, valideynlər uşağın davranışının səbəbini xaricdə axtarır, öz nümunələrinin oynadığı rolu isə görməzdən gəlirlər. Unudurlar ki, uşağın ilk sosial mühiti ailədir və onun şəxsiyyətinin əsas konturları məhz burada formalaşır.

Gertrud və Hedviq haqqında hekayələr maraqlı bir pedaqoji prinsipi ortaya qoyur: tərbiyədə ifrat da, təfrit də təhlükəlidir. Hekayədə birinci ana uşağa o qədər vaxt ayırır ki, özünü və ailəni tamamilə unudur. İkinci ana isə əksinə, ev işlərinə o qədər aludə olur ki, şəxsi gigiyenasına belə diqqət ayırmır. Salzman bununla göstərir ki, tərbiyədə tarazlıq əsas şərtdir. Nə həddindən artıq laqeydlik, nə də həddən ziyadə həssaslıq sağlam nəticə verir.

Valideyn övladının müəyyən işlərini başqasına (baxıcı, müəllim, tərbiyəçi və s.) həvalə edə bilər. Amma övladının bütün ixtiyarını əldən verməməlidir, öz nəzarətini daimi saxlamalıdır. Hekayədəki cənab Ulpian kimi, müəllim və qulluqçu tutmağın valideynlik borcunu yerinə yetirmək üçün kifayət olduğunu düşünmək, təbii ki, kökündən yanlışdır. Müəllim bilik verə, dayə qulluq göstərə bilər. Ancaq ana-ata sevgisini heç biri əvəz edə bilməz.

XXXVI BÖLMƏ
UŞAQLARI SAĞLAMLIQDAN VƏ HƏYATDAN MƏHRUM ETMƏYİN ÜMUMİ YOLLARI

I. Uşaqlara qayğı göstərməkdə həddi aşın!

Bir mehriban ana belə düşünürdü ki, uşağı üçün istidən daha faydalı heç nə yoxdur. "İsti yaxşıdırsa, deməli, nə qədər çox olsa, bir o qədər yaxşıdır", – deyə fikirləşirdi. Buna görə də otağı o qədər qızdırardı ki, çöldəki təmiz havadan içəri girən hər kəs evdə az qala boğulardı. Evi qızdırmaq, adətən, sentyabrın ortalarında başlayar, iyunun əvvəlinə qədər davam edərdi.

Uşaq həmin isti otaqda yatızdırılırdı. Bəzən yanına isti su ilə doldurulmuş şüşə də qoyular, üstü yorğan-döşəklə elə bərk örtülərdi ki, qucağa götürüləndə görərdin, bədəni tər içindədir. Ana bunu görəndə sevincək deyərdi: "Uşaq, görünür, çox yaxşı inkişaf edir. Baxın, necə gözəl tərləyir!" Lakin uşaq gündən-günə zəifləyir, üzünün rəngi limon kimi saralır, qolları taqətsizlikdən sallanır, başı da daim bir tərəfə əyilirdi.

Bir gün qulluqçu uşağı ehtiyatsızlıqdan külək tutan yerə çıxardıqda uşaq ağır soyuqdəyməyə tutuldu və öldü. O, otaqda yetişdirilmiş bir bitki kimi idi: azad havaya çıxan kimi soldu.

Haqqında danışdığımız ananın bacısı isə fikirləşdi: "Mən belə səhvə yol verməyəcəyəm. Mənim uşaqlarım soyuğa erkəndən alışmalıdır". Buna görə də oğlunu ən şaxtalı havalarda bayıra çıxarır, bəzən buz kimi soyuq suda çimizdirirdi.

Amma bununla yanaşı otaqları bacısı kimi həddindən artıq qızdırırdı. Beləliklə, balaca Frisin vəziyyəti xalası uşağından heç də yaxşı olmadı. Onun bədəni tez-tez başdan ayağa qədər tərlə islanırdı. Belə vəziyyətdə ən kiçik soyuqlama belə onun üçün təhlükəli idi.

Bir gün anası Frisin tərlə islanmış köynəyini çıxardıqdan dərhal sonra onu buz kimi soyuq su dolu çəlləyə saldı. Uşaq gözlərini çevirdi, son dəfə başını aşağı əydi və əbədiyyətə köçdü.

II. Uşaqlarınızı təmiz havadan məhrum edin!

1-ci hekayə

Bir qadın onu ziyarət edən din xadiminə dedi:

– Möhtərəm ata! Allah mənə çox ağır bir sınaq göndərib. Baxın bu üç yazıq uşağa! Heç birinin nə canı var, nə də qanı. Elə bil heykəldirlər. Birinin gözləri açılmır, o birinin ayaqları şişib, üçüncüsünün isə qulaqları ağrıyır. O qədər qışqırır ki, səsi dörd ev o tərəfdən eşidilir.

Din xadimi cavab verdi:

– Əziz xanım, bu, Allahın göndərdiyi sınaq deyil. Siz bunu öz əlinizlə yaratmısınız. Uşaq otağında nə üçün paltar yuyulan ləyən var? Məgər görmürsünüz ki, bütün otaq rütubət içindədir? Divarlara baxın, necə islanıb. Pəncərələrdən su damlayır. Məgər başa düşmürsünüz ki, bununla uşaqlarınızın sağlamlığını məhv edirsiniz? Mən burada heç on beş dəqiqə olmamışam, artıq başım ağrıyır. Məni səkkiz gün bu otaqda saxlasaydılar, elə bilərdim ki, öləcəyəm.

Bəs bu çarpayılar nə üçündür? Doğrudanmı uşaqlarınız burada yatır? Allaha böhtan atmayın və uşaqlarınızı bədbəxt etdiyini düşünüb Onu günahlandırmayın. Uşaqlarınızın qatili sizsiniz. Çünki Allahın bütün canlılara bəxş etdiyi təmiz havanı onların udmağına imkan vermirsiniz. Onları paltar yuyulan ləyənin buxarı və otaqda quruyan yaş paltarların qoxusu ilə zəhərləyirsiniz.

Əgər paltar yumaq istəyirsinizsə, bunu həyətdə və ya mətbəxdə edin. Onları həyətdə və ya çardaqda qurudun. Yaxud uşaqları başqa otaqda yatızdırın. Hər gün pəncərələri açın ki, otaq bir neçə saat təmiz hava ilə dolsun. Əminəm ki, onda uşaqlarınız sağlam olacaq. Allah amanında! Mən daha bu paltaryuma otağında bir dəqiqə də qala bilmərəm.

2-ci hekayə

Elə həmin din xadimi bir gün başqa bir qadına rast gəldi. Qadın cəlladın[63] yanına gedirdi. Deyirdi ki, pis niyyətli adamlar balaca qızına sehr ediblər, ona görə də uşaq inkişaf etmir. Artıq uşağı bir neçə dəfə yol ayrıcında qoymuş, müxtəlif cadu mərasimləri etmişdi. Amma heç bir faydası olmamışdı. Din xadimi buna çox təəccübləndi. Sonra dedi: "Hələlik cəlladın yanına getməyin. Əvvəl mən uşağa baxım. Əgər, doğrudan da, buna pis adamlar səbəb olubsa, bunu sizə mütləq deyəcəyəm.

[63] Cəllad – XVIII əsr Almaniyasında ölüm hökmlərini icra etməklə yanaşı, xalq arasında bəzi xəstəliklərin müalicəsi ilə də məşğul olan şəxs.

Qadın onu evinə apardı. Din xadimi otağa daxil olmaq istəyəndə qarşısına elə ağır, kifli və üfunətli bir qoxu çıxdı ki, az qaldı boğulsun. Narazılığını gizlətdi və uşağın yanına gəldi. Uşaq, həqiqətən də, çox solğun görünürdü. Amma ciddi xəstəlik əlaməti yox idi. Din xadimi soruşdu:

– Uşağı sonuncu dəfə bayıra çıxaranda hansı küçədən keçmişdiniz?

Qadın cavab verdi:

– Yadıma gəlmir. Onsuz da, təxminən üç aydır ki, heç çölə çıxarmamışıq.

– Pəncərələri sonuncu dəfə nə vaxt açmısınız?

– Yəqin ki, bir il olar.

Din xadimi dedi:

– Mən artıq hər şeyi başa düşdüm. Bilirsinizmi, uşağınıza pislik edən o "pis qadın" kimdir?

Qadın maraq içində soruşdu:

– Kimdir?

– Siz özünüz!

Qadın hirsləndi:

– Yox bir! Mən elə bildim, siz zarafat edirsiniz. Bunu mənə başqa adam deməydi, onun cavabını verərdim. Neçə ildir, burada yaşayıram. Heç bir qonşu mənim haqqımda bir dəfə pis söz deməyib.

Din xadimi sakitcə cavab verdi:

– Yenə deyirəm, uşağınızı xəstə edən sizsiniz, başqa heç kim.

– Başqa otağınız yoxdur?

– Var, yuxarı mərtəbədə. Amma orada ərzaqlarımız saxlanılır. Burada saxlamaq olmur, hər şey kif tutur.

– Sizə hansı daha qiymətlidir? Ərzaqlarınız, yoxsa uşağınız?

– Əlbəttə ki, uşağım.

– Elə isə uşağı yuxarı otağa köçürün. Bu otaq çox alçaqda yerləşir. Üstəlik, günəş də düşməyən dar küçəyə baxır. Burada daim rütubət var. Bu rütubət uşağınıza ərzaqlarınıza zərər verdiyi qədər zərərlidir. Hər gün pəncərələri açın. Qoy otağa təmiz hava daxil olsun. Bu otağın havası bir il ərzində yediyiniz noxudun, kündənin, ayran şorbasının qoxusu ilə dolub. Sizin, ərinizin və uşağınızın bütün nəfəsi də həmin havaya qarışıb. Bunların hamısı çürüyüb. Uşağınıza peyin gölməçəsinin suyunu içirərsinizmi?

– Əsla!

– Elə isə, peyindən də pis qoxu verən bu havanı niyə ona uddurursunuz? Pis qoxulu hava insan üçün pis qoxulu su qədər zərərlidir. Əziz qadın! Mənə qulaq asın. Uşağı başqa otağa aparın. Həmin otağın pəncərələrini hər gün açın. Onu tədricən yenidən təmiz havaya alışdırın. İnanıram ki, vəziyyəti tezliklə yaxşılaşacaq. Əgər dörd həftədən sonra yaxşılaşmasa, yenə yanıma gəlin. Cəlladın yanına getməzdən əvvəl sizi bacarıqlı bir həkimin yanına göndərəcəyəm. O sizə mütləq düzgün məsləhət verəcək.

Mənə deyildiyinə görə, ana bu yaxşı məsləhətlərə əməl edən kimi uşağın vəziyyəti gündən-günə yaxşılaşmağa başlamışdır.

III. Uşaqları yumşaq və ləziz yeməklərə öyrəşdirin!

Əgər övladlarını həqiqətən ürəkdən sevən bir ata olubsa, o, şübhəsiz ki, cənab Vayxlix idi. Uşaqları onun ən böyük sərvəti idi. Bir gün övladlarından birinin ölə biləcəyi ağlına gələndə kədərə qərq olardı. Buna görə də onların yediyi hər şeyi son dərəcə diqqətlə seçirdi. Eşitmişdi ki, bəzi qida və içkilər uşaqlar üçün zərərlidir. Ona görə də əlində əlacı olsa, onlara heç nə yetirtməzdi, təkcə acından ölə biləcəklərindən qorxduğu üçün buna cəsarət etmirdi.

Cənab Vayxlix belə deyərdi: "Südü uşaqlara vermək olmaz. Süd selik əmələ gətirir. Səhərlər iki balaca fincan qəhvə ən sağlam içkidir. Həzmi yaxşılaşdırır, tərləməni artırır. Meyvə çox təhlükəlidir. Meyvə yeyib dizenteriyadan ölən uşaqlar haqqında nümunələr var. Mari! Bax ha, uşaqlara meyvə verməyə cürət etmə! Mənim evimdə belə şey ola bilməz. Kərə yağı yaxılmış çörək də təhlükəlidir. Kərə yağı mədəni korlaya bilər. Quru çörək uşağın qarnını şişirdər və qurd əmələ gətirər. Uşaqlar üçün ən yaxşı səhər yeməyi badamlı peçenye və ya badam halqalarıdır. Badam çox enerjilidir, ədviyyatlar isə mədəni isidir. Dəyişiklik üçün bəzən yağda bişmiş şirniyyat da yeyə bilərlər. Onun heç bir zərəri yoxdur, çünki yağ artıq bişirilmiş olur. Uşaqlara tərəvəz vermək qəti olmaz! O, köp yaradır və mədəni sıxır. Bunu kənd uşaqları yeyə bilər, onların mədəsi buna öyrəşib. Amma şəhər uşaqları tamam başqadır. Uşaqlar üçün ən münasib yemək yaxşı ədviyyat vurulmuş şorba, bir parça quzu və ya dana əti, göyərçin və ya toyuq əti, üstəlik qüvvətli bulyondur. Su mədəni zəiflədir. Amma şərab

və pivə qüvvət verir. Yalnız bir şərtlə ki, içkini əvvəl sobanın yanında və ya günəş altında bir az ilıq edəsən. Çünki soyuq içki öskürək yaradır və mədəni soyudur. Buna görə də uşaqlara hər yeməkdən sonra bir neçə fincan çay vermək yaxşıdır".

Cənab Vayxlix həmişə belə danışırdı. Uşaqlarını da məhz bu qaydalarla böyütdü. Amma bundan çox az fayda gördü. Uşaqlar inkişaf etmirdi. On iki yaşlarında olsalar da, boyları səkkiz yaşlı uşaqlarınkı qədər idi. Üzləri həmişə solğun görünürdü. Əlləri-qolları nazik idi. Qonşu uşaqlarının həyətdə qaçıb oynadıqlarını seyr edərdilər. Çox nadir hallarda onlara qoşulmaq istəyərdilər. Bəzən qoşulsalar belə, cəmi on beş dəqiqə dözərdilər. Sonra uzun səfərdən qayıtmış adam kimi taqətdən düşüb divanın üstünə sərilərdilər. Onlardan biri cavan yaşında öldü. Digəri isə hələ yaşayır...

IV. Uşağınıza mümkün olduğu qədər çox dərman verin!

Filipp xanım Damonun vəfat etmiş həyat yoldaşından qalan yeganə övladı idi. Ona görə də atası onu öz canı qədər sevirdi. Ən böyük arzusu bu övladını sağ-salamat böyütmək idi. Qardaşı isə görürdü ki, onun bütün xoşbəxtliyi bu uşağın yaşamasından asılıdır. Ona görə də belə məsləhət verdi: "Uşağı sadə yeməklərə alışdır. Əl-ayaqlarını soyuq su ilə möhkəmləndir. Yaşadığı və yatdığı otaqda həmişə təmiz hava olsun. Onu erkən yaşlarından işləməyə öyrət. Hər gün hərəkətli oyunlar oynamasına icazə ver. Dərmanı isə yalnız lap zəruri olduqda ver". Sonra əlavə etdi: "Bacı, bunlar uşağa möhkəm və sağlam bədən qazandırmağın ən etibarlı yollarıdır. Əgər bunlar kömək etməsə, başqa üsulların də heç bir faydası olmaz".

Lakin xanım Damon bu məsləhətləri çox sadə hesab etdi. Hətta bir anlıq ağlına belə gəldi ki, bəlkə qardaşı onun vardövlətinə sahib olmaq üçün uşağın ölməsini arzulayır. Vicdanını sakitləşdirmək üçün həkimə müraciət etdi. Filipp tam sağlam idi. Ceyran balası kimi zirək idi. Amma qadın düşünürdü ki, sağlam ikən onun sağlamlığının qayğısına qalmaq daha yaxşıdır.

Qonşuluqda bacarıqlı bir həkim yaşayırdı, əvvəlcə onu çağırdı. Həkim gəldi, Filippin nəbzini yoxladı, gülümsədi və dedi: "Uşağınız tam sağlamdır". Əgər ona bir damcı belə dərman versəm, ziyan vermiş olaram". Qadın etiraz etdi: "Amma uşağın burnu axır. Baxın, bədənində səpkilər də var". Həkim cavab verdi: "Bunlara fikir verməyin. Bunlar insan təbiətinin xaric etdiyi maddələrdir və sağlamlıq üçün faydalıdır. Dərmanla təbiətin işinə mane olmaq qəddarlıq olar". Qadın ürəyində düşündü: "Sən heç həkim deyilsən".

Sonra başqa bir həkimin yanına getdi. Bu həkim isə müəllifin istehza ilə təsvir etdiyi adamlardan idi: onlar özlərinə insanların malı, sağlamlığı və həyatı üzərində məhdudiyyətsiz hakimiyyət qurmağa çalışan adamlardır. Zalımlar kimi insanlara ən zərərsiz şeyləri belə qadağan edirlər. Sadə sağlamlıq qaydalarına nifrət, süni vasitələrə isə məhəbbət aşılamağa çalışırlar. Sağlam adamı xəstələndirirlər ki, sonra onu müalicə edə bilsinlər. Xəstənin xəstəliyini daha da ağırlaşdırırlar ki, müalicə daha uzun çəksin. Onlar sənətlərini insanlara kömək etmək üçün deyil, xəstələrdən hər il müəyyən gəlir əldə etmək üçün icra edirlər.

Xanım Damon məhz bu həkimin – doktor Digestivusun yanına getdi. Həkim ertəsi gün gələcəyinə söz verdi, doğrudan da gəldi. Filippin nəbzini yoxladı, iştahasını soruşdu, yuxusundan xəbər aldı. Qadın dedi ki, uşaq ötən gecə bir-iki dəfə yataqda çevrilib. Həkim bunu eşidən kimi başını buladı, üzünə ciddi ifadə verdi. Xanım Damon qorxu içində qışqırdı:

– Aman Allah! Nə olub? Doktor, danışın!

Həkim dedi:

– Vəziyyət bir qədər ciddidir.

– Nə baş verib?

– Uşağın bütün təbii tarazlığı pozulub. Amma Allahın köməyilə onu yenidən bərpa edəcəyimə ümid edirəm.

Qadın yalvararaq dedi:

– Nə olar, onu xilas edin! Yüz taler də xərc çıxsa, məmnuniyyətlə ödəyərəm.

Doktor cavab verdi:

– Ən sağlam görünən uşaqlar, adətən, ən təhlükəli vəziyyətdə olurlar. Qırmızı yanaqlı almaların içi çox vaxt qurdlu olur. Mənə zəif görünən uşaq daha çox xoş gəlir.

Sonra ciddi şəkildə soruşdu:

– Uşağa sonuncu dəfə nə vaxt mədə işlədici vermisiniz?

– Yadıma gəlmir ki, son bir ildə ona dərman verək. Mərhum ərim həmişə deyərdi ki, uşaq sağlam olduğu müddətdə ona dərman vermək olmaz.

– Bəli, mərhum əriniz, ola bilər, hesab-kitabı yaxşı bacarırmış, amma təbabət işinə qarışmamalı idi. Bir düşünün, uşaq bir il ərzində nə qədər yeyir! Bütün bunlar əksər hallarda seliyə çevrilir. Hətta yeməklərin çoxunda zərərli turşuluq vardır.

Əgər bunlar bədəndən xaric edilməsə, belə dəhşətli xəstəliklərin yaranması qaçılmazdır. Bir müddət heç nə hiss olunmur. Amma sonra qəfildən üzə çıxır. Onda xərçənglər, boğulmalar, ifliclər meydana gəlir. Bıçaq artıq boğaza dirənəndən sonra camaat bizə qaçıb gəlir, istəyirlər ki, dərhal kömək edək. Lakin əksər hallarda artıq gec olur.

Baxın, elə keçən həftə dəfn etdiyiniz Fridrixin uşağı buna canlı nümunədir. Onlar da heç bir dərman qəbul etmək istəmirdilər. İndi də bəlasını çəkirlər. Mənim yanıma vaxtında gəlib məsləhətimə əməl edən heç bir xəstə ölməz.

– Ah, məmnuniyyətlə! Məmnuniyyətlə dediklərinizə əməl edərəm. Bircə deyin, uşağa necə kömək etmək olar?

– Buyurun, əziz xanım! Uşaq mürəkkəb bir xəstəliyə tutulub. Biz həkimlər buna "qarışıq xəstəlik" deyirik. Bu xəstəliyi kökündən sağaltmaq üçün vaxt lazımdır. Burnundan gələn axıntı bədənin seliklə dolduğunu açıq-aşkar göstərir. Əvvəlcə həmin seliyi bədəndən çıxarmalıyıq. Bunun üçün işlədici dərman verməliyik. Ancaq sinəni də qorumaq lazımdır, yoxsa boğulma bütün müalicəmizi puç edə bilər.

Bir dəfə də uşağın mənim işlədici dərmanımı qəbul etdikdən sonrakı nəcisini müşahidə edin. Onda möcüzələr görəcəksiniz. Bunun öhdəsindən gələndən sonra... baxın, bu səpgini görürsünüzmü?

– Bəli.

– Bax, bu da mənə hələ xeyli zəhmət verəcək. Bütün bədən mayeləri pozulub. Bir neçə ay ərzində yalnız yüngülləşdirici müalicə tətbiq edə bilərik. Amma yaz gələndə işə ciddi başlayacağıq. Onda müxtəlif ot şirələri istifadə edəcəyik. Başqa bir

şey görmək istəyirsinizsə, sidiyə baxın! Görün orada nə qəribə mənzərə var!

– Mən heç nə görmürəm.

– Əlbəttə, görmürsünüz. O halqanın nə demək olduğunu bilsəydiniz, dəhşətə gələrdiniz. Bu, qurdların əlamətidir. Əgər uşağın qarnının içinə baxa bilsəydiniz, qorxudan donub qalardınız. Orada qurd üstündə qurd var. Həm də adi xırda qurdlar yox, iri bağırsaq qurdları. Vallah, səkkiz gün ərzində onlardan bir neçə yüzünü bədəndən çıxaracağıma söz verirəm. Amma hələ bunun vaxtı deyil. Əvvəlcə başqa bir bəlanın öhdəsindən gəlməliyik.

Beləcə, xanım Damon öyrənmək istədiyi hər şeyi öyrəndi. O, sevimli oğlu Filippi tamamilə cənab doktor Digestivusun ixtiyarına verdi. Həkim elə ertəsi gün müalicəyə başladı. Bu elə dəhşətli müalicə idi ki, onu göz yaşı tökmədən təsvir etmək mümkün deyil. Meyvələr, tərəvəzlər və uşaqların xoşladığı, həm də onları inkişaf etdirən nə vardısa, hamısı yazıq Filippə qəti qadağan edildi. Əgər o, iki-üç albalı yemək istəsəydi, əvvəlcə doktor Digestivusdan icazə almalı idi. Bunun əvəzində isə ona saysız-hesabsız işlədici həblər, müxtəlif qarışıqlar, bitki çayları və toz dərmanlar verilirdi. Üzünün alqırmızılığı soldu, sümüklərinin iliyi çəkildi, yeməyə olan həvəsi tamamilə yox oldu.

Ana bu zalımın qarşısında boş yerə ağlayırdı. "Elə də olmalıdır, – deyirdi həkim. – Biz əvvəlcə bütün bu zərərli maddələri bədəndən çıxarmalıyıq, yalnız bundan sonra bədəni möhkəmləndirməyə başlaya bilərik".

Beləcə, müalicə üç il davam etdi. Nəhayət, mərhəmətli Allah Filippin göz yaşlarına rəhm etdi və ona xoş bir ölüm bəxş edərək onu bu barbar zülümkarın caynağından xilas etdi.

V. Xəstə və zəif adamların öz xəstəliklərini uşaqlara yoluxdurmasına şərait yaradın!

1-ci hekayə

Kolhardın Liesçeni dəcəl bir qız idi. İnsanı günahlardan arındıran keşiş bunu ona dəfələrlə ciddi şəkildə qadağan etsə də, o, həmişə gənc kişilərin ardınca düşürdü. Nəhayət, bir zabitin şirin sözlərinə aldanmışdı. Həmin zabitin vədləri Liesçenə o qədər təsir etmişdi ki, o, namuslu bir qızın əsla etməməli olduğu şeylərə razılıq verdi. Bunun nəticəsində zabitdən bir uşaq dünyaya gətirdi və bununla da kifayətlənməyərək, zöhrəvi[64] xəstəliyə yoluxdu.

Liesçen həm uşağını dolandırmaq, həm də xəstəliyini müalicə etdirmək üçün pula möhtac idi. Buna görə də onu bu vəziyyətə salmış zabitin yanına gedərək kömək istədi. Lakin zabit çiyinlərini çəkib dedi ki, bütün pulunu öz müalicəsinə xərcləmək məcburiyyətindədir. Bunu eşidən Liesçen hönkür-hönkür ağladı. Onun naləsini eşitsə, daş belə yumşalardı. "Əgər məni xilas etməsəniz, özümə qəsd edəcəyəm", – deyə ümidsizlik içində söylədi. Zabit isə soyuqqanlılıqla cavab verdi: "İstədiyini et, Liesçen. Mən sənə kömək edə bilmərəm". Liesçen ümidsiz halda qapını çırpıb pilləkənlə aşağı düşdü.

[64] Zöhrəvi xəstəlik – əsasən cinsi yolla keçən, yoluxucu xəstəliklərə deyilir.

Baxmayaraq ki, zabit belə hadisələrə adətən əhəmiyyət vermir, bir qızın sağlamlığını və namusunu məhv etməyi sadəcə kiçik bir eşq macərası hesab edirdi, bu dəfə nədənsə onda mərhəmət hissi oyandı və öz fikrincə, çox ağıllı bir çıxış yolu tapdı. Tələsik Liesçenin arxasınca qaçıb onu geri çağırdı.

– İndicə ağlıma əla bir fikir gəldi. Niyə süd analığı etmirsən? Bu yolla qısa zamanda kifayət qədər pul qazanarsan və sonra da özünü müalicə etdirərsən.

Liesçen çarəsizliklə dedi:

– Bəs mənim yazıq körpəm necə olacaq?

– Onu anana buraxarsan.

– Anama? O özü də kasıbdır. Evlərində çörək tapılmır. Uşağı ona versəm, dörd həftə keçmədən ölər.

Zabit etinasız şəkildə cavab verdi:

– Qoy ölsün!

– Mənim uşağım?

– Ay qız, nə boş-boş danışırsan! İndi söhbət sənin pul qazanmağından gedir. Pul elə də asan qazanılmır. Uşaq isə, nə vaxt istəsən, doğarsan.

Bu sözləri eşidəndə Liesçenin bütün bədəni buz kimi soyudu. Zabitin məsləhətini keşişdən öyrəndiyi əxlaqla heç cür uzlaşdıra bilmirdi. Ancaq ehtiyac insanı hər şeyə məcbur edir. Buna görə də ilk tapdığı süd analığı işini qəbul etmək qərarına gəldi.

Elə həmin günlərdə xanım Funkental bir qız uşağı dünyaya gətirmişdi. Südü olmadığından körpəsini əmizdirə bilmirdi və buna görə süd anası axtarırdı. Liesçen bunu eşidən kimi özünü onlara yetirdi və dərhal işə qəbul olundu.

Ertəsi gün Liesçen onların evinə köçdü. Xanım Funkental böyük bir ana məhəbbəti ilə körpəsini xəstə Liesçenin qucağına verərək dəfələrlə tapşırdı ki, uşağa yaxşı baxsın. Bununla da kifayətlənmədi, o, daim süd anasının və körpənin yanında olur, uşağın qayğısı üçün mümkün olan hər şeyi edirdi.

Hər şey yaxşı gedirdi. Yeganə narahatlıq körpənin dodaqlarında və burnunda əmələ gələn səpgilər idi. Səpgilər nə qədər iyrənc görünsə də, ana sevgisi iyrəncliyə qalib gəlirdi. Mərhəmətli ana hər gün azı üç dəfə körpəni Liesçenin qucağından alır, onunla oynayır, öpür və balaca qızının dodaqlarını öz dodaqlarına toxundururdu. Məhz bu nəvaziş və qayğıların təsiri ilə xanım Funkental doğuşdan sonra zəifləyən bədənini tədricən bərpa etdi və səhhəti qaydasına düşdü –boynundakı vəzilərin bir qədər şişməsindən başqa. Bunu doğuşdan sonrakı dövrün adi nəticəsi hesab edir və çox da əhəmiyyət vermirdi.

Cənab fon Funkental isə sevimli həyat yoldaşı Luizanı yenidən qucaqlaya bildiyinə görə çox sevinirdi. O, xanımını həyat yoldaşını ürəkdən sevən bir kişinin göstərə biləcəyi bütün məhəbbətlə bağrına basırdı. Beləcə, bir neçə həftə şirin, səadət dolu günlər içində ötüb keçdi. Əgər xanımın boynundakı vəzilərin şişi getdikcə böyüməsə və cənabın burnunun altında səpgilər əmələ gəlməsəydi, bu səadət daha uzun sürərdi.

Müalicə üçün hər ikisi bir neçə dəfə ravənd[65] qəbul etdi. Lakin xəstəlikləri daha da şiddətləndi deyə doktor Qutman-

[65] Ravənd – qırxbuğumkimilər fəsiləsinə aid, turşməzə dadlı gövdəsi yeyilən və kökündən dərman hazırlanan faydalı bitki cinsidir.

dan məsləhət almağa qərar verdilər. Doktor onlara qanı təmizləmək və durultmaq üçün müxtəlif dərmanlar verdi. Ancaq bunların da heç biri fayda vermədi. Nəhayət, doktor vəziyyətin ciddi olduğunu hiss etdi və növbəti müayinə zamanı açıq şəkildə dedi: "Möhtərəm cənab və möhtərəm xanım, məni bağışlayın, amma məncə, siz zöhrəvi xəstəliyə tutulmusunuz".

Bu sözlər hər ikisini qəzəbləndirdi və həkimə etiraz etdilər. Lakin doktor öz fikrindən dönmədi. Əgər ona inanmaq istəmirlərsə, başqa bir həkimə müraciət edə biləcəklərini söylədi və ertəsi gün yenidən gələcəyini deyib getmək üçün icazə aldı. Elə qapıdan çıxmaq istəyirdi ki, Liesçen qucağında körpə qızla içəri girdi. Körpənin dodaqları və burnundakı yaralı səpgilər həkimin diqqətini dərhal çəkdi. O, Liesçenə bir neçə üstüörtülü sual verdi. Liesçenin rəngi ağardı və günahkar olduğunu açıq şəkildə hiss etdirdi. Həkim daha ciddi sorğu-suala başlayanda isə o hər şeyi etiraf etdi.

Liesçen dərhal işindən azad edildi. Ancaq onun xatirəsi Funkentallar ailəsində uzun müddət silinmədi. Valideynlər çox ağır və ağrılı bir müalicə keçirməli oldular. Balaca qız da tədricən sağaldı. Lakin böyüyüb inkişaf etməli olduğu aylarda süd vasitəsilə bədəninə zəhər keçdiyindən və həmin zəhər uzunmüddətli müalicə ilə təmizlənməli olduğundan, o, ömrü boyu zəif və sağlamlıq baxımından kövrək bir insan olaraq qaldı.

Bu hadisədən sonra xanım fon Funkental dayələrə qarşı elə şiddətli nifrət hissi keçirməyə başladı ki, növbəti dəfə doğuşdan sonra yenə uşağını özü əmizdirə bilməyəndə bir keçi aldı

və körpəsini onun südü ilə böyütdü. Bacısı buna görə onu qınasa da, o belə cavab verirdi: "Bu məsələdə mənə heç kim göstəriş verə bilməz. İndiki dövrdə uşağı dayəyə verməkdənsə, keçi südü ilə böyütmək daha təhlükəsizdir".

2-ci hekayə

Madam Flander, özünün dediyinə görə, uşaq baxıcısı olmaqdan daha yüksək bir iş üçün yaradıldığına inanırdı. Buna görə də balaca Yuliusu dünyaya gətirən kimi, əri icazə versəydi, onu dərhal öz südündən məhrum edib bir dayəyə verməyə razı idi. O öz fikrincə, kifayət qədər fədakarlıq göstərərək hər gün uşağını əmizdirirdi. Lakin onun digər qayğılarının hamısını vaxtilə öz dayəsi olmuş qoca Sabinaya həvalə etmişdi.

Qoca Sabina çox mehriban qadın idi. Ancaq yaşı ötmüşdü, xeyli taqətdən düşmüşdü, podaqra[66] xəstəliyindən və bel ağrılarından əziyyət çəkirdi. Bununla belə, balaca Yulius üçün əlindən gələni edirdi. Hər gün uşağı dörd dəfə elə bir qayğıkeşliklə yedizdirirdi ki, uşağa verəcəyi yeməyi əvvəlcə özü ağzına alır, bir neçə dəfə çeynəyib öz tüpürcəyi ilə qarışdırır, sonra isə çox vaxt güclü ağrılar içində uşağın ağzına qoyurdu. Bundan artıq nə edə bilərdi ki?

Amma bu "qayğıkeşlik" qoca Sabinanın gözlədiyi nəticəni vermədi. Balaca Yulius kökəlmirdi, əksinə rəngi solur, əlləri və ayaqları göyərirdi. Sabina onun bədənini müxtəlif üsullarla ovuşdurur, öz bildiyi kimi müalicə edirdi. Madam Flander isə

[66] Podaqra – qanda sidik turşusunun çoxalması və oynaqlarda duz kristalları yığılması ilə yaranan kəskin ağrılı bir xəstəlikdir. Bu xəstəlik oynaqlarda şiddətli ağrı, şişkinlik və qızartı əmələ gətirir.

günahı öz südünün keyfiyyətində görərək uşağı süddən kəsdi. Lakin bunun da heç bir faydası olmadı. Balaca Yulius iki yaşına çatanda qoca bir kişiyə bənzəyirdi.

Madam Flander ağlamağa, şikayətlənməyə başladı, ərini günahlandırdı və dedi: "Bax, uşağı özümün əmizdirməyimin nəticəsi budur! Bu dəfə özüm əmizdirdim, amma ikinci dəfə belə etməyəcəyəm". Qoca Sabina da onunla birlikdə ağlayaraq deyirdi: "Ah, mənim əziz Yuliusum! Mən səni gözüm kimi sevirdim! Allah şahiddir ki, ağrılarımdan nə edəcəyimi bilmədiyim vaxtlarda belə, yeməyi öz ağzımda çeynəyib sənə vermişəm. Mən səndən heç nəyi əsirgəməmişəm! Ah! Ah!"

"UŞAQLARI SAĞLAMLIQDAN VƏ HƏYATDAN MƏHRUM ETMƏYİN ÜMUMİ YOLLARI" BÖLMƏSİNƏ ŞƏRH

Bu bölmədə Salzman uşaqların tərbiyə və inkişafında bioloji yönə toxunur. Onun hekayələrindən bu nəticəni çıxarmaq olur ki, uşağın düzgün inkişafında bioloji sağlamlıq son dərəcədə əhəmiyyətli yer tutur.

Bu günün cəmiyyətlərinə baxsaq, görərik ki, Salzmanın XVIII əsrdə qeyd etdiyi problem bu gün də davam etməkdədir. Uşaq dünyaya gəldiyi gündən onun boya-başa çatmasına qədərki müddətdə valideynlərin bir qismi onun psixoloji və sosial həyatına dəstək olurlar, amma uşağın bioloji cəhətdən sağlam olmasına diqqət ayıran valideynlər yox dərəcəsindədir. Əksər ata-anaların övladının bioloji sağlamlığına göstərdiyi təşəbbüs bundan ibarətdir: yalnız uşaqda xəstəlik və ya

hər hansısa bir narahatlıq gördükdə onu həkimə aparırlar. Onda da süni müalicə vasitəsi olan və insana ziyanı xeyirindən çox olan dərmanlar alırlar. Halbuki insanın sağlam şəxsiyyətə sahib olması üçün onun psixoloji sağlamlığı, yaxşı sosial mühiti zəruri olduğu kimi, bioloji sağlamlığı da vacibdir. Atalar sözündə deyilən "Sağlam bədəndə sağlam ruh olar" fikri bu gün elmi məntiqlə tam üst-üstə düşür. İnsan bədən sağlamlığına fikir verməsə, sağlam şəxsiyyətə malik olması da çətindir. Çünki bio-psixoloji araşdırmalar göstərir ki, bizim şəxsiyyətimizin parçalarını təşkil edən duyğu, düşüncə, rəftar, xasiyyət və hallarımız bədənimizdə gedən bioloji proseslərin nəticəsidir.

Bioloji sağlamlığın əsasını qidalanma təşkil edir. Amma çox az valideyn tapılar ki, övladının nə yeyib-içdiyini diqqətdə saxlayır, ələlxüsus da yeyinti məhsullarının son dərəcədə zərərli hala gəldiyi bir zamanda.

Salzmanın bu bölmədəki hekayələrini nəzərdən keçirsək, qeyd etdiyi problemləri bu cür qruplaşdıra bilərik:

I. Uşağa həddindən artıq qayğı göstərmək. Valideyn sevgisi ifrata çevrildikdə uşağın sağlamlığına zərər verə bilər. Məsələn, həddindən artıq isti otaq, uşağı daim bürümək və onu təbii şəraitdən uzaq saxlamaq orqanizmi zəiflədir.

II. Uşaqları təmiz havadan məhrum etmək. Təmiz hava uşağın sağlam inkişafı üçün həyati əhəmiyyət daşıyır. Rütubətli, havasız və çirkli otaqlar uşaqların xəstələnməsinə səbəb olur. Xəstəliklərin səbəbini xurafatda və ya taledə deyil, yanlış həyat şəraitində axtarmaq lazımdır. Valideyn ilk növbədə yaşadığı mühiti sağlam etməlidir.

III. Uşaqları yalnız yumşaq və ləziz yeməklərə alışdırmaq. Həddindən artıq ehtiyyatlı qidalanma uşağın sağlamlığını zəiflədə bilər. Valideynlər əsassız qorxularla uşağın təbii qidalanmasına mane olmamalıdırlar. Uşağın sağlamlığı bahalı və ləziz yeməklərdən deyil, təbii və balanslı qidalanmadan asılıdır.

IV. Uşağa lazımsız yerə çox dərman vermək. Hər narahatlıq dərman tələb etmir, bir çox problemlərin təbii müalicəsi var. Sağlam uşağı lazımsız müalicələrlə yükləmək ona faydadan çox zərər verər. Həkim seçərkən də peşəkarlığa və sağlam düşüncəyə etibar etmək lazımdır. Valideynlər belə məqamlarda qərarlarını təşviş içində yox, ağılla verməlidirlər.

V. Xəstə insanların uşağa qulluq etməsinə şərait yaratmaq. Uşağın baxıcısı və ya süd anası seçilərkən onun sağlamlığı da nəzərə alınmalıdır. Valideyn uşağın qayğısını başqasına həvalə edərkən məsuliyyəti də tamamilə üzərindən atmamalıdır.

Beləliklə, uşağın sağlamlığını təhlükəyə atan amillər valideyn sevgisinin özü yox, həmin sevginin yanlış formada təzahür etməsidir. İfrat qoruma, havasızlıq, yanlış qidalanma, lazımsız dərman istifadəsi və uşağın baxımında məsuliyyətsizlik onun fiziki inkişafına ciddi zərər verə bilər.

XXXVII BÖLMƏ
UŞAQLARI ŞİKƏST ETMƏYİN ƏN YAXŞI YOLLARINDAN BİRİ

Uşaqlara korset geyindirin!

Xanım fon Gentholm bir qız uşağı dünyaya gətirdi. Bu uşaq sanki bir gözəllik nümunəsi idi. Yumru və dolu sifəti, parlaq gözləri, al yanaqları, enli sinəsi və şam kimi düz qaməti onu digər uşaqlardan açıq-aşkar fərqləndirirdi.

Cənab fon Gentholm cəsur və nüfuzlu bir zadəgan idi. İlk baxışdan damarlarında qədim cəngavər qanının axdığı hiss olunurdu. O, qızını sonsuz məhəbbətlə sevirdi; onu öpür, qucağına alır, ona mahnı oxuyur, onunla oynayır və tez-tez deyirdi: "Bax görərsən, Luiza, sən bir gün Gentholm nəslinin şərəfinə çevriləcəksən". Xanım fon Gentholm isə qızında bir çox nöqsan görürdü. Əvvəla, qızın yanaqlarının sağlam qızartısı onun xoşuna gəlmirdi. Tez-tez deyirdi: "Kəndli qızına oxşayır". Ən çox narazı qaldığı isə uşağın belinin, onun fikrincə, həddindən artıq qalın olması idi.

Əri hərbi hissəyə yola düşən kimi o, guya Allahın yarımçıq qoyduğu işi "tamamlamağa" başladı. Hər şeydən əvvəl yaxşı bir korset hazırlatdı və balaca qıza hər gün həmin korseti geyindirib onu möhkəm-möhkəm sıxdı. Korset gətirilən kimi balaca Luiza onu görüb ağlayırdı. Onu geyinəndə ağrılardan şikayət edir, anasına yalvarırdı ki, korsetini tez çıxarsın. Ancaq ağıllı bir ana ağılsız bir uşağın nazı ilə oturub-durarmı?

Xanım fon Gentholm qızının "inadını" elə qırdı ki, Luiza getdikcə korsetin verdiyi bütün əzablara səbir etməyə alışdı. Hər səhər ona korset geyindiriləndə sakitcə dayanır, həm qabırğalarının sıxılmasına, həm də çiyinlərinin yuxarı qalxmasına səbəb olan bu korsetə dözürdü. Sərbəst nəfəs ala bilməməsinə və iştahasının kəsilməsinə də tab gətirirdi. Hətta anası ona dəhşətli olan bu göstərişi verəndə – bundan sonra korseti çıxarmadan yatmalı olduğunu deyəndə də bununla razılaşdı. Yazıq qız: "Axı o sənin anandır, ona itaət etməlisən", – deyə düşünürdü.

Bir neçə ildən sonra xanım fon Gentholm böyük məmnuniyyətlə gördü ki, Allahın balaca Luizada yaratdığı hər şeyi, demək olar ki, tamamilə dəyişdirə bilib. Luizanın sağlam və təravətli çöhrəsi solğun bir bənizə çevrilmişdi; bir çiyni və bir ombası o birindən hündür olmuşdu; vaxtilə şam kimi dümdüz olan belində isə əyrilik əmələ gəlmişdi. Xanım fon Gentholm bu cür "kiçik nöqsanları" kiçik yastıqlar, altlıqlar, ənlik və buna bənzər vasitələrlə ört-basdır etməyə çalışır, qızının "kəndli qızını xatırladan" al yanaqlarından və kobud hesab etdiyi belindən qurtulduğuna ürəkdən sevinirdi.

Bu vaxt cənab fon Gentholm iştirak etdiyi hərbi yürüşdən geri qayıtdı. O, qızı Luizanı yenidən qucaqlamaq həsrəti ilə alışıb-yanırdı. Malikanəsini görən kimi atını dördnala sürüb darvazadan içəri girdi. Qarşısına solğun üzlü, şikəst bədənli bir qız çıxdı.

– Xanım, – deyə həyəcanla soruşdu, – Luiza evdədir?

– Luiza mən özüməm, – deyə qız cavab verdi.

– Sən?.. Luiza?.. Mənim qızım?

– Siz... atamsınız?

Luiza qollarını atasına uzatdı. Cənab fon Gentholm atdan düşdü, qızını qucaqladı və hər ikisi ağladı. Luiza sevinc göz yaşları tökürdü, cənab fon Gentholm isə kədərdən ağlayırdı. Bir qədər sonra o, qəzəblə soruşdu:

– Anan haradadır?

– Uzaqda deyil, – deyə Luiza cavab verdi və onu anasının otağına apardı.

Xanım fon Gentholm ərini görən kimi qollarını açaraq ona tərəf qaçdı:

– Ah, əziz həyat yoldaşım!

Lakin cənab fon Gentholm soyuq şəkildə geri çəkildi və dedi:

– Bu nə deməkdir? Mənim Luizama nə etmisən? Mən gedəndə mələk kimi gözəl olan uşaq indi şikəst olub!

Xanım fon Gentholm özünü doğrultmaq üçün uzun-uzadı bəhanələr gətirdi. Lakin əri bunların heç birinə qulaq asmadı. Sadəcə, öpmək üçün üzünü laqeydliklə həyat yoldaşına uzatdı və yemək istədi.

Cənab fon Gentholm axşam, demək olar ki, heç danışmadı. Yorğun olduğuna görə tez yatdı. Ertəsi gün isə arvadı hələ oyanmamış atını yəhərlətdi, heç kimlə sağollaşmadan yenidən hərbi hissəyə qayıtdı və bir daha geri dönmədi.

Sonralar tez-tez Luiza və onun şikəstliyi haqqında danışılırdı. Belə söhbətlər açılanda Luiza acı təəssüf hissi ilə deyirdi: “Bütün bunlara görə sənə borcluyam, ana... və sənin korsetinə”.

"UŞAQLARI ŞİKƏST ETMƏYİN ƏN YAXŞI YOLLARINDAN BİRİ" BÖLMƏSİNƏ ŞƏRH

Salzman bu bölmədə təbii və sağlam insan bədəninin süni vasitələrlə sırf gözəllik naminə məhv edilməsindən danışır. Təbii gözəlliyə və sağlam cana malik Luzia anası tərəfindən gözəlliyin qurbanına çevrilir. Əslində, bu, gözəllik də deyil. Cəmiyyətin nəzərində formalaşdırılmış zövq meyarıdır. Əlbəttə ki, əsl gözəllik təbiilikdədir. İnsanın təbii halı onun ən yaxşı, ən ideal vəziyyətidir. Yaradan insanı gözəl yaratmışdır. Müqəddəs kitab Qurani-Kərimdə buyurulur: "Həqiqətən, Biz insanı ən gözəl surətdə yaratdıq".[67] İnsanı süni yollarla dəyişdirmək zərərli nəticələrə gətirib çıxarır. Necə ki hekayədə anasının zövqünə qurban gedən qız axırda sağlamlığından məhrum olur.

O dövrün süni gözəllik vasitələri korset kimi şeylər idisə, bu gün dəbdə olan estetik əməliyyatlardır. Belə əməliyyatların nə qədər insanı zərərə uğratdığına kifayət qədər şahid olmuşuq. Bundan istifadə etmək arzusunda olanlar başa düşməlidir ki, ola bilər, bu əməliyyat onları gözəlləşdirsin, amma sağlamlıqlarına dəyəcək zərər mütləqdir. Estetika naminə sağlamlığından keçmək isə ən yaxşı halda ağılsızlıq olar.

Hekayədə ana qızını sağlam yanaqlarına görə kəndli qızına oxşadır, enli bədənini qüsur kimi görür. Fəqət böyük şəxsiyyətlər insanın gözəlliyini daim onun təbiiliyində görmüşlər.

[67] Tin surəsi, 4-cü ayə

M.Füzulinin "Leyli və Məcnun" poemasında Leylinin gözəlliyini necə təsvir etdiyinə baxaq:

Çeşmi-siyəhinə sürmədən ar,
Hindusinə sürmə həm giriftar.

İzah: (Kirpiyinin öz təbii qaralığı o qədər gözəl idi ki) sürmə onun qara gözlərindən utanırdı və gözlərinə əsir olmuşdu.

Rüxsarinə rəngi-ğazədən nəng,
Hərgiz ona ğazə verməmiş rəng.

İzah: Üzünə yanaq boyası vurmaq ayıb olardı. Boya ona heç vaxt rəng verməmişdi (üzünün rəngi öz təbii rəngi idi).

Elə ona görə də:

Qeys onu görüb həlak oldu,
Min şövq ilə dərdnak oldu.

Valideynlər övladlarının sağlamlığını estetikadan üstün tutmalı və onlara da bu baxışı aşılamalıdırlar.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Baxışova, Ş. (2021). Məktəbəqədər təhsildə inkişafetdirici təlim. Bakı: ADPU nəşriyyatı, 289 s.
2. Behişti, M. (2024). Təlim-tərbiyədə azadlıq. Bakı: İrşad Nəşriyyatı, 184 s.
3. Hüseynzadə, R.L. (2016). Ailə pedaqogikası. Dərslik, Bakı: ADPU, 340 s.
4. Hüseynzadə, R. L., (2021). Pedaqogika (Dərslik). Bakı: Mütərcim, 2021, 488 s.
5. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı: ADPU, 2020, 538 s.
6. Hüseynzadə R.L. Yer üzünün ən şərəfli peşəsi- müəllimlik. Metodik vəsait. Bakı: Müəllim, 2026, 400 s.
7. Montessori, M. (2024). Uşaqlığın sirri. Bakı: MONO nəşriyyatı, 288 s.
8. Nəsimi, İ. (2004). Seçilmiş əsərləri (İki cilddə, II cild). Bakı: Lider nəşriyyat, 376 s.
9. Nəvvab, M. M. (2005). Nəsihətnamə. Bakı: Araz nəşriyyatı, 56 s.
10. Nizami Gəncəvi. (2004). Lirika. Bakı: Lider nəşriyyat, 160 s.
11. Uşaq inkişaf metodikası. (2011). Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu. Bakı: Qanun Nəşriyyatı, 572 s.

İngilis dilində:

10. Campos, J. J., & Stenberg, C. R. (1981). Perception, Appraisal, and Emotion: The Onset of Social Referencing. In M. Lewis & L. A. Rosenblum (Eds.), The Development of Affect, pp. 273–314.

11. Dweck, C. S., & Mueller, C. M. (1998). Praise for intelligence can undermine children's motivation and performance. Journal of Personality and Social Psychology, 75(1), 33–52.

12. Fredrickson, B. L. (2001). The Role of Positive Emotions in Positive Psychology: The Broaden-and-Build Theory of Positive Emotions. American Psychologist, 56(3), 218–226.

13. Guimarães, D., & Dickie, J. R. (2026). Parent-Child Relationships and Children's Images of God. Journal of Development and Religion, 14(2), 112–128.

14. Leichtman, M. D., & Ceci, S. J. (1995). The Effects of Stereotypes and Suggestions on Preschoolers' Reports. Developmental Psychology, 31(4), 568–578.

15. Lepper, M. R., Greene, D., & Nisbett, R. E. (1973). Undermining Children's Intrinsic Interest with Extrinsic Reward. Journal of Personality and Social Psychology, 28(1), 129–137.

16. Mischel, W., & Ebbesen, E. B. (1970). Cognitive and attentional mechanisms in delay of gratification. Journal of Personality and Social Psychology, 16(2), 329–337.

17. Montessori, M. (1967). The Discovery of the Child. New York: Ballantine Books.

18. Nelsen, J. Positive Discipline.

19. Piaget, J. (1970). Genetic epistemology. New York: Columbia University Press.

20. Russell, B. (1930). The Conquest of Happiness. London: George Allen & Unwin.

21. Siegel, D. J., & Bryson, T. P. (2011). The Whole-Brain Child: 12 Revolutionary Strategies to Nurture Your Child's Developing Mind. New York: Delacorte Press.

22. Tronick, E. Z., Als, H., Adamson, L., Wise, S., & Brazelton, T. B. (1978). The infant's response to entrapment between contradictory messages in face-to-face interaction. Journal of the American Academy of Child Psychiatry, 17(1), 1–13.

23. Vygotsky, L. S. (1978). Mind in society: The development of higher psychological processes. Cambridge: Harvard University Press.

24. Watson, J. B., & Rayner, R. (1920). Conditioned Emotional Reactions. Journal of Experimental Psychology, 3(1), 1–14.

Türk dilində:

25. Güneş, A. (2022). Çocuk neyi neden yapar? – 2 (çocukların davranışlarını anlama rehberi). İstanbul: Timaş Yayınları.

26. Montessori, M. (2026). Çocuk eğitimi "Montessori metodu" (Çev. Güler Yücel). İstanbul: Özgür Yayınları, 5. Basım.

Rüfət Hüseynzadə, Muxtar Muradov

ÖVLADINIZI YANLIŞ TƏRBİYƏ EDİRSİNİZ!

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Ülviyyə İsrafilova

Yığılmağa verilmişdir: 29.07.2026
Çapa imzalanmışdır: 18.08.2026
Format: 60×84 1/16; şərti çap vərəqi 16,75
Sifariş № 579; tiraj 100 nüsxə
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com